*Məhəmmədrza Həmidi*

# DİNLƏRİN
## YARANMA MƏNŞƏYİ

بسم الله الرحمن الرحيم

**BİSMİLLAHİR-**
**RƏHMANİR-**
**RƏHİM**

**Kitabın adı: Dinlərin yaranma mənşəyi**
**Müəllif: Məhəmmədrza Həmidi**

**Tərcümə edən: Mərdan Zalov**
**Ədəbi redaktor: Seyid Azər Əhmədoğlu**

*Azərbaycan Respublikası Dini Qurumlar İş Üzrə Dövlət Komitəsi DK 477/Y. saylı 26 avqust 2013-cü il tarixli məktubu ilə kitabın çap olunmasına razılıq verilmişdir.*

***Kitabın çap hüquqları qorunur***

## *Ön söz*

İllər öncə ilk dəfə olaraq "Qum elmi hövzəsi"ndə əksər tələbələrin iştirak etdiyi "Etiqad və dinlər" adlı dərsə başladım. Həmin dərsləri cümə axşamı və cümə günlərində tədris edirdim və təqribən, otuz ilə qədər davam etdi. "Afəridegare cahan" (Dünyanın yaradıcısı), "Xuda ra çequne beşenasim?" (Allahı necə tanıyaq?), "Rəhbərane bozorg" (Böyük rəhbərlər), "Axərin fərziyyehaye təkamol" (Sonuncu təkamül fərziyyələri) və digər kitablar bu bəhslərin səmərəsi olmuşdur. Dərslərdə iştirak edən bir sıra istedadlı tələbə və dostların sayəsində "Əqayed və məzahib" (Etiqad və dinlər) adlı kitab qələmə alınaraq çap edildi.

Bu bəhslərin dini hövzə və universitetlərdə müxtəlif səviyyədə əhəmiyyət daşıması və müsəlmanların etiqadi və ideoloji mənbələrinə istismarçı hücumların günbəgün artması belə dərslərin Allahın yardımı ilə daha da geniş şəkildə həyata keçirilməsinə səbəb olmuşdu. Belə bəhslərə rabitə və informasiya vasitələrinin geniş və sürətlə yayılmış olduğu əsrimizdə yaşayan insanların yanaşma tərzi də əhəmiyyət kəsb edir. Zəmanəmizdə etiqadla bağlı aparılan müharibələr hərbi müharibələrdən daha geniş şəkildə həyata keçirilir, eyni

zamanda, kütləvi informasiya vasitələri ilə təchiz edilmə həmin müharibəni daha da sürətləndirərək ona yardımçı olur. Hansısa bir müsabiqəni belə vasitələr sayəsində milyonlarla insanın eyni anda müşahidə edə bilməsi, dünyada nəşr olunan müəyyən bir jurnalın bütün qitələrə kütləvi informasiyanın yardımı ilə asanlıqla yayılması məsələnin hansı dərəcədə əhəmiyyət daşıdığını göstərir.

Əgər biz hər gün min nəfərlik bir tamaşaçı və ya dinləyicini nəzərdə tutaraq hansısa bir proqramı istifadəçilərin ixtiyarına qoysaq, həmin proqram tarix boyu bütün müddəti özünə həsr və insanları məşğul edə bilər.

Aydın məsələdir ki, ideoloji müharibədə siyasi və hərbi sahələrdə olduğu kimi, geniş məlumat, qüvvətli məntiq və daha çox informasiyadan yararlana bilənlər qalib gələcəklər. “Üsuli-fiqh”, “Təfsir”, “Fəlsəfə”, “Ərəb qrammatikası” sahəsində mütəxəssis olan bəzi şəxslərin “din və etiqadlar”la bağlı bəhslərdə kifayət qədər geniş informasiya və təcrübəyə malik olmadan elmi münazirə və dialoqlar apara biləcəklərini güman etməsi səhv və yalnış fikirdir. Əksinə, belə bəhslərə daxil ola bilmək üçün müxtəlif din rəhbərlərinin qələmə aldığı ən son və yeni əsərlərlə də tanış olmaq zəruri və qaçılmazdır. Əqidəvi bəhsləri “Üsulid-din” (dinin əsasları) və fiqhi bəhsləri “Füruid-din” (dinin fərdi məsələləri) hesab etməyimizə baxmayaraq, bəziləri sadəcə “Füruid-din”dən yapışır və “Üsulid-din”dən danışmağa əhəmiyyət belə vermirlər. Dinin fərdi məsələlərini elm və tədqiqat sahələrində müzakirə etməyin zəruri olmasına baxmayaraq, “Üsulid-din”i də unutmaq olmaz. Əgər Quran ayələrinə diqqət yetirsək, “Üsulid-din”lə bağlı olan ayələrin “Füruid-

din"lə bağlı ayələrdən qat-qat çox olduğunu müşahidə edərik. Təkcə başlanğıc və məad, eyni zamanda, onlarla rabitəyə malik olan məsələlər haqqında haradasa, üç min ayənin olduğunu, amma əhkam və şəri hökmlərlə bağlı isə beş yüz ayənin olmasını deyə bilərik.

"Üsulid-din"dən xəbərsiz olmaq nahiyəsindən dəyə biləcək xətər həddən artıq ağır və sağalmazdır. Həmin səbəbdən, bu bəhsləri fiqhi məsələlərlə yanaşı həyata keçirmək lazımdır.

## *Bəhsin başlanğıc nöqtəsi*

Bu zəminədə digər məsələlərdən ən önəmli olaraq ilkin sırada yer tutmaq əvəzinə, arxa planda yerləşdirilən və diqqətdən qaçırılan əhəmiyyətli məsələ "dinlərə meyil" və "dinlərin insan həyatındakı təsir və rolu" bəhsidir. Yəni, bir tərəfdən hansı amilin dinə diqqət yetirməyə səbəb olmasını, digər tərəfdən də, onun bəşərin həyatındakı təsirini öyrənmək lazımdır. Qeyd etdiyimiz iki məsələ bizim etiqad və əqidə kitablarımızda çox az miqdarda yer tutmasına baxmayaraq, günümüzdə sosioloq, psixoloq, filosof və tarixçilər, hətta iqtisadiyyat alimləri arasında daha geniş şəkildə araşdırılmağa başlamışdır. Bu məsələlərin bizim mərifət və elmimizi artırmaqda yardımçı olmasını nəzərə alaraq, həmin zəminədə mövcud olan bütün fərziyyə və nəzəriyyələri nəzərdən keçirməyimiz zəruridir. Ümumiyyətlə, dinlərə meyil və maraqla bağlı əsas fərziyyə və nəzəriyyələri on adda xülasələşdirmək mümkündür və onların bəziləri əxlaqi və ictimai, bəziləri iqtisadi, bəziləri də ideoloji və əqli yönlərə malikdirlər:

1. İqtisadi istismar amilləri.

2. İstismarazidd iqtisadi amillər.
3. Əxlaqi və ictimai ehtiyaclar.
4. Təbiət sirlərindən xəbərsizlik və cahillik.
5. Qorxulu və dəhşətli təbii amillərdən qorxu.
6. Cinsi amillər.
7. Ruhun varlığına etiqad.
8. Bəxt və şansa etiqad.
9. İnsan fitrəti və onun zati və daxili cazibəsi (hissi idrak).
10. Yaradılış sistemi və varlıq aləminin sirləri barədə araşdırmalar.

Aydın məsələdir ki, birinci və ikinci amillər siyasi və iqtisadi, üçüncü amil ictimai, dördüncü amil ideoloji, beşinci və altıncı amil psixoloji, yeddinci amil fəlsəfi, səkkizinci amil xürafi (xürafat), doqquzuncu amil elmi və fəlsəfi, onuncu amil isə psixoloji yönə malikdir.

Hazırda yuxarıdakı nəzəriyyələrin hər biri ilə bağlı bəhsə başlayırıq. Onları araşdırmağa başlamazdan öncə, günümüzdə sosioloqların bütün bəşər cəmiyyətinin istisna olmadan müəyyən növ dinə malik olmasını söylədiyini sizin diqqətinizə çatdırmaq istəyirik. Samuel King adlı məşhur Qərb sosioloqu özünün sosiologiya kitabında belə yazır: “Bütün bəşər cəmiyyəti hansısa bir dinə malik olmuşdur. İlkin dünya səyyahları, təbliğçi və irqlərin öyrənilməsi ilə məşğil olanlar bəzi tayfa və qəbilələrin dinə malik olmaması barədə məlumat versələr də, sonradan onların verdiyi məlumatların heç bir mənbəyə əsaslanmadığı və verdiyi hökmün də yanlışlığı, həmçinin, öz gümanlarına etimad edərək belə söylədikləri aydın olmuşdur. Bu tayfaların dinlərinin bizim dinimizə bənzəməsi də mümkündür…”

Sosioloq alimlər bu mövzunu diqqətlə araşdıraraq belə bir məsələ ilə qarşılaşmışlar ki, əslində din hesab olunan etiqad və adət-ənənəyə malik olmadan həyat sürən hansısa bir qəbilə və tayfa mövcud olmamışdır.

Hazırda dünyanın hər bir yerində dinin mövcud olması ilə yanaşı, aparılan dəqiq araşdırmalar da ilkin tayfa və qəbilələrin bir növ dinə malik olmasını sübuta yetirmişdir.[1]

Məşhur və müasir tarixçi Vil Drantın da bu zəminədə müəyyən qeydləri vardır. O, bəzi ilkin qəbilələrin etiqad və dininin olmamasını nəql etdikdən sonra, Allah və dinlə bağlı belə deyir: "Bununla belə, bura qədər söylədiklərimiz nadir hallardandır. Dinin bir mövzu olaraq bütün bəşər fərdlərinə şamil olduğu haqdakı qədim etiqad həqiqətlə uyğunluq təşkil edir. Bu məsələ şəxsən filosofların tarixi və psixoloji hadisələrdən əldə etdiyi nəticələrdən hesab olunur… Həçminin, həmin məsələni tarixin qədim zamanlarından bəşərlə birlikdə olmasına da diqqət yetirmək lazımdır."[2]

Dinin qədim zamanlardan insanla birgə olmasını qəbul etsək də, hazırkı dünyada onun həqiqiliyi təsdiq edilmir, çünki kommunist qrupların çoxu materialist və ateistdirlər (dinsizdirlər).

1. Yalnış təsəvvürlərin əksinə olaraq, qeyd etməliyik ki, kommunist ölkələrdə yaşayan insanların hamısı kommunist deyillər. Əksinə, onların hökuməti kommunistdir. Məsələn, Rusiyadakı (keçmiş SSRİ-dəki) kommunist partiyasının üzvləri bir neçə milyon nəfərdən artıq deyil. Amma orada yaşayan əhalinin sayı iki yüz

---

*1. "Kingin sosiologiyası" (Cameeşenasiye King), səh. 191-192.*

*2. Vil Drant, "Sivilizasiyalar tarixi" (Tarixe təməddön), c.1, səh. 88.*

milyon nəfərdən çoxdur və indiyə qədər də orada dinə etiqadı olanlar vardır.

2. Bu ölkələrdə insanların dinə qarşı düşüncələrini dəyişmək üçün kütləvi informasiya vasitələri ilə aparılan təbliğatları həqiqətlərlə müqayisə etmək heç zaman düzgün deyil. Əgər həmin insanlara təzyiqlər göstərilmədiyi zaman heç bir dini seçməsəydilər, onda, həmin məsələyə istinad etmək olardı (halbuki, bunun əksi müşahidə olunur).

3. Onların leninist və marksist məktəb və partiyasının prinsip və əsasnaməsi ilə rabitəyə malik olan rəhbərləri arasındakı müamiləsi heç də din rəhbərlərinin səmavi rəhbər və qanunlara nisbətdəki rəftarlarına bənzəməmiş deyil. Məsələn, onlar kommunist məktəbini ən kamil məktəb hesab edir və onun üsul və metodları barəsində hansısa bir fikir dəyişikliyi etməyi qeyri-düzgün sayır, hətta dinlərdə istifadə olunan "əbədi metodlar", "bidət və nəzər dəyişikliyinin haram olması", "dini mürtədlər" və bunun kimi məfhumları eynilə işlədirlər. Nəticədə, onların da müəyyən bir dinə – şəxsiyyətə pərəstiş etmək kimi bir dinə – sahib olduğunu söyləmək mümkündür.

Beləliklə, keçmiş SSRİ-nin dağılması ilə insanların dinə meyil etməsi həddən artıq və təəccüblü şəkildə artmağa başlamışdı. SSRİ-nin yetmiş il ərzində dinə zidd olaraq təbliğat aparması heç bir fayda verməyərək puç oldu. Belə kommunistlərdə dövlət və hakim təbəqənin dinin əleyhinə olmasına baxmayaraq, dinə maraq və meyil hazırda həddən artıq çoxdur.

# 1

# İQTİSADİ AMİLLƏR FƏRZİYYƏSİ



“Dinlərə meyil və maraq”la bağlı ilkin fərziyyə olaraq işarə etdiyimiz və əhəmiyyətinə əsasən, digər fərziyyələrdən öndə yer verdiyimiz məsələ dinlərin (yaranma) mənbəyinin iqtisadi istismar amilləri kimi göstərilməsidir. Bu fərziyyənin tərəfdarları insan cəmiyyətinə xüsusi prizmadan yanaşan və tarixin hərəkət vericisini (mühərrikini) istehsal maşınları şəklində düşünən və siyasət, mədəniyyət, elm, fəlsəfə və hətta “din” kimi ümumilikdə ictimai fenomenlər sayılan məsələlərin həmin mövzudan doğduğu etiqadına malik olan kəslərdir. Onlar bu əqidədədirlər ki, insan cəmiyyətindəki istismarçı təbəqələr istismar edilən kütlələrin müqavimətini aradan qaldırmaq və süstləşdirmək üçün dini meydana gətirmişlər.

Onlar dinin istismar məsələsi və insan kütlələrinin süstləşdirilməsi ilə rabitəsini sübuta yetirmək üçün bəzən bir sıra dinlərlə bağlı mövcud olan xurafatlara istinad edir, bəzən də dinlə əlaqədar məfhumları təhrif edərək öz hədəfləri üçün dəlil gətirirlər. Məsələn, istismarçı təbəqənin dini ixtira edərək onun sayəsində “qəza və qədər” məsələsini yaratdığını və insan qruplarını “sizin taleyiniz əvvəlcədən təyin olunmuş və dəyişdirilməsi də mümkün deyildir” ünvanı ilə təslim olmağa vadar etdiyini və ya “zöhd və dünyaya

etinasızlıq", "maddi dünyanın iylənmiş leş (murdar) olduğu" və "rahiblik" məsələsini ortaya ataraq onları həqiqi yaşayış məsələlərindən kənarlaşdırdığını, yaxud da "təvəkkül" və " maddi vasitələr"dən əlini üzmək, həmçinin, hadisələr müqabilində "səbir və təslim olmaq" kimi şeyləri meydana çıxararaq onlarda səy və təlaşı (fəaliyyəti) aradan qaldırmağa çalışdıqlarını deyirlər.

Bu cəhətdən, onlar "din"i məşəqqətə düçar olmuş kütlələr üçün sakitləşdirici tiryək və geniş cəmiyyət kütləsinin dağıdıcı amili hesab edirlər.

Lenin "Sosializm və din" adlı kitabındakı məşhur cümləsində belə deyir:

*"Din cəmiyyət üçün tiryəkdir."*

Həmçinin, bu cəhətdən onlar cəmiyyətin dini düşüncələrin daha çox inkişafı səbəbilə məğlubiyyət, dağılma və geriləməyə düçar olması və bu mövqedə xatircəm olmaq, narahatçılıq və məğlubiyyətdən nicat tapmaq üçün psixoloji baxımdan süstləşdirici təsirə malik olan dinə üz tutması etiqadındadırlar. Misal olaraq, doktor Araninin "İrfan və maddi üsullar" adlı kitabındakı bəhsi xülasə şəkildə nəzərinizə çatdırırıq:

*"Həmişə sənaye və iqtisadiyyatın inkişaf və zəif təbəqənin müvəffəqiyyətə ümid etdiyi ölkələrdə irfani və dini düşüncələr ortadan qaldırılmış və onun yerini materialist düşüncələr tutmuş, amma mədəniyyətin zəiflədiyi və iqtisadi böhranla üzləşildiyi zamanlarda məzhəblər (dinlər) və metafizik fəlsəfənin bazarı bol olmağa (geniş yayılmağa) başlamışdır."*

Amma "dinin istismarazidd amil olması" adlı ikinci fərziyyəninin şərhində görəcəyik ki, onlar dinin keçmiş və müasir tarixdəki siyasət, iqtisadiyyat, hərbi və müxtəlif sahələrdə qələbələri ilə bağlı müsbət təsirlərini

inkar edə bilmədiklərindən, məcburən bu cür təfsirdən üz çevirərək bir sıra dinlərin istismarazidd olduğunu bildirmişlər. Onun şərhini Allahın izni ilə gələn bəhslərdə verəcəyik.

## *Birinci fərziyyənin araşdırılması*

Hazırda bu fərziyyə ilə bağlı bəhs və araşdırmağa başlayırıq. Bütün bəhs boyu diqqət olunacaq ilkin məsələ bundan ibarətdir ki, dinlərin hamısını bir sırada tutmaq, bir cür hökm çıxarmaq və ya onlar üçün ümumi qaydalar təyin etmək olmaz. Əksinə, istismarın yaratdığı və xurafatçı dinləri həqiqi və əsil dinlərdən ayırmaq lazımdır. Biz istismarçı dinlərin süstləşdirici yönlərə malik olması və onların insan kütlələri üçün tiryək və narkotik maddə hesab olunmasını heç vaxt inkar edə bilmərik. Yəni, bu mətləb o qədər aydındır ki, onu inkar etmək olmaz. Amma bütövlükdə, məsələ burasındadır ki, görəsən, yuxarıda deyilənlər bütün dinlər üçün yeganə bir təməl və bünövrə sayıla bilərmi?

Bu mətləbin izahı üçün həmin fərziyyə tərafdarlarının öz müddəaları ilə bağlı dəlil gətirdikləri xüsusi məfhumları bircə-bircə araşdırmaq və onları aşağıdakı kimi on beş adda xülasələşdirmək məcburiyyətindəyik:

1. Qəza və qədər, tale, nəsib olan və qismət
2. Zöhd (zahidlik) və dünyaya etinasızlıq
3. Mal və sərvətin məzəmmət olunması
4. Fəqirliyin mədh edilməsi
5. Rahiblik və tərki-dünyalıq
6. Xoşagəlməz hadisələr qarşısında səbir və dözümlülük
7. Təqiyyə

8. Duaya istinad etmək
9. Böyük bir islahatçının zühuru intizarında olmaq
10. Qənaət
11. Təvəkkül
12. Razılıq
13. Təslim
14. Əzadarlıq mərasimləri
15. Şəfaət

## *1. Qəza, qədər və tale*

Şübhəsiz ki, "qəza və qədər" adlı məsələ dini mənbələrdə qeyd edilmişdir. Amma bəhsimiz bu iki sözün təfsiri (izahı) ilə bağlıdır. Sadə və avam camaatın hamısı bu iki sözü belə təfsir edir:

*"Hər bir kəsin taleyi onun xəbər və iştirakı olmadan elə ilk gündən Allah tərəfindən təyin olunmuşdur. Nəticədə, hər kəs müəyyən olunmuş bir tale ilə dünyaya gəlir və onun dəyişdirilməsi mümkün deyil. Hər bir insanın nəsibi və qisməti vardır və məcburən – onun istəyib-istəməməsindən asılı olmayaraq – ona çatasıdır. Taleyin, qəza və qədər, nəsib və qismətin dəyişdirilməsi ilə bağlı edilən səy və təlaşlar faydasız, bihudə və Allahın iradəsi (istəyi) ilə mübarizə aparmaqdır..."*

Əgər "qəza və qədər"i bu cür izah etsək, onun süstləşdirici yönü inkar edilməzdir, çünki belə izah bizə əgər bir gün "qaniçən Bəni-Üməyyə" və ya "qarətçi Bəni-Abbas" kimi şəxslər və yaxud "Monqol ordusu" həmlə edər və bizə qalib olarsa, onlara təslim olmağımızı və bunun ilahi qəza və qədər olduğunu öyrədir.

Amma islami mənbələrin araşdırılması belə təfsirin İslam tərəfindən şiddətlə pisləndiyini nişan verir və onun qəbul edilməsi "vəzifə", "cihad", "səy və təlaş",

"davamiyyət", "mükafat və cəza", "cənənət" və "cəhənnəm", "haqq-hesab" kimi aşkar və aydın olan bir sıra islami məfhumları sual altında qoyur və geridə onlar üçün heç bir məna qalmır. Həqiqətin aydın olması üçün bu iki sözün əsil İslam mənbələrindəki düzgün təfsirini araşdırmaq zəruridir:

### *Qəza və qədərin ilkin (birinci) mənası*

"Qəza" əslində "hökm" və "fərman", "qədər" isə "ölçü" mənasındadır və elə bu mənada da islami mənbələrdə qeyd edilmişdir. Lakin bəzi vaxtlarda qəza və qədər "təkvini hökmlər" və "yaradılış dünyası", bəzən də "vəzifə və təşrii hökmlər" zəminəsində istifadə edilir. Təkvini qəza və qədərdə məqsəd budur ki, hər bir hadisə, fenomen və aləmdəki hər bir canlının səbəb və ölçüsü (mizanı) vardır. Nə səbəbsiz heç bir şey yaranmır, nə də ölçüsüz bir şey müəyyən edilmir.

Fərz edin ki, daş atırıq və bir şüşə sınır. Şüşənin sınması bir hadisədir və hökmən, səbəbi vardır. Səbəbinin olduğunu deməyimiz "təkvini qəzadır." Şübhəsiz, sınmanın ölçüsü, onun hədd və hüdudu daşın böyük və kiçikliyi, əlin qüvvə və təzyiqi, fasilənin yaxın və uzaq olması, küləyin əsib-əsməməsi kimi məsələlərə bağlıdır. Yuxarıdakı hadisənin səbəbin keyfiyyəti ilə əlaqəsi həmin "təkvini qədərdir. "

Beləliklə, xülasə olaraq qəza və qədərin bir mənası səbəb qanunu ilə səbəb və nəticənin xüsusi nizamını rəsmi olaraq tanımaqdan ibarətdir.

Aydındır ki, təkvin aləmində hökm və fərman hansısa bir mövzunu yerinə yetirməkdir, istər həmin iş vasitəsiz (bil-mübaşirəh) həyata keçsin, istərsə də, vasitə ilə (bit-təsbib). Nəticədə, ilahi qəza Allahın əmri ilə

varlıq aləmində baş verən bütün işlərdir, istər vasitəsiz olsun, istərsə də, səbəb və nəticə nizamından istifadə etməklə. İlahi qədər bu hadisələrin təkvin aləmində ölçü və mizana malik olmasıdır (ölçülməsidir).

Deməli, bir ata və ananın nütfəsindən (spermasından) övladın dünyaya gəlməsi ilahi qəza hesab edilir, halbuki, dünyaya gəlmə anı və onun keyfiyyəti və uşağın xüsusiyyətləri ilahi qədərdir.

Quran ayələrində də qəza və qədər dəfələrlə bu mənada qeyd olunmuşdur:

فَقَضَاهُنَّ سَبْعَ سَمَاوَاتٍ فِي يَوْمَيْنِ

*«Beləliklə, onları iki gündə (yaxud iki mərhələdə) yeddi göy olaraq yaratdı.»*[1]

Bu ayəyə uyğun olaraq, çoxlu sayda göylərin yaradılması ilahi qəzadır. Digər ayələrdə belə oxuyuruq:

وَإِذَا قَضَى أَمْراً فَإِنَّمَا يَقُولُ لَهُ كُن فَيَكُونُ

*«Bir şeyin vücuda gəlməsi əmrini verəndə, ona yalnız "ol!" deyər, (həmin şey də) dərhal olar (Bir şeyi istədiyi zaman həmin şey dərhal vücuda gələr).*[2]*»*

Qəza ayədə "əmr" və "qul" **(قول)** ifadəsi şəklində qeyd olunmuşdur ki, xilqət və yaradılış fərmanı, həmçinin, səbəb və nəticə nizamından başqa, bir şey deyildir.

Qədər barəsində Allah-taala belə buyurur:

*1. "Fussilət" surəsi, ayə 12.*

*2. "Bəqərə" surəsi, ayə 117; "Ali-İmran" surəsi, ayə 47; "Məryəm" surəsi, ayə 35.*

وَاللَّهُ يُقَدِّرُ اللَّيْلَ وَالنَّهَارَ

*«Gecəni və gündüzü (yerin günəş ətrafında hərəkətini tənzimləməklə) ölçüyə salan Allahdır. [1]»*

وَالْقَمَرَ قَدَّرْنَاهُ مَنَازِلَ

*«Bütöv halda olan ay üçün də mənzillər təyin etdik [2]»*

Qədərin bu ayələrdə gecə və gündüz və ya ayın hərəkətinin ölçülməsi barədə olmasını xatırlatmağa ehtiyac yoxdur.

Beləliklə, "təkvini qəza və qədər"ə inam elə səbəb qanunları, səbəb və nəticə nizamı silsiləsi və onların hədd, keyfiyyət və kəmiyyətinə inamdır və iki mətləbə şamildir:

Birincisi, aləmdə heç bir hadisənin səbəbsiz olmadığı və hətta hadisənin miqdar və keyfiyyətinin onun səbəbinin miqdar və keyfiyyətinə bağlı olmasını bilməliyik. İkincisi, bütün varlıqların mənbəyi, məxluqat və fenomenlərin səbəblərinin səbəbi Allahdır və hamı onun vücudundan qaynaqlanır.

Görəsən, qəza və qədərə bu mənada inamın süstlüklə bağlı təsiri ola bilərmi, yoxsa, əksinə bu həqiqətə etiqad insanı həyatın müxtəlif məsələləri istiqamətində təlaş və hadisələrin həqiqi səbəblərinə yol tapmaq üçün səy göstərməyə və həqiqi səbəb və nəticə nizamı ilə daha çox tanış olmağa və "şans", "bəxt və tale" və "təsadüf" kimi xurafatlardan çəkinməyə vadar edir? Yuxarıdakı mənada olan və Quran ayələrinə əsaslanan qəza və qədərə inam hərəkət və fəaliyyətin qaynaq və mənbəyidir, çünki

---

*1. «Muzzəmmil» surəsi, ayə 20.*

*2. «Yasin» surəsi, ayə 39.*

hərəkət və fəaliyyət hadisələrin həqiqi səbəblərindən istifadə və onların nəticələrinin araşdırılmasından başqa, bir şey deyildir. Bu, eynilə dinlərə meyil və maraqla bağlı birinci fərziyyənin işarə etdiyinin əksinədir.

### *Qəza və qədərin ikinci mənası*

İkinci məna qəza və qədərin təşrii olmasıdır və o, insanların fərdi və ictimai vəzifələri və həmin vəzifələrin miqdar və hüdudlarının təyin olunmasında "ilahi fərman" mənasındadır. Məsələn, namazın vacib olduğunu dedikdə, bu, ilahi bir fərman və təşrii qəzadır. Daha sonra hər gecə-gündüz namazlarının miqdarının on yeddi rükət olduğunu dedikdə, bu, ilahi və təşrii qədərdir. Deyirik ki, zəkat və ehtiyaclıların haqlarını ödəmək vacibdir və bu, ilahi qəzadır. Sonra onun miqdarının bəzən on faiz, bəzən beş faiz, bəzən də iki tam ondabeş faiz olduğunu deyirik ki, bu, qədərdir. Quranda qəza və qədər ikinci mənada da qeyd edilmişdir. Allah buyurur:

وَمَا كَانَ لِمُؤْمِنٍ وَلَا مُؤْمِنَةٍ إِذَا قَضَى اللَّهُ وَرَسُولُهُ أَمْرًا أَن يَكُونَ لَهُمُ الْخِيَرَةُ مِنْ أَمْرِهِمْ

*"Heç bir mömin kişi və mömin̈ə qadına yaraşmaz və şərən caiz və əqlən rəva deyildir ki, Allah və onun Rəsulu (onların barəsində) bir fərman verdikdə, onlar öz işlərində ixtiyar sahibi olsunlar."*[1]

Yenə də buyurur:

وَقَضَى رَبُّكَ أَلاَّ تَعْبُدُواْ إِلاَّ إِيَّاهُ وَبِالْوَالِدَيْنِ إِحْسَانًا

*"Rəbbin ondan başqasına ibadət etməməyinizi və ata-*

1. *«Əhzab» surəsi, ayə 36.*

*anaya (öz valideynlərinizə) yaxşılıq etməyinizi qəti hökm etdi."*[1]

Qədərlə bağlı belə buyurur:

قَدْ جَعَلَ اللَّهُ لِكُلِّ شَيْءٍ قَدْرًا

"Həqiqətən, Allah (varlıq aləmində mahiyyət, kəmiyyət, keyfiyyət, varlıq əlamətləri, ömür müddəti baxımından) hər bir şey üçün müəyyən bir ölçü qoymuşdur."[2]

Əlbəttə, bu, ayənin təfsirlərindən biridir və digər təfsirlərə əsasən, "qədər"də məqsəd təkvini qədərdir. Görəsən, insanın hər bir işinin göstəriş və əmrlərə uyğun olması, hətta onun keyfiyyət, miqdar və ölçüsünün plana əsasən həyata keçirilməsi həqiqətinə inam və etiqad süstləşdirici yönə malik ola bilərmi?

Yoxsa, əksinə öncül və qalib bir cəmiyyət özünün bütün işlərində bu mənadakı qəza və qədərə riayət etmiş olan, yəni həmişə göstəriş və əmrlər, həmçinin, plana tabe olan cəmiyyətdirmi? Maraqlı burasındadır ki, mötəbər hədis mənbələrində həzrət Əlidən (ə) nəql edilən məşhur hədisdə qəza və qədər aşkarcasına ikinci mənada təfsir edilmiş və cəbrilərin dediyi və bəzi avam camaat arasında məşhur olan xurafatçı məna pislənmişdir. Hədisin ərəbcə mətni belədir:

لمّا انْصَرَفَ عَلِيٌّ عليه السلام مِنْ صِفّينٍ فَإِنَّهُ قَامَ إِلَيْهِ شَيْخٌ، فَقَالَ: أَخْبِرْنَا يَا أَمِيرَ المُؤمِنِينَ عَنْ مَسِيرِنَا إِلَى الشَّامِ أَكَانَ بِقَضَاءِ اللّهِ تَعَالَى وَ قَدَرِهِ؟ فَقَالَ أَمِيرُ الْمُؤمِنِينَ عليه السلام وَ الَّذِى فَلَقَ الحَبَّةَ وَ بَرِءَ النَسمَةَ مَا

*1. «İsra» surəsi, ayə 23.*

*2. «Talaq» surəsi, ayə 3.*

وَطَأنَا مَوْطِئاً وَ لَاهَبَطْنَا وَادِياً وَ لَاعَلَوْنَا قَلْعَةً إلّابِقَضَائِهِ وَ قَدَرِهِ. فَقَالَ لَهُ الشَّيْخُ عِنْدَ اللّهَ احتسَبَ عَنَائِي، مَا ارائِي مِنَ الأجْر شَيْئاً. فَقَالَ لَهُ مَهْ! أيُّهَا الشَّيْخُ بَلْ عَظَّمَ اللّه أَجْرَكُمْ فِي مَسِيرِكُمْ وَ أَنْتُم سَائِرُونَ، وَ فِي مُنْصَرَفَكُمْ وَ أَنْتُمْ مَنْصَرِفُونَ، وَ لَمْ تَكُونُوا فِي شَيءٍ مِنْ حَالَاتِكُمْ وَ لَاإلَيْهَا مُضْطَرِّينَ، فَقَالَ الشَيْخُ: كَيْفَ وَ القَضَاء و القدر سَاقَانَا؟! فَقَالَ: وَيْحَكَ لَعَلَّكَ ظَنَنْتَ قَضَاءً لَازِماً وَ قَدَرَاً حَتْماً لَوْ كَانَ كَذَلِكَ لَبَطَلَ الثَّوَابُ وَ العِقَابُ وَ الوَعْدُ وَ الوَعِيدُ وَ الأمْرُ وَ النَّهْيُ وَ لَمْ تَأْتَ لَائِمَةٌ مِنَ اللّهِ لِمُذْنِبٍ وَ لَامَحْمَدَةٍ لِمَسِيئٍ وَ لَمْ يَكُنِ الْمُحْسِنُ أولَى بِالْمَدْحِ مِنَ المُسِيىءٌ لَاالمُسِيىءُ أوْلَى بالذَّمِّ مِنَ الْمُحْسِنِ، تِلْكَ مَقَالَةٌ عَبَدَةِ الأوْثَانِ وَ جُنُودِ الشَّيْطَانِ وَ شُهُودِ الزُّورِ و أهْلِ الْعَمَى عَنِ الصَّوَابِ وَ هَمْ قَدَرِيَّةُ هَذِهِ الأُمَةِ وَ مَجُوسِهَا إنَّ اللّهَ تَعالَى أَمَرَ تَخْيِيراً وَ كَلَّفَ يَسِيراً وَ لَمْ يَعْصِ مَغْلُوباً وَ لَمْ يُطِعْ مُكْرَهاً وَ لَمْ يُرْسِلْ الرُّسُلَ عَبَثَاً وَ لَمْ يَخْلُقِ السَّمَوَاتِ وَ الأرْضَ وَ مَا بَيْنَهُما بَاطِلًا، ذَلِكَ ظَنُّ الّذِينَ كَفَرُوا فَوَيْلُ لِلَّذِينَ كَفَرُوا مِنَّ النَّارِ، فَقَالَ الشَّيْخُ: وَ مَا القَضَاءُ وَ القَدرُ اللَّذَانِ مَا صِرْنَا إلّابِهِمَا، فَقَالَ: هُوَ الأمْرُ مِنَ اللّهِ تَعَالَى وَ الْحُكْمُ وَ تَلَا قَوْلَهُ تَعَالَى «وَ قَضى رَبُّكَ ألّا تَعْبُدُوا إلَّاإيّاه...»

*"Həzrət Əli (ə) "Siffeyn" döyüşündən qayıtdığı zaman yaşlı bir kişi ayağa qalxaraq dedi: "Ey Əmirəl-möminin (ə)! İstəyirəm Şama (şamlılara) tərəf hərəkət barəsində soruşum. Görəsən, bu cərəyanlar ilahi qəza və qədər idimi?" Əmirəl-möminin (ə) buyurur: "And olsun dənəni (həyatın ilkin canlanmasınada) torpağın altında yaran və insanları yaradan kəsə ki, atdığımız hər bir addım, aşdığımız dərələr və yuxarı qalxdığımız məntəqələr ilahi qəza və qədərdən başqa, bir şey deyildi." Yaşlı kişi dedi ki, nəticədə, bizim əziyyətimiz səmərəsiz oldu və bu müsibəti gərək Allahın öhdəsinə qoyaq,*

*çünki heç bir mükafatımız olmayacaq. Həzrət Əli (ə) buyurdu ki, aram ol, ey qoca! Allah sizin üçün gedib qayıtdığınız zaman böyük mükafat müəyyən etmişdir və siz heç vaxt və heç bir halda (nəyəsə) məcbur olmamısınız. Yaşlı kişi dedi: "Qəza və qədərin bizi bu yolda hərəkət etdirdiyi halda, bu necə olur?" Həzrət buyurur ki, vay olsun sənə! Elə güman edirsən ki, işin içində zəruri olan qəza və hökmən olacaq qədər var və biz məcburuq? Əgər belə olsa, "mükafat" və "cəza" batil və "vədə" və "vəid" mənasız olacaq. Yaxşılıq edən kəs pis əməl sahibindən daha çox mədh edilməyə və pis əməl sahibi də yaxşılıq edəndən də çox məzəmmət olunmağa layiq olmayacaq. Onda, günahkar məzəmmət olunmamalı və itaət edənlər də mədh edilməməlidir. Bu danışıq və əqidə haqq müqabilində bütpərəstlərin, şeytan qoşununun, batil şahidlər və korların əqidəsidir. Onlar bu ümmətin cəbriləri (cəbr və məcburiyyətə inananlar) və məcusiləridir. Allah işləri ixtiyari və vəzifələri asan etmiş və heç kəsi günah və itaətə məcbur etməmişdir. Peyğəmbərləri əbəs yerə göndərməmiş, yer və göyləri və onlar arasındakıları boş yerə yaratmamışdır. Bu cür güman etmək kafirlərə məxsusdur və cəhənnəm atəşinə görə onlara vay olsun! Yaşlı kişi bir daha soruşdu ki, belə isə, bizi bu yola yönəldən qəza və qədər nə idi? Həzrət buyurur ki, məqsəd Allahın hökm və fərmanıdır. Daha sonra bu ayəni oxudu:*

وَ قَضَى رَبُّكَ أَلَّا تَعْبُدُوا إِلَّآ إِيَّاه...

*"Allah ondan başqasına itaət etməməyi əmr etmişdir..."*[1]

## Hədisdəki mətləblərin araşdırılması

Bu hədisdə bir neçə mövzu diqqətəlayiqdir:

*1. «Kəşful-murad», «qəza və qədər» bəhsləri; «Üsuli-kafi», səh. 155 (azacıq fərqlərlə).*

1. Burada qəza və qədərin təşrii qəza və qədər kimi təfsir olunmasının yeganə səbəbi, bəhsin sadəcə təkvini işlərlə bağlı deyil, ixtiyari əməl və işlərlə əlaqədar olmasıdır. Yəni, biz nəfsi istək əsasında addım atmamışıq, əksinə bunların hamısı Allahın əmri və onun planı əsasında olmuşdur, lakin sual verən şəxs onu bir növ təkvini və icbari olan qəza və qədər olduğunu güman etmiş və bu baxımdan onu (qəza və qədəri) ixtiyardan asılı olan savab və mükafat məsələsi ilə müxalif hesab edirdi. İmam öz təfsiri ilə onun bu səhvini aradan qaldırdı.

2. Əgər təkvini qəza və qədər insanların öz əməllərində məcbur olması və onların ixtiyarının aradan qaldırılması mənasında olsa, saysız-hesabsız fəsadlar meydana gələr ki, imam onların on mühüm qisminə işarə edərək buyurur:

Mükafat və cəza zalımcasına və ya dəlilsiz, vədə və vəid əbəs, göstəriş və qadağalar təsirsiz, günahkarların məzəmməti xeyirxahların sitayişi kimi yanlış olacaq, hətta xeyirxah insanlar günahkarlardan daha çox öyülmək və günahkarlar xeyirxahlardan daha çox məzəmmət edilməyə layiq olmayacaq.

3. Hədisdə imam buyurur ki, şeytan bu ayədə (رَبِّ بِمَا أَغْوَيْتَنِى ...)[1] (şeytan dedi: "Ey Rəbbim, məni (öz dərgahından uzaqlaşdırmaqla) azğınlığa sürüklədiyinə görə… ") cəbr məntiqinə tabe olduğu kimi, cəbr (məcburiyyət) bütpərəstlərin köhnə əqidələrindən biridir. Nəticədə, imam cəbriləri şeytanın qoşunu kimi tanıtdırır. Eyni zamanda, məcusilərin də ikiliyə etiqadlı olması və hər bir xeyirli varlığı "Yəzdan" və şər varlığı

*1. «Hicr» surəsi, ayə 39.*

"Əhrimən"ə istinad verməsi ilə bir növ cəbrə əqidəli olması səbəbindən cəbriləri "bu ümmətin məcusiləri" hesab etmişdir.

4. وَ لَمْ يَعْصِ مَغْلُوبٍ وَ لَمْ يُطِعْ مُكْرَه (Allah heç kəsi günah və itaətə məcbur etməmişdir) cümləsi təkvini qəza və qədərdəki **"əmr bəynəl-əmrəyn"** (orta hədd) məsələsinə işarədir ki, onun şərhini tezliklə verəcəyik.

**Mühüm bir sual:** Əgər insanların əməllərini təkvini qəza və qədər dairəsindən xaric etsək, nəticəsi bu olacaq ki, insan öz əməllərinin müstəqil xaliqidir. Bu mövzu çoxlu sayda Allahların olmasına etiqadı gərəkdirir. Yəni, bir dənə böyük Allah var ki, bütün varlıq aləminin yaradıcısıdır və digər kiçik Allahlar var ki, onların hakimiyyəti təkcə əməllərlə bağlıdır. Bu cür etiqad təkallahlıq (tövhid) etiqadı ilə uyğun deyil. Əgər insanın əməllərini təkvini qəza və qədər dairəsində varlığın xaliqi hesab etsək, onun nəticəsi cəbrdən başqa, digər bir şey olmayacaq və bu minvalla, qəza və qədərin süstləşdirici təsirləri canlı və diri qalacaq.

**Cavab:** Bu sualın cavabı dini rəhbərlərin söhbətlərində qeyd edilmiş və onun xülasəsi belədir:

İnsanın əməlləri şübhəsiz, təkvini qəza və qədərin əhatəsindədir və dediyimiz kimi, təkvini qəza və qədərə uyğun olaraq səbəb və nəticə sistemi silsiləsi Allaha bağlıdır. Amma bu mövzunun insanın əməlləri müqabilində məsuliyyət və iradə azadlığı ilə heç bir ziddiyyəti yoxdur. İnsanın əməlləri həm onun özü, həm də Allaha istinad verilir. Özünə istinad verilməsinin izahına gəldikdə, deməliyik ki, o, (insan) əməllərini iradə azadlığı ilə həyata keçirir. Amma Allaha istinad verilməsi səbəbi budur ki, insanın varlığı, onun bütün

qüvvəsi, hətta, iradə azadlığı belə yaradılış aləminin xaliqi tərəfindəndir.

Diqqətəlayiq məsələ budur ki, səbəb və nəticə qanununa uyğun olaraq, bu qüvvələr anbaan varlıq mənbəyi tərəfindən insana yetişir (verilir). Nəticədə, istədiyi an varlıq, qüdrət və iradə azadlığını ondan ala bilər. Bu minvalla, insan heç vaxt onu (Allahı) məğlub edə bilməmiş və onun qüdrəti mühitindən kənara addım atmamışdır, əksinə Allahdır ki, insanın azad olmasını və təkamül yolunu (insanın) öz qüdrəti ilə keçməsini istəyir. Lakin bütün bu xüsusiyyətlərlə yanaşı, insanın əməlləri onun özünə istinad verilir və iradə azadlığına malik olduğu üçün onların məsuliyyəti öz öhdəsinə düşür.

Bu mövzu dəqiqliklə buna bənzəyir ki, biz tramvaya minmiş olaq və onun hərəkəti üçün lazım olan enerji yol boyu çəkilmiş elektrik simlərindən götürülmüş olsun. Təkvini cəhətdən biz tramvayı istədiyimiz istiqamətə – ya pak və müqəddəs olan mərkəzlər və hədəflər yoluna, ya da fəsad mərkəzləri və qeyri-şəri yollara yönəltməkdə azadıq, amma qanuni baxımdan bizə ikinci yolu deyil, birinci yolu seçmək göstərişi verilmişdir. Aydın məsələdir ki, elektrik enerjisi istehsalı mərkəzinin rəisi istədiyi vaxt cərəyan verilməsini dayandıra bilər və bizim mindiyimiz tramvay həmin anda olduğu yerdə dayanıb qalar. Eyni zamanda, o, bizə yolumuzu dəyişməyə möhlət də verə bilər. Burada bizim iki yoldan biri ilə getməyimiz həqiqətdə, həm ona, həm də bizə istinad verilə bilər. Amma ona istinad verilməsi bizim məsuliyyətimizi aradan qaldırmır və süstləşdirici təsiri də yoxdur, əksinə azadlıq hissi ilə bizə istiqamət və hərəkət verir.

**“Əmr bəynəl-əmrəyn”** (orta hədd) cümləsində

məqsəd fəlsəfi ifadə ilə desək, insanın əməllərinin bir-birinin müqabilində deyil, kənarında yerləşən iki faili (icra edəni) olmasından başqa, digər bir şey demək deyil. Bu səbəbdən, onların bir-biri ilə ziddiyyəti yoxdur.

**Digər bir sual:** Kimlərsə "təkvini qəza və qədərin insan əməllərinə nisbətdə ümumiliyinə nə üçün israr edirsiniz ki, özünüzü "əmr bəynəl-əmrəyn" çətinliyinə salasınız?" – deyə irad tuta bilərlər.

**Cavab:** Bəhsin canı burasındadır ki, din tərəfdarları iki prinsipi (təməl məsələni) inkar olunmaz hesab edirlər ki, onlardan biri "tövhid"dir və onun bir şöbəsi "tövhide əfali" (fellərdə tövhiddir) (yəni, dünyanın bütün səbəb və vasitələri, yaranan əməl və fellər Allahın varlığından qaynaqlanırlar), digəri isə "Allahın ədaləti"dir ki, kimisə hansısa bir əmələ məcbur etməsi və daha sonra onu buna görə cəzalandırması, yaxud onun üçün vəzifə və məsuliyyət nəzərdə tutması mümkün deyil.

Bu yerdə bəziləri həmin iki prinsipdən birini qorumaq üçün digərini qurban vermişlər. Amma yuxarıda qeyd edilən "əmr bəynəl-əmrəyn" məsələsinin qəbul edilməsi ilə həm fellərdə tövhid (tövhide əfali), həm də ədalət sübuta yetəcək.

Xülasə olaraq deməliyik ki, "əmr bəynəl-əmrəyn" məktəbində həm səbəb qanunu, həm də insanın iradə azadlığı rəsmi olaraq tanınmışdır, lakin tezliklə materialist və dini bir növ, "süstləşdirici amil" hesab edənlərin məsuliyyət və iradə azadlığını səbəb qanunları müqabilində qurban edərək ən şiddətli cəbr növünə inanclı olmasını biləcəyik. Təəccüblüsü budur ki, belə fərdlər qəza və qədər məsələsinə həmlə edərək onu cəmiyyətin fəaliyyəti üçün maneə hesab edirlər. Halbuki,

onların özü cəbrin əsasını qəbul etməklə fəaliyyətlərin müqabilində səd və maneə yaradırlar.

## *Aşkar sənədlər*

İslami mənbələrdə, xüsusən, Quranda insanı öz əməlləri müqabilində məsuliyyətli hesab edən və iradə azadlığı məsələsi və təlaş və mübarizədən istifadə etməyi hədəflərə yetişməkdə insanın əsas müvəffəqiyyəti kimi tanıtdıran çoxlu dəlillər mövcuddur. Aşağıdakı ayələrə diqqət yetirin:

كُلُّ نَفْسٍ بِمَا كَسَبَتْ رَهِينَة

*"Hər kəs öz əməlinin girovundadır."*[1]

وَ كُلُّ امْرِيٍ بِمَا كَسَبَ رَهِين

*"Hər bir insan öz əməlinin girovudur."*[2]

وَ أَنْ لَيْسَ لِلإِنْسانِ إِلَّامَا سَعَى

*"İnsan üçün etdiyi səy və təlaşdan başqa, bir şey yoxdur."*[3]

Bu ayələr qeyri-fəal insanı əsir və azad olmamış girov kimi tanıtdırır və onun azad olması şərti təlaş və fəaliyyətdir. Ayədə açıq-aşkar deyilir ki, hər bir insan öz iş və təlaşının girovundadır. Cihad və onun islami göstərişlər arasında əhəmiyyətə malik olması ilə bağlı müxtəlif ayələr vardır ki, millətlərin taleyi və onların qələbə və məğlubiyyətinin səbəbinin məcburi olan qəza və qədər deyil, əksinə onların təlaş və fəaliyyətləri,

*1. «Muddəssir» surəsi, ayə 38.*

*2. "Tur" surəsi, ayə 21.*

*3. "Nəcm" surəsi, ayə 39.*

yaxud tənbəlliyi səbəbindən olmasına şəhadət verir. Həmin ayələrə diqqət yetirin:

إِنَّ اللَّهَ لَا يُغَيِّرُ مَا بِقَوْمٍ حَتَّى يُغَيِّرُواْ مَا بِأَنْفُسِهِم

*"Həqiqətən, Allah heç bir dəstə üçün (mövcud) olanı (nemət və firavanlığı, yaxud bəla və çətinliyi) onlar özlərində olanı (iman və küfrü, yaxud itaət və fasiqliyi) dəyişdirməyincə, dəyişdirmir. "*[1]

ذلِكَ بِأَنَّ اللَّهَ لَمْ يَكُ مُغَيِّراً نِّعْمَةً أَنْعَمَهَا عَلَى قَومٍ حَتَّى يُغَيِّرُواْ مَا بِأنفُسِهِم

*"(Müşriklər üçün olan) bu (əzablar), ona görədir ki, Allah (öz ənənəvi qanunlarına əsasən) bir qövmə verdiyi neməti onlar özlərində olanı (saleh halları) dəyişməyincə, dəyişdirmir (onlardan almır)."*[2]

Amma həmişə tənbəl və boş-bekar insanlar bir tərəfdən, öz müvəffəqiyyətsizliklərinə don geyindirmək və öz pis əməllərinin acı nəticəsi və məsuliyyətindən çıxış yolu tapmaq üçün qəza və qədərin əsl məfhumunu təhrif etmək və onu cəbr və məcburiyyət mənasına təfsir etməklə özlərini elə göstərirlər ki, guya, onların iradəsindən üstün və qüvvətli bir amil ixtiyarsız olaraq onları bu səhnələrə çəkib gətirib və digər tərəfdən, bir sıra günahkarlar da özlərinə camaat arasında və ya öz vicdanları müqabilində bəraət qazandırmaq üçün bu cür yanlış təfsirlərdən yardım alırlar. İslami hədislərdə bu cür fərdlər pislənmiş və bu cür təfəkkür tərzinin üzərindən batil olduğu üçün çarpaz xətt çəkilmişdir.

---

*1. «Rəd» surəsi, ayə 11.*

*2. «Ənfal» surəsi, ayə 53.*

Məşhur hədislərin birindən belə oxuyururq:

إنّ أمِيرَ الْمُؤمِنِينَ عَدَلَ مِنْ عِنْدِ حَائِطٍ مَائِلٍ إلَى حَائِطٍ آخَرَ فَقِيلَ لَهُ يَا أمِيرَ الْمُؤمِنِينَ تَفِرُّ مِنْ قَضَاءِ اللّهِ؟ قَالَ افِرُّ مِنْ قَضَاءِ اللّهِ إلَى قَدَرِ اللّهِ عَزّوَجَل

"Həzrət Əli (ə) yarılmış və əyilmiş bir divarın kənarından ayağa qalxdıqda, ondan soruşdular ki, ilahi qəzadan qaçırsanmı? Həzrət cavab verdi ki, Allahın qəzasından onun qədərinə pənah aparıram." [1]

Bu hədis yuxarıda qeyd etdiyimiz həqiqətə işarədir, yəni doğrudur ki, Allahın əmrinə tabe olan səbəb qanunu olmadığı müddətdə divar uçmayacaq, amma həmin Allah mənə ağıl vermişdir və onun özü də səbəb qanunları silsiləsindən bir həlqə (zəncir) və bu cür hadisələr müqabilində qoruyucu və mühafizə amilidir. Amma divar şüura malik deyildir və xəbərdarlıq etmədən uçur və mən Allahın qədərinə pənah apara bilərəm, yəni mənə verilən əqlə əsasən, öz yerimi elə seçə bilərəm ki, əgər divar uçsa, mənim üzərimə düşməsin. Qəzadan qədərə pənah aparmaq bundan başqa, bir şey deyil. Həzrət Əlidən (ə) olan digər bir hədisdə bir şəxsin ona qədər barəsində verdiyi sualın cavabında belə oxuyuruq:

سِرُّ اللّهِ فَلَا تَفْتَشُوه

*"Qədər Allahın sirlərindəndir, onun barəsində araşdırma aparma!"*

Bir daha soruşduqda, imam belə buyurdu:

بَحْرٌ عَمِيقٌ فَلَا تَلْجُوه

---

*1. Şeyx Səduq, «Tövhid», səh. 377.*

*"O, dərin bir dəryadır, ona baş vurma!"*

Üçüncü bir şəxs də həmin sualı təkrar etdiyində, imam ona üstüörtülü bir cavab verdi. Amma sual verən öz sualına davam edərək dedi ki, mənim məqsədim iradə, istedad və qüdrətdir ki, biz onun vasitəsi ilə otrubdururuq. Sonunda imam buyurdu: "Sənin qüdrətin Allahın qüdrəti ilə yanaşıdır, yoxsa, onsuzdur?" Sual verənlər sükut edərək heç bir cavab vermədilər. Həzrət buyurdu ki, əgər desəniz ki, Allahla yanaşıdır, onda müsəlman olmayacaqsınız, əgər desəniz ki, onsuzdur, yenə də müsəlman olmayacaqsınız. Soruşdular ki, necə cavab verək, ey Əmirəl-möminin (ə)? İmam buyurdu ki, siz Allahın iradəsi ilə qüdrətə maliksiniz, əgər sizə qüdrət versə, onun bəxşişidir və əgər sizdən onu (qüdrəti) alsa, onun bəla və imtahanıdır. O, sizə verdiyi qüdrətin əsil malik və sahibidir. Bəyəm, bəndələrin **(لا حَوْلَ وَ لا قُوَةَ إلّا بالله)** "**Allahdan başqa, heç kəsdə qüvvət və qüdrət yoxdur**" dediyini eşitmirsinizmi? Orada iştirak edənlərin bəzisi bu cümlənin təfsiri barədə sual verdilər və imam buyurdu ki, bu cümlənin mənası odur ki, Allahın ismət əta etməsindən başqa, günahı tərk etmək və onun yardımı olmadan da itaət etmək olmaz.[1]

Bu hədis xüsusi zəriflik və diqqətlə "əmr bəynəl-əmrəyn" məktəbini bəyan edir və birinci olaraq söyləyir ki, əgər özünüzü iradə və qüdrətdə Allahla şərik bilsəniz, haqq olan dindən uzaqlaşacaqsınız, çünki müşriksiniz. Əgər onun müqabilində özününzü qadir və qüdrətli bilsəniz, o da bir növ şirk (hətta, əvvəlkindən də şiddətli) olacaq. Amma onun tərəfindən anbaan sizə yetişən qüdrətlə öz işlərinizi həyata keçirdiyinizə

*1. «Biharul-ənvar", c.5, səh. 123.*

və istədiyi zaman sizdən onu ala biləcəyinə etiqadlı olsanız, haqq olan dində qalmış olacaqsınız. Daha sonra imam **(لا حَوْلَ وَ لا قُوَّةَ إِلّا بِالله) "Allahdan başqa, heç kəsdə qüvvət və qüdrət yoxdur."** cümləsini maraqlı bir tərzdə həmin mənaya təfsir edərək bildirir ki, onun qoruması və yardımı olmadan günahdan çəkinmək və köməyi olmadan da itaət etmək qüdrətinə malik deyilik.

## *Maddi cəbr və yeni materialistlər*

Maddiyyatçı və yeni materialistlər, adətən, cəbridirlər (məcburiyyətə etiqadlı). Xüsusən də, iqtisadiyyatı ictimai məsələlərin əsil mənbəyi hesab edən kəslər cəbrə istinad edərək onu bütün tarixə şamil hesab edirlər. Fərdləri istehsal vasitələri (alətləri) binasının və cəmiyyətləri də tarixi cəbr hakimiyyətinin təsiri altında olduğunu düşünürlər. Doktor Arani "Cəbr və ixtiyar" adlı qısa həcmli əsərində "Təbiətdə heç bir şey səbəbsiz baş vermir və hadisələr ümumilikdə müəyyən bir qanun və aşkar nizama söykənir. Hər bir işin bir səbəbi və hər səbəbin də bir nəticəsi olduğunu qəbul etdiyimiz təqdirdə, məlum olur ki, hər bir mövqe və müəyyən bir səbəbin bəlli bir nəticəsi vardır. Dünyanın mümkün olduğunu təsəvvür etmək olmaz, əksinə hər bir şeyin cəbri yönləri vardır" – dedikdən sonra insanın əməlləri barədə belə danışır: "Bu əqidənin (cəbr və ixtiyar azadlığı əqidəsinin) yaranma səbəbilə çox vaxt "iradə azadlığı təsəvvürü" və "istiqlal və ixtiyar" qarışdırılır (səhv salınır). Məsələn, təsəvvür edin ki, bir natiqin nitq zamanı qarşısında bir stəkan su vardır və bir müddət danışdıqdan sonra, stəkandakı sudan bir qurtum içir. Heç kim onu su içməyə məcbur etməmiş və o, öz ixtiyar və iradəsi ilə stəkandakı sudan

içmişdir. Yəqin ki, siz də ixtiyarı hiss etmisiniz. Görəsən, onun özünün ixtiyara malik olmasında əmin olması stəkandakı suyu öz ixtiyarı ilə içməsinə dəlildirmi? Yoxsa, hər bir diqqətli şəxs başa düşür ki, əgər natiq suyu belə bir hərisliklə başına çəkirsə, onun səbəbi budur ki, boğazı qurumuş və boğazının quruması danışmasının təsirilədir və nəticədə, boğazında dəyişikliyin yaranmasına gətirib çıxarmış və nəhayət, onun su içməsilə nəticələnmişdir. Deməli, bu işin səbəbi fizioloji (cismani) dəyişiklik olmuşdur ki, natiqdə meydana gəlmiş və onu su içməyə məcbur etmişdir."

Onların cəbr məktəbinə tabe olmasına səbəb, ruhu da maddi hesab etməsi olmuşdur. Fiziki-kimyəvi təsirlərə malik beyin molekulları olan, həmçinin, belə bir ruhdan qaynaqlanan iradə maddi səbəblərdən ayrı ola bilməz. Digər tərəfdən, onlar bəşər tarixini bəşərin iqtisadi tarixinə, daha dəqiq desək, istehsal maşınları tarixinə bərabər tuturlar və aydın məsələdir ki, bəşərin iradə azadlığının qəbulu onların özlərinin də çətinliklə üzərində durduqları prinsiplə uyğun gəlməyəcək, çünki ixtiyarın qəbul olunacağı təqdirdə, bəşər tarixinin çarxlarını fırladan istehsal maşınları deyil, insanın iradəsi olacaq.

Nəticədə, onların fəlsəfə və məktəblərinin təməli olan maddiçilik və qaçılmaz olan iqtisadi maşınların təsirinə əsaslanan ictimai məktəblərinin bünövrəsi əsla cəbri qəbul etmədən möhkəm olmayacaq. Bu iki dəlilə əsasən, onlar cəbri olmağa məcburdurlar.

## *Mühüm mətləblər:*

Burada bir neçə mətləb diqqətəlayiqdir:

1. Əgər qəza və qədəri səhv və yanlış olan cəbr mənasında təfsir etsək, yenə də bu məktəbin təfsir etdiyindən daha yaxşı nəzərə çarpar, çünki ilahi cəbrin mənbəyi səbəb və nəticəni Allaha qaytarır (yönəldir) ki, sonsuz elm və qüdrət mənbəyidir. Amma maddi cəbrin mənbəyi təbiətə qayıdır ki, hər iki şeydən (qüdrət və elm) məhrumdur. Şübhəsiz, təbii şüurdan məhrum amillər və onun ardınca geniş bəşər tarixinə istehsal maşınlarının hakimiyyəti ondan (ilahi cəbrdən) daha çox vəhşət doğuran olacaqdır.

2. Əgər qəza və qədərə etiqadı süstləşdirici amil hesab etsək, hökmən, onun süstləşdirici təsiri səbəb və nəticə və iqtisadi amillərin cəbri hakimiyyətinə etiqaddan daha çox olacaqdır. Belə olduğu halda, hər millət və hər insan özünün müəyyən tarixində olduğu kimi olmalıdır və bundan başqa cür var olması mümkün deyil və Araninin dediyinə əsasən, dünya və dünyəvi hadisələr vücud (var olması vacib) yönünə malikdir, nəinki, imkan (var olması mümkün) yönünə. Bu səbəbdən, onun müqabilində təslim olmaq lazımdır. Beləliklə, belə bir cəbrə etiqadlı olmağın nəticəsi mövcud şərait müqabilində mütləq şəkildə təslim olmaqdır.

3. Bu əqidənin tərəfdarları bəzən özlərinə belə bir sual verirlər ki, əgər cəbr qanunu hər bir şeyə hakimdirsə, onda siz öz əqidənizin təbliği və ictimai inqilabların yaranmasına nə üçün israr edirsiniz?

Onlar cavabında bəzən deyirlər ki, biz təbii qanunlara uyğun olaraq uşağın ana bətnindən müəyyən bir vaxtda çölə çıxması üçün təyin olunan və ona kömək edən mamaça kimiyik, bəzən də bu təlaşların onların ixtiyarından xaric və həmin cəbr amili səbəbilə olduğunu

deyirlər.

Amma bilirik ki, hər iki cavab əsassızdır, çünki onların sağlam ictimai doğum və ya onun (doğumun) sürətlə (tez) baş verməsinə mamaça kimi kömək edə bilməsini qəbul etmək onların iradə azadlığından səhmə malik olduğuna və heç də hər bir şeyin cəbr qanununa şamil olmadığına dəlildir. Onların "bizim bütün təlaşlarımız cəbr qanununun təsiridir" – deməsi də əsassızdır, çünki onlar çıxış və yazıları, həmçinin, öz fəaliyyətlərində insanların əməlləri ilə bağlı məsuliyyət və əhd-peymana etiqadlıdırlar və öz vəzifələrini yerinə yetirməyən fərdləri məzəmmət edir və tənqid atəşinə tuturlar və əksinə, vəzifələrini bilən fərdləri təqdir edir və bütün bu reaksiyaları (qeyri-məntiqi və cəbri deyil,) məntiqi və əqli baxımdan doğru hesab edirlər. Bunların hamısı onların əməldə hamı üçün iradə azadlığına etiqadlı olmasının nişanəsidir (diqqət edin).

4. Bəhsin burada cəbr və ixtiyar barəsində deyil, əksinə əsil hədəfin onun bir tərəfdən, ictimai taleyə təsirinin və digər tərəfdən, İslam məktəbinin cəbri olması ittihamının batilliyinin bəyanı olmasına baxmayaraq, bu məsələlərə toxunmaq yersiz olmaz:

Maddi və metafizik fəlsəfə bu məsələ barədə qədimdən söhbət açmış və o, psixologiya, psixoloji araşdırma, hüquqi, sosioloji və əxlaqi məsələlərə qədər gedib çıxmışdır. Həqiqətən də, bu məsələ fəlsəfi baxımdan dolaşıq bir məsələdir. Amma bu məsələnin qaranlıq nöqtələri arasında aydın olan bir şey var ki, o da, insan fitrətinin iradə azadlığını heç vaxt inkar etməməsi, hətta həyat məsələlərində cəbr tərəfdarlarının hamısının ixtiyarın həqiqətini rəsmi olaraq tanımasıdır.

Əsrlər, qərinələr boyu bütün dünya məntəqələrində məhkəmələr, zindan, istintaq, mühakimə, məzəmmət, təşviq və cəzaların olması yaşayış baxımından, iradə azadlığının əslinin bütün dünya əhalisi tərəfindən qəbul olunduğu və hazırda da qəbul edildiyinə, eyni zamanda, cəbrilərin sadəcə universitet mühiti, fəlsəfi mübahisə və bəhs zamanı cəbri olmasına, amma həyati məsələlərə qədəm qoyduqda, dərhal ixtiyara etiqadlı olmasına bir sübutdur.

Əgər cəbrə etiqadlı bir filosof öz işçisini vəzifəsini yerinə yetirmədiyi üçün cəzalandırsa və maaşını azaltsa və ya ona zərbə vursa, o, (işçi) məhkəməyə şikayət edər, qonşusunun əziyyətindən narahat olar və etiraz edər, dükan sahibinin çəkidə kəsdiyindən pis olar və onu tənqid edər.

Bunların hamısı onun (filosofun) bütün işçilərini öz işində azad hesab etdiyini nişan verir. O, heç vaxt bu fərdlərin itaətsizlik və həddiaşmasının bir sıra silsiləvi cəbri, ictimai, tərbiyəvi, zati və irsi qanunlar səbibilə baş verməsi üzrünü qəbul etməz. Bu baxımdan, onları məzəmmət edərək cəzalandırmaq və ya zindana salmaq, yaxud adam öldürmək cinayətinə görə edam etmək düzgün və layiqli deyil.

Ola bilsin ki, bizim tərəfimizdən verilən reaksiyanın bir növ cəbri hərəkətlər (fəaliyyət) olduğunu desinlər. Amma bu düşüncə kamilən qeyri-məntiqidir, çünki onun məfhumundan belə çıxır ki, bizim əqlimiz bizə cinayətkar fərdlərə nisbətdə bu reaksiya, məhkəmə, mühakimə və zindanların zalımcasına və dəlilsiz olduğunu deyir, çünki onlar ixtiyara malik deyillər və biz bu zülmü məcburən edirik. Halbuki, heç kəsin bu

əksül-əməllərin zalımcasına olduğunu etiraf etmədiyini bilirik. Əgər əqli qanunlara uyğun olarsa, onu (əksül-əməli) kamil surətdə aqilanə hesab edərlər. Amma cəbr tərəfdarları heç vaxt bu əməlləri ədalətli hesab edə bilməz. Bu yerdə biz deyirik ki, hamı, hətta cəbrilər də öz əməllərində ixtiyara üstünlük verirlər və ixtiyarın əsli ümumilikdə dünya əhalisinin – istər alim olsun, istərsə də, filosof və başqaları – vicdanı ilə müvafiqdir.

## *Nəticə*

Ötən bəhslərdən nəticə olaraq bir neçə mətləbi əldə edirik:

1. Qəza və qədərin cəbr mənasında olması islami proqramlarda ümumiyyələ yoxdur, əksinə onda məqsəd bir tərəfdən, Allahın şəri qanun və göstərişlərinin, digər tərəfdən də, səbəb qanununun mövcud olmasıdır.

2. Ümumi səbəb qanununun bizim iradə azadlığı və ixtiyarımızla heç bir ziddiyyəti yoxdur, çünki bizim iradəmiz əməllərin yaranması səbəbi və amillərindən biridir.

3. Yuxarıdakı mənada qəza və qədər insanların məsuliyyət hissini oyadır və fərdləri həyatın çətinlikləri ilə mübarizə və vəzifələrini yerinə yetirməyə dəvət edir və əsla süstləşdirici təsirli deyil.

4. Bizim iradə azadlığımızın Allahın hər bir şey, hətta bizə mütləq hakimiyyətinin olması ilə heç bir ziddiyyəti yoxdur, çünki bu azadlıq bizə onun tərəfindən verilmişdir və bu, "əmr bəynəl-əmrəyn"nin mənasıdır.

5. Adətən, cəbr məktəbinə tabe olan materialistlər, xüsusən də, bütün ictimai fenomenləri iqtisadi vəziyyətin cəbri səbəbi hesab edən marksistlərin məktəbində cəbrin

süstləşdirici təsiri kamil həddə mövcuddur.

6. Fəlsəfi söhbətləri nəzərə almadan, dünya əhalisinin ümumi vicdanı insanların iradə azadlığına şəhadət verir, çünki bütün millət və qövmlər fərdlərin məsuliyyət və vəzifəsi olmasına inanclıdırlar.

## *Zəminə və son amillər*

Şübhəsiz ki, bir işin görülməsi üçün çoxlu amillərə ehtiyac var və onların bəzisi bizim ixtiyarımızdan xaricdir. Məsələn, bir əməlin yerinə yetirilməsində əql, zəka və cismi qüvvələrin hamısı lazımlıdır və onların heç biri bizim ixtiyarımızla yaranmamışdır. Amma bu amillərin olması felin yaranmasının tam (kamil) səbəbləri deyil (çünki bizim seçim və iradəmiz felin yaranmasında əsas amildir), naqis səbəbi hesab olunduğundan, cəbrə səbəb olmayacaq. Bizim vücudumuzun daxilində olan amillər kimi, vücudumuzun xaricindəki çoxlu sayda amillər də hər hansı bir felin (işin) həyata keçməsinə kömək edir və ya felin həyata keçməsi onlarsız mümkün deyil. Bu amillər ixtiyar, seçim və iradə bizdən alınmadığı müddətdə feldə cəbrə səbəb olmur. Başqa bir ifadə ilə desək, xarici amillər daxili amillər kimi felin yaranmasında heç bir tam (kamil) səbəb olmayacaq. Buradan məlum olur ki, irsi, tərbiyəvi, qida və süd, iqtisadi mühit, hakimiyyət forması,[1] mədəniyyət, təbliğat vasitələri və ictimai rabitələr və qohumluq və s kimi amillərin hər bir insanın təfəkkür və əməllərində təsiri inkarolunmazdır və şübhəsiz, onların hər biri bəzisi az, bəzisi çox təsirli olmaqla insanın düşüncə və əməllərini formalaşdıra

---

*1.* **النَّاسُ بِامَرَائِهِمْ اشْبَهُ مِنْ آبائِهِمْ؛ مردم به حکّام خود شبیه‌ترند تا به پدران خود** *«İnsanlar atalarından çox onları idarə edən hakimlərə bənzəyirlər. “*

bilər. Amma əsas məsələ burasındadır ki, bütün bu amillərin olmasına baxmayaraq, insan müəyyən bir yolun seçimində məcbur deyil, əksinə "iradə və seçim" adlı amil bunların arxasında yerləşmişdir və o, digər amillərin zəminəni yaradıb-yaratmamasına baxmayaraq, "taleyin həlledici amili" hesab olunur. Amma bu naqis amilləri tam (kamil) amillərlə səhv salan insanlar onları (naqis amilləri) cəbrə dəlil hesab etmişlər.

Əvvəlki bəhslərdə doktor Aranidən "natiqin su içməsi" misalını nəql etmişdik ki, onun böyük bir səhvə mürtəkib olduğu anlaşılır. Şübhəsiz ki, natiqin söhbəti boğazının qurumasına və boğazın quruması su içmək zəminəsinin yaranmasına gətirib çıxarmışdır. Amma yay fəslində oruc tutan şəxslərdə müşahidə etdiyimiz kimi, həmin halda belə, şəxs öz meylinə müqavimət göstərə və suyu içməyə bilər. Bu dəlilə əsasən, uyğun amilin olub-olmaması cəzanın şiddətinin azalıb-artırılmasında təsirli olmasına baxmayaraq, hansısa bir caninin məhkəmədə bəraət qazanmasına səbəb olmur. Bu mövzunu bir-iki misalla daha da aydınlaşdırmağımız pis olmazdı:

**Birinci misal:** Fərz edin ki, sizin qarşınızda məqsədinizə çatmağınız üçün iki yol vardır. Onlardan biri asfalt, ağaclı, işıqlı, düz və sair, amma digəri torpaq, quru, az işıqlı və əyri-üyrü (dolanbac) yoldur. Hökmən, yuxarıdakı cəhətlərdən biri sizi birinci yolu seçməyə təşviq edə bilər və eyni zamanda, siz ikinci yolu seçməkdə də özünüzü azad hesab edirsiniz. Nəticədə, həlledici amil olan iradə sizin ixtiyarınızdadır.

**İkinci misal:** Bir lampanın işıqlanması və ya su borusundan suyun gəlməsi üçün bir çox amillərin olması lazımdır. Elektirik ötürücüləri və su anbarı, elektirik

məftillərinin dəqiq çəkilişinin olması və ötürücüləri işə salmaq üçün enerjisinin ötürülməsi, bu işlərə nəzərat üçün mühəndis və işçilərin varlığı zəruridir. Onlar olmadığı müddətdə nə lampa işıqlanacaq, nə də su borularından su gələcək. Amma bununla belə, onların varlığı təklikdə kifayət etmir, əksinə elektrik düyməsinə basmaq və su kranını açmaq lazımdır, yoxsa, sadalanan şeylər həyata keçməyəcək.

İnsanın əməlləri barəsində də iqtisadi, tərbiyəvi, mədəni, siyasi, irsi və bu kimi digər zəminələr yuxarıdakı misalda qeyd edilən boru çəkilişi, su quyusu, enrjinin ötürürülməsi və sairənin olmasının ən yüksək hökmü həddindədir. Amma bizim iradəmiz ən azı su kranını açmaq və elektirik düyməsini basmaq mənziləsindədir, yəni sonunda felin taleyində həlledici amil bizim əlimizdir.

Qeyd etdiklərimiz digər təsirli amilləri görməzdən gəlmək mənasında deyil, əksinə onların cəbr və məcburiyyət yaratmaması və bizim ixtiyarımızı əlimizdən almaması mənasındadır. Münasib və qeyri münasib şəraitlərin əməlin dərəcəsinin xeyirli və zərərli olmasında fərqlərin yaranmasına gətirib çıxarması və bundan əlavə, insanın öz iradəsi ilə münasib zəminələr icad edə və qeyri-münasib zəminələri azalda bilməsinə baxmayaraq, bu səbəbdən, uyğun şəraitdə vəzifənin yerinə yetirilməsi icbari olmadığı kimi, uyğun olmayan zəminələrdə bizim məsuliyyətimiz aradan qaldırılmır.

Bu həqiqətə diqqət yetirməklə bəhsin suallarının əksər hissəsinə cavab vermək olar.

## 2. Zöhd (zahidlik) və dünyaya etinasızlıq

Dinin istismarçı olması fərziyyəsinə (iqtisadi amillər fərziyyəsi) onun vasitəsi ilə bəhanə gətirilə bilən və dini mənbələrində dəfələrlə üzərində dayanılan digər bir mövzu zöhd və dünyaya etinasızlıq məsələsidir ki, dini rəhbərlərin əksəriyyətinin həyatı ona bir nümunədir. Beləliklə, bu cür təlimatlar sayəsində insan kütlələri maddi həyata rəğbətsiz olmuş və meydanı istismarçı təbəqə üçün boş qoymuşdur.

Burada dəlilimizin dəyərinin aydın olması üçün zöhdün əsl kökü və o cümlədən, İslamın zöhd barəsindəki təfsir və düşüncəsinə, daha sonra isə zöhdün fəlsəfəsinə diqqət etməyi zəruri hesab edirik ki, onun (zöhdün) cəmiyyətdə hansı rola malik olduğunu bilək.

### *Zöhdün əsli və kökü*

“Zöhd” əslində “şiddətli meyil və maraq” mənasını verən “rəğbət” sözü müqabilindəki “meyilsizlik” mənasındadır. “Zöhd” və “rəğbət” adlı iki söz Quranda əxlaqi fəzilət və onun (əxlaqi fəzilətin) ziddi mənasında işlənməməsinə baxmayaraq, “Nəhcül-bəlağə” və İslam rəhbərlərinin sözlərində dəfələrlə müşahidə olunmuşdur. Əlbəttə, Quranda “zöhd” sözünün yerinə dünya və onun maddi xüsusiyyətlərinə bağlı olmağı məzəmmət edən digər ifadələr var ki, nəticə etibarı ilə zöhd barəsində nəql edilən rəvayələrlə heç bir fərqə malik deyil. Hər halda, dini mənbələrin araşdırılması “zöhd” sözünün tərbiyəvi və müsbət mənalı və kamil şəkildə camaat və cəmiyyətdəki insan kütlələrinin mənafeyini himayə etmək mənasında olmasını nişan verir. Dindən uzaq düşmüş fərdlərin

zöhd barəsindəki təfsirlərindən fərqli olaraq, zöhd dünya və maddi nemətlərə biganəlik mənasında deyil, əksinə maddiyyatın əsarət və hakimiyyətindən asılı olmamaq mənasındadır. Zahid fəqir və kasıb şəxs deyil, əksinə zahid o kəsdir ki, imkanlı olduğu zaman özünün sərvət, məqam və cah-cəlalının əsiri olmasın. Başqa sözlə, zahid cah-cəlal və şan-şöhrətdən üz çevirərək öz hədəfinə doğru daha azad və hazırlıqlıcasına hərəkət edən şəxsdir. Əgər kimsə özünün maddi məqam və sərvətlərinə əsir olaraq onun əldə saxlanması üçün hər bir mənfilik, rəzalət və alçaqlığa əl atarsa, dünyapərəst və dünyaya rəğbətlidir və onun müqabilində zahid dayanır ki, məqam və sərvətinin qorunması müqabilində öz azadlığı, şəxsiyyət və hədəfinin xətərdə olduğunu görür və ikinciyə (məqam və sərvətin qorunmasına) etinasızlıq edərək birincini qoruyur.

Zöhdün həqiqi təfsirini əldə etmək üçün daha yaxşı olar ki, islami mənbə və mətnlərə müraciət edək. "Nəhcül-bəlağə"də həzrət Əli (ə) zöhdlə bağlı iki məsələni aşkarçasına təfsir etmişdir. Birinci məsələ ilə bağlı belə qeyd edir:

الزُهْدُ كُلُّهُ بَيْنَ كَلِمَتَيْنِ مِنَ الْقُرْآنِ: قَالَ اللّهُ سُبْحَانَهُ «لِكَيْلَا تَأْسَوْا عَلَى مَافَاتَكُمْ وَ لَا تَفْرَحُوا بِمَا آتَاكُمْ وَ مَنْ لَمْ يَأْسَ عَلَى المَاضِى وَ لَم يَفْرَحْ بِالآتِى فَقَدْ أَخَذَ الزُهْدَ بِطَرَفَيْه

*"Zöhd bütövlükdə Quranın iki cümləsində xülasələşdirilmişdir. Allah buyurur: "...Keçmişdəkilərə görə təəssüf etməyin və əlinizdə olanlara görə də çox xoşhal olmayın. Beləliklə, kimsə keçmişinə görə təəssüflənməsə və əlindəkilərə qəlbini çox bağlamasa, zöhdün hər iki yönünə*

*malikdir.""* [1]

Bu sözlərdən zöhdün islami məntiqdə “dünyadan ayrılmaq” və “kənarlaşmaq” mənasında olmadığı, əksinə iki cümlədə xülasələşdiyi daha yaxşı anlaşılır. Birincisi, əgər insan nəyisə əldən versə, çox qəm-qüssəyə düçar olmamalı və ona etinasızlıq göstərməklə özünü gələcək səmərəli fəaliyyətlərə hazırlamalıdır, nəinki, özünün geridə qalan enerji və qüvvəsini təəssüflənmək yolunda hədər etməlidir.

İkincisi, əlində olanlara nisbətdə azadlığını əldən verəcək və bu minvalla, əsarət həddinə düşəcək qədər bağlı olmamalıdır.

"Nəhcül-bəlağə"nin digər bir yerində belə oxuyururq:

أَيُّهَا النَاسُ الزَهَادَةُ قِصَرُ الأَمَلِ و الشُّكْرُ عِند النِّعَمَ و التَوَرُّعُ عِندَ المَحارِمِ

*"Ey camaat! Zahidlik arzuların qısalığı, nemətlər müqabilində şükür etmək və haramlar müqabilində vərədən (çəkinmək) ibarətdir."*[2]

Bu cümlədə zöhd üç şeydə xülasələşdirilmişdir:

1. İnsanı cəmiyyətə biganə edərək ondan uzaqlaşdıran, özü və maddi nemətlərinə qapanması və fürsətlərin əldən çıxmasına səbəb olan uzun müddətli şəxsi arzuları azaltmaq.

2. Şükür etməyə diqqət etmək, yəni hər bir neməti onun üçün yaradılmış (nəzərdə tutulmuş) olan yolda sərf etmək, nəinki, saxlamaq, sərvət toplamaq və yığmaq.

3. İnsanın bir tərəfdən şəxsi mənafeyi, digər tərəfdən də haqq ilə ədalət kimi iki yol ayrıcında qaldığında

1. *“Nəhcül-bəlağə”, qısa kəlamlar, 439.*

2. *“Nəhcül-bəlağə”, xütbə 81.*

günahdan çəkinməsi.

## *Zöhdün fəlsəfəsi*

Yuxarıda zöhdün mənası barədə xatırladılanlara diqqət yetirməklə zöhdün fəlsəfəsi daha yaxşı aşkar olur. Çünki:

Birincisi, mal və maddi məqam müqabilində bağlılığı tərk etmək və ona əsir olmamaq insana elə bir azadlıq verir ki, heç kəs, xüsusən də, cəmiyyətin rəhbərləri onsuz öz hədəflərinə çatmağa qadir deyildir. Beləliklə, bütün cəmiyyət rəhbərlərini ictimai hərəkat və inqilablar istiqamətində təhdid edən xətərlərdən biri odur ki, onlar çox vaxt həyatlarında bir sıra silsiləvi maddi imkanlarla üzləşsə və dünyapərəstlik ruhu onlara qalib gəlsə, o yerdə dayanar və hər şey onlar üçün bitər və bütün hədəfləri yarımçıq qalar. Amma etinasız, səbirli və iradəli olsalar, dərhal onları kənara qoyar və irəliyə doğru addımlayarlar.

İslam rəhbərlərinin, xüsusən də, Peyğəmbər (s) və həzrət Əlinin (ə) həyatı tarixində müxaliflərin İslamın ictimai və ideoloji fəaliyyətinin qarşısını almaq üçün onlara gözqamaşdırıcı maddi təkliflər etdiyini və bu mövzunun canlı nümunələrini görürük. Əgər onlar zahid olmasaydılar, şübhəsiz, həmin yerdə dayanar və təslim olardılar. Amma onlar "əgər səmadakı ay və günəşi bizim əlimizin içinə qoysalar və günəş sistemi başdan-başa bizim mülkümüz olsa, bizim üçün dəyərsizdir" və "haqq və ədalətsiz xilafət və hakimiyyət köhnə ayaqqabı qədər də bizim nəzərimizdə dəyərli deyil" deyərək bütün təklifləri rədd etmiş və qarşılarındakı məqsəd və hədəfə doğru tələsmişlər.

İkincisi, zöhd həmişə cah-cəlala pərəstişə zidd

olmaqla yanaşıdır və həmin mövzu cəmiyyətin sərvətinin əyan-əşraf və cah-cəlala pərəstiş edənlər kimi məhdud bir dəstənin əsassız həvəsləri yolunda sərf olunmasına maneə və onun yerinə abadlıqlar və ictimai qrupların mənafeyi üçün istifadə edilməsinə səbəb olur.

Təəccüblü burasındadır ki, bəzən belə dini təlimatları (zöhdü) süstlük nişanəsi hesab edən Marks məktəbinin tərəfdarları öz rəhbərlərinin üstünlüklərini sayarkən onların sadə, başqa sözlə, “zahidanə” həyatını onların bariz ictimai əxlaqı kimi qələmə verirlər. Halbuki, biz onların geyim və məskən baxımından zahid şəklini almasına baxmayaraq, məqama bağlılıq və mövqelərinin qorunması baxımından heç vaxt zahid olmadığını və nəyin bahasına olursa olsun, onun mühafizəsinə çalışdıqlarını bilirik.

Üçüncüsü, hələ ideal bir cəmiyyət həddinə yetişməyən cəmiyyətdə rəhbərlərin zahidliyi məhrum təbəqənin həqarətə düçar olmaması və öz həyatlarını rəhbərlərinin yaşayışına bənzətməsinə, özlərini onların, onları da özlərinin kənarında görməsinə, mənəvi şəxsiyyətlərinin məhv olmamasına və nəticədə, həqiqi hüquqlarına yetişməsinə səbəb olur.

“Nəhcül-bəlağədə” bu mələb və ya onun məzmununu dəfələrlə oxuyururq:

أَأَقْنَعُ مِنْ نَفْسِى بِأَنْ يُقَالَ: هَذَا أَمِيرُ الْمُؤْمِنِينَ وَ لَاأُشَارِكُهُمْ فِى مَكَارِهِ الدَّهْرِ أَوْ أَكُونُ لَهُمْ أُسْوَةً فِى جُشُوبَةِ العَيْش

*"Görəsən, mənə "Əmirəl-möminin" deyilməsi üçünmü bunlara qənaət etməli, amma onlarla ruzigarın çətinliyində iştirak etməməli və həyatın ağrı-acılı günlərində onların*

*rəhbəri və iqtida etdiyi şəxs olmamalıyammı?"* [1]

Hətta, bu cümlənin olduğu xütbədə həzrət Əli (ə) Bəsrə hakimini əyan-əşrafın verdiyi və bir nəfər də ac şəxsin gözü düşmədiyi (iştirak etmədiyi) qonaqlıq süfrəsində iştirak etdiyi üçün şiddətli şəkildə tənbeh edir və ona əyan-əşrafla oturub-durmaq yerinə, camaatın kənarında olmasını göstəriş verir.

Dördüncüsü, haqq-ədalətin icrası və ictimai məsuliyyət və vəzifələrin yerinə yetirilməsi (təfsiri verilən) zöhdsüz mümkün deyil. Hakim əgər zahid olmasa, rüşvət götürər, yuxarıda qeyd edilən mənada əgər tacir zöhdə malik olmasa, xeyirli ticarət yerinə riba və faiz alar, işçi əgər mal və sərvətə aşiq olarsa, heç bir fırıldaqçılıqdan çəkinməz və ictimai və ideoloji rəhbərlər öz həqiqi rollarını (funksiyalarını) ifa edə bilməzlər.

Yuxarıdakı izahlardan islami fəlsəfədə məfhum baxımından zöhdün həqiqi mənası və zahid bir şəxsin camaatın xeyrinə istifadə edə bilmək üçün sərvətə sahib olmasında heç bir maneənin olmaması aydın oldu. Amma hansısa şəxs azacıq bir sərmayəyə malik olsa və onda qərq olaraq digərlərindən qafil olsa, dünyapərəstdir.

Bu cəhətdən, "Nəhcül-bəlağənin" "Əla ibn Ziyad Harisi" xütbəsində həzrət Əli (ə) ona baş çəkməyə gedərkən, ilkin olaraq böyük və geniş evinə irad tutur və daha sonra buyurur ki, əgər bu ev məhrumların pənahgahı olarsa, heç bir maneəsi yoxdur. Yəni, evə sahib olmaq bir halda "dünyapərəstlik" və digər bir halda "zahidlik"dir. Əgər ona fərdin üstünlüyü baxımından diqqət edilsə, dünyapərəstlik və ictimai baxımdan diqqət edilsə, zöhddür.

---

*1. "Nəhcül-bəlağə", 45-ci məktub.*

Həmin xütbənin altında həzrət Əli (ə) zöhdü cəmiyyətdən əlaqəni kəsmək, qalın paltar geyinərək təkcə ibadətlə məşğul olmaq və hər cür ictimai fəaliyyət və işdən ayrılmaq kimi təfsir edən onun qardaşı Asim ibn Ziyadı kəskin şəkildə tənqid edərək ona bildirir ki, İslam belə bir zöhdə tamamilə biganədir.[1]

Dediklərimizdən islami zöhdlə məsihiliyin bidət olaraq meydana çıxardığı rahibliyin fərqi aydın oldu. Zahid o kəsdir ki, cəmiyyət arasında və cəmiyyət üçün yaşamaq onu cah-cəlallı şəxsi yaşayış və ona bağlılıqdan saxlayır və beləliklə, onun zöhdü daha çox ictimai hədəflərə çatmaq üçündür. Halbuki, rahib cəmiyyətə biganə və ondan uzaqdır. O, cəmiyyəti tərk edir ki, özü ilə başqa sözlə, ibadət və dua ilə məşğul olsun (bu mövzunun daha artıq şərhini "rahiblik" ünvanı altında tezliklə verəcəyik).

## *3, 4. Mal və sərvətin məzəmmət olunması və fəqirliyin mədhi*

Bu fərziyyə tərəfdarlarının dəlil gətirə biləcəyi digər bir mövzu dini mənbələrdə “sərvətin” məzəmmət və “fəqirliyin” tərif və mədh olunmasıdır.

Quran mal, sərvət və övladlar dünya həyatının (aşağı və alçaq həyat) neməti kimi tanıtdırır ki, camaatın nəzərində ona maraq zinətləndirilmişdir:

زُيِّنَ لِلنَّاسِ حُبُّ الشَّهَواتِ مِنَ النِّسَاءِ وَ الْبَنِينَ وِ الْقَناطِيرِ الْمُقَنْطَرَةِ مِنَ الذَّهَبِ وَ الْفِضَّةِ وَ الْخَيْلِ الْمُسَوَّمَةِ وَ الْأَنْعامِ وَ الْحَرْثِ ذلِكَ مَتاعُ الْحَياةِ الدُّنْيا

1. *“Nəhcül-bəlağə”, 209-cu xütbə.*

*"Qadınlar və övladlar, qızıl və gümüş kimi toplanılan çoxlu mallar, nişan qoyulmuş atlar, dördayaqlılar və əkin yerləri kimi istənilən və arzu edilən şeylərin (dünya mallarının) məhəbbəti insanlar üçün zinətləndirilmişdir. Halbuki, bunlar dünya həyatından faydalanmaq vasitəsidir."* [1]

Bunun özü həmin sərmayələrin dəyərsiz olmasına bir sübutdur. Digər bir ayədə İslam Peyğəmbərinə (s) belə bir göstəriş verilir:

وَ اصْبِرْ نَفْسَكَ مَعَ الَّذِينَ يَدْعُونَ رَبَّهُم بِالْغَدَوةِ وَ الْعَشِيِّ يُرِيدُونَ وَجْهَهُ وَ لَا تَعْدُ عَيْنَاكَ عَنْهُمْ تُرِيدُ زِينَةَ الْحَياةِ الدُّنْيَا وَ لا تُطِعْ مَنْ أَغْفَلْنا قَلْبَهُ عَن ذِكْرِنا وَ اتَّبَعَ هَواهُ وَ كَانَ أَمْرُهُ فُرُط

*"Həmişə öz Allahının razılığını diləyən halda sübh və axşamçağı onu çağıran kəslərlə birgə ol. Məbada, dünya həyatının zinət və bər-bəzəyini istəmək üçün gözlərini onlardan (başqa bir şəxsə və şeyə tərəf) çevirəsən! (Keçmişdəki azğınlıq və itaətsizliklərinə görə) qəlbini öz zikrimizdən qafil etdiyimiz, nəfsi istəklərinə tabe olan və işi israf və (Allahın müəyyənləşdirdiyi həddi) aşmaq olan kəsə itaət etmə!"* [2]

Peyğəmbərdən (s) nəql edilən (الفقر فخري) "fəqirlik mənim iftixarımdır" hədisi məşhurdur. Həmçinin, "Nəhcül-bəlağədə" həzrət Əlidən (ə) belə bir hədis nəql edilir:

مَنْ أحَبَّنَا أَهْلَ الْبَيْتِ فَلْيَسْتَعِدَّ لِلْفَقْرِ جِلْبَاب

*"Biz Əhli-beyti (ə) sevən şəxslər fəqirliyi özünə libas seçsin!"* [3]

---

*1. "Ali-İmran" surəsi, ayə 14.*

*2. «Kəhf» surəsi, ayə 28.*

*3. «Nəhcül-bəlağə", qısa kəlamlar, 112.*

Dini mənbələrdə bu timsalda olan hədislər digərlərinin öz məqsədlərinə çatması üçün məşəqqət görmüş və məhrum təbəqələri məhrumiyyətlərə adət etdirmək istəməsi həqiqətini aydınlaşdırır.

## *Təfsir və izah:*

Şübhəsiz ki, bu cür hökm vermək ən azı, həmin zəminədə ötəri və məhdud şəkildə edilən mütaliənin nəticəsidir və bu sahədə qeyd edilən ayə və rəvayətlərin hərtərəfli mütaliəsi sayəsində həqiqət aydınlaşar. Belə ki, Quran ayələri və rəvayətlərin əksəriyyətində sərvətin mədh olunduğu və fəqirliyin şiddətlə tənqidi müşahidə olunmaqdadır.

1. "Vəsiyyət" ayəsində mal və sərvət "xeyir" sözü ilə ifadə olunmuşdur:

كُتِبَ عَلَيْكُمْ إِذَا حَضَرَ أَحَدَكُمُ الْمَوْتُ إِن تَرَكَ خَيْراً الْوَصِيَّةُ ...

*"Sizin üçün belə yazılıb və qərara alınıb ki, birinizin ölümü çatan zaman, əgər özündən sonra bir mal qoyarsa, öz ata-anası və yaxınları üçün (İslam şəriətində müəyyən edilmiş irsdən əlavə) gözəl bir tərzdə vəsiyyət etsin."* [1]

2. Digər hallarda doğru yolda istifadə edilən mallar açıq-aşkar Allah dərgahına yaxınlıq vəsiləsi və böyük ilahi mükafatlara səbəb hesab olunmuşdur:

وَ مَآ أَمْوالُكُمْ وَ لَآاوْلادُكُمْ بِالَّتى تُقَرِّبُكُمْ عِنْدَنا زُلْفى إِلَّا مَنْ آمَنَ وَ عَمِلَ صالِحا فَأُوْلَئِكَ لَهُمْ جَزَآءُ الضِّعْفِ بِمَا عَمِلُواْ وَ هُمْ فِى الْغُرُفاتِ آمِنُون

*"Sizi bizim dərgahımıza yaxınlaşdıran nə mal-dövlətiniz, nə də övladlarınızdır. Lakin iman gətirən və yaxşı iş görənlərə*

---

*1. «Bəqərə» surəsi, ayə 180.*

*etdiklərinin müqabilində ikiqat mükafat vardır və onlar cənnət otaqlarında əmin-amanlıq içindədirlər. "*[1]

3. Bəzi ayələrdə mal və insani qüvvələr ilahi nemət və yardım hesab edilmişdir:

وَ أَمْدَدْناكُم بِأَمْوالٍ وَ بَنِين

*"Sizə mallar və oğullarla kömək edərik."*[2]

4. Quranın bir çox ayələrində mal cihadda təsirli hesab olunmuşdur:

وَ جَاهِدُواْ بِأَمْوالِكُمْ وَ أَنْفُسِكُمْ فِى سَبِيلِ اللَّه

*"Yüngül və ağır (süvari və piyada, yaxud cavan və qoca cihad meydanına tərəf) hərəkət edin və öz mallarınız və canlarınızla Allah yolunda cihad edin."*[3]

Digər ayələr də bu qəbildəndir.

5. İslam Peyğəmbərindən (ə) olan bir hədisdə belə nəql edilir:

كَادَ الفَقْرُ أنْ يَكُونَ كُفْرا

*"Fəqirliyin küfrə çevrilməsinə az qalır."* [4]

Bu minvalla, fəqirlik küfrə yaxın və onunla həmsərhədd və insan şəxsiyyətinin hər iki dünyada aradan getməsi kimi tanıtdırılmışdır.

6. "Nəhcül-bəlağə"nin qısa kəlamlarında belə oxuyuruq:

الفَقْرُ هُوَ الْمَوْتُ الأكْب

---

*1. «Səba» surəsi, ayə 37.*

*2. «İsra» surəsi, ayə 6.*

*3. «Tövbə» surəsi, ayə 41.*

*4. «Səfinətul-bihar", "fəqr" sözü.*

*"Fəqirlik böyük ölümdür!"* [1]

Bu ifadələrdən aydın olur ki, bir millətin fəqirliyi, hətta ölümdən də pisdir.

7. "Nəhcül-bəlağə"də fəqirlik dinin nöqsanı, əqlin aradan getməsi və Allah və camaatın qəzəbinə vəsilə hesab olunmuşdur. İmam öz övladına belə buyurur:

يَا بُنَىَّ أَنِّى أَخَافُ عَلَيْكَ الفَقْرَ فَاسْتَعِذْ بِاللّهِ مِنْهُ فَإِنَّ الفَقْرَ مَنْقَصَةٌ لِلدِّينِ، مَدْهَشَةٌ لِلْعَقْلِ، دَاعِيَةٌ لِلْمَقْت

*"Ey övladım! Sənin fəqir olmağından qorxuram, ondan Allaha pənah apar, çünki o, insanın dinini naqis edir, əql və düşüncəsini aradan aparır, insanı camaata və camaatı da ona nisbətdə bədbin edir."* [2]

Yuxarıdakı ayə və rəvayətlər bir-birinin kənarında yerləşdirildiyində, onların məfhumlarının dərki o qədər də çətin olmur və onlardan bir neçə mətləbi əldə etmək olar:

1. Mədh olunan fəqirlikdə məqsəd kasıbçılıq deyil, əksinə bir növ sadəlik və cah-cəlalapərəstişlə mübarizədir ki, azadlıq yalnış və agahlıqla birgədir. Təkəbbür, qürur və cah-cəlalapərəstişə səbəb olan sərvətlə bağlı yuxarıda qeyd edilən “Kəhf” surəsindəki ayədə işarə etmişik.

2. Bəzən fəqirlikdə məqsəd batilin hökm sürdüyü mühitlərdə haqqa tərəfdar olmaq səbəbi ilə yaranan məhrumiyyətlərdir ki, haqq tərəfdarlarını əhatə edir. Məlumdur ki, bu cür mühitlərdə haqq tərəfdarları öz hədəflərini qorumaq və ona nail olmaq üçün məcburən həmin məhrumiyyətlərə sinə gəlir.

---

*1. «Nəhcül-bəlağə», qısa kəlamlar.*

*2. «Nəhcül-bəlağə», qısa kəlamlar, 319.*

مَنْ أَحَبَّنَا أَهْلَ الْبَيْتِ فَلْيَسْتَعِدَّ لِلْفَقْرِ جِلْبَاب

**“Biz Əhli-beyti (ə) sevən şəxslər fəqirliyi özünə libas seçsin!”** hədisində haqq tərəfdarlarına batil tərəfdarları tərəfindən edilən təzyiq mühitinə işarə edilmişdir.

3. Fəqirliyin digər mənası mal və sərvətə deyil, Allaha ehtiyaclı olmaqdır ki, hədis və ayələrdə ona işarə edilmişdir:

يا أَيُّهَا النَّاسُ أَنتُمُ الْفُقَرَآءُ إِلَى اللَّه

*“Ey insanlar! Sizin hamınız Allaha möhtacsınız!”* [1]

4. Yuxarıdakı ayə və hədislərin araşdırılması ilə sərvətin bütövlükdə məzəmmət olunmadığı, əksinə xeyir, ilahi bəxşiş, Allahın yardımı, cihad və Allah dərgahına yaxınlaşmaqda təsirli vasitə olması aydın olur. Təkcə sahiblərinin tüğyan etməsinə səbəb olan və ya qeyri-şəri yolla əldə edilən, yaxud da xəzinə kimi toplanaraq şəxsin istifadə etmədiyi və ümumiyyətlə, camaata sərf edilməyən sərvətlər məzəmmət edilmişdir.

Bu izahdan sonra İslamda mal, sərvət, fəqirlik və qənaətlə bağlı qeyd edilən məsələlərin bir insani hədəf, müsbət ictimai və istismarazidd nəticəni izlədiyi məlum olur.

Belə bir proqramın istismarçıların mənafeyinə xidmət etdiyini necə söyləmək olar?!

## 5. Rahiblik və tərki-dünyalıq

Rahiblik və tərki-dünyalıq dinlərə meyil və maraqla bağlı əvvəlki fərziyyənin istifadə etdiyi şahid və qərinələrdən biridir. Beləliklə, din insanları tərki-

*1. «Fatir» surəsi, ayə 15.*

dünyalığa dəvət edən zaman, onun məfhumu dünya və dünya nemətlərini qeyri-dini olan fərdlərin ixtiyarında qoymaqdır və bu, elə istismarçıların istədiyi şeydir və belə bir dini onun üçün meydana gətirmişlər.

## *Təfsir və izah:*

Diqqət yetirdikdə, görürük ki, burada da səthi mütaliə bir sıra silsiləvari səhv və yanlış hökmlərin əldə olunması mənbəyi olmuşdur. Bu həqiqətin aydınlaşması üçün bir neçə mövzuya diqqət etmək zəruridir:

1. Rahiblik nədir? Nə zaman və harada meydana gəlmişdir?
2. Psixoloji və ictimai rahibliyə maraq nə olmuşdur?
3. Rahibliyin təhlükəsi nələrdir?
4. İslam rahibliklə necə mübarizə apardı?

Hazırda bu mövzuların hər birini araşdırırıq:

### *1. Rahiblik nədir? Nə zaman və harada meydana gəlmişdir?*

Rahiblik “rəhban” sözünə mənsub olan “rəhəbə” kökündəndir (vəhəbə vəznindədir) və “qorxu” və “xof” mənasını verir və o kəslərə rahib deyilir ki, onlar Allah qorxusundan daimi ibadətlə məşğul olmaq üçün tərki-dünya olur, cəmiyyət və insanlardan ayrılırlar. Aydın məsələdir ki, belə kəslər nə evlənir, nə də ailə həyatı qururlar. Tarixin şəhadətinə əsasən, bu əməl qədimdə hindistanlılar arasında geniş yayılmışdır və indi də hindistanlı murtazlar arasında onun nümunələri müşahidə olunmaqdadır. Məsihilik tarixi də nişan verir ki, məsihiliyin yarandığı birinci əsrlərdə onlar arasında rahiblik günümüzdəki şəkildə mövcud olmamışdır.

Rahibliyin başlanğıc tarixinin miladi III əsrdən sonra olduğunu qeyd etmişlər.

Desiyus adlı bir şəxs Roma imperatoru olduqdan sonra məsihilərlə şiddətli mübarizə aparmağa başlayır və onların sürgün edilərək dağ və biyabanlara yollanmasına səbəb olur və rahiblik meydana çıxır.[1]

Məşhur məsihi tarixçisi Vil Drantın etiqadına əsasən, rahiblik əvvəllər kişilərə məxsus olmuş və miladi IV əsrdə tədricən tərki-dünya olan qadın rahiblər də kişilərə qoşulmuş və yavaş-yavaş rahiblik məsələsi inkişaf edərək Dir adlı rahiblik mərkəzi yaratmışlar ki, onların bəzisi sadə və kiçik, bəzisi də həddən artıq geniş və böyük olmuşdur. Rahiblər öz vaxtlarını dua və ibadətdən əlavə, əkinçilik, əl tikintisi və qəlib hazırlanması və sairə kimi şeylərə sərf edirdilər.

Rahibliyin əsas şərtlərindən birinin tərki-dünyalıq, yəni evliliyin tərk edilməsi (onlar qadın cinsinə baxmağı şeytani bir əməl hesab edir, hətta dişi heyvanın belə evə girməsinə razı olmurdular ki, məbada, onun şeytani ruhu onlara zərər yetirər) olmasına baxmayaraq, Dirlərdə tərki-dünya kişi və qadınlar arasında faciələr baş verirdi ki, insan fitrətindən üz çevirməyin nəticəsi idi. Papa III İnnusian Dirlərdən birini fahişəxana kimi istifadə edirdi.[2]

Deyilənlərdən belə bir nəticə əldə etmək olar ki, rahiblik məsihilikdə meydana çıxan bidətlərdən biridir.

---

*1. «İyirminci əsr ensiklopediyası", "rəhəbə" sözü.*

*2. "Vil Drant, "Tarix", c.13, səh. 443.*

### *2. Psixoloji və ictimai rahibliyə maraq nə olmuşdur?*

Tarixin də şəhadətinə əsasən, belə nəzərə çarpır ki, rahiblik ictimai uğursuzluqlar müqabilində mənfi psixoloji reaksiya olmuşdur. Bilirik ki, bir fərd və ya bir millətin məğlubiyyəti bəzən tərbiyəedici amil kimi zühur edərək onları zəif nöqtələrin aradan qaldırmasına sövq edir və bu, fitri baxımdan fəal və müsbət olan fərd və cəmiyyətlərə məxsusdur, lakin bəzən də o, ümidsizlik və bədbinlik, cəmiyyətdən kənarlaşma və xəyal aləminə pənah aparmaq və son hədəfi xəyal aləmində axtarmaq mənbəyinə çevrilir ki, bu məsələ mənfi, tənbəl və qabiliyyətsiz xüsusiyyətli fərdlərə şamildir.

Əlbəttə, bəzi vaxtlarda ləyaqətsiz və tənbəl insanların rahiblik libası altında əsl simalarını gizlətməsi və tənbəlliyi müqəddəs və dini bir əməl kimi əks etdirməsi də mümükündür.

### *3. Rahibliyin təhlükəsi nələrdir?*

Rahiblik ictimai prizmadan bütün zərərləri özündə toplamış və insanın ictimai psixologiyasının ziddinədir və cəmiyyətin bünövrəsini zəiflətməkdən əlavə, əxlaqi və psixoloji azğınlıq və inhiraflara da səbəb olur. İctimai baxımdan, meydanı istismarçı təbəqələr üçün genişləndirərək onlara yaşayış mənbələrindən daha artıq bəhrələnmək və hər bir şeyi özlərinə məxsus etmək (özəlləşdirmək) imkanı verir.

Sosioloqlardan biri belə deyir: **"Tərki-dünya və alaçıqlarda yaşayan fərdlər barəsindəki mütaliələr cəmiyyətin onların psixologiyasına mənfi təsir qoyaraq onlarda ümidsizlik və pərişanlıq, həmçinin, əksər**

**hallarda ruhi sarsıntı (depressiya) yaratdığını nişan verir."**[1]

Rahiblik insan cəmiyyətini ibtidailiyə qaytarır və müxtəlif ictimai və ideoloji məsələlərdə geriliyə səbəb olur.

### *4. İslam rahibliklə necə mübarizə apardı?*

Rahibliyin İslam tərəfindən kəskin şəkildə rədd edildiyi və məşhur bir hədisdə **لَا رُهْبَانِيَةَ فِى الإِسْلَام "İslamda heç bir rahiblik mövcud deyil."** – deyə nəql olunduğuna diqqət yetirmək lazımdır. Qeyd etdiyimiz kimi, "yaşayışda sadəlik və ictimai həyata nüfuz etməkdə cah-cəlaldan çəkinmək" mənasında olan "islami zöhd" rahiblikdən fərqli bir məsələdir, çünki rahiblik cəmiyyətə biganəlik və ondan ayrılmaq mənasındadır, amma "zöhd" ictimai (cəmiyyətlə birgə) şəkildə yaşamaq üçün sadəlik mənasındadır. Osman ibn Məzun adlı bir səhabənin övladı dünyadan getdikdə, o, həyatdan ümidini üzərək məyus olur və rahib olmaq qərarına gəlir. Peyğəmbər (s) ona açıq-aşkar belə buyurur:

إِنَّ اللّهَ تَعَالَى لَمْ يَكْتُبْ عَلَيْنَا الرُّهْبَانِيَّةَ إِنَّمَا رُهْبَانِيَّةُ أُمَّتِى الجِهادُ فِى سَبِيلِ اللّه

*"Allah heç vaxt bizim üçün rahibliyi təyin etməmişdir. Mənim tərəfdarlarımın rahibliyi sadəcə cihaddadır."*[2]

Yəni, maddi yaşayışdan üz çevirmək istəyirsənsə, bunu mənfi şəkildə və cəmiyyətdən ayrılmaqla həyata keçirmə, əksinə müsbət bir yolda – cihadda cəmiyyətin başıucalığı üçün öz hədəfini araşdır. Bu, ictimai

---

*1. Samuel King, «Sosiologiya», səh. 428.*

*2. «Biharul-ənvar», c.8, «Əxlaq» bölməsi, səh. 170.*

(cəmiyyətlə birgə) yaşayış üçün nəzərdə tutulan həmin zöhd və sadəlikdir.

İmam Musa ibn Cəfərdən (ə) bir şəxsin verdiyi suala cavab olaraq aşağıdakı hədis nəql olunmuşdur:

هَلْ يَصْلَحُ لِلرَّجُلِ المُسْلِمِ أنْ يَسِيحَ فِي الأرْضِ أوْ يَرْهَبَ فِي بَيْتٍ لَايَخْرُجُ مِنْهُ؟ قَال: لا

*“Hansısa bir müsəlman səyahət edə və ya rahiblik məqsədi ilə evdə qalmağı iradə edərək çölə çıxmaya bilərmi? İmam cavabında buyurur ki, xeyr!”*[1]

Bu hədisdə qeyd edilən “səyahət” sözü də “rahiblik” mənasında işlənmiş və onların hər ikisi qadağan olunmuşdur. “Səyyar rahiblik” də rahibliyin bir növü olmuşdur, belə ki, bəzi fərdlər özlərini ev-eşik və işlə təmin etmir və daimi olaraq azuqə və ehtiyatsız bir məntəqədən digər məntəqəyə səfər edərək dünyanı dolaşmaqla məşğul olur və dilənçilik edib camaatdan yardım almaqla dolanırdılar. Nəticədə, İslam həm sabit, həm də səyyar rahibliyi qadağan etmişdir.

Qeyd edilənlərdən aydın olur ki, bir qayda olaraq, rahiblik nə İslamda mövcuddur, nə də əsl məsihilikdə mövcud olmuşdur. O, təhrif olunmuş məsihilikdə meydana çıxmış və xurafata qarışmış bu cür dinin istismarçı olmasına dəlildir və bütövlükdə, dinə maraq və meyili dəyərləndirməklə bağlı mizan və ölçü ola bilməz.

## 6. Səbir və dözümlülük

Dinin süstləşdirici olması fərziyyəsi tərəfdarlarının

*1. «Biharul-ənvar», c.10, səh. 255.*

istinad etdikləri dini məfhumlardan biri də "səbirə dəvət" məsələsidir. Çünki səbirlə ictimai müsibətlər, o cümlədən, istismar müqabilində təslim olmaq arasında o qədər də fərq yoxdur və onun nəticəsi, dözmək, sükut və zülmə boyun əyməkdir. Beləliklə, dini mənbələrdə bu timsalda məfhumların olması insanı dinlərə maraq və meylə nisbətdə bədbin etməyə kifayətdir.

## *İzah və araşdırma*

Əvvəldə də işarə etdiyimiz kimi, təəssüflər olsun ki, belə dini məfhumların əksəriyyəti müxtəlif səbəblərdən mənəvi təhrifə uğrayaraq öz məfhumunu (mənasını) tamamilə əldən vermiş və yaxud öz əsl məfhumunun müqabilində mövqe tutmuşdur. Əlbəttə, məhdud mütaliələr, həmçinin, dinəzidd xüsusi meyillərin də bu cür təhriflərdə rolunu nəzərdən qaçırmaq olmaz.

"Səbir"in həqiqi məfhumunun aydın olması üçün dini mənbə və lüğətlərdə bu sözün istifadə və təfsiri barədə qeyd edilənləri dəqiq şəkildə araşdırmaq lazımdır. Bu mənbələrin araşdırılması ilə "səbir"in həmin qrupdan olanların düşündüklərinin əksinə olaraq, hadisələr müqabilində dayanmaq, çətinliklərlə daimi şəkildə mübarizə və onun qarşısından qaçmamaq mənasında olduğu aydınlaşacaq. "Səbir" hədəfə çatmaq üçün çalışmaq və təlaşdan əl çəkmək və təslim olmaq mənasında deyil, əksinə təslim olmamaq, müqavimət və mübarizəni davam etdirmək mənasındadır. Bu həqiqətin isbatı üçün əlimizdə çoxlu sənədlər vardır və onların bir qisminə işarə edirik:

1. Quran müsəlmanların cihad meydanında və çoxlu sayda düşmən müqabilində qalib olması amillərindən

birinin səbir olduğunu qələmə verir:

يَا أَيُّهَا النَّبِىُّ حَرِّضِ الْمُؤْمِنِينَ عَلَى الْقِتَالِ إِن يَكُنْ مِّنكُمْ عِشْرُونَ صٰبِرُونَ يَغْلِبُواْ مِاْئَتَيْنِ وَ إِن يَكُنْ مِّنكُم مِّاْئَةٌ يَغْلِبُواْ أَلْفاً مِّنَ الَّذِينَ كَفَرُواْ بِأَنَّهُمْ قَوْمٌ لَّايَفْقَهُونَ

*"Ey Peyğəmbər, möminləri cihada həvəsləndir. Əgər sizdən iyirmi nəfər səbirli olsa, onlar iki yüz nəfərə qalib gələrlər. Əgər sizdən yüz nəfər olsa, onlar kafirlərin min nəfərinə qalib gələrlər. Çünki onlar (kafirlər) anlamaz bir qövmdürlər (şücaət və bu kimi mənəvi xüsusiyyətlərin qüvvətlənməsinə səbəb olan tövhidi dərindən dərk etmirlər)."* [1]

Əgər səbir təslim və müqaviməti tərk etmək mənasında olsaydı, onda, bu ayəyə uyğun olaraq həmin xüsusiyyətə (səbirə) malik iyirmi əsgərin iki yüz nəfərə, yəni özlərinin on bərabərinə qalib gəlməsi necə mümkün olardı? Əksinə, belə bir səbir minlərlə nəfərin azsaylı dəstə müqabilində məğlubiyyətinə səbəb olmalıdır. Yuxarıdakı ayədə müsəlmanlara göstəriş verilir ki, döyüş meydanını tərk etmək və geri çəkilməyə, hətta onların sayı düşmənin ondabiri qədər də olsa belə, haqları yoxdur.

Allah bu nisbəti sonrakı ayədə yarıya qədər azaldaraq belə buyurur:

الانَ خَفَّفَ اللّهُ عَنْكُمْ وَ عَلِمَ أَنَّ فِيكُمْ ضَعْفاً فَإِن يَكُنْ مِّنكُم مِّاْئَةٌ صَابِرَةٌ يَغْلِبُواْ مِأَتَينِ وَ إِنْ يَكُن مِّنكُمْ أَلْفٌ يَغْلِبُوا أَلْفَيْنِ بِإِذْنِ اللّهِ وَ اللّهُ مَعَ الصَّابِرِين

*"İndi Allah (bir nəfərin on nəfərlə mübarizə etməsinin*

1. *«Ənfal» surəsi, ayə 65.*

*vacibliyi və bir nəfərin on nəfərdən qaçmasının haramlığını aradan qaldıraraq) vəzifənizi yüngülləşdirdi və sizdə (ruhiyyə və sayınızda) zəiflik olmasını bildi (əzəli elmi zahirdə həyata keçdi). Beləliklə, əgər sizdən yüz nəfər səbirli olsa, onlar iki yüz nəfərə qalib gələrlər və əgər sizdən min nəfər olsa, Allahın izni (və köməyi) ilə onlar iki min nəfərə qalib gələrlər. Allah səbirlilərlədir."*[1]

Təfsirçilər deyirlər ki, birinci göstəriş İslamın əvvəllərinə və "Bədr" və sair döyüşlərin mücahidlərinə aiddir ki, onlar qeyri-adi şəkildə səbirdən bəhrələnmişlər, amma ikinci göstəriş sonrakı zamanlara aiddir ki, təzə və zəif insanlar müsəlmanlara qoşulmuşdur.

Nə olursa olsun, səbir xüsusiyyəti hər iki ayədə döyüş iştirakçılarının say tarazlığının olmamasını bərpa etməyə səbəb kimi göstərilmişdir.

2. Zülmkar Calut müqabilində haqqı tələb edən Talutun mübarizə səhnəsinin təsfirində Allah belə buyurur:

وَ لَمَّا بَرَزُواْ لِجَالُوتَ وَ جُنُودِهِ قَالُواْ رَبَّنَا أَفْرِغْ عَلَيْنَا صَبْراً وَ ثَبِّتْ أَقْدامَنَا وَ انْصُرْنَا عَلَى الْقَوْمِ الْكافِرِينَ* فَهَزَمُوهُم بِإِذْنِ اللَّه

*"Onlar Calut və onun qoşunu ilə vuruşmaq üçün qarşılaşdıqları zaman dedilər: "Ey Rəbbimiz, bizim qəlblərimizə səbir və dözüm nazil et, qədəmlərimizi möhkəmləndir və bizə kafir qövm üzərində qələbə üçün yardım et." Beləliklə, Allahın köməyi ilə onları məğlub etdilər."*[2]

Bu mübarizənin necəliyinin Quran və tarixdən mütaliə edilməsi göstərir ki, Talut bir neçə dəfə öz qoşununu yeniləmiş və səbirsiz şəxsləri qoşunundan

*1. «Ənfal» surəsi, ayə 66.*

*2. «Bəqərə» surəsi, ayə 250 və 251.*

kənarlaşdırmışdır. Bununla belə, əgər "səbir" "təslim" məfhumuna bərabər olsa, onda, düşmən qoşunu ilə üzləşdikdə, Allahdan səbir diləməyin nə mənası var? Maraqlı burasıdır ki, döyüş meydanında qədəmlərin sabit və möhkəmliyi, həmçinin, düşmən üzərində qələbə bu istəyin ardınca həyata keçmişdir. Eyni zamanda, bunların ardınca **فَهَزَمُوهُم بِإِذْنِ الله "beləliklə, Allahın köməyi ilə onları məğlub etdilər"** ayəsi "fa" hərfi ilə başlayır ki, səbir məfhumunda heç bir şəkk-şübhəyə yer qalmır.

3. Digər bir ayədə belə oxuyuruq:

و كَأَيِّنْ مِنْ نَبِيٍّ قَاتَلَ مَعَهُ رِبِّيُّونَ كَثِيرٌ فَما وَهَنُوا لِمَا أَصَابَهُمْ فِي سَبِيلَ اللّهِ وَ ما ضَعُفُوا وَ مَا اسْتَكَانُوا وَ اللّهُ يُحِبُّ الصَّابِرِينَ

*"O qədər peyğəmbərlər olmuşdur ki, onlarla birlikdə çoxlu ilahi şəxsiyyətlər vuruşmuşlar. Beləliklə, onlar Allah yolunda düçar olduqları şey müqabilində süstləşərək zəifləmədilər və əyilərək təslim olmadılar. Allah səbirliləri sevir."*[1]

Burada da, səbir mücahidlər barəsində istifadə edilərək hadisələr qarşısında süstlük göstərmək, ruhiyyə acizliyi və təslim mənasının müqabilində işlənilmişdir. Onun müqabilindəki şahidə diqqət yetirdikdə, səbir məfhumunun bu üç mövzuya zidd olduğu aydın olur.

Quran ayələrində dəfələrlə "səbir" sözü Allah yolunda cihad edənlər barəsində işlənilmişdir. Məsələn:

ثُمَّ جهَدُوا وَ صَبَرُوا

*"Sonra cihad və Allah yolunda səbir etdilər."*[2]

---

*1. «Ali-İmran» surəsi, ayə 146.*

*2. «Nəhl» surəsi, ayə 110.*

وَ إِن تَصْبِرُواْ وَ تَتَّقُواْ لَا يَضُرُّكُمْ كَيْدُهُمْ شَيْئا

*"Əgər səbir etsəniz və təqvalı olsanız, onların hiylələri sizə heç bir ziyan yetirə bilməz."* [1]

يَا أَيُّهَا الَّذِينَ ءَامَنُواْ اصْبِرُواْ وَ صَابِرُواْ وَ رَابِطُوا

*"Ey iman gətirənlər, səbirli olun və başqalarını da səbirə sövq edin."*[2]

Aydındır ki, mücahidlər barəsində səbir və müqavimətdən başqa, digər bir şey ola bilməz.

4. Müxtəlif hallarda da səbir məsələsi rəhbər və öndərlər barəsində qeyd edilmiş və onlar istər-istəməz yolu üzərində olan çətinliklərə səbir etməyə dəvət olunmuşdur:

فَاصْبِرْ كَمَا صَبَرَ أُوْلُواْ الْعَزْمِ مِنَ الرُّسُل

*"Buna görə də, (dörd şəriət sahibi – Nuh (ə), İbrahim (ə), Musa (ə) və İsa (ə) kimi) Allahın elçilərindən olan möhkəm əzm sahiblərinin səbir etdikləri kimi səbir et. "*[3]

Həmçinin, çoxlu sayda digər ayələri misal göstərmək olar. Bu və buna bənzər başqa ayələr Peyğəmbər (ə) və digər ilahi rəhbərlərin camaatın hidayəti və onlara rəhbərlik, fəsad, xurafat, ayrı-seçkilik və sitəmlə mübarizə yolunda qarşılaşdıqları taqətkəsən çətinliklərə işarə edərək onları düşmənçilik, cəhalət, təəssübkeşlik və s. müqabilində səbirli olmaq və müqavimət göstərməyə dəvət edir. Nəticədə, onun təslim və sükutla zidd olması məlumdur.

---

*1. "Ali-İmran" surəsi, ayə 120.*

*2. "Ali-İmran" surəsi, ayə 200.*

*3. «Əhqaf» surəsi, ayə 35.*

5. Əksər hallarda səbirə dəvət həyat çətinlikləri və müsibətlər müqabilindədir ki, müsibətin böyüklüyündən insan qorxmasın, məyus və qəmgin olmasın, həmçinin, iztiraba düçar olaraq öz qüvvəsini hədər yerə sərf etməsin. Əksinə, yüksək ruhiyyə ilə müsibətlərə sinə gərsin və onu aradan qaldırmaq üçün mümkün olan qədər təlaş göstərsin. Belə hallarda səbirin müqabilində ah-nalə etmək və səbirsizlik göstərmək dayanır:

وَ اصْبِرْ عَلَى مَآ أَصَابَكَ إِنَّ ذلِكَ مِنْ عَزْمِ الْأُمُور

*"(İnsanlar və Allah qarşısında olan vəzifələrinə əməl edərkən baş verəcək çətin hadisələrdən) sənə yetişənə döz ki, bunlar vacib əmrlərdən və mühüm işlərdəndir. "*[1]

Bəzən bu səbir, hətta cihaddakı səbirlə bir sırada hesab edilmişdir.

والصَّابِرِينَ فِى البأْسَاءِ و الضَّرَّاءِ و حينَ البَأْس

*"Məhrumiyyət və xəstəliklər müqabilində və döyüş meydanlarında səbir edərlər."*[2]

Deməsək də, məlumdur ki, təslim mənasında olan səbir nə əzəmətli işlərdəndir, nə də cihad və döyüşdəki səbirlə bir sıradadır, əksinə böyük hadisələr müqabilində davamiyyət və müqavimət mənasındadır.

6. İslam alimləri ayə və hədis mənbələrindən istifadə etməklə səbiri üç şöbəyə ayırmışlar:

"İtaətə səbir", "günah müqbilində səbir" və "müsibətə səbir". Bu, "səbir" məfhumunun "müqavimət" və "davamiyyət" mənasında olmasına digər bir şahiddir, çünki itaət və vəzifəyə əməl etmək istiqamətində daima

*1. «Loğman» surəsi, ayə 17.*

*2. «Bəqərə» surəsi, ayə 177.*

çətinliklər mövcuddur ki, müqavimətli fərdlərdən başqa, digərləri onunla üzləşməyə qadir deyillər. Eyni zamanda, günahı tərk etmək üçün də vəsvəsələr və günaha meyil, həmçinin, müsibət və çətinliklər müqabilində şiddətli müqavimət gərəkir.

7. Əksər rəvayətlərdə səbirin bədənə nisbətdə baş mənziləsində olduğu qeyd edilmişdir. "Nəhcül-bəlağə"də oxuyuruq:

وَ عَلَيْكُمْ بِالصَّبْرِ فَإِنَّ الصَّبْرَ مِنَ الإِيمَانِ كَالرَّأسِ مِنَ الجَسَد

*"Sizə səbiri tövsiyə edirəm. Həqiqətən, səbirin imana nisbəti başın bədənə nisbəti kimidir."* [1]

İmam Səccaddın (ə) belə buyurduğu (ə) nəql edilmişdir:

الصَّبْرُ مِنَ الإِيمَانِ بِمَنْزِلَةِ الرَّأسِ مِنَ الجَسَدِ وَ لَاإِيمَانَ لِمَنْ لَاصَبْرَ لَه

*"Səbirin imana nisbəti başın bədənə nisbəti kimidir və səbiri olmayan kəsdə iman yoxdur."* [2]

Həmçinin, imam Sadiqdən (ə) belə nəql edilmişdir:

الصَّبْرُ رَأْسُ الإِيمَان

*"Səbir imanın başıdır (əsasıdır)."* [3]

Bu rəvayətlərdən İslam məntiqində səbirin əhəmiyyəti açıq-aşkar məlum olur. Bilirik ki, bədənin bütün üzvlərinə göstəriş verən beyindir, bundan əlavə, insanın xaric aləmindəki bütün rabitə vasitəsi demək olar ki, başda yerləşmişdir. İmanla bağlı hər hansı bir hədəfə – istər tərbiyəvi, ictimai və humanist olsun,

1. *«Nəhcül-bəlağə», qısa kəlamlar, 82.*
2. *«Üsuli-kafi", c.2, səh. 89.*
3. *«Üsuli-kafi", c.2, səh. 87.*

istərsə də elmi, mədəni və siyasi hədəf – nail olmaq üçün müqavimət və davamiyyətin birinci şərt olması ilə səbirə təkid etməyin sirri aşkar olur.

Qeyd edilənlərin məcmusundan səbirin sözün əsil mənasında, ictimai, tərbiyəvi, mənəvi və maddi məsələlərdə islahedici məfhuma malik olduğu, həmçinin, təslim və süstlüyün müqabili və qarşısında dayandığı və insana qüvvə bəxş edərək digərlərindən ehtiyacsız etdiyi məlum olur.

İmam Baqirdən (ə) "yaxşı səbir nədir?" deyə soruşulduqda, belə buyurur:

ذَلِكَ صَبْرٌ لَيْسَ فِيهِ شَكْوَى إِلَى النَّاس

*"O səbirdir ki, onda insanlara şikayət və giley olmasın."* [1]

Eyni zamanda, məşhur ərəb zərbül-məsəlində deyildiyi kimi, səbir qələbə çalmağa səbəb olur:

إِصْبِرْ تَظْفَر

*"Səbir et ki, qalib olasan!"*

Həmçinin, məşhur bir ərəb şeirində belə qeyd edilib:

إِنِّى رَأَيْتُ و لِلأيّامِ تَجربةٌ     للصَّبْرِ عَاقِبَةٌ مَحْمُودةُ الأثَرِ

و قل مَن جَدَّ فِى أمْرٍ يُطالبه     فَاستَصْحَبِ الصَبْرَ إلّافَازَ بالظَّفَر

*"Mən sınaqdan keçirmişəm ki, səbirin yaxşı nəticəsi olur və nəyi isə əldə etmək üçün ciddiyyət göstərib səbir edənlər öz məqsədlərinə nail olurlar."*

Peyğəmbər (s) buyurur:

الصَّبْرُ ثَلَاثةٌ صَبْرٌ عِندَ المُصِيبةِ و صَبرٌ عَلَى الطَّاعَةِ وَ صَبْرٌ عَنِ المَعْصِيَة

*1. «Üsuli-kafi", c.2, səh. 93.*

*"Səbir üç qismdir: Müsibətdə səbir etmək, itaətdə səbir etmək və günah müqabilində səbir etmək."* [1]

## Səbirin mənbə və təsirləri

Ötən bəhslərdən müxtəsər olaraq səbirin "müqavimət", "davamiyyət", "hövsələ", "dözüm" mənasında və ya "ruhiyyə zəifliyi", "ah-nalə", "səbirsizlik" mənasının ziddinə olması məlum oldu. Bütün bu məfhumların qaynağı bir həqiqətə iman və ondan kamil şəkildə agah olmaq, həmçinin, ona nisbətdə məhəbbət və meyilli olmaqdır. Hər hansı bir hədəfə nisbətdə zəif imanı, cüzi məlumatı və çox az marağı olan kəslər heç vaxt hədəfləri yolunda səbir və davamiyyət göstərmir və hadisələr meydanını sürətlə tərk edirlər. Amma nəticə baxımından, səbirin psixoloji və ictimai təsirləri vardır ki, islami rəvayətlərdə onlara işarə edilmişdir.

### *1. Səbir qüdrət yaradır*

İmam Baqir (ə) və ya imam Sadiqdən (ə) belə nəql edilib:

مَنْ لَايَعد الصَّبْرَ لِنَوَائِبِ الدَّهْرِ يَعْجُز

*"Hadisələr qarşısında səbir etməyən kəslər acizləşərlər."* [2]

### *2. Səbir şəxsiyyət nişanəsidir*

مُرُوةُ الصَّبْرِ فِي حَالِ الحَاجَةِ وَ الفَاقَةِ وَ التَّعَفُفِ وَ الغِنَاءِ أَكْثَرُ مِنْ مُرُوةِ الإِعْطَاء

---

*1. «Üsuli-kafi», c.2, səh. 91.*

*2. «Üsuli-kafi", c.2, səh. 93.*

*"Digərlərinə kömək etmək və ehtiyaclılara bəxşiş vermək şəxsiyyətliliyin nişanəsi olsa da, ehtiyaclı, çətin və məşəqqətli halda səbir etmək və digərlərinə əl açmamaq, əksinə özünə arxalanmaq insan şəxsiyyətinin daha bariz olasına işarədir."* [1]

### 3. Səbir müqavimət qüvvəsini artırır

Hədisdə belə qeyd edilmişdir:

لَوْلَا أَنَّ الصَّبْرَ خُلِقَ قَبْلَ البَلَاءَ لَتَفْطَرُ المُؤْمِنُ كَمَا تَتَفَطَّرُ البِيضَةُ عَلَى الصَّف

*"Əgər insanda müqavimət qüvvəsi çətinlik və hadisələrdən qabaq yaradılmasaydı, imanlı şəxslər hadisələr qarşısında yumurtanın daşa dəyib sındığı kimi, darmadağın olardı."* [2]

### 4. Səbir insanı haqqa tərəfdarlığa dəvət edir

Müqavimətsiz insanlar haqqa tərəfdar ola bilməzlər, çünki təcavüzkar, həvəsbaz və mənfəətpərəst insanlar müqabilində haqqın icra edilməsinin həmişə müəyyən çətinlikləri var ki, səbir qüvvəsi olmadan onların qarşısında davam gətirmək mümkün deyil. İmam Səccaddan (ə) belə bir hədis nəql edilir:

اصْبِرْ عَلَى الحَقِّ وَ انْ كَان مُرًّا

*"Acı da olsa, haqq qarşısında səbirli ol!"* [3]

### 5.Heç bir iş səbirsiz həyata keçmir

Heç bir müsbət addım maneəsiz deyil və səbirsizliklə də irəli getmir. Əmirəl-möminin Əlidən (ə) belə nəql

---

*1. «Üsuli-kafi", c.2, səh. 93, hədis: 22.*

*2. «Üsuli-kafi», c.2, səh. 93, hədis: 20.*

*3. «Üsuli-kafi», c.2, səh. 93, hədis: 13.*

edilir:

ذَا فَارَغَ الصَّبْرُ الأمُورَ فَسَدَتْ الأمُور

*"İşlərdən səbir ayrıldığı zaman, işlər fasidləşər."*[1]

### *6. Səbir azadlıq və müstəqillik nişanəsidir*

Yaranan əsarətlər müqavimətin olmamasındandır. Əbu Bəsir imam Sadiqdən (ə) belə nəql edir:

إنّ الحُرَّ حُرٌّ على جَمِيعِ أحْوَالِهِ إن نَابَتْهُ نَائِبَةٌ صَبَرَ لَهَا وَ إنْ تَدَاكَتْ عَلَيْهِ المَصَائِبُ لَنْ تَكْسِرْه

*"Azad şəxs bütün hallarda azaddır. Xoşagəlməz hadisələr müqabilində müqavimət göstərər və müsibətlərin çoxluğu onun iradəsini zəiflətməz."*

### *7. Səbir düşmənə qalib gəlmək vəsiləsidir*

Dünya tarixinin bütün sətirləri qələbələrin səbir və müqavimət sayəsində əldə olunması həqiqətindən xəbər verir. İmam Sadiqdən (ə) nəql olunan uzun bir rəvayətin sonunda belə oxuyuruq:

فَمَنْ صَبَرَ وَ احْتَسَبَ لَمْ يَخْرُجْ مِنَ الدُّنْيَا حَتَّى يُقِرُّ اللّهُ لَه عَيْنَهُ فِي أعْدَائِه

*"Bu hədisdə qeyd edilən "ehtisab" sözündəki məqsəd insanın hansısa bir işi Allaha xatir görməsi və hesabını onun ixtiyarına qoymasıdır. Belə edən kəslər düşməninə qalib gəlməmiş dünyadan getməz."* [2]

---

1. *«Üsuli-kafi», c.2, səh. 93, hədis: 9.*
2. *«Üsuli-kafi", c.2, "Səbir" bölməsi, səh. 93, hədis: 3.*

## 7. Təqiyyə

Görəsən, dini təlimlərdə təqiyyənin olması dinlərə meyillə bağlı iqtisadi istismar amillərinin təsirinə digər bir dəlil deyilmi?

Bütün ictimai fenomenlərə iqtisadi prizmadan yanaşan və ictimai çarxları fırladanın (hərəkət etdirənin) iqtisadi amillər olduğunu hesab edən kəslərin bu suala belə cavab verməsi mümkündür:

"Bəli, təqiyyə insana xətər hiss etdikdə, öz iman və əqidəsini gizlətməyi və özünü mübarizə meydanından kənara çəkərək meydanı digərlərinə həvalə etməyi öyrədir və bu, hər cür istismarçı təlaşda sonuncu arzudur." Təqiyyə insanı qorxaq və mühafizəkar olaraq yetişdirir və onlarda şəhadət, fədakarlıq və əqidə müqabilində dayanmaq ruhunu öldürərək insanlara özlərini qorumaq üçün məktəblərinin üsullarını unutmağa göstəriş verir. Bu cür təfəkkür tərzinin süstləşdirici təsirə malik olması heç kəsə qaranlıq deyil.

## Tədqiq və araşdırma

Bir daha əvvəldə dediklərimizi təkrar edərək bu cür düşünülməmiş və qeyri-düzgün hökmlərin məhdud mütaliələr və əsil dini mənbələrin araşdırılmaması və məfhumların bəzi avam camaatın dilindən götürülməsindən başqa, digər qaynağının olmamasını bildirməyə məcburuq. Həmçinin, bəhsin bir sıra cəhətlərdən diqqətəlayiq, ictimai və dini mütaliələrdə dərin təsirə malik olduğunu nəzərə alaraq, geniş şərhlərlə onun barəsində söhbət açmaq və bəhsin aydın olması üçün aşağıdakı bir neçə mövzunu araşdırmaq zəruridir:

*1. Təqiyyə nədir?*

*2. Dini mənbələrdə (Quran və sünnədə) təqiyyə.*
*3. Təqiyyənin fəlsəfəsi.*
*4. Müxtəlif ictimai və siyasi məktəblərdə təqiyyə.*
*5. Təqiyyənin qisim və şəkilləri.*
*6. Təqiyyənin hökmləri (vacib təqiyyə, haram təqiyyə və ...).*

Hazırda yuxarıdakı mövzuların hər birini ayrılıqda araşdırmağa başlayırıq:

### *1. Təqiyyə nədir?*

"Təqiyyə" sözü əslində "itqa", "təqva" kökündən olmaqla "özünü qorumaq", "pəhriz etmək" və "çəkinmək" mənasındadır. Dini terminologiyada aşağıdakı kimi təfsir edilmişdir:

التقية ستر الاعتقاد و مكاتمة المخالفين

"Təqiyyə müxaliflər müqabilində əqidəni gizlətmək mənasındadır."[1]

Bəzən də belə qeyd etmişlər:

المراد من التقية التحفّظ عن ضرر الغير بموافقته فى قول او فعل مخالف له

*"Təqiyyə danışıqda onunla razılaşmaq və həqiqətin əksinə rəftar etmək vasitəsilə digərinin ona zərər verməsinin qarşısını almaqdır."*[2]

Təqiyyənin əsil ünsürünü iki məsələ təşkil edir: Birincisi, əqidənin gizlədilməsi və onun ziddinə olan hər hansı bir əmələ baş vurmaq, ikincisi, zərər və ziyandan mühafizə olunmaq. Amma bilinməsi mühüm olan budur

*1. Şeyx Müfid, «Təshihul-etiqad», səh. 66.*
*2. Şeyx Ənsarinin "Məkasib"ə əlavə edilmiş təqiyyə barədəki risaləsindən.*

ki, təqiyyə nə hər yerdə vacibdir, nə də caiz, əksinə bəzi hallarda haram, bəzən vacib və bəzən də mübahdır. Fiqhi ifadə ilə desək, beşlik təşkil edən hökmə əsaslanır və onun haram, vacib və caiz olması müəyyən edilmədən bu zəminədə hökm vermək düşünülməmiş bir işdir.

### *2. Dini mənbələrdə (Quran və sünnədə) təqiyyə*

Bu bəhsin son hədəfinin həmin məsələlər zəminəsində islami təlimlərin anlaşılması olduğu üçün, ictimai bəhslərin bəyanı və bu hökmün fəlsəfəsinin araşdırılmasından qabaq, dini mətnlər və islami təlimlərin bir qisminin həmin zəminədə eynilə tədqiq edilməsi zəruridir. Quranda bir neçə yerdə təqiyyə məsələsinə həmin sözlə (təqiyyə) və ya onun qarşılığı olan ifadələrlə işarə edilmişdir. Həzrət İbarhimin (ə) sərgüzəşti barədə belə oxuyuruq:

“Babil bütpərəstləri bütlə bağlı əyləncə təşkil etmək üçün şəhərin kənarına getdikləri zaman, İbrahimi (ə) də ora dəvət etdilər, lakin o, özünü yaxşı hiss etmədiyini bildirdi:

فَقَالَ إِنِّي سَقِيم

*“Dedi ki, mən xəstəyəm.”*[1]

Halbuki, cismi cəhətdən xəstə deyildi, əksinə toriyə etdi və onun məqsədi camaatın azğınlığından ruhi sıxıntı keçirməsi idi. Amma camaat onun sözlərindən həqiqətən də, xəstə olduğunu başa düşdü və digər ayələrdə də Quranın işarə etdiyi kimi, həzrət İbrahim (ə) öz hədəfini – bütləri sındırmağı – həyata keçirdi. O,

*1. «Saffat” surəsi, ayə 89.*

belə bir taktika (fənd) ilə bütlərin sındırılması və camaatı azadlığa çıxarmağın müqqəddiməsini hazırlamaq olan əsil hədəfini həyata keçirdi. Əgər şəhərdə qalmaqla bağlı öz hədəfini aşkarcasına desəydi, heç vaxt bu hədəf reallaşmazdı."

"Kafi" kitabında imam Sadiqdən (ə) hədis nəql edilmişdir ki, həzrət İbrahimin (ə) sözləri həmin hədisdə təqiyyənin nümunəsi kimi tanıtdırılmışdır.[1]

Ali-Fironun mömini barəsində belə oxuyuruq:

وَ قَالَ رَجُلٌ مُّؤْمِنٌ مِّنْ ءَالِ فِرْعَوْنَ يَكْتُمُ إِيمَانَهُ أَتَقْتُلُونَ رَجُلًا أَنْ يَقُولَ رَبِّىَ اللَّهُ وَ قَدْ جَآءَكُمْ بِالْبَيِّنتِ مِنْ رِبِّكُمْ وَ إِنْ يَكُ كذِباً فَعَلَيْهِ كَذِبُهُ وَ إِنْ يَكُ صَادِقاً يُصِبْكُم بَعْضَ الَّذِى يَعِدُكُمْ إِنَّ اللَّهَ لَا يَهْدِى مَنْ هُوَ مُسْرِفٌ كَذَّاب

*"Fironun ailəsindən olub imanını (onlardan) gizlədən mömin bir kişi dedi: "Məgər siz "mənim Rəbbim Allahdır" deməyə görə bir kişini, sizin üçün Rəbbiniz tərəfindən aydın dəlillər gətirdiyi halda, öldürəcəksiniz?! Əgər o yalançı olsa, yalanı öz ziyanınadır. Əgər doğruçu olsa, (dünya və axirət əzablarından) vəd etdiyinin (ən azı) bir hissəsi sizə yetişər. Həqiqətən, Allah israfçı və yalançını hidayət etmir (və Musa doğruçu olduğu təqdirdə, siz israfçı və yalançısınız).""*[2]

Burada söhbət Firon hakimiyyət aparatında olan və öz əqidə və imanını gizlədən vəfadar və fədakar bir mömindən gedir ki, o, imanını gizlətməklə həzrət Musanın (ə) qətlə yetirilməsi ilə bağlı məclis təşkil edilməsi qərarının alındığı həssas bir toplantıda məzlumları müdafiə edən və firon tərəfdarları ilə camaatı

---

*1. «Vəsailuş-şiə", "əmr be məruf" bölməsi, 25-ci bölmə, hədis: 4.*

*2. "Ğafir" surəsi, ayə 28.*

mübarizəyə səsləyən bir şəxsi himayə etmək rolunu ifadə edə bilir. Onun tutarlı məntiqi və haqq axtarışında olması çox yaxşı şəkildə yuxarıdakı və sonrakı ayələrdə nəzərə çarpır. Aydın məsələdir ki, əgər o, öz əqidəsini aşkar etməkdə tələssəydi, elə bir həssaz zamanda həzrət Musanı (ə) müdafiə edə bilməzdi.

Peyğəmbərin (s) bir sıra tərəfdarlarının İslam hələ yayılmadığı zamanlar və düşmənlərin hərtərəfli həmlələrindən qaynaqlanan şiddətli məhrumiyyətlərdə düçar olduqları təzyiqlər barəsində Quranda belə buyurulur:

لَّا يَتَّخِذِ الْمُؤْمِنُونَ الْكفِرِينَ أَوْلِيَآءَ مِن دُونِ الْمُؤْمِنِينَ وَ مَن يَفْعَلْ ذلِكَ فَلَيْسَ مِنَ اللَّهِ فِى شَىْءٍ إِلَّا أَنْ تَتَّقُواْ مِنْهُمْ تُقَاة

*"Möminlər möminlərin yerinə kafirləri dost, köməkçi və başçı seçməməlidirlər. Kim belə etsə, - onlardan bir növ təqiyyə edənlər istisna olmaqla – (onun) Allahla heç bir əlaqəsi yoxdur."*[1]

"Təqa" və "təqiyyə" sözlərinin eyni kökdən və məfhumdan olmasına diqqət yetirdikdə, məlum olur ki, bu ayədə möminlərin təqiyyə zamanı qeyri-müsəlmanlara özlərini döst kimi göstərməsinə icazə verilmişdir. Bu ayə barəsində təfsirçilərin dediyi kimi, İslamın əvvəllərində bəzən İslam düşmənləri bəzi müsəlmanları təklikdə yaxaladıqda, təzyiqə məruz qoyurdular ki, Peyğəmbərdən (s) uzaq olduğunu və onlara (düşmənlərə) nisbətdə dostluğunu izhar etsin. Belə təkliflər müqabilində müqavimət sonunda müsəlman fərdlərin boş yerə tələf olması, qüvvələrin hədər yerə aradan getməsi ilə nəticələndiyi üçün, onlara

*1. "Ali-İmran" surəsi, ayə 28.*

göstəriş verildi ki, müqavimət göstərərək qüvvələrini hədər etməsinlər. Bu, haqq və ədalət tərəfdarlarının batil və zalım qüvvələr müqabilindəki ümumi bir taktikası olmuşdur.

Həmçinin, "Yasin" surəsinin 14-cü ayəsində Məsihin (ə) göndərdiyi elçilərdən söhbət açılır. Ayənin nazil olma səbəbi ilə bağlı oxuyuruq ki, Məsihin göndərdiyi iki elçi Antakya hakiminin zindanına düşür və onların üçüncüsü həmin elçiləri xilas etmək və camaatı hidayətlə bağlı məsuliyyəti öz öhdəsinə götürərək təqiyyə edir və hökumət aparatıına o qədər nüfuz edir ki, Antakya hökmdarının müşaviri məqamına yüksəlir və daha sonra islami rəvayətlərdə qeyd edildiyi kimi, xüsusi bir tədbirlə dostlarını zindandan xilas edərək tövhid toxumunu həmin məhtəqədə səpə bilir.

Eyni zamanda, Peyğəmbərin (s) iki tərəfdarının düşmənlərin şiddətli təzyiqinə məruz qalması barədə belə oxuyuruq:

مَنْ كَفَرَ بِاللَّهِ مِن بَعْدِ إِيمانه إِلَّا مَنْ أُكْرِهَ وَ قَلْبُهُ مُطْمَئِنٌّ بِالْإِيمان

*"Qəlbi imanla rahatlıq tapdığı (və imana bağlı) halda (küfr deməyə) məcbur olan şəxs istisna olmaqla, kim imanından sonra Allaha küfr etsə, (hər kafirə deyil,) öz sinələrini küfrlə şad edib genişləndirənlərə Allah tərəfindən bir qəzəb və böyük bir əzab vardır (küfr sözlər danışmağa məcbur edilənlər isə, Allahın qəzəbinə düçar olmayacaqdır)."*[1]

Ayənin nazil olma səbəbində müxtəlif fərdlərin, o cümlədən, Əmmar Yasir, onun atası Yasir, anası Süməyyə, Süheyb, Bilal kimilərinin adları çəkilməsinə baxmayaraq, bütövlükdə bir mövzudan bəhs edir ki, bəzi

*1. «Nəhl» surəsi, ayə 106.*

müsəlmanlar öz canlarının qorunması, insani qüvvələrin hədər getməməsi üçün təqiyyə səbəbilə müşriklərin dini ilə müvafiq olduqlarını izhar etmişlər və Quran onların bu üslubunu təsdiqləyir. Bunlar əvvəlki qövmlər və ya İslam ümmətində olan təqiyyənin nümunələridir və təqiyyənin həqiqi məfhumu və onun əsil siması buradan məlum olsa da, onun şərhini sonradan verəcəyik.

Ayələrdən əlavə, islami rəvayətlərdə də təqiyyənin xüsusi şəraiti barədə çoxlu təkidlər edilmişdir ki, onlara nəzər saldıqda, bəzilərini təəccübləndirməsi mümkündür. Məsələn:

1. Əksər rəvayətlərdə təqiyyə "sipər" (qalxan) və "mühafizə qüvvəsi" kimi tanıtdırılmışdır. İmam Sadiqdən (ə) olan bir hədisdə belə qeyd edilmişdir:

التَقِيَّةُ تَرْسُ المُؤمِنِ و التَقِيَّةُ حِرْزُ المُؤمِن

*"Təqiyyə möminin mühafiz və sipəridir."*[1]

Digər hədisdə imam Baqirdən (ə) belə nəql edilir:

إنَّ التَّقِيَّةَ جُنَّةُ المُؤمِن

*"Təqiyyə möminin sipəri və onun qoruyucu vasitəsidir."*[2]

2. Rəvayətlərdə təqiyyənin "səbir" kimi "başın bədənə nisbəti" mənziləsində olduğuna işarə edilmişdir. İmam Həsən Əsgəridən (ə) belə nəql edilir:

مَثَلُ مُؤْمِنٍ لَاتَقِيَّةَ لَهُ كَمَثَلِ جَسَدٍ لَارَأْسَ لَه

*"Təqiyyəsi olmayan möminin misalı başı olmayan bədən misalıdır."*[3]

*1. «Vəsailuş-şiə», c.11, 24-cü bölmə, hədis: 6.*

*2. «Vəsailuş-şiə», c.11, «əmr be məruf bölməsi», 28-ci bölmə, hədis: 4.*

*3. Həmin yerdə, hədis: 2.*

3. Bəzi rəvayətlərdə din qardaşlarının haqlarını ödəməklə bağlı iki vacibat ən böyük fərizə kimi qeyd edilmişdir. İmam Həsən Əsgərinin (ə) وَ عَمِلُوا الصالحات ayəsinin təfsiri barədə belə söylədiyini oxuyuruq:

وَ أعْظَمُهَا فَرْضَانِ: قَضَاءُ حُقُوقِ الإخْوَانِ فِى اللّهِ وَ اسْتِعْمَالُ التَقِيَّةِ مِنْ أعْدَاءِ اللّه

*"Ən böyük fərizə iki ədəddir: Birincisi, Allaha xatir din qardaşlarının haqqını ödəmək, ikincisi, Allah düşmənləri müqabilində təqiyyədən istifadə etmək."*[1]

Həmçinin, Əmirəl-möminin Əlidən (ə) belə nəql edilmişdir:

التَّقِيَّةُ مِنْ أفْضَلِ أعْمَالِ الْمُؤْمِنِ يَصُونُ بِهَا نَفْسَهُ وَ إخْوانِهُ عن الفَاجِرِين

*"Təqiyyə möminin ən fəzilətli əməlidir ki, onun vasitəsilə özü və din qardaşını günahkarlardan hifz edir."*[2]

4. Bir sıra rəvayətlərdə təqiyyə mücahid və mübariz olan əvvəlki peyğəmbərlərin sünnəsi ünvanında tanıtdırılmışdır. İmam Sadiq (ə) buyurur:

عَلَيْكَ بِالتَّقِيَّةِ فَانَّهَا سُنَّةُ إبْراهِيمُ الخَلِيلِ عليه السلام ... وَ قَالَ رَسُولُ اللّهِ صلى الله عليه و آله: امَرَنى رَبِّى بِمُدَارَاةِ النَّاسِ كَمَا أَمَرَنِى بِإقَامَةِ الفَرَائِضِ وَ لَقَدْ أَدَّبهُ اللّهُ عَزَّ وَ جَلَّ بِالتَّقِيَّةِ فَقَالَ: إدْفَعْ بِاللَّتِى هِىَ أَحْسَنُ فَإِذَا الَّذى بَيْنَكَ وَ بَيْنَهُ عَدَاوَةٌ كَأَنَّهُ وَلِىٌّ حَمِيمٌ ... مَنْ اسْتَعْمَلَ التَّقِيَّةَ فِى دِينِ اللّهِ فَقَدْ تَسْنَمُ الذَّرْوَةَ العُلْيَا مِنَ الْقُرْآن

---

*1. Həmin yerdə, hədis: 1.*

*2. Həmin yerdə, hədis: 3.*

*"Sənə İbrahim Xəlilin (ə) (bütləri qıran qəhrəmanın) sünnəsindən olan təqiyyə etməyi tövsiyə edirəm. İslam Peyğəmbəri (s) buyurmuşdur ki, Rəbbim vacibləri yerinə yetirməyi əmr etdiyi kimi, mənə camaatla xoş rəftar etməyi, yaxşılıq etməklə düşmənlərimi dostuma çevirməyi əmr etmişdir... Allah dinində təqiyyəyə riayət edən kəslər Quranda bildirilən ən uca zirvələrə çatmışdır."*[1]

Hədisdən təqiyyənin geniş məfhuma malik və hətta öz hədəfinə çatmaq üçün camaatın qəzəbi qarşısında tab gətirməyə də şamil olduğu başa düşülür.

### *3. Təqiyyənin fəlsəfəsi.*

Yuxarıda nəql etdiyimiz ayə və rəvayətlər sayəsində təqiyyənin əsil fəlsəfəsinə qısa şəkildə işarələr etsək də, bu mövzuya şərh verilməlidir ki, heç bir qaranlıq məsələ qalmasın və təqiyyəni bir maneə amili hesab edən kəslər məsələnin başqa cür, əksinə onun mübarizə üçün nəzərdə tutulmuş bir taktika olduğunu bilsinlər.

Təqiyyə və batini əqidənin məxfi saxlanılması İslamın nəzərində müxtəlif məntiqi hədəf və islahata malikdir:

1. Bəzən azlıq təşkil edən saleh bir qrup çoxluq təşkil edən qeyri-saleh cəmiyyətdə giriftarçılığa düçar olur. Əgər onlar öz islahatçı mübarizələrinin başlanğıcında bütün hədəf, plan, proqram və əqidələrini aşkar etsələr, əksəriyyəti təşkil edənlər vasitəsilə məhv edilərlər. Bu yerdə düzgün metod hədəfin gizlədilməsi və ona etiqadı sona çatdırmaq üçün ölçülüb-biçilmiş proqramlardan istifadə edilməsini gərəkdirir. Belə hallarda təqiyyə meydanı boşaltmaq və geri çəkilmək mənasında deyil, əksinə meydanda sağ qalmaq və hədəf üçün daha artıq müqavimət göstərmək məqsədilədir. Başqa bir ifadə

*1. «Vəsailuş-şiə», c.11, 24-cü bölmə, hədis: 16.*

ilə desək, mübarizə formasını dəyişmək və müsbət üsullardan istifadə etməkdir. Bir-birinə bənzər iki cəbhədə mübarizəyə qalxmış olan həzrət İbrahim (ə) və Ali-Fironun mömini barəsindəki təqiyyədə bu növ təqiyyə daha yaxşı şəkildə özünü büruzə verir. Təqiyyəni "mömininin sipər və qalxanı" kimi tanıtdıran rəvayətlərdə həmin mənaya işarə edilmişdir.

2. Bəzən təqiyyədə hədəf qüvvələrin hədər edilməsinin qarşısını almaqdır. Məsələn, hansısa bir fərd və ya fərdlərin öz batini əqidəsini izhar etməklə həmişəlik olaraq ictimai mübarizə səhnəsindən əqidsini aşkar edərək heç bir nəticə əldə etmədiyi halda kənarlaşdırılması dəfələrlə baş vermişdir. Belə yerdə əql və məntiq qüvvələrin hədər edilməsilə nəticələnən yersiz hissiyyatlara qapılmamağı və qüvvələri lazımı mövqelər üçün qorumağı hökm edir. Əmmar Yasir və bəzi digər Peyğəmbər (s) səhabələrinin inadkar və sadəcə dillə nifrət edilməsinin izharından xoşallanan və bunlarsız tərəf müqabilini məhv edən düşmənlər qarşısındakı təqiyyəsi bu qəbildən olan təqiyyədir. Belə hallarda əql təqiyyə etməklə insanın qüvvələrini qorumasına və beləliklə, vaxtı yetişdiyində Məkkə müşrikləri kimi düşmənlərə sarsıdıcı zərbə endirə bilməsinə göstəriş verir.

Həqiqətdə, bu növdən olan təqiyyə həyatın bütün sahələrində cari və əqlə əsaslanan ən əhəmiyyətli və mühüm qanunlardan ilham alır. Təqiyyəni başın bədənə nisbəti kimi tanıtdıran rəvayətlərin bu növ və ya əvvəlki qisimdən olan təqiyyəyə işarə etməsi də mümkündür.

3. Bəzən də vəhdətin qorunması, təfriqə və düşmənin pərakəndəlikdən sui-istifadəsinin qarşısının alınması üçün vəziyyət bir sıra fərdlərin həqiqi əqidəsini gizlətməsi

və daha əhəmiyyətli hədəflərin aradan qalxmamasını tələb edir. Məsələn, islami firqələrin xəlifələr zamanındakı dini ixtilafları şəraitində əql və məntiq hökm edir ki, əsil hədəfin (Quran və İslamın) varlığını mühafizə etmək üçün insanlar təqiyyədən istifadə etməli və zahiri vəhdəti qorumalıdırlar. Bəzi vaxtlar dünyanın müxtəlif məntəqələrində İslamın yayılması, millət və qövmlərin azadlığına səbəb olan cihad məsələləri də onları təsdiqləyir və yaxud günümüzdə müsəlmanların qarşı-qarşıya gəldikləri müşrik düşmənlərlə müxtəlif islami firqələr öz əqidələrini dəyişmədən və düzgün olmayan dinlər tərəfindən həzm edilmədən və ya öz dinlərinin haqq olması barədə məntiqi və dostluq bəhsləri aparmaqdan çəkinmədən həmin metoddan istifadə edə və vəhdəti qoruya bilərlər.

Bizim çoxlu sayda hədis mənbələrimizdə əhli-sünnədən olan camaat arasında olmaq və onların məscid və məclislərində iştirak etmək barədə hədislər vardır ki, bu növdən olan təqiyyəyə işarədir. Dini terminologiyada onu “müstəhəb təqiyyə” adlandırırlar.[1]

---

*1. Bir sıra rəvayətlərdə belə qeyd edilmişdir:*

**مَنْ صَلى مَعَهُمْ فِى الصف الأوّل كانَ كمَنْ صَلى خَلْفَ رَسُولِ اللهِ صلى الله عليه و آله**

*«Kim onlarla birinci cərgədə namaz qılsa, sanki Peyğəmbərin (s) arxasında namaz qılmışdır.» Bu mövzu ilə bağlı çoxlu hədislər «Vəsailuş-şiə» kitabının «camaat namazı» bölməsinin 5-ci hissəsində qeyd edilmiş və həmçinin, «Üsuli-kafi» kitabında Hişam Kəndidən imamın belə buyurduğu nəql edilmişdir:*

**إياكُمْ أنْ تَعْمَلُوا عَمَلًا نُعيرُ بِه فَإن وَلَد السوءِ يُعيرُ وَالِدَهُ بِعَمَلِه كُونُوا لِمَنْ انقَطَعْتُمْ إلَيهِ زَيْنَا وَ لَاتكونوا عليه شينا صلوا فى عشايرهم و عودوا مرضاهم و اشهدوا جنائزهم و لا يسبقونكم الى شَيْئ مِنَ الخَيرِ فَأنْتُمْ أولى بِه مِنْهُمْ وَ الله مَا عُبِدَ الله بِشَيئٍ أحب إلَيهِ مِنَ الخَبَاءِ قُلْتُ: وَ مَا الخَبَاءُ قَالَ: التقيَةُ**

*Bu hədisdə açıq-aşkar onların namazında iştirak etmək, xəstələrinə baş*

Yuxarıda Peyğəmbərdən (s) camaatın xoşagəlməz rəftarlarına qarşı təqiyyə etmək və onlarla yaxşı davranmağın günahları aradan qaldırıb onları həsənəyə çevirməsi ilə bağlı oxuduğumuz hədis də bu növdən olan təqiyyəyə işarədir.

4. Bəzən həqiqi əqidənin izhar edilməsi insan üçün heç bir xətər yaratmır, amma hansısa bir nəticə əldə olunmadan istedadı zəif insanlar onun təsirilə səbəbsiz zərərlərə, yaxud da təfriqə, pərakəndılik və sair çətinliklərə düçar ola bilərlər. Bu yerdə də əql əqidənin gizlədilməsinin maneəsiz olduğuna hökm verir. İmam Həsən Əsgərinin (ə) təfsirində imam Həsən ibn Əlidən (ə) belə nəql edilmişdir:

إنَّ التَّقِيَّةَ يَصْلَحُ اللّهُ بِهَا أُمَّةً لِصَاحِبِها مِثْلُ ثَوَابِ أعْمَالِهِمْ فَإنْ تَرَكَهَا أُهْلِكَ أُمّةٌ، تَارِكُهَا شَرِيكُ مَنْ أهْلَكَهُم

*"Ümmətin halının islah edilməsinə səbəb olan təqiyyə təqiyyə sahibi üçün onların əməllərinin mükafatı kimi nəticələnəcək, amma təqiyyənin tərki ümmətin həlak olmasına bais olarsa, o, (təqiyyə sahibi) günaha şərik olacaq."*[1]

Başqa sözlə, təqiyyənin tərk edilməsinin insanın özü, onun ictimai mövqe və nüfuzuna hansısa bir zərərinin olmaması, amma rəhbər və öndərə bağlı olan günahsız və adi insanların düşmənin həmlə etdiyi hədəfə çevrilməsinə onlara dəyən zərbələrin hədəfə yetişməkdə heç bir təsirə malik olmaması mümkündür. Bu yerdə məktəbin rəhbər və lideri (əlbəttə, xüsusi şəraitdə) öz adamlarını mühafizə etmək üçün təqiyyə üsulundan

*çəkmək və onlarla yaxşı davranmağa göstəriş verilmişdir. ("Vəsailuş-şiə", c.11, "Əmr be məruf" bölməsi, 26-cı bölmə, hədis: 2).*

*1. «Vəsailuş-şiə», c.11, «Əmr be məruf» bölməsi, 28-ci bölmə, hədis: 4*

istifadə etməlidir ki, onları təhlükədən qoruya və onların yardımı ilə əsas hədəfə çata bilsin.

Dediklərimizdən belə nəticə alınır ki, təqiyyə dörd halda caiz və məntiqi ola bilər:

1. İslahedici hədəflərə yetişmək üçün azlıq təşkil edən saleh qrupların qorunması.

2. Fayda və istiqaməti nəzərə alınmadan insan qüvvələrinin hədər getməsinin qarşısını almaq.

3. Vəhdətə şiddətli ehtiyacın olduğu hallarda məhəbbət və birlik yaratmaq.

4. Xətərlə üzləşiləcəyi zaman faydanın olmadığı hallarda, digərlərinə nisbətdə ehtimal ediləcək xətərlərin qarşısının alınması.

### *4. Müxtəlif ictimai və siyasi məktəblərdə təqiyyə.*

Bəzilərinin güman etdiyi kimi, təqiyyə bir ibadət mövzusu sayılmır və şiə kimi hansısa bir firqə və ya sadəcə İslama məxsus deyildir, əksinə təqiyyə (əlbəttə, bütün hallarda yox, xüsusi hallarda) bir qanun və əqli prinsipdir ki, – istər Allahpərəst və dini olsun, istərsə də qeyri-dini və materialist – dünyanın bütün məktəblərində mövcuddur və həqiqətdə "işin ən əhəmiyyətli və mühüm olması arasındakı dövrləri" adlı ümumi qanunun bir hissəsi hesab edilir. Bir qədər izah:

Heç kəs nə öz can və sərmayəsinin, nə də ona bağlı olan fərdlərin sərmayəsinin səbəbsiz və hədər yerə təhlükəyə atılmasına icazə vermir. Amma bir şərtlə, canla müqayisə edildikdə, ortada ondan daha böyük və bu yolda aradan gedəcək sərmayədən daha üstün bir hədəf olarsa, zərərə razı ola bilər. Yəni, həyatın bütün fəaliyyətlərində (sahələrində) az əhəmiyyətli sərmayələr

mühüm sərmayələrə fəda edildiyi kimi, batini əqidənin zahir edilməsi və həqiqi simanın nişan verilməsi mövzusunda da bu cür mühasibat aparılacaq.

Məsələn, dünyanın bütün məktəblərində (istər mənəvi, istərsə də maddi) məlumat toplamaq (keçmişdəki ifadə ilə desək, göz qulaq (casus) olmaq) üçün düşmənin arasına daxil olan kəslər təqiyyə üsulundan istifadə edirdilər. Bundan başqa, onlar heç cür öz hədəflərinə nail ola bilməzdilər. Hərbi planlar həmişə məxfi şəkildə cızılmış və təqiyyə üsulundan ən yüksək həddə istifadə olunmuşdur. Döyüş meydanındakı döyüşçülər bütün qüvvələri ilə çalışırlar ki, öz döyüş sursatlarını imkan olduqca kamil şəkildə gizlədə bilsinlər. Bəzən onları təbiətdəki bitkilərin rəngində boyayır, bəzən gecənin qaranlığından istifadə edir, bəzən də süni meh yaradaraq gizləyirlər. Bütün bunlar bir növ təqiyyə hesab olunur, hətta bəzi hallarda düşmənin geyim növündən istifadə etmək və onların şəxsiyyət vəsiqələrini hazırlamaqla düşmən qüvvələrinin mərkəzinə nüfuz etməyə çalışırlar. Bu minvalla, həm cismi, həm də əqidəvi baxımdan gizlənmək (gizlilik) və təqiyyə bütün dünyada çətinliklərə qələbə çalmaq üçündür. Belə isə, onu hansısa bir cəmiyyətə məxsus olduğunu söyləmək olarmı? "Təqiyyə" termininin müəyyən bir cəmiyyətə məxsus olduğunu söyləmək mümkündür, amma onun həqiqət və ruhu ümumilik təşkil edir.

Müasir tarixdə bir neçə il əvvəl Ramazan ayı hadisələrində təqiyyə üsulundan istifadə etmək müsəlmanların döyüş meydanında masonlara (sionistlərə) qələbə çalmasında mühüm amil olmuşdur.

Heç kəsin onun şücaət, tədbir və məhşurluğunda

şəkki olmayan İslam peyğəmbərinin (s) həyatında – hicrət məsələsində – da təqiyyənn bir həlqəsindən istifadə olunmuşdur. Həzrət Əlinin (ə) Peyğəmbərin (s) yerində yatması təqiyyənin bir növü idi. "Sur" mağarasına getmək və orada qalmaq, sonra gecələr Mədinəyə tərəf yol getmək və gündüzlər gizlənmək – bunların hamısı təqiyyənin nümunələrindən hesab olunur və heç kəs bunu zəiflik nöqtəsi kimi tanıtdıra bilməz. Hətta, zəruri hallarda təqiyyə səddini sındıranın kamil nümunəsi olan imam Hüseyn (ə) də, müqəddəs hədəfə nail olmağa kömək edən bir sıra hallarda təqiyyə üsulundan istifadə edirdi. Gecə ikən Mədinədən xaric olmaq, camaatın həcc əməlinə məşğul olduğu xüsusi bir zamanda Məkkəni tərk etmək taktiki təqiyənin nümunələridir. Hani ibn Ürvə və İbn Ziyadın qətlə yetirilməsi planının hazırlanması hadisəsi də bu mövzudan xaric deyil. Bunların hamısı əqidə, kimlik, plan və s. məsələlərlə bağlı dini rəhbərlər və ya dünyanın digər məktəb tərəfdarlarının həyatında görülən nümunələrdir. Bir qədər də açıq desək, təqiyyənin bir növü qeyri-insanlar arasında (heyvanlar aləmində) da mövcuddur; Öz rənglərini mühitə uyğunlaşdıraraq düşmənin nəzərindən gizlənən heyvanlar, xətər hiss etdikdə cansız bir cisim kimi hansısa güşədə dayanıb qalan həşəratlar, mürəkkəb rəngli maddə ifraz edərək ətrafındakı suyun rəngini dəyişərək gizlənən dəniz canlıları – onların hamısı təqiyyə üsulundan həyatlarını davam etdirmək üçün istifadə edirlər və həqiqətdə, təqiyyə onlar üçün müdafiə vasitəsidir. Nəticədə, müxaliflərimizin təqiyyənin bir növ mühafizəkarlıq, yersiz qorxu olduğunu söylədikləri və azadlıq, istiqlaliyyətin tərki kimi tanıtdırdıqları və

ondan tamamilə uzaq durduqlarını dedikləri şeylər sadəcə dildə söylədikləri mətləblərdir, lakin əməl zamanı və əqidə, kimlik və hədəfi gizlətmək, iki mühüm məsələdən birini seçməyin zəruri olduğu hallarda, bu qanundan (təqiyyədən) əl çəkmirlər, hətta onun adını dillərinə gətirməsələr belə.

### *5. Təqiyyənin formaları*

Dediklərimizdən bəzən təqiyyənin qüvvələrin hədər olmasının qarşısının alınması, özü və ya digərlərindən xətərin dəf olunması, bəzən vəhdətin qorunması və məhəbbətin cəlb olunması, bəzən də həssas zamanlarda böyük xidmətlərin həyata keçirilməsi üçün dayanmaq və sairə kimi qisim və şəkillərinin olması aydınlaşır. Beləliklə, təqiyyənin qisimləri barədə daha artıq şərhə ehtiyac qalmır.

### *6. Təqiyyənin hökmləri (vacib təqiyyə, haram təqiyyə və ...)*

Bəzilərinin güman etdiyi kimi, təqiyyə nə hər yerdə vacib, nə də caiz deyil, əksinə işarə etdiyimiz kimi, bəzi hallarda haram və ya məkruh, daha mühüm məsələləri qorumaq üçün caiz, yaxud vacibdir. Fiqhi terminlə desək, fiqh alimlərinin bölgülərə ayırdığı kimi təqiyyə beşlik təşkil edən hökmlərə bölünür.

Hazırda təqiyyənin hansı halarda haram olduğuna nəzər salaq:

Bu hökm üçün bəyan edilən qaydalara uyğun olaraq, əgər ali hədəflər təqiyyə səbəbilə paymal olarsa, onda, belə bir şərait təqiyyənin pozulmasını vacib edir. İslami mənbələrdə də təqiyyənin haram olduğu məsələlərə işarə olunmuşdur, o cümlədən:

**1. Haqqı təhdid edən xətərlər zamanı**

Zülm və fəsadın güclənməsi, İslamın rüknlərində (təməllərində) sarsılma, ilahi nişanələrin məhv edilməsi və onun (İslamın) həyat bəxş edən hökmlərinin aradan qaldırılmasına səbəb olduğu zamanlarda – cihad bölməsində cihadın baş verməsinin zəruriliyi ehtimal olunduğu və bu barədə "nə olursa-olsun" ifadəsi işlədildiyi məsələ bu hissə ilə bağlı olduğu kimi – təqiyyə edilməməsi (onun pozulması) vacibdir. Əlbəttə, şübhə yoxdur ki, belə məsələlər sadə insanların əksərinə müyəssər deyil və fəqih həmin məsələdə əhəmiyyətli və mühüm islami məsələni bir-birilə müqayisə edərək hansının önəmli olmasını müəyyən edərək aydınlaşdırmalıdır.

Bu mövzu əqlin hökmünə əsasən, inkar olunmamaqdan əlavə, "əhəmiyyətli və mühüm" qaydası ilə də dəstəklənir. Həmçinin, islami hədislərdə də ona işarə edilmişdir. "Üsuli-kafi" kitabında imam Sadiqdən (ə) belə nəql edilir: "İmanlı bir şəxs imanını aşkar etdikdən sonra onu inkar etsə, iman dairəsindən xaric olur, amma təqiyyənin həmin məsələdə caiz olmamasına baxmayaraq, təqiyyə etsə, onun üzrü qəbul olunmayacaq, çünki təqiyyənin məqamları var ki, ona təcavüz etdikdə (onu aşdıqda), ondan qəbul olunmaz. Məsələn, bir insan camaatın arasında pis iş görərək təqiyyə edir. Əgər bu təqiyyə müqəddəs hədəflərin aradan qalxmasına səbəb olmazsa, caizdir."[1]

Əbu Həmzə Somali imam Sadiqdən (ə) belə nəql edir:

وَ أَيْمُ اللّهِ لَوْ دُعِيتُمْ لَتَنْصُرُونَا لَقُلْتُمْ لَانَفْعَل إِنَّمَا نَتَّقِى وَ لَكَانَتْ

*1. «Vəsailuş-şiə», c.11, «Əmr be məruf» bölməsi, hədis:6.*

التَّقِيَّةُ أحَبَّ إلَيْكُمْ مِنْ آبَائِكُمْ وَ أمَّهَاتِكُمْ وَ لَوْقَدْ قَامَ القَائِمَ مَا احْتَاجَ إلَى مُسَائِلَتِكُمْ عَنْ ذَلِكَ وَ لَاقَامَ فِي كَثِيرٍ مَنْكُمْ حَدَّ النِّفَاق[1]

Bu rəvayətdən haqqın himayəsinin zəruri olduğu zamanlarda təqiyyə etməyin, nəinki caiz olması, əksinə nifaqın bariz nümunəsi olduğu və əgər islami hökumət olarsa, belə təqiyyə edənlərə münafiqlərə icra edilən həddin (şallaq) vurulması gərəkdiyi anlaşılır. Durust ibn Əbu Mənsurdan nəql edilən digər bir hədisdə belə yazılır:

فَالْآنَ صِرتَ إلَى أُمَيَّةَ وَ الأمُورُ لَهَا إلَى مَصائِرِ قَالَ: قُلْتُ: ذَلِكَ وَ اللَّهِ مَا رَجَعْتُ عَنْ إيمَانِي وَ إنِّي لَكُمْ لَمُوَالٍ وَ لَعَدُّوكُمْ لَقَالٍ وَ لَكِنِّي قُلْتُهُ عَلَى التَّقِيَّةِ قَالَ: أمَّا لَئِنْ قُلْتَ ذَلِكَ إنَّ التَّقِيَّة تَجُوزُ فِي شُرْبِ الخَمْر

*“Bəni-Üməyyə barəsində mədh söyləyən sənsənmi? Dedi: “Mən heç vaxt iman və sizə olan dostluğumdan dönməmişəm, bunu təqiyyə səbəbilə demişəm.” Əgər belə olsa, onda, təqiyyəni şərabxorluq barəsində də caiz bilməlisən.”*[2]

Bu hədisdən məlum olur ki, Əhli-beytin (ə) müdafiəsi və zalım hökumətlə mübarizədə tanınmış və sonunda canını həmin yolda əldən verən şair təqiyyə səbəbilə Bəni-Üməyyəni mədh etdikdə, məzəmmət və tənbeh edilir.

**2. Haqqın tanınması hallarının zəruriliyində**

Məktəbin əhatə dairəsinin bəyanı və mənbələrinin tanıtdırılması hədəfə yetişməkdə zəruri və əgər onsuz hədəf zay olarsa, təqiyyə sütununun sındırılması lazımdır. Əgər İslamın başlanğıcında müsəlmanların

---

*1. Həmin mənbə, 25-ci bölmə, hədis:2.*

*2. Vəsailuş-şiə», c.11, «Əmr be məruf» bölməsi, 25-ci bölmə, hədis:7.*

təqiyyə məsələsindən həddən az istifadə etdikləri, sayca çox az olmalarına baxmayaraq, Kəbənin kənarında namaz qıldıqları və bu yolda hər bir təhlükə ilə qarşılaşmağa hazır olduqları, yaxud tarixin qaranlıq dövrü olan Müaviyə hökuməti zamanı haqq kəlməsinin elan edilməsi və Müaviyə hökuməti tərəfindən fəaliyyətdə olan cahillik irticasının aradan qaldırılması üçün seçilmiş şəxslərin qiyam etməsi və həqiqi İslam məktəbi olan imam Əli (ə) məktəbinin himayəsi üçün haqqı elan etməsini müşahidə ediriksə, bu, həmin mövzuya görədir. Həqiqətdə, sadalanan məsələlər olmasaydı, İslamdan nişanələr qalmazdı.

**3. Təqiyyə qan tökülməsində caiz deyil**

Ümumiyyətlə, təqiyyənin əsla caiz olmadığı hallardan biri qan məsələsilə bağlıdır. Bu mənada ki, əgər hansısa şəxs günahsız bir şəxsi qətlə yetirməyəcəyi təqdirdə, öz canının ehtimali və ya qəti şəkildə xətərə düşəcəyini bilsə, təqiyyə etməsi caiz deyil. İslami rəvayətlərdə qeyd edildiyi kimi, təqiyyənin təyin edilməsində əsil hədəf canın mühafizə olunmasıdır. Beləliklə, təqiyyənin canın əldən getməsinə icazə olduğunu necə söyləmək olar?!

Mərhum Kuleyni “Üsli-kafi” kitabında imam Baqirdən (ə) belə nəql edir:

إِنَّمَا جُعِلَ التَّقِيَّةُ لِيُحْقَنَ بِهَا الدَّمُ فَإِذَا بَلَغَ الدَّمَ فَلَيْسَ تقيَّة

*“Təqiyyə günahsızların qanının tökülməsinin qarşısını almaq üçün müəyyən edilmişdir və əgər qan tökülməsinə səbəb olarsa, təqiyyə caiz deyil.”*[1]

Xatırlatmağa ehtiyac duyulmayan məsələ budur ki, müsəlmanların bir-birinə nisbətdə qanı bərabərdir

---

*1. Vəsailuş-şiə», c.11, «əmr be məruf» bölməsi, 31-ci bölmə, hədis:1.*

və böyük və ya kiçik, qoca və ya cavan, savadlı və ya savadsız arasında heç bir fərq yoxdur.

**4. Şərab içmək və açıq-aşkar məlum olan məsələlərdə təqiyyə caiz deyil**

Rəvayətlərdən belə başa düşülür ki, şərab içmək kimi məsələlərdə təqiyyə etmək caiz deyil və belə işlərə mürtəkib olmaq olmaz, həmçinin, aşkar olan və onlarla dəlil gətirilə bilən müəyyən məsələlərdə də təqiyyəyə icazə verilmir. Məsələn, təməttö həcci kimi Quranda açıq-aşkar bildirilən və bəzi xəbərsiz müsəlmanların da cahiliyyət sünnəsinin təsiri altında onunla müxalifət etdikləri və onu caiz bilmədikləri[1] və bəzi fərdlərin Quranın aşkar bəyanına baxmayaraq,[2] ayağa məsh çəkmək yerinə, ayaqqabı üzərindən ayağa məsh çəkdikləri məsələ. Bu məsələlərin heç birində təqiyyə caiz deyil.

"Üsuli-kafi" kitabında imam Baqirin (ə) vəfalı və alim

---

*1.*

**مَن تَمتعَ بِالْعُمْرَةِ إِلى الْحَج فَما اسْتَيْسَرَ مِنَ الْهَدْيِ فَمَن لمْ يَجِدْ فَصِيَامُ ثَلاثَةِ أَيامٍ فِي الْحَج وَسَبْعَةٍ إِذَا رَجَعْتُمْ تِلْكَ عَشَرَةٌ كَامِلَةٌ ذَلِكَ لِمَن لمْ يَكُنْ أَهْلُهُ حَاضِرِي الْمَسْجِدِ الْحَرَامِ**

**(***Əgər (həcc və ümrə barəsində düşməndən və ya xəstəlikdən) xatircəm olsanız, onda, "təməttö" (Allaha yaxınlaşmaqdan bəhrələnmək və ehram bağlandıqdan sonra haram olmuş şeylərdən ehramdan çıxdıqdan sonra istifadə etmək) ümrəsini qabağa salıb "təməttö" həccinə tərəf gedən kəsin boynunadır ki, (dəvə, inək və qoyundan) müyəssər olan qurbanlıq kəssin. Qurbanlıq tapmayan (və ya ona pulu olmayan) şəxs həmin həcc səfəri zamanı üç gün və qayıtdığınız zaman yeddi gün oruc tutmalıdır. Bu tam on gündür. ("Təməttö" adlanan) bu (həcc), (özü və) ailəsi Məscidül-Həramın (Məkkə və onun iyirmi dörd kilometrliyinin) sakini olmayan kəslər üçün olan fərizədir) ("Bəqərə" surəsi, ayə 196).*

*2.*

**وَامْسَحُوا بِرُؤُوسِكُمْ وَأَرْجُلَكُمْ إِلى الْكَعْبَينِ**

*(Başlarınız və ayaqlarınıza məsh çəkin) («Maidə" surəsi, ayə 6).*

səhabələrindən olan Zürarədən belə nəql edilir:

ثَلَاثَةٌ لَااتّقِی فِیهِن أحَداً: شربُ المُسْكِرِ وَ مَسْحُ الخُفَّیْنِ وَ مُتْعَةُ الحج

*"Üç şeydə heç vaxt təqiyyə etmərəm: Şərab içmək, ayaqqabı üzərindən məsh çəkmət və həcci-təməttö."*[1]

Ona görə ki, bu cür mövzularla bağlı müsəlmanların yaşadığı islami mühitdə təbii olaraq təqiyyəyə ehtiyac yaranmır. Təqiyyə o yerdədir ki, insan öz əqidəsinin isbatı üçün ümumi razılıq əldə edə bilməsin və aydındır ki, Quranın aşkar ayələrindən istifadə etməklə, islami bir mühitdə şərab içməyin haramlığı, həmçinin, təməttö həcci və ayağa məsh çəkməyin vacibliyini sübuta yetirmək o qədər də çətin bir iş deyil. Buradan belə aydın olur ki, əgər insan islami cəmiyyətin taleyində təsirli olan müxtəlif iqtisadi, siyasi və ictimai məsələləri tutarlı məntiqdən istifadə etməklə isbat edə bilərsə, onda, təqiyyəyə növbə yetişmir, əksinə təqiyyəni bir kənara qoyaraq məntiqi mübarizədən yararlanmaq və fərdləri agah etmək lazımdır və həqiqətdə, bu cür hallarda məntiqi qüdrət təqiyyə qüdrətinin canişininə çevrilir.

## *Fərdlər və onların tutumunun (zərfiyyətinin) müxtəlifliyi*

İslami rəvayətlərdə aparılan dəqiq araşdırmalar nişan verir ki, bəzən tarixin Bəni-Üməyyə və Bəni-Abbas kimi qaranlıq dövrlərində imamların bir qrup tərəfdarı təqiyyə səddini yararaq onların zülmü müqabilində ayağa qalxmış və həzrət Əli (ə) məktəbini müxtəlif vasitələrlə müdafiə etmiş, bəziləri isə təqiyyə üsulunu

---

*1. Vəsailuş-şiə», c.11, «əmr be məruf» bölməsi, 25-ci bölmə, hədis:5.*

seçərək sükut etmişlər. Bu halda belə bir sual qarşıya çıxır ki, görəsən, birinci dəstədən olan Əbuzər, Hucr ibn Ədi və tərəfdarları, Meysəm Təmmar, Rəşid Hicri, Zeyd və tərəfdarları, Səid ibn Cübeyr, Abdullah ibn Əfif Əzdi və Abdullah Yəqtər kimilərin üslubu doğrudur, yoxsa, ikinci dəstədən və İslam rəhbərlərinin tərəfdar və səhabələrindən olan Salman, Miqdad, Kumeyl ibn Ziyad və Əmmar Yasirin üslubu? Halbuki, onlardan heç birinin səhvə yol verdiyini söyləyə bilmərik, çünki hər iki dəstənin fəzilət və İslam məktəbi barəsində məlumata malik olması barədə əlimizdə canlı sənədlər vardır. Bu sualın cavabının "şəxsiyyət", "şərait" və insanların "zərfiyyət"inin (tutumunun) fərqli olmasından başqa, digər bir cavabı yoxdur. Onların arasında eləlari vardı ki, bəlkə də, yetəri qədər cismi və ruhi istedad və ya bu tufanların müqabilində dayanmaq üçün xüsusi ictimai mövqeyə malik deyildi. Əgər müqavimət göstərərək məhv olsaydılar, onların ölümü heç bir təsirə malik olmayacaqdı, amma əksinə, məntiqi qüdrət, əməldə kifayət qədər cürət və icimai təsir və nüfuzetməyə malik və bu cür mübarizələrdə yetəri qədər qabiliyyətə sahib olan elə kəslər də vardı ki, onların ölüm və ya şəhadəti camaatın oyanış və agah olması istiqamətində böyük bir təlatüm yaradırdı. Əlbəttə, belə şəxslərin proqram və məsuliyyəti birinci dəstənin məsuliyyətindən fərqli və ayrı idi.

Məsələn, Hucr ibn Ədi və onunla birgə altı və ya on nəfər olan digərlərinin Şamın yaxınlığındakı "Mərcu Əzra" məntəqəsində həzrət Əli (ə) məktəbindən uzaq olduqlarını söyləməkdən boyun qaçırdıqları üçün Müaviyə hakimiyyətinin məmurları tərəfindən

şəhadətə qovuşdurulması barədə oxuduqda, görürük ki, onların ölüm və şəhadəti İraq, Hicaz və digər islami məntəqələrdə elə bir təlatüm yaratmışdı ki, Müaviyə hakimiyyətini dəhşət və qorxuya salmışdı. İmam Hüseyn (ə) Müaviyəyə yazaraq onun pis əməllərini bir-bir saydığı məktubda ona belə xitab edir:

أَلَسْتَ قَاتِلَ حُجْرِ بنِ عَدِى أخَا كَنْدة وَ المُصَلِّيِنَ العَابِدِين الَّذِينَ كَانُوا يَنْكُرُونَ الظُّلْمَ وَ يَسْتَغْظِمُونَ البِدَعَ وَ لَايَخَافُونَ فِى اللّهِ لَوْمَةَ لَائِمٍ

*"Yoxsa, sən Hucr ibn Ədi və namaz qılanları və zülm əleyhinə qalxaraq bidətlərlə mübarizə aparanlar və Allah yolunda məzəmmət edənlərin qınağından qorxmayanları qətlə yetirən kəs deyilsənmi?!"*

Həmçinin, "Elamul-vərə" kitabında belə qeyd edilmişdir:

"Müaviyə Ayişəyə baş çəkmək üçün onun mənzilinə gəldiyi zaman, Ayişə ona şiddətlə etirazını bildirdi və onu Bəni-Üməyyə hakimiyyətinin zülm və bidətlərinə qarşı mübarizə aparan Hucr və tərəfdarlarının şəhadəti barəsində məzəmmət edərək dedi:

سَيُقْتِلُ بِعَذْرَاءَ انَاسٌ يَغْضِبُ اللّهُ لَهُمْ وَ أهْلَ السَّمَاء

*"Peyğəmbərdən (s) "gələcəkdə Əzra adlı ərazidə bir dəstə insan qətlə yetiriləcək ki, Allah və səma əhli onların şəhadətindən qəzəblənər" deyə buyurduğunu eşitmişəm.""*

Bu mühüm məsələ (təqiyyə) barəsində deyilməmiş digər mətləblərin olmasına baxmayaraq, izlədiyimiz hədəfin aydın olması üçün bu qədər qeydlərin kifayət edəcəyini düşünürük.

## 8. Dua məsələsi

Məzhəblərə maraq və onun amilləri barəsindəki bəhs insan cəmiyyəti ilə bağlı idi. Bəzi sosioloqların onu istismarçılıq amillərilə əlaqələndirmək və dini təlimat və məfhumların bir qismini həmin müddəaya şahid tutmaq istədiklərini bəyan edərək onların yeddi qisminə ötən bəhslərdə işarə etdik. Hazırda dua məsələsi barədə danışmaq istəyirik və ola bilsin ki, aşağıda üçlük təşkil edən ictimai, fəlsəfi və əqidəvi iradlar meydana çıxsın:

### *A) İctimai irad:*

Duaya etiqadın ictimai fəaliyyətlərə mənfi təsiri vardır və o, həddən artıq səmərəsi olan çalışmaq və təlaş şölələri üzərinə tökülən və onları söndürən su kimidir. Duanın "möminin silahı" olması etiqadına malik möminlər digər silahlarla tanışlıq və onların düşmən üzərində tətbiqi yerinə, təkcə duaya əl atırlar. Həmçinin, fəqirliklə mübarizədə duanı peşə, texnika, əkinçiliyin inkişafı və digər müxtəlif həyat mənbələrinin canişini olaraq seçirlər ki, belə təlimatların süstləşdirici təsirə malik olması barədə bəhsə ehtiyac yoxdur.

### *B) Fəlsəfi irad:*

Dünya xüsusi bir sistemə malikdir və o, səbəb-nəticə qanununa əsasən dövr edir və sadəcə sözlərdən ibarət olan bizim dualarımız onun (dünyanın) ibtidai və son istiqamətinin (yolunun) dəyişdirilməsində rol oynaya bilməz.

### *C) Əqidəvi irad:*

Əgər ilahiyyatçıların nəzərindən də ona diqqət yetirsək, dua bir növ, Allahın hikmətinə etiraz, başqa

sözlə, onun işlərində müdaxilədir. Belə ki, əgər kiminsə varlıq aləmi mənbəyinin ehtiyacsızlıq və hikmətinə, həmçinin, onun bəndələrinə qarşı mehriban olmasına imanı olsa, ona (Allaha) göstəriş verməz. Görəsən, nəsə insanın məsləhətinə olduğunda Allahın həmin şeyi əsirgəməsi mümkündürmü? Hazırda bu üçlük təşkil edən irad və sualların araşdırılması və onlara cavab verilməsinə başlayırıq:

### *İctimai sualın araşdırılması və ona cavab:*

Duanın dini təlimatlardan biri olduğu və dəfələrlə Quranda ona dəvət edilərək qəbul olunacağına vədə verildiyini inkar etmirik:

قَالَ رَبُّكُمُ ادْعُونِي أَسْتَجِبْ لَكُمْ

*“Rəbbiniz buyurdu: “Məni çağırın ki, mən də duanızı qəbul edim.”” [1]*

ادْعُواْ رَبَّكُمْ تَضَرُّعًا وَخُفْيَةً

*“Rəbbinizi yalvarıb-yaxararaq və gizlində çağırın (və hacət istəməkdə ağıl çərçivəsindən çıxıb həddi aşmayın).”[2]*

فَادْعُوا اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ

*“Dini Allah üçün xalisləşdirdiyiniz halda onu çağırın!”[3]*

Hətta, Quranda həmin duaya[4] görə Allahın insanlara diqqət yetirməsi də bildirilmişdir:

*1. «Ğafir» surəsi, ayə 60.*

*2. «Əraf» surəsi, ayə 55.*

*3. «Ğafir» surəsi, ayə 14.*

*4. Bu ayə barədə təfsirlər çoxdur və qeyd edilənlər həmin təfsirlərdən biridir.*

قُلْ مَا يَعْبَأُ بِكُمْ رَبِّي لَوْلَا دُعَاؤُكُمْ

*"Əgər duanız olmasa, Allah yanında nə qədir-qiymətiniz olar?!"*[1]

Həmçinin, islami rəvayətlərdə bu mövzuya həddən artıq təkid edildiyini də inkar etmirik.[2] Amma bəhsimiz bütövlükdə, bir tərəfdən, duanın, digər tərəfdən, dua məfhumunun, həmçinin, onun qəbul olunması şəraitinin anlaşılması ilə bağlıdır. İslami təlimatlar baxımından, dua mümkün olan bütün təlaş və çalışqanlığı həyata keçirilmiş və insan qüdrətində olan qüvvələrin islahatçı və müsbət hədəflərə çatmaq üçün istifadə olunduğu, eyni zamanda, zəruri və insan qüdrətindən xaric olan digər şeylərin çatışmadığı xüsusi hallara məxusdur. Din heç zaman duanı insanın ixtiyarında olan səbəb və vasitələrin yerinə canişin olaraq təyin etməmişdir, əksinə duanı – ondan başqa, heç bir çıxış yolu və vəsilə olmadığı, həmçinin, təkcə varlıq aləminin qaynağı olan tükənməz qüdrətin yardımlarına ümid olduğu zaman – onlardan üstün olan bir şey kimi müəyyən etmişdir. Beləliklə, bu şəraitə malik olmayan hər bir dua bir növ, duanın həqiqət və məfhumuna nisbətdə dəyişdirilmə hesab olunur. Belə əsas şərtin dini mənbələrdən əldə olunması o qədər də çətin bir iş deyil. Məsələn, "Üsuli-kafi"nin ikinci cildində dua barəsində çoxlu sayda bölmələr var ki, onlardan yalnız ikisi bizim bəhsimizlə əlaqəlidir. Həmin bölmələrdən biri "Duaları qəbul olan kəslər", digəri isə "Duaları qəbul edilməyən kəslər" başlığı altındadır. Birinci bölmədə duası qəbul olunan kəslərə

*1. «Furqan" surəsi, ayə 77.*

*2. «Üsuli-kafi», c.2, «Dua» bölməsi.*

ədalətli rəhbərin, əməlisaleh övladın valideynlərinə olan duası, əməlisaleh valideynin saleh övlad barəsindəki duası və Allah yolundakı mücahidin duası müxtəlif rəvayətlər əsasında misal göstərilmişdir ki, onların hər biri söylədiklərimizə şahiddir. İkinci bölmədə imam Sadiqdən (ə) belə nəql edilir:

أرْبَعَةٌ لَاتَسْتَجَابُ لَهُمْ دَعْوَةٌ.

١- رَجُلٌ جَلَسَ فِى بَيْتِهِ يَقُولُ اللُّهُمِّ ارْزِقْنِى، فَيُقَالُ لَهُ أَلَمْ آمُرُكَ بِالطَّلَبِ؟! ٢- وَ رَجُلٌ كَانَتْ لَهُ امْرَأَةٌ فَدَعَا عَلَيْهَا، فَيُقَالَ لَهُ: أَلَمْ اجْعَلْ أَمْرَهَا إلَيْكَ؟ ٣- وَ رَجُلٌ كَانَ لَهُ مَالٌ فَأَفْسَدَهُ، فَيَقُول: اللَّهُمَّ ارْزُقْنِى، فَيُقَالُ لَهُ أَلَمْ آمُرُكَ بِالإقْتِصَادِ؟ أَلَمْ آمُرُكَ بِالإصْلَاح؟! ٤- وَ رَجَلٌ كَانَ لَهُ مَالٌ فَاداته بِغَيْرِ بَيِّنَةٍ فَيُقَالُ لَهُ، أَلَمْ آمُرُكَ بِالشَّهَادَةِ؟!

Rəvayətin xülasəsi belədir:

*“Dörd dəstənin duası qəbul olunmaz: 1. Sağlam, amma bekar (işsiz) olan insanın. 2. Yola getmədiyi zövcəyə malik olan, amma onu boşamayan kəsin. 3. Çoxlu sərvətini bilməməzlik üzündən hədər edən insanın. 4. Pulunu hansısa bir sənəd almadan borc verən və borc verdiyi şəxsin də inkar etdiyi kəsin.”*

Bu rəvayət aşkarcasına duanı ruzi əldə etmək üçün təlaşın, əməlisaleh olmayan qadından yaxa qurtarmağın, əldən çıxmış malın təlafi edilməsi və borc verilib-alınması sənədinin yerinə canişin etməyin qeyri-mümkünlüyünü göstərir. Eyni zamanda, qüdrəti olduğu halda işləmək və xətərin qarşısını ala biləcəyi halda, çalışmaq yerinə dua edən kəslərin duası qəbul olunmaz və onlara mənfi cavab verilər.

Var qüvvəsini toplayan, bütün qüdrətindən istifadə edən və hədəfi uğrunda son həddə qədər irəliləyən mücahidin qəbul olunacaq bir duası vardır. Saleh övlad və övladlarının haqqı ilə bağlı vəzifəsini layiqincə yerinə yetirən valideynin səlahiyyətləri qorunar və onların duası da qəbul edilər. Həmçinin, məzlumların hüquqlarına riayət üçün ayağa qalxaraq onların haqqının alınmasında əlindən gələni edən və qüdrət dairəsindən xaric olan məsələlərlə bağlı duaya üz tutan ədalətli rəhbər mənfi cavab eşitməz. Amma dua kölgəsi altında gizlənərək yerinə yetirməli olduqları qəti vəzifələri unudan və duanın "Allah işləri yalnız səbəblər vasitəsi ilə həyata keçirərək icra edər."[1] kimi ali təbiət qanunları sisteminin, həmçinin,"İnsan üçün etdiyi təlaşdan başqa, bir şey yoxdur."[2] kimi möhkəm qaydaların pozulması olduğunu təsəvvür edən tənbəl fərdlərin duası heç vaxt qəbul olunmaz və onlar yolu azmışlar.

## *Duanın məfhumu*

Duanın qüdrət və gücün yetdiyi zamanlarda deyil, qüdrətin çatmadığı hallarda lazım olduğu məlum oldu, başqa sözlə, qəbul edilən dua aşağıdakı məzmuna malik olmalıdır:

أَمَّن يُجِيبُ الْمُضْطَرَّ إِذَا دَعَاهُ وَيَكْشِفُ السُّوءَ

*"(O şəriklərmi yaxşıdır,) yoxsa, darda qalan bir kimsə onu çağırdığı (dua etdiyi) zaman ona cavab verən, onun zərər və çətinliyini aradan qaldıran kəs?"*[3]

1. *«Üsuli-kafi», c.1. səh. 183.*
2. *«Nəcm" surəsi, ayə 39.*
3. *«Nəhl" surəsi, ayə 62.*

Dua bütün təlaş və fəaliyyətlərin aradan qalxdığı iztirari (ekstermal) zamanlarda həyata keçir və aydın olur ki, duanın məfhumu insanın öz qüdrət dairəsindən xaric olan amil və vasitələrin hazırlanmasını sonsuz qüdrətə malik və həyata keçirilməsi mümkün olan işlər onun üçün asan olan kəsdən (Allahdan) tələb etməkdir.

Amma bu tələb insanın sadəcə dilində olmamalıdır, əksinə onun bütün vücudundan gəlməli və dil bu zaman insanın varlığının bütün zərrələri və bədən üzvlərinin nümayəndəsinə çevrilməli, qəlb və ruh dua vasitəsilə Allahla yaxın irtibata malik olmalı, həmçinin, damlalar sonsuz okeana qovuşduğu kimi, əzəmətli mənəvi qüdrət mənbəyi ilə rabitəyə girməlidir. Belə mənəvi rabitənin təsirlərini tezliklə araşdıracağıq.

Əlbəttə, islami rəvayətlərdə işarə edilən digər bir dua növünün olmasına da diqqət yetirmək lazımdır. Həmin dua, hətta qüdrətə malik olduqda belə, edilən duadır və o, mümkün vasitələrin canişininə çevrilmir və bu dua Allahın əzəmətli qüdrəti müqabilində dünyadakı qüdrətlərin müstəqilliyə malik olmadığının göstəricisidir. Başqa sözlə, onun məfhumu bu həqiqətə diqqət yetirməkdir ki, təbii amil və vasitələrin hamısı onun tərəfindən və onun əmri ilədir. Məsələn, hansısa bir dərman ardınca gedərək ondan şəfa tapmağımızın səbəbi Allahın ona şəfa bəxş etmək qüdrəti verməsidir. Xülasə, dua bir növ insanın özü və qəlbinin oyanış və düşüncəsi, həmçinin, bütün yaxşılıq və xeyirlərin mənbəyi ilə batini rabitədir. Bu cəhətdən, həzrət Əlinin (ə) sözlərindən belə oxuyuruq:

لَا يَقْبَلُ اللّٰهُ عَزَّ وَ جَلَّ دعاء قلب لَاه

*"Allah qəflətdə olanların duasını qəbul etməz."*[1]

Digər bir hədisdə imam Sadiqdən (ə) həmin məzmunda belə qeyd edilmişdir:

إِنَّ اللّهَ عَزَّ وَ جَلَّ لَايَسْتَجِيبُ دُعَاءً بِظَهْرِ قَلْبٍ سَاه

*"Həqiqətən, Allah qəflətdə olan qəlbdəki duanı qəbul etməz."*[2]

Bunun özü duanın fəlsəfi prinsiplərdən biridir ki, bəhsin ardında ona işarə edəcəyik.

## Duanın qəbul olunma şəraiti

Bu şəraitin keyfiyyətinə diqqət duanın zahiri məsələləri və onun islahedici təsirini aşkar edir. İslami rəvayətlərdə belə oxuyuruq:

1. Duanın qəbul olunması üçün hər şeydən öncə, qəlb və ruhun paklaşmasına çalışmaq, günahdan tövbə etmək və özünü islah edərək ilahi rəhbərlərin həyatından ilham almaq lazımdır. İmam Sadiqin (ə) belə buyurduğu nəql edilmişdir:

إِيَّاكُمْ أَنْ يَسْأَلَ أَحَدُكُمْ رَبَّهُ شَيْئاً مِنْ حَوَائِجِ الدُّنْيَا وَ الآخِرَةِ حَتَّى يَبْدَءَ بِالثَّنَاءِ عَلَى اللّهِ وَ المِدْحَةِ لَهُ وَ الصَّلَوةِ عَلَى النَّبِيِّ وَ آلِهِ ثُمَّ الاعْتِرَافِ بِالذَّنْبِ ثُمَّ المَسْأَلَة

*"Sizlərdən biriniz Allahdan bir şey istəyərkən ona həmd-səna söyləməmiş, Peyğəmbər (s) və onun ailəsinə salavat göndərməmiş və daha sonra günahlarını etiraf etməmiş Allaha dua etməkdən çəkinərək pəhriz etsin."*[3]

---

1. «Üsuli-kafi», c.2, səh. 473.
2. «Səfinətul-bihar», c.1, səh. 448-449.
3. «Səfinətul-bihar», c.1, səh. 448-449.

2. Həyatda qəsbi mal, zülm və sitəmdən çəkinsin və haram şeylərdən qidalanmasın. İslam Peyğəmbərindən (s) belə nəql olunmuşdur:

مَنْ احبَّ أنْ يُسْتَجَابَ دَعَائُهُ فَلْيُطْلِبْ مَطْعَمَهُ وَ مَكْسَبَه

*"Duasının qəbul olunmasını istəyən şəxs yemək (qida) və qazancında özünü haramdan pak etməlidir."*[1]

3. Fəsadla mübarizə etmək və haqqa dəvətdən çəkinməməlidir, çünki əmr be məruf və nəhy əz münkəri tərk edən şəxslərin duası qəbul olunmaz. İslam Peyğəmbərindən (s) belə nəql edilmişdir:

لَتَأْمُرُنَّ بِالْمَعْرُوفِ وَ لَتَنْهُنَّ عَنِ الْمُنْكَرِ أوْ لَيَسْلَطَنَّ اللَّهُ شِرَارَكُمْ عَلَى خِيَارِكُمْ فَيَدْعُو خِيَارُكُمْ فَلَا يُسْتَجَابُ لَهُم

*"Əmr be məruf və nəhy əz münkəri tərk etməyin ki, Allah sizlərdən ən pisini ən yaxşılarınıza hakim edər və yaxşılarınız dua etdikdə, onların duası qəbul olmaz."*[2]

Həqiqətdə, bu əzəmətli vəzifənin – milli nəzarətin – tərk olunması cəmiyyətdə hərc-mərcliyin yaranmasına səbəb olur ki, nəticədə, meydan pis işlərlə məşğul olanlar üçün boş qalır və dua onun nəticələrinin aradan qaldırılmasında təsirsiz olur, çünki bu, onların öz əməllərini tərk etməsinin nəticəsidir.

4. İlahi əhd-peymanlara əməl etmək, iman və saleh əməl, əmanətə riayət və düzgünlük də duanın qəbul olunması şərtlərindən hesab edilir, çünki özü ilə Allahı arasındakı əhdə vəfa etməyən kəs Allahın onun duasını qəbul edəcəyi intizarında olmamalıdır.

---

*1. «Səfinətul-bihar», c.1, səh. 448-449.*

*2. «Biharul-ənvar», c.90, səh. 378.*

Bir nəfər Əmirəl-möminin Əlinin (ə) yanında duanın qəbul olunmamasından şikayətlənərək dedi: “Allah “dua edib məni çağırın, mən də dualarınızı qəbul edim” deməsinə baxmayaraq, nə üçün bizim dualarımız qəbul olunmur?!” Həzrət cavabında buyurdu:

إنَّ قُلُوبَكُمْ خَانَ بِثَمَانِ خِصالٍ:

أوّلُها: أنَّكُمْ عَرَفْتُمُ اللهَ فَلَمْ تَؤُدُوا حَقَّهُ كَمَا أوْجَبَ عَلَيْكُمْ فَمَا اغْنَتْ عَنْكُمْ مَعْرِفَتُكُمْ شَيْئاً.

وَ الثَّانِيَةُ: أنَّكُمْ امَنْتُمْ بِرَسُولِهِ ثُمَّ خَالَفْتُمْ سُنَّتَه وَ امنْتُم شَرِيعَتَهُ فَأيْنَ ثَمَرَةُ إيمَانِكُمْ؟

وَ الثَّالِثَةُ: أنَّكُمْ قَرَأْتُمْ كِتَابَهُ المُنْزَلَ عَلَيْكُمْ فَلَمْ تَعْمَلُوا بِهِ وَ قُلْتُمْ سَمِعْنَا وَ أطَعْنَا ثُمَّ خَالَفْتُمْ.

وَ الرَّابِعَةُ: أنَّكُمْ قُلْتُمْ تَخَافُونَ مِنَ النَّارِ وَ أنْتُمْ فِي كُلِّ وَقْتٍ تُقَدِّمُونَ إلَيْهَا بِمَعَاصيكُمْ فَأيْنَ خَوْفُكُمْ؟وَ الْخَامِسَةُ: أنَّكُمْ قُلْتُمْ تَرْغَبُونَ فِي الجَنَّةِ وَ أنْتُمْ فِي كُلِّ وَقْتٍ تَفْعَلُونَ مَا يُبَاعِدُكُمْ مِنْهَا فَأيْنَ رَغْبَتُكُمْ فِيهَا؟

وَ السَّادِسَةُ: أنَّكُمْ أكَلْتُمْ نِعْمَةَ المَوْلَى فَلَمْ تَشْكُرُوا عَلَيْهَا.

وَ السَّابِعَةُ: أَنَّ اللّهَ أمَرَكُمْ بِعَدَاوَةِ الشَّيْطَانِ وَ قَالَ «إنَّ الشَّيْطَانَ لَكُمْ عَدُوٌّ فَاتَّخِذُوهُ عَدُوّاً» فَعَادَيْتُمُوهُ بِلَا تَوْلٍ وَ وَالَيْتُمُوهُ بِلَا مُخَالِفَةً.

وَ الثَّامِنَةُ: أنَّكُمْ جَعَلْتُمْ عُيُوبَ النَّاسِ نَصْبَ أعْيُنِكُمْ وَ عُيُوبِكُمْ وَرَاءَ

ظُهُورِكُمْ تَلُومُونَ مَنْ أَنْتُمْ أَحَقُّ بِاللَّوْمِ مِنْهُ فَأَىُّ دُعَاءٌ يُسْتَجَابُ لَكُمْ مَعَ هَذَا وَ قَدْ سَدَدْتُمْ أَبْوَابَهُ وَ طُرُقَهَ فَاتَّقُوا اللّهَ وَ أَصْلِحُوا أَعْمَالَكُمْ وَ أَخْلَصُوا سَرَائِرَكُمْ وَ آمُرُوا بِالْمَعْرُوفِ وَ انْهُوَا عَنِ الْمُنْكَرِ فَيَسْتَجِيبُ لَكُمْ دُعَائُكُم

*“Sizin qəlb və zehinləriniz səkkiz şeydə xəyanət etdiyi üçün dualarınız qəbul olunmur:*

*1. Siz Allahı tanımış, amma onun haqqını əda etməmisiniz. Bu səbəbdən, sizin Allahı tanımağınız sizə heç bir fayda vermir.*

*2. Siz onun göndərdiyinə iman gətirmiş, sonra isə onun sünnəsi ilə müxalifətə qalxmısınız. Sizin imanınızın səmərəsi haradadır?*

*3. Onun kitabını oxumuş, lakin ona əməl etməmisiniz...*

*4. Siz Allahın əzab və cəzasından qorxduğunuzu söyləyir, amma elə işlər görürsünüz ki, sizi ona (əzaba) yaxınlaşdırır...*

*5. Deyirsiniz ki, ilahi mükafatı istəyirsiniz, lakin daima elə işlər görürsünüz ki, sizi ondan uzaqlaşdırır.*

*6. Allahın nemətini (ruzisini) yeyir, amma onun şükrünü yerinə yetirmirsiniz...*

*7. Sizə şeytanla düşmən olmaq əmr edilmiş, amma siz onunla dostluq münasibətləri qurmaq üçün plan cızırsınız...*

*8. Siz camaatın eyiblərini – lənət və nifrin atəşini – tutur, amma öz eyiblərinizi unudursunuz... Belə olduğu halda, necə duanızın qəbul olunması intizarındasınız? Halbuki, özünüz onun qapılarını bağlamısınız. Allahdan qorxun, özünüzü islah və əmr be məruf və nəhy əz münkər edin ki, dualarınız qəbul olsun.”*[1]

Rəvayətin məzmunundan belə başa düşülür ki, Allahın duanın qəbulu ilə bağlı verdiyi vədə şərtlidir, nəinki, mütləq. Şərti budur ki, siz əhd və peymanlarınıza əməl edin, halbuki, siz səkkiz yerdə onu pozmusunuz.

*1. «Səfinətul-bihar», c.1, səh. 448-449.*

Yuxarıda duanın qəbul edilmə şərtilə bağlı qeyd edilən səkkiz göstərişə əməl etmək insanın tərbiyə olunması və bütün qüvvəsinin islahedici və səmərəli istiqamətdə sərf edilməsi üçün kifayətdir.

5. Duanın qəbul olunma şərtlərindən biri də onun əməl, çalışmaq və təlaşla birlikdə olmasıdır. Həzrət Əlinin (ə) qısa kəlamlarında belə oxuyuruq:

الدَّاعِى بِلَا عَمَلٍ كَالرَّامِى بِلَا وَتَر

*"Əməl və təlaşsız dua edən şəxs kamansız ox atan kimidir."*[1] *Kamanın oxu atmaqda təsirli olduğunu nəzərə aldıqda, əməlin də duadakı rolu anlaşılır. Yuxarıdakı göstərişlərdən beşi bu həqiqətin göstəricisidir ki, dua təkcə hədəfə çatmaq üçün təbii səbəb və adi vasitələrin canişininə çevrilməməlidir, əksinə onun qəbulu üçün dua edən kəs həyatındakı proqramda tamamilə dəyişiklik etməli və onun ruhiyyəsi yenilənməli və əvvəlki əməllərilə bağlı fikir dəyişikliyi etməlidir. Görəsən, bu şərtlərə malik olan duaya "süstləşdirici" adını yapışdırmaq bu məsələ barədə məlumatsızlıq və qərəzli yanaşmanın göstəricisi deyilmi?!*

## Duanın fəlsəfəsi

Ümumilikdə, duanın bir neçə əsas fəlsəfəsi vardır və həmin səbəbdən, onun üzərində bu qədər dayanılmışdır:

### *1. Ümid ruhiyyəsinin dirçəldilməsi*

Həyatdakı təlaş və fəaliyyətlərin nəticə verməməsi bəzən insanı son qələbədən həmişəlik olaraq məyus edir və onu yerdə qalan qüvvələri işə salmaqdan saxlayır, həmçinin, problemin həlli üçün yeni çıxış yollarının

*1. «Nəhcül-bəlağə", hikmət: 337.*

düşünülməsindən yayındırır. Amma dua insanın qəlbində parlayan ümid qığılcımıdır ki, ümidsizlik buludunu onun həyat səmasından kənarlaşdırır. Dua edən şəxs özünü elə bir qüdrətlə rabitədə müşahidə edir ki, onun üçün "çətin" və "asan" məfhumu mənasızdır və çıxmazları (labirintləri) açmaq onun üçün çox sadə bir işdir. Duadan yaranan bu cür ümid insanın damarlarında cari olan təzə bir qan kimidir və onun yenidən təlaş etməsi, həmçinin maneələri aşmasının yeni amilinə çevrilir. Nəticədə, naümid olmaq qüdrəti süstləşdirərək məhv edən, ümid isə onu canlandırandır. Eyni zamanda, dua ümidə həyat verən amildir.

Dua ümid ağacını suvarır və bu ağac səhrada çətinlik günəşi insanı haldan saldıqda, onun üzərinə kölgə salır və təlaş göstərməsinə hazırlıq yaradır. Ümidsizlik gözün üzərinə çəkilən qaranlıq pərdədir və əgər nicat qapısı onun bir neçə metrliyində olsa, onu görməz, amma ümid həyat fəzasını o qədər aydınladır ki, əgər nicat qapısı ən uzaq məntəqədə olsa belə, onu görər və ona tərəf qanadlanar. Dua ümidin yarandığı mənbədir.

### *2. Paklıq, yaxşılıq və pərhizkarlığa dəvət*

Dua edən Allahın sonsuz qüdrətindən istifadə edə bilmək üçün onunla rabitəsini möhkəmlətməkdən, onun zatına yaxınlaşaraq paklıq və yaxşılıq mənbəyi olan cəlal və camal sifətlərinin məzhərinə çevrilməkdən başqa, çarəsi yoxdur. Görəsən, pisliklərə bulaşmaqla duanın qəbulu intizarında olmaq mümkündürmü?!

### *3. Həqiqi mənada olan dua tərbiyə amilidir*

Adətən, qəbulolunma şəraitinə malik olmayan süni (qeyri-təbii) və ruhsuz (quru) duaları nəzərə

almasaq, ötən bəhsdə qeyd edilən şərtlərin hamısı və ya bir qisminə malik olan dualar insanın tərbiyə edilmə amili hesab olunur. İnsanın ehtiyaclı olduğu məsələ nə qədər əhəmiyyətli və onun qəbuluna ümid nə qədər çox olarsa, xatırladılan şərtlərin həyata keçirilməsi üçün edilən təlaşlar da daha çox olacaq və fərdlərin əxlaqi tərbiyəsində duanın dərin təsiri daha yaxşı hiss ediləcəkdir. Bu cəhətdən, həqiqi dua məclislərində elə şəxslərlə qarşılaşırıq ki, onlarda paklıq, doğruluq və insani fəzilətlər kimi mənəvi nişanələr kamil şəkildə görülməkdədir. Əlbəttə, bu halətin davamiyyəti duanın şərt və həqiqiliyindən asılıdır. Bununla belə, hər bir dua edən şəxs həmin xüsusiyyətlərin müəyyən dərəcəsini fərqli şəkildə hiss etməkdədir.

### *4. Duanın möhtəvasının dərin təsiri*

Bizim elə dualarımız var ki, hər bir fərd onun möhtəvasının ali səviyyədə, bənzərsiz və tərbiyəvi xüsusiyyətinin olmasına şəhadət verər. İnsan ruhunun təlqin qəbul edəcəyi bir şəkildə həyata keçirilən belə dualar öz növbəsində, insanın təfəkkür tərzi və duyğularına təsirli ola bilər. Duaların əksəriyyətində digər insanların halı və çətinliklərinə diqqət yetirilmiş və onların çətinliklərə qalib gəlməsi üçün dua olunmuşdur. Hətta, islami rəvayətlərdə oxuyuruq ki, bəzi İslam rəhbərləri ən yaxşı dua mövqeyində belə, saatlarla digərləri üçün dua etmişlər.[1] Bu cür dualar insanda dostluq ruhiyyəsini şiddətli şəkildə qüvvətləndirir və insan şəxsiyyətinin fərdi mərhələdə dayanmasının qarşısını alaraq ali ictimai şəxsiyyət mərhələsinə tərəf çəkir. İmam Əlidən (ə) nəql olunan "Sabah" duasında,

*1. "Üsuli-kafi", c.2, dua bölməsi.*

imam Hüseyndən (ə) nəql edilən “Ərəfə” duasında, kamil şəkildə bütün xırdalıqları ilə allahşünaslıq dərsləri ali səviyyədə bəyan olunmuş, həmçinin, imam Səccaddan (ə) nəql edilən “Məkarimul-əxlaq” duasında isə bir dövrə onun sayəsində cəmiyyət və fərd üçün düzgün həyat tərzi qurula biləcək üstün fərdi və ictimai əxlaqi xüsusiyyətlər dərsi verilmişdir. “Səhifeyi-Səccadiyyə”də şücaətli sərhəd keşikçiləri haqda dualar mövcuddur ki, onların Allahdan qələbə diləmələrinin düşmən üzərindəki qələbə və ya məğlubiyyət amili olması dualar vasitəsilə göstərilmişdir. Ayın görülməsi ilə bağlı “Səhifeyi-Səccadiyyə”də olan ən qısa duada belə oxuyuruq:

أيُّهَا الْخَلْقُ المُطِيعُ! الدَّائِبُ السَّرِيعُ، المتَرَدَّدُ فِي مَنَازِلِ التَّقْدِيرِ، المُتَصَرِّفُ فِي فَلَكِ التَّدْبِيرِ، آمَنْتُ بِمَنْ نَوَّرَ بِكَ الظُّلَمَ وَ أَوْضَحَ بِكَ البُهَمَ وَ جَعَلَكَ آيَةً مِنْ آيَاتِ مُلْكِهِ وَ عَلَامَةً مِنْ عَلَامَاتِ سُلْطَانِهِ ...

*“ Ey müti olaraq yaradılan, sürətli halda seyr edən, ona təyin edilmiş mənzilləri ötüb keçən, tədbir mülkündə təsərrüf edən məxluq (ay)! Mən sənin sayəndə zülmətləri nurlandıran, hissiyyat vasitəsi ilə dərk olunmaz şeylərə sənin vasitənlə aydınlıq verən, səni öz mülkünə bir nişanə və hakimiyyətinə əlamət olaraq təyin edən kəsə iman gətirdim....”*

Bu ifadələrdə ayın sürətli hərəkəti, – günümüzdə onun saatda 3700 km hərəkət etdiyi bildirilir – onun varlıq aləmindəki qanunlara (cazibə və dafiə (dəf etmə) qüvvəsinə) tabe olması və onun müəyyən edilmiş və hesablı şəkildə öz oxu ətrafında hərəkət etməsi, həmçinin, qaranlıq gecələrdə aydınlıq bəxş etməsi kimi allahşünaslıq dərsləri şərh edilmişdir. Yaxud, “Cövşən

Kəbir" duasında Allahı min adla səsləyirik və hər on ad həqiqətdə, bir fəsli təşkil edir:

يَا مَنْ فِى السَّمَاءِ عَظَمَتُهُ، يَا مَنْ فِى الأَرْضِ آيَاتُهُ، يَا مَنْ فِى كُلِّ شَىءٍ دَلَائِلُهُ، يَا مَنْ فِى البِحَارِ عَجَائِبُهُ، يَا مَنْ فِى الجِبَالِ خَزَائِنُهُ، يَا مَنْ يَبْدَءُ الخَلْقَ ثُمَّ يُعِيدُهُ، يَا مَنْ إِلَيْهِ يَرْجَعُ الأَمْرُ كُلُّهُ، يَا مَنْ أَظْهَرَ فِى كُلِّ شَىءٍ لُطْفَهُ، يَا مَنْ احْسَنَ كُلَّ شَىءٍ خَلْقَهُ، يَا مَنْ تَصَرَّفَ فِى الخَلَائِقِ قُدْرَتُه[1]

*"Ey asimanlarda əzəməti aşkar, yerdə əlamət və nişanələri bilinən, ey hər bir şeyə dəlil və sübutu, dəryalarda təəccüb doğuracaq məxluqları, dağlarda xəzinələri olan, ey xilqəti əvvəlcə yaradan, sonra isə sona çatdıran, ey bütün işlərin ona tərəf qayıtdığı (donüşün ona doğru olduğu), ey hər şeydə lütfü zahir, ey hər şeyə gözəl xilqət verən, ey qüdrətilə bütün məxluqat üzərində hökm etməyə qadir!"*

Birinci cümlədə göylərin əzəməti, ikinci cümlədə yer kürəsinin əsrarəngiz varlıqları, üçüncü cümlədə tövhidin hər şeydəki nişanəsi, dördüncü cümlədə okeanların dərinliklərindəki təəccüblü və heyrətamiz həyat, beşinci cümlədə dağlardakı qiymətli mədənlər, altı və yeddinci cümlələrdə yaradılışın başlanğıc və icrası, həmçinin, onların bir-birinə oxşarlığı, səkkizinci cümlədə varlıq aləmindəki bütün canlıların, xüsusən, atomun tərkibindəki xırdalıqlar, doqquzuncu cümlədə yaradılışın gözəlliyi, onuncu cümlədə isə bütün varlıq aləminə hakim olan kamil qüdrətə işarə edilmişdir.

Əlbəttə, din rəhbərlərindən nəql edilən duaların möhtəvası həddən artıq uzundur və çoxlu sayda kitablara yerləşəcək qədər şərhə malikdir ki, burada onları qeyd etmək mümkün deyil. Onlara ötəri şəkildə

*1. «Cövşən Kəbir» duası, 58-ci fəsil.*

toxunmaqdakı hədəf onun ümumi bir prinsip və təməl təşkil etməsi idi.

### *5. Duanın daxili iztirablarla mübarizəsi*

İnsan həyatı heç vaxt çətinliklərdən kənar olmamış və hazırda da deyil, əksinə əlimizdə şahid və dəlillər var ki, texniki inkişafla psixoloji gərginliklərin həcmi hədsiz dərəcədə artmışdır və onun ümdə səbəblərini bir neçə məsələdə xülasələşdirmək olar:

1. İctimai, iqtisadi və hərbi hücumların qaynağı olan texnika və sənət sahəsindəki inkişafın əxlaqi tərəqqi ilə tarazlığa malik olmamasıdır ki, onun nəticəsi "hər şey hamı üçündür" yerinə, "hər şey mənim üçündür" prinsipinin hakim olması və fərdi və toplu şəkildə inhisarçılığın yaranması, digərlərinin hüququna təcavüz və qəsbdir.

2. Hazırkı maddi cəmiyyətin həyat üçün nəzərdə tutduğu hədəflərin insanın varlıq dəyəri ilə uyğun gəlməməsi səbəbindən, həyatın puç, bihudə və canısıxıcı olmasını düşünmək və hiss etmək. İnsan özünün bütün qüvvə və varlıq sərmayəsini tədricən əldən verdikdən sonra onun müqabilində itirdiyi şeyi tapa bilmədiyi üçün əbəs yerə çürüyərək puç olduğunu düşünür.

3. Mənafe və münasibətlər uğrundakı mübarizənin artımı, ictimai çəkişmələrin genişlənməsi, özbaşınalıqlardan yaranan nigarançılıqlar, əhdə vəfasızlıq, müvəffəqiyyətsizlik və nakamlığın özü də bu iztirablar üçün digər mühüm amillərdən sayılır.

4. Əyləncə və faydalanmaq üçün "həyəcanlandırıcı" qeyri-sağlam və ya "narkotik" vasitələr – özü də qeydsiz-şərtsiz və naməhdud şəkildə – günbəgün artan iztirabların meydana çıxmasında mühüm amillərdən

hesab olunur.

Bir əsrlik hadisələrin bir il və ya bir ayda dəyişməsinə səbəb olan dünyəvi və ictimai dəyişiklik sürəti də həmin amilləri əhatə edərək onların daha da yayılmasına gətirib çıxarır ki, müasir insanın əsəb sistemi iztirab və nigarançılığın ağır yükü altında sıradan çıxır.

Nigarançılıq qüssənin qaynağıdır və onun 75% intihar halları və ruhi xəstəliklərin amili olduğunu deyirlər və dua iztirabların aradan qaldırılmasında dərin təsirə malikdir.

Digər tərəfdən, başqaları üçün dua etməyin duanın təsirli olması amili olduğuna diqqət yetirməklə, məlum olur ki, dua ictimai ruhiyyəni fərdi inhisarçılığın yerinə canişin yaradır. Həmçinin, insan sonsuz, bütün yaxşılıqların əzəli və əbədi olan mənbəyinə və onunla rabitədə olduqda, daha yaxşı həyata sahib olacağına diqqət yetirməklə bihudəlik və puçluq hissini özündən uzaqlaşdırır və yaşamaq üçün özündə böyük bir hədəf və stimul əldə edir. Eyni zamanda, qeyri-münasib və ədalətsiz rəftarları azaldır. Özündən üstün və qüdrətli bir dayaq yeri tapdığından, müvəffəqiyyətsizlikdən yaranan narahatçılıqları özündən kənarlaşdıraraq çətinliklərə qalib gəlmək üçün qüvvələrini yeniləyir və gələcəyə ümidvar olur. Yuxarıda qeyd etdiyimiz dəlilləri müasir təbəqədən olan məşhur bir psixoloqun söylədiklərindən eşitməyimiz daha yaxşı olar. O, yazdığı "Dua" (Niyayeş)[1] və "Həyatın adət-ənənəsi" adlı kitablarında belə qeyd edir:

*"Ümidvar olmaq üçün məntiqli kəlmələr tapmadıqda,*

*1. Əlbəttə, «niyayeş» məfhumu «dua» məfhumundan daha geniş mənaya malikdir. Bununla belə, dua niyayeşin misdaq və nümunələrindən biridir və onunun barəsində söylənilən şeylər duaya da şamil olur.*

*dua insanı ümidli edir və ona böyük hadisələr müqabilində dayanmaq qüdrəti bağışlayır."*[1]

Duanı morfinlə bir sırada tutmaq olmaz, çünki dua aramlıq yaratdığı halda belə, insanın əsas fəaliyyətlərində kamil və düzgün şəkildə bir növ batini təəccüb və aramlıq icad edir, bəzən də qəhrəmanlıq və şücaətliliyə təhrik edir.[2]

Dua tamamilə kamil bir ruhi zəminənin yaranmasında zəruri bir praktika rolunu oynayır və əxlaqi və irfani hissiyyatları birlikdə qüvvətləndirir. Dua etməklə məşğul olanların simasında müəyyən həddə vəzifəni tanımaq, həsəd və şər xüsusiyyətlərin azlığı və digərlərinə nisbətdə müəyyən qədər xeyirxahlıq və yaxşılıq müşahidə olunur.[3]

Dua etmək hissini özlərində öldürən cəmiyyətlər əksər hallarda fəsad və zavala uğramaqdan amanda qalmayacaqlar.[4] Yuxarıda qeyd etdiklərimizin məcmusundan duanın batini iztirabların aradan qaldırılması, daxili təəccüb və fərahlığın, ruhi fəaliyyətin icadı, ictimai fəsadlarla mübarizə səviyyəsinin yüksəldilməsindəki təsiri məşhur bir alimin nəzərləri baxımından aydın oldu. Adı çəkilən şəxs mətləbi bir qədər də genişləndirərək duanın, hətta cisimdə də qeyri-adi təsirə malik olduğunu vurğulayaraq yazır: "Duanın nəticələrini elmi şəkildə də əldə etmək mümkündür. Belə ki, dua nəinki, sadəcə duyğular üzərində, əksinə cismani keyfiyyətlərdə də təsir qoyur və bəzən bir neçə saniyəlik,

---

*1. Aleksis Karl, «Həyatın adət-ənənəsi», səh. 137.*

*2. «Dua", səh. 21.*

*3. «Dua", səh. 19.*

*4. Həmin yerdə, səh. 71.*

yaxud bir neçə günlük cismi xəstəliklərə sağlamlıq bəxş edir."[1]

Keçmiş bəhslərdə bəyan edilənlərdən dua məsələsilə bağlı birinci iradın həlli aydınlaşır və məlum olur ki, duanın təsirilə, nəinki, təlaş və fəaliyyətlət qüvvədən düşmür, əksinə dua ümid, fəaliyyət və ayıqlıq bəxş edir. Həmçinin, insanda ehtiyatdakı qüvvələrdən istifadə etmək üçün hazırlıq yaradır və çətinliklər müqabilində insanın dözüm səviyyəsini yüksəldir. Eyni zamanda, onu keçmişdəki səhv və xətalarını təlafi etməyə dəvət edir. Bu təsirin hər bir duada deyil, ötən bəhslərdə qeyd olunan şərtlərə malik dualarda olduğunu bir daha bildirməyə yəqin ki, ehtiyac yoxdur. Həmçinin, əksər duaların öz həqiqi yolundan xaric olaraq əsil ruh və fəlsəfəsini əldən vermə səbəbilə süstləşdirici forma alaraq bəzilərinin tənbəlliyini ört-basdır edən pərdə rolunu oynaması, məsuliyyətdən qaçma, yalançı dindarlıq vasitəsinə çevrilmə, çətinliklərə səbirsizlik və öz vicdanı və digərlərinin aldadılması vəsiləsi olması həqiqətini də gizlətmək olmaz. Məlumdur ki, hansısa müsbət bir vəsilədən sui-istifadə etmək onun dəyərini azaltmır. Görəsən, ondan sui-istifadə edilməyən hansısa müsbət vəsilə mövcuddurmu?! Bizim söylədiklərimiz hər hansı bir dua barəsində deyil, həqiqi dinin dəvət etdiyi dua barəsindədir.

## Fəlsəfi iradların araşdırılması və ona cavab:

Hazırda "Yaşadığımız dünya təkvini səbəb və nəticələr məcmusudur və duanın ifadələrindəki kimi sözləri

*1. «Həyatın adət-ənənəsi".*

onların dəyişdirilməsində hansı rola malik ola bilər?!" deyən ikinci iradın araşdırılmasına başlayırıq. Bu irada cavab verməmişdən qabaq, diqqət yetirmək lazımdır ki, birinci iradda verdiyimiz cavab materialistlərlə bağlı və cavabımız da onların məktəb və metodu ilə uyğun idi. Yəni, orada heç vaxt duanın mənəvi təsirlərinə istinad edilməmişdir. Amma burada söhbət Allaha pərəstiş edərək onun varlıq sifətlərinin həqiqətini qəbul edən, lakin duanın dünyadakı səbəb-nəticə silsiləsindəki təsirinə etiqadlı olmayanlardan gedir. Yaxud da yəhudi tayfasının bir qismindən nəql edildiyi kimi desək:

*"Allahdan istədiyimiz bir mətləbin ya onun həqiqi səbəbi kamil şəkildə yaradılaraq təkvini qəza və qədər qanununa uyğun həyata keçməlidir, ya da yaradılmamışdır. Birinci halda dua etsək də, etməsək də həyata keçəcək və ikinci halda isə əksinə həyata keçməyəcəkdir."*

Bu şəkildə irad tutan kəslər guya, duanın dilin hərəkəti və sözlərdən ibarət bir şey olmasından qəflət etmiş və onun bir növ ruhi və mənəvi hazırlıq, həmçinin, islahedici funksiya daşıdığını, eyni zamanda, səbəblər silsiləsində yer tutaraq naqis səbəbləri kamilləşdirdiyini düşünmüşlər. Nəticədə, Allahın sonsuz lütfü insanların ləyaqəti miqdarında onlara nəsib olur və beləliklə, ləyaqət kəsb etmək yeni fəzilət və lütf mənşəyinə çevrilə bilər. Bu mövzunu bir misalla aydınlaşdırmaq olar:

Hansısa bir torpaq əkinçiliyə yararlı olmadığından, bağbanın diqqətini cəlb etməyə bilər. Bu halda ora toxum səpməyi bihudə hesab edirik. Amma ondakı müxtəlif maneələr aradan qaldırılsa, əkinçi tezliklə həmin torpaqda toxum səpəcək, çünki torpaq buna layiq olmasını öz zəban-halı ilə bəyan edir. Amma duanın

içiboş (quru) kəlmələrdən ibarət olduğunu güman edənlər onun səbəblər silsiləsində yer tutması barədə şəkk və şübhəyə düşmüşlər. Həmçinin, hədislərdə qeyd edilən aşağıdakı ifadələr də həmin məzmuna işarə edir:

الدُّعَاءُ يُرَّدُ الْقَضَاءَ بَعْدَ مَا ابْرِمَ إِبْرَاماً

*"Dua qəzanı həyata keçməsinə hökm verildikdən sonra geri çevirər."*[1]

يا لَا يَرُدُّ الْقَضَاءَ إِلَّاالدُّعَاءُ

*"Ey qəzanı duadan başqa, bir şeylə geri çevirməyən!"*[2]

## Əqidəvi iradlara cavab:

Yuxarıda qeyd etdiklərimizdən güman edirəm ki, duanın qeyri-məntiqli və başqa ifadə ilə desək, Allahın işlərinə dəxalət olduğunu hesab edən və onun Allahın işləri müqabilində təslim və razılıq ruhiyyəsi ilə ziddiyyət təşkil etdiyini güman edən kəslərə cavab vermək o qədər də çətin olmasın. Doğrudur ki, Allah bəndələrinə qarşı mehriban və hikmətlidir və onların məsləhətinə olan şeyləri artırıb-azaltmadan onlara bəxş edir. Amma həmin hikmətə əsasən, nemətlərin bəndələrə verilməsilə onların ləyaqəti arasında birbaşa rabitə vardır. Həqiqi dua edənlər ləyaqət mizanını dua sayəsində yüksəldir və nemətlərlə bağlı həmin miqdarda daha çox paya sahib olurlar. İnsanların ruhu ucsuz-bucaqsız okeandan ölçü vahidi olan qabla su götürülməsinə, yaxud həyat bəxş edən yağış damlalarının altında yerləşən əraziyə

*1. «Biharul-ənvar", c.59, səh. 228.*

*2. «Biharul-ənvar", c. 90, səh. 294.*

bənzəyir ki, nə qədər geniş olsa, yağışın qətrələrindən onun faydalanması daha çox olacaq. Əgər dua əsas şərtlərə malik olarsa, insanın zərfiyyət və tutumunu artıraraq onu daha da genişləndirər. Nəticədə, duanın təsirli olmasına iman, eynilə Allahın hikmətinə iman kimidir. Duanın mənəvi təsirinin təsəvvürü materialistlər üçün asan olmasa da, fövqəltəbii qüvvəyə inananlar üçün o qədər də çətin deyil.

Aleksis Karl "Dua" adlı kitabında bu məsələ üzərində təkid edərək onun təcrübə əsasında sübuta yetməsinin qətiliyini bildirir: *"Duanın bəzən heyrətamiz təsirləri vardır. Elə xəstələr olmuşdur ki, bir anda cüzam, xərçəng, böyrək çatışmazlığı və sairə kimi xəstəliklərdən şəfa tapmışlar."*[1]

Bu bəhsin sonunda duanın təsir etmə şəraitinin təkmilləşdiricisi, həm də duanın islahetmə fəlsəfəsinə dəlil üçün bildirmək lazımdır ki, islami rəvayətlərdə də dua barəsində daha çox təkid olunan məsələ onun müşriklərin duasına bənzədilməməsidir, yəni onların duası sadəcə giriftarçılıq zamanına məxsusdur və aramlıq zamanı ondan əsər-əlamət yoxdur.

فَإِذَا رَكِبُواْ فِي الْفُلْكِ دَعَوُاْ اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ فَلَمَّا نَجَّاهُمْ إِلَى الْبَرِّ إِذَا هُمْ يُشْرِكُونَ

*"Gəmiyə minən (və qərq olmaq təhlükəsi ilə üzləşən) zaman dini yalnız Allaha məxsus edib ona dua edərlər. (İbadət etdikləri bütləri unudarlar. Allah) onları quruya çıxarıb, xilas edən kimi dərhal ona şərik qoşarlar."*[2]

Həmin məzmunlu rəvayəti İslam Peyğəmbərindən (s) də oxuyuruq ki, o həzrət Əbuzərə buyurur:

*1. "Dua", səh. 22.*

*2. «Ənkəbut» surəsi, ayə 65.*

تَعْرِفُ إِلَى اللّهِ فِي الرَّخَاءِ يَعْرِفُكَ فِي الشَّدَةِ وَ إِذَا سَأَلْتَ فَاسْأَلِ اللَّه

*"Allahı asudəlikdə tanı ki, o da səni çətinlikdə tanısın. Əgər bir şey istəsən, təkcə Allahdan istə."* [1]

Ayrı-seçkiliyə yol verilməyən və daimi olan belə bir dua əxlaqi cəhətdən qələbə, sərvət və məqamdan qaynaqlanan qürur və qəflətlə mübarizə aparmaq üçün təsirli amildir, həmçinin, tövhid baxımından onda heç bir şirk yoxdur. Yalnız çətinliklər hücum çəkdyi zaman Allaha diqqət yetirən kəslər, elə bil ki, onu təkcə bu zaman aləmdə təsirli bilirlər, amma qüdrətli və asayişdə olduqları zaman, öz qüdrət və vasitələrini əsil təsirli hesab edirlər ki, bu da bir növ şirkdir. Həqiqətdə, bir müvəhhidin nəzərində bütün hallarda əsil təsirli Allahdır və dünyadakı səbəb və vasitələr onun qüdrət və göstərişi ilə mövcuddur və hər bir şey ondandır.

## 9. İntizar məsələsi

Bəşər cəmiyyətindəki xoşagəlməz vəziyyət və ayrı-seçkilikləri aradan qaldırmaq, insanın yaşayış mühitindən müharibə, qan tökmək və fəsadları yığışdırmaq üçün zəruri olan dünya əhəmiyyətli qiyam mövzusu dinə meyil göstərənlərin tərəfdarlarının istismarçılıq maraqları ilə bağlı pənah apardıqları digər məsələlərdən biridir.

Bəzən belə bir intizarın fərdləri röya aləminə apararaq onların ətrafda baş verən hadisələrdən qafil olmasına səbəb olduğu və ictimai məsuliyyətlərdən yayınmasına təşviq etdiyini deyirlər. Başqa sözlə, intizar fərdi cəhətdən tənəzzül və ətalət amili və ictimai cəhətdən

1. *«Biharul-ənvar», c. 74, səh. 87.*

istismarazidd fəaliyyətlərin qarşısını almaq vəsiləsidir və istənilən halda, süstləşdirici təsirə malikdir.

## İzah və araşdırma:

Yuxarıda qeyd olunanlar barədə həqiqət və reallığın hansı həddə təhrif olunmasının yaxşı anlaşılması və əgər məsələni düzgün tərzdə bəyan etsələr, onun fərdi və ictimai fəaliyyətlərdə təsirli olacağını (halbuki, sütləşdirici amil kimi göstərilmişdir) bəyan etmək üçün bir neçə mövzunu araşdırmaq lazım gələcək:

### *1. Rəvayətlərdə intizarın əhəmiyyəti*

Hər şeydən öncə dini rəvayətlərdə intizar məsələsinin əhəmiyyəti barədə qeyd olunanlara diqqət yetirməli və gələcək bəhsin aydınlaşdırıcısı olan həmin mətnlərə istinad etməliyik. Həmin rəvayətlərin bir neçəsinə diqqət yetirin:

Bir şəxs imam Sadiqdən (ə) soruşdu: "İmamların vilayətinə etiqadlı olaraq haqq olan hakimiyyətin zühuru intizarında olan və bu halda dünyasını dəyişən kəs barədə nə deyə bilərsiniz?" İmam cavabında belə buyurdu:

هُوَ بِمَنْزِلَةِ مَنْ كَانَ مَعَ الْقَائِمِ فِي فُسْطَاطِهِ- ثُمَّ سَكَتَ هُنَيْئَةً- ثُمَّ قَالَ: هُوَ كَمَنْ كَانَ مَعَ رَسُولِ اللّه

*"Həmin şəxs bu qiyamın rəhbəri ilə onun xeyməsində olan kəsin mənziləsindədir. Bir qədər sükut etdikdən sonra imam yenə buyurdu: "O, Peyğəmbərlə (s) birlikdə olmuş şəxs kimidir."*"[1]

Bu mətləbin oxşarı digər rəvayətlərdə də nəql

1. *«Biharul-ənvar», c. 52, səh. 125.*

olunmuşdur:

بِمَنْزِلَةِ الضَّارِبِ بِسَيْفِهِ فِي سَبِيلِ اللّه

*"Allah yolunda qılınc çalanın mənziləsindədir."*[1]

كَمَنْ قَارَعَ[2] مَعَ رَسُولِ اللّهِ بَسَيْفِه

*"Allahın Peyğəmbərilə (s) birlikdə qılınc vuran kəs kimidir."*[3]

بِمَنْزِلَةِ الْمُجَاهِدِينَ بَيْنَ يَدَىْ رَسُولِ اللّهِ بِالسَّيْف

*"Allah Rəsulunun (s) kənarında qılıncla mübarizə aparan mücahidlərin mənziləsindədir."*[4]

«بِمَنْزِلَةِ مَنْ اسْتَشْهَدَ مَعَ رَسُولِ اللّهِ صلى الله عليه و آله

*"Peyğəmbərlə (s) birlikdə şəhadət verən şəxsin mənziləsindədir."*[5]

Həzrət Mehdinin (ə.c) zühuru barəsində qeyd edilən müxtəlif rəvayətlər dərin mənalıdır və intizar məsələsi ilə düşmənlərlə mübarizənin sonuncu forması arasında bir növ, rabitənin olması həqiqətindən xəbər verir. Bu məsələ bəzən o həzrətin bayrağı altında döyüşmək, bəzən Peyğəmbərlə (s) birlikdə olmaq, bəzən də mücahidlər qəlibində göstərilmişdir. Çoxlu saydakı rəvayətlərdə belə bir hökumətin intizarında olmaq ən üstün ibadət kimi tanıtdırılmışdır, o cümlədən, Peyğəmbər (s) belə

---

*1. Həmin yerdə, səh. 126.*

*2.* قَارَعَ بَالسَّيْف *– yəni, "düşmənə qılınc vuran" deməkdir.*

*3. «Biharul-ənvar», c. 52, səh. 126.*

*4. Həmin yerdə, c.36, səh. 387.*

*5. Həmin yerdə, c.52, səh. 142.*

buyurur:

أَفْضَلُ أعْمَالِ أُمَّتِى إنْتِظَارُ الفَرَجِ مِنَ اللّهِ عَزَّ وَ جَل

*"Ümmətimin ən fəzilətli əməli Allah tərəfindən olan fərəcin intizarında olmaqdır."* [1]

Həmçinin, digər bir hədisdə o həzrət belə buyurur:

أَفْضَلُ العِبَادَةِ انْتِظَارُ الفَرج

*"İbadətin ən üstünü fərəcin intizarında olmaqdır."* [2]

Bu hədis istər "intizar" kəlməsi onun geniş mənasına şamil olsun, istərsə də "dünyəvi islahatçı" mənasını verən xüsusi mənaya, bizim bəhsimizdəki intizarın əhəmiyyətini aydınlaşdırır.

## *2. "İntizar" məfhumu*

"İntizar" və ya "gələcəyə baxış" elə bir kəsin halına deyilir ki, o, mövcud vəziyyətdən narahatdır və ondan daha yaxşı vəziyyətin yaranmasına çalışır. Məsələn, xəstəliyin sağalması intizarında olan xəstə və oğlunun səfərdən qayıtmasını gözləyən ata kimi. Xəstə xəstəlikdən, ata isə oğlunun ayrılığından narahatdır və onlar vəziyyətin yaxşılaşdırılması üçün çalışırlar. Yaxud ticarətindən narahat olaraq iqtisadi böhranın aradan qalxması intizarında olan tacirdə də hər iki halət mövcuddur.

Nəticədə, haqq hökumət və həzrət Mehdinin (ə.c) ədaləti, həmçinin, dünyəvi islahatçının intizarında olmaq həqiqətdə, iki ünsürdən – birincisi, inkar ünsürü, ikincisi, təsdiq ünsüründən – təşkil olunub. İnkar ünsürü

---

*1. «Biharul-ənvar», c. 50, səh. 318.*

*2. Həmin yerdə, c.52, səh. 125.*

mövcud vəziyyətdən kənar olmaq elanı, təsdiq ünsürü isə daha yaxşı vəziyyəti istəməkdən ibarətdir. Əgər bu iki cəhət insanın ruhuna köklü şəkildə nüfuz etsə, iki əhatəli əməlin qaynağına çevrilər. Səthi formadakı etiqadların söz və boğazdan yuxarı təsirlərinin olmaması mümkündür, amma dərin etiqadların arxasınca həmişə təsirli əməllər gəlir. Bu iki amil zülm, fəsad, müharibə və qan tökülməsilə hər cür həmkarlıq və həmahəngliyin tərki, hətta bir tərəfdən, onlarla mübarizə və digər tərəfdən, həmin vahid dünya miqyaslı və ictimai hökumətin təşəkkülü üçün özünü islah, yardım, cismi, ruhi, maddi və mənəvi hazırlıqların əldə edilməsindən ibarətdir. Əgər diqqət yetirsək, görərik ki, onun hər iki qismi islahetmə, fəaliyyət, agahlıq və oyanış amilidir.

"İntizar" məfhumunun əslinə nəzər saldıqda, yuxarıda intizarda olanlara veriləcək mükafat və işlərinin nəticəsi barədə qeyd etdiyimiz müxtəlif rəvayətlərin mənası daha yaxşı dərk olunacaq. Hazırda həqiqi intizarda olanların nə üçün bəzən həzrət Mehdinin (ə.c) xeyməsində olan, bəzən Peyğəmbərin (s) yanında döyüşən və qanına qəltan olan kimi təsvir olunmasının mənası daha yaxşı anlaşılır. Məgər, bunlar fərdlərin hazırlıq və intizar dərəcəsinin miqdarına mütənasib olaraq haqq və ədalət yolunda mücadilənin müxtəlif dərəcə və mərhələləri deyilmi? Yəni, Allah yolundakı mücahidlərin fədakarlıq mizanı və onların ifa etdikləri rol müxtəlif olduğu kimi, intizar, özünüislahetmə və hazırlığın da fərqli dərəcələri vardır və onların hər biri digərləri ilə müqəddimə və nəticə baxımından oxşarlığa malikdir. Onların hər ikisi cihaddır, hazırlıq və özünüislahetmə tələb edir. Belə bir hökumət rəhbərinin xeyməsində mövqe tutan, yəni

dünya miqyaslı rəhbərliyin mərkəzində yerləşən bir kəs qafil, bixəbər və vecsiz şəxs ola bilməz və həmin yer hər kəsin yeri deyil. O yer həqiqətən, həddən artıq əhəmiyyətə malik mövqeyə ləyaqəti olan və əlində silah tutaraq həzrət Mehdinin (ə.c) sülh və ədalət hökumətinə müxalif olanlarla döyüşən və ruhi, ideoloji və döyüş ruhiyyəsinə malik şəxsə mənsubdur. Nəticədə, "intizar" məfhumu intizarda olanları fəsadla iki cəhətdən (cəbhədən) mübarizə aparmağa dəvət edir.

### *3. "İntizar" sözü "kamil şəkildə hazır olmaq" mənasındadır*

dünya miqyaslı islahatçının intizarını çəkənlər intizarın bəşər tarixindəki ən geniş və əsaslı inqilab və dəyişiklik olmasına etiqadlıdırlar. Bu, elə bir inqilabdır ki, keçmiş islahatçı inqilablardan fərqli olaraq, sadəcə bir məntəqə və bir həyat sahəsinə məxsus olmaq xüsusiyyətinə malik deyil, əksinə ümumi və dünya miqyaslı olmasından əlavə, insan həyatının bütün sahələrini – istər mədəni, siyasi, iqtisadi olsun, istərsə də əxlaqi – də özündə əks etdirəcək.

Əlbəttə, belə bir intizar üçün əlimizdə etiqadi baxımdan hansı dəlillərin olması mövzusu ilə işimiz yoxdur. Bəhsimizin hədəfi təkcə belə bir etiqadın nəticə və təsirlərinin araşdırılması, həmçinin, bir sıra materialist və kommunistlərin güman etdikləri kimi, intizarın süstləşdirici təsirə malik olması, yoxsa, fəaliyyət yaradan və islahatçı olmasını bilməkdir. Baxmayaraq ki, bizim nəzərimizdə məsələnin əsli sübuta yetmiş, həyat və varlıq aləmində aşkar və aydın olan "təkamül" və "nəzm" qanunu da onu sübuta yetirməkdə yetərlidir və bu barədə şərhə ehtiyac yoxdur və bəhsimizin

mövzusundan xaricdir. İşarə etdiyimiz kimi, intizar təsdiq və inkar adlı iki ünsürdən ibarətdir.

Hazırda sözümüzə əlavə edərək bildiririk ki, hər bir inqilab və dəyişiklik də iki cəhətə malikdir: Təsdiq və inkar cəhəti.

Dəyişikliyin ilkin cəhəti olan inkar cəhəti fəsad, anlaşılmazlıqlar, gerilik və mənfi meyillərin aradan qaldırılması və cəmiyyət lövhəsini yanlış görüntülərdən təmizləməkdən ibarətdir. Bunları həyata keçirdikdən sonra, növbə islahatçı amilləri canişin olaraq təyin etmək, inkişaf və tərəqqi, düzəliş və təsdiq cəhətinə yetişir. "İntizar" məfhumunun "dünya miqyaslı islahat" məfhumu ilə tərkib əmələ gətirməsi (mürəkkəb olması) onun islahatçı təsirlərini daha da aydınlaşdırır. Yəni, belə dəyişikliklərdə həyat sürən kəslər öz dəvətlərində yalançı deyil, sadiq və düzdanışan olsalar, aşağıdakı təsirlər onların vücudunda aşkar olacaq:

### *A) Fərdi islahatlar:*

Belə dəyişiklik hər şeydən əvvəl, bu cür geniş dünyəvi islahatların məsuliyyətini çiyinlərində daşıya biləcək dəyərli və hazır insani ünsürlərə ehtiyaclıdır və bunun üçün birinci dərəcədə düşüncə səviyyəsini yüksəltmək və belə əzəmətli proqramların icra edilməsində ruhi və ideoloji hazırlıq və agahlıq lazımdır. Dardüşüncəlilik, yalnış fikirləşmə, həsəd, uşaqcasına mübahisələr və ağılsız addımlar – ümumiyyətlə, hər cür nifaq və pərakəndəlik həqiqi intizarda olanların mövqeyi ilə uyğun gəlmir. Ən mühüm məsələ isə həqiqi intizarda olan şəxsin bu mühüm proqramların icrasında tamaşaçı roluna malik ola bilməməsidir. Bu dəyişikliklərin aqibət və nəticəsinə inam onun müxaliflərin cərgəsində yer

tutmasına heç vaxt icazə vermir, həmçinin, müvafiq olduqlarının yanında yer tutması üçün də o, pak ruhiyyə və əməllərə malik və kifayət qədər agahlığa nail olmağa ehtiyaclıdır. Əgər mən pis işlərə aludə olsam, onda, ilk öncə onun şöləsi mənim ətəyimi yandıracaq. Belə olduğu halda, mən inqilab və dəyişikliklərin necə intizarında ola bilərəm?! Həmçinin, əgər zalım və zülmkaramsa, onda, qılıncı zalımların qanına susamış şəxsin necə intizarında ola bilərəm?!

Əgər mən fasid biriyəmsə, onda, fasid və nadürüst insanların heç bir rola malik olmadığı, eyni zamanda, uzaqlaşdırılaraq nifrət edildiyi bir rejimin necə intizarında ola bilərəm?! Görəsən, bu intizar ruh və düşüncənin saflaşdırılması və mənim cisim və bədənimin aludəliklərdən təmizlənməsi üçün kifayət deyilmi?!

Azadlıq bəxş edən cihadın intizarında olan bir qoşun hökmən, kamil şəkildə hazır vəziyyətdə olar və belə döyüş üçün lazım olan silahları əldə edər, mövcud silahları islah edər və səngərlər qazar. Həmçinin, döyüşçülərinin döyüş hazırlığını yüksəldər, fərdlərin ruhiyyəsini gücləndirər, onların qəlbində belə bir cihad üçün məhəbbət və şövq yaradar. Belə hazırlığa malik olmayan qoşun intizar halında yaşamır və əgər intizarda olduğunu söyləsə, yalan demişdir. dünya miqyaslı islahatçının intizarında olmaq dünyanı islah etmək üçün ideoloji və əxlaqi, maddi və mənəvi baxımdan kamil şəkildə hazır olmaq deməkdir və belə bir intizar həddən artıq təsirə malikdir. Düşüncə və əxlaqı islah etmək və bütün zülm və pisliklərə son qoymaq əzəmətli bir işdir və belə böyük hədəf üçün də onun genişlik və əzəmətinə münasib şəkildə kamilən hazır olmaq lazımdır.

### *B) İctimai yardımlar:*

Bu cür intizarda olanlar bir-birindən muğayat olmaq və digərlərinin də islahına çalışmaq məcburiyyətindədirlər, çünki onların intizarında olduqları proqram fərdi deyil, əksinə bütün dəyişiklik ünsürlərinin onda iştirak etdiyi bir proqramdır. Bu baxımdan, toplu şəkildə fəaliyyət göstərməli və intizarında olduqları əzəmətli proqrama uyğun əməl etməlidirlər. Eyni bir cəbhədə toplu (cəm) şəkildə mübarizə aparanlar bir-birindən qəflət edə bilməz, əksinə hamı zəif nöqtələrin islahına çalışmalı, zərər vura biləcək hər vəziyyəti aradan qaldırmalı və zəif hissələri gücləndirməlidirlər ki, həmin proqramın icrasında fəal iştirak edə bilsinlər.

### *C) Zəminələri hazırlamaq:*

Dünyəvi islahatçının bütün qələbə və fəthləri, inqilab və islahatları, həmçinin, dəyişiklikləri bir neçə nəfərlə qiyam edərək möcüzə ilə həyata keçirəcəyi və digərlərinin də tamaşaçı qismində seyr edəcəyi, ən ali insani dəyərlərə əsaslanan vahid və ədalətli dünya miqyaslı hakimiyyətin olmasına hazır olmayan bir dünyanı bir gecədə İsanın (ə) nəfəsi ilə dəyişəcəyi, ildırım sürətilə islah olunması mümkün olmayan ünsürləri məhv edərək hamının düşüncə səviyyəsini yüksəldəcəyi və haqq-ədalət bayrağını bütün dünyaya sancacağı kimi yanlış düşüncəni kamilən zehinlərdən silmək lazımdır. Xeyr, əslində belə deyil! Bəyəm, digər ilahi peyğəmbər və asimani islahatçılar belə bir proqrama sahib idilərmi ki, o da həmin proqrama malik olsun?! Görəsən, o, xilqət aləmində bir istisnadırmı?! Görəsən, İslam Peyğəmbərinin (s) şəxsən özü məqsədinə nail olmaq üçün bütün təbii imkan və vasitələrdən istifadə etmirdimi?! Bəyəm,

döyüş meydanlarında lazım olan plan və hesablamaları diqqətdən yayındırırdımı?! Nəticədə, onun da mümkün olduqca təbii vasitə və amillərdən istifadə edəcəyi və lazım gəldikdə, xüsusi ilahi yardımlardan faydalanacağı məlum olur. Bu həqiqəti nəzərə aldıqda, belə dəyişikliklər üçün zəminələr hazırlamağın həmin dəyişikliyin ilkin şərti olması aydınlaşır.

## *Zəminələrin hazırlanma yolları*

Vahid dünya miqyaslı bir hökumətin insani dəyərlər əsasında yaranması və ona zəminələr hazırlanması üçün yenə də iki amildən – təsdiq və inkar amilindən istifadə etmək lazımdır:

1. Dünya əhalisini hazırkı vəziyyətdən agah və nəticədə, bütün zülmkarlıq və sitəmlərdən xəbərdar edəcək və nəhayət, onlarda nifrət yaradacaq amillər.
2. Camaatı belə bir hökumətin prinsiplərini qəbul etməyə hazırlayan amillər.

Birinci hissədə ondan yaranan zülm və fəsadların, əksül-əməllərin, narahatçılıqlar və maneələrin meydana çıxması mühüm amillərdən hesab olunur. Dünya əhalisini bədbinliyə sürükləyən dünyanın maddi həyatında olan və mənəvi həyatın unudulmasına gətirib çıxaran həddən artıq xoşagəlməz vəziyyəti onların gələcəyə nisbətdə naümid olmasına kifayət qədər yetərlidir. Belə ümidsizlik və nifrət həmin hökumətin qəbulluğu üçün lazımı qədər şərait yaradır.

İkinci hissədə isə belə bir dünya miqyaslı proqram üçün nəzərə çarpacaq dərəcədə təlimlər həyata keçirilməlidir ki, islaholunası ünsürlərdə islahat üçün münasib ideoloji zəminə yaransın və islah olunması mümkün olmayan

ünsürlərə də höccət tamamlanmış olsun və bu minvalla, hər iki tərəfin cərgəsi müəyyənləşsin.

Bəzi islami mənbələrdə qeyd edilən məlumatlarda həmin böyük islahatçının qiyamından əvvəl, İslam təlimlərinin dünya səviyyəsində təbliğ olunması və höccətin hamıya tamamlanmasının zəruriliyinə işarə edilmişdir. İmam Sadiqdən (ə) nəql edilən hədisdə belə yazılır:

سَتَخْلُوا كُوفَةُ مِنَ المُؤْمِنِينَ وَ يَأْزِرُ عَنْهَا العِلْمُ كَمَا تَأْزِرُ الحَيَّةُ فى جَاجِرِها[1] ثُمَّ يَظْهَرُ

العِلْمُ بِبَلْدَةٍ يُقَالُ لَهَا قُمْ وَ تَصِيرُ مَعْدِناً لِلْعِلْمِ وَ الفَضْلِ حَتَّى لَايَبْقَى فِى الأَرْضِ مُسْتَضْعَفٌ فِى الدّينِ حَتَّى المُخَدَّرَاتِ فِى الحِجَالِ وَ ذَلِكَ عِنْدَ قُرْبِ ظُهُورِ قَائِمِنَا ... فَيَفِيضُ العِلْمُ مِنْهُ إِلَى سَايِرِ البِلَادَ فِى المَشْرِقِ وَ المَغْرِبِ فَيَتُمُ اللّهُ حُجَّتَهُ عَلَى الخَلْقِ حَتَّى لَايَبْقَى أحَدٌ عَلَى الأَرْضِ لَمْ يَبْلُغْ إِلَيْه الدِّينُ وَ العِلْمُ ثُمَّ يَظْهَرُ القَائِمُ عليه السلام

*Bu maraqlı hədisdə imam gələcəkdən belə xəbər verir: "Tezliklə elm və bilik Kufədən yığışdırılacaq...daha sonra Qum adlı bir şəhərdə aşkar olaraq elm və biliyin mərkəzinə çevriləcək ki, dünyanın heç bir məntəqəsində İslamdan kimsə, hətta Hicləyə gedən kiçik yaşlı qızlar da xəbərsiz qalmasın. Bu, bizim inqilab rəhbərimizin qiyamının yaxınlaşdığı vaxtdır... Elm və bilik dünyanın şərqindən tutmuş qərbinə kimi bir-şəhərindən o biri şəhərinə yayılacaq və Allah bu yolla bütün insanlara öz höcətini tamamlayacaq ki, yer üzərində bu xəbər*

*1. Bu cümlədən belə məlum olur ki, Kufə və onun ətrafından elm tamamilə yığışdırılmayacaq, əksinə məhdudlaşaraq toplanacaq və vahid dünya miqyaslı bir elm formasından vahid məhəlli bir elm formasına düşəcəkdir.*

*ona yetirilməmiş bir kəs qalmasın. Daha sonra o qiyamçı qiyam edəcək."*[1]

Müxaliflərimizin bu məsələni qəbul edib-etməməsi ilə işimiz yoxdur, məqsəd budur ki, həqiqi intizarda olanlar yuxarıdakı hədisə uyğun olaraq, islami təlimat və məfhumlar baxımından bütün dünyanı bürüyəcək geniş və əhatəli mədəni bir inqilabın olacağına inanırlar və bu inqilab həzrət Mehdinin (ə.c) qiyamından öncə həyata keçməlidir və təbiidir ki, belə islahatçı inqilab həqiqi intizarda olanların əlilə həyata keçməlidir. Bir gün gələcək ki, böyük islami elm mərkəzlərindən ən güclü rabitə aparatları və təbliğat vasitələrilə dünyada hərtərəfli islahat həyata keçiriləcək. Görəsən, belə bir məsuliyyətə etiqadın süstləşdirici təsiri var, yoxsa, təhrikedici?

Deyilənlərdən belə nəticə alınır ki, sözün əsl mənasında olan intizar istər ictimai sahədə olsun, istərsə də fərdi, bütün zəminələrdə qeyri-adi islahatçı bir proqramdan ibarətdir və bu bəhsin heç bir yerində anlaşılmaz məsələ yoxdur.

Bir daha intizar məsələsinin təkcə müxalif şəxslərin deyil, əksinə azməlumatlı müvafiqlərin də kamil şəkildə təhrif, həmçinin, dəyişiklik etməsinə məruz qaldığını və iradların həmin təhriflərdən qaynaqlandığını təkrar edirik.

---

*1. «Qum tarixi" ("Biharul-ənvar", c.14, səh. 338-dəki nəqlə əsasən). Qum tarixini hicri 378-ci ildə Sahib ibn Əbbad adlı Həsən ibn Məhəmməd qələmə almışdır. Hazırda onun ərəbcə mətni əlimizdə yoxdur. Yalnız hicri XX əsrdə Həsən ibn Əli ibn Həsən ibn Əbdülməlik Qummi tərəfindən farsca tərcüməsi mövcuddur. Həmin tərcümədən isə birinci cildə aid olan beş bölmədən başqa, bir şey yoxdur.*

## *Yanlış bir düşüncəyə cavab:*

İntizar bəhsilə qeyd edilənlərdən bir qrupun "Əgər o böyük islahatçının zühur etməsi şərti dünyanın zülm və fəsadla dolmasıdırsa, onda, nə üçün biz bu əsr və zamanda onlarla mübarizə aparmalıyıq? Yaxud əmr be məruf və nəhy əz münkər edərək öz əməlimizlə böyük inqilabı niyə təxirə salmalıyıq? Nəinki, islahat zəminəsində addım atmalı, əksinə həmin zühurun tezləşməsi üçün fəsada daha çox yardım etməliyik ki, onun zühur şərti daha tez gerçəkləşsin." kimi söylədiyi digər bir irada da cavab məlum olur.

Bu sözləri intizarın süstləşdirici olması məsələsilə bağlı keçmiş bəhsin təkmilləşdiricisi kimi başqa cür şərh etmək olar. Onlar deyirlər ki:

Zühurun intizarı, zülm və fəsadla mübarizəyə mane olmur, əksinə camaatı zülmkarlarla həmkarlığa təşviq edir. Bu isə istismar olunanların zənciri öz əllərilə boyunlarına keçirməsi timsalında istismarçılar üçün böyük bir hədiyyə olar. Amma işarə etdiyimiz kimi, bu məsələ intizarın təhrif olunmasından qaynaqlanan yanlış bir fikirdir. Çünki:

*Birincisi,* dediyimiz kimi, belə inqilabda tamaşaçı və bitərəf yoxdur, həqiqətdə, istər dünya miqyaslı olsun, istərsə də məntəqə daxili, islahatçı inqilabların heç birində "bitərəf" məfhumu mövcud deyil, çünki cəmiyyətin mənfəətinə olduqda, bütün fərdlər birlikdə həmin inqilabda iştirak etməklə vəzifəlidirlər. Nəticədə, əgər biz zülm və fəsada yardım etsək, şübhəsiz, müxaliflərin cərgəsində yer tutacağıq. Bəyəm, dünya miqyaslı islahatçının zühuru yer üzündən zülm və fəsadın kökünü kəsmək üçün deyilmi? Başqa sözlə,

inqilabın sürətlənməsi üçün fəsada yardım etməyimiz aqilanə deyil, çünki bu zaman biz özümüz də aradan qaldırılıb təmizlənənlərdən olacağıq. Bu, eynilə, bir şəxsin atəş qalamasına və atəş alovlandıqdan sonra da onun öz ətəyini yandırmasına bənzəyir.

Nəticədə, əgər biz indidən öz sıramızı digərlərindən ayırmaq və islahatçılardan olmaq istəyiriksə, onda, elə indidən fəsaddan uzaq olmalıyıq, çünki zülm və fəsada kömək islahatçının zühurunu sürətləndirdiyi kimi, ona mürtəkib olanların cəzalanmasını da sürətləndirəcək.

*İkincisi,* Bəzillərinin təsəvvürünün ziddinə olaraq, dünyəvi islahatçınını zühuru üçün lazım olan məsələ zülm və fəsadın dünyanı başdan-başa bürüməsi deyil, əksinə zəruri hazırlıq və zühurateşnəlikdir. Əlbəttə, zülm və fəsadın artmasının teşnəlik və hazırlıq amillərindən bir olmasını inkar etmək olmaz. Çünki dünya əhalisi ayrı-seçkilik və ədalətsizliyin acı səmərəsini daddıqda, narahat olacaq və islahat və dünyəvi islahatçı axtarışı zəminəsində addım atacaqdır. Hamı zülm və sitəmdən yorulmuş və ədalətə yol açan rəhbərin axtarışındadır. Dünya əhalisi tədricən müxtəlif hökumətlər və çoxlu sayda ölkələrin əksər müharibə, qan tökülmələri, qeyri-sağlam rəqabət və zərərlərin qaynağı olması həqiqətini başa düşür və bu mövzu onların diqqətini "vahid dünyəvi hökumət" təşkil etmək məsələsinə yönəldir ki, onun sayəsində bu keçməkeş və zərərlərə son qoyulsun. Həmçinin, başa düşürlər ki, vahid dünyanın daha çox iqtisadi və insani sərmayəsini özünə götürən böyük qüdrətə malik dövlətlər arasındakı mənfəət müsabiqəsinin nəticəsi geridə qalan viran edilmiş sərmayələrdir və ilk növbədə, bu məsələ vahid dünyəvi

hökumətin olmamasından qaynaqlanır. Əgər dünya vahid hökumət və qanunlara malik olsa, nizam-intizamın bərqərar olması üçün sadəcə məhdud qüvvəyə ehtiyac duyular və bu qədər külli sərmayə və fəaliyyətdə olan insanlar dünyanın təhrif və dəyişdirilməsi istiqamətində mövqe tutmaz, əksinə hamı abadlıq yolunda işə başlayar. Xülasə, inqilabın zühuru üçün zəminə yaradan əsas məsələ dünyanın bugünkü çıxılmaz vəziyyətinin nəticəsi barədə xəbərdar və ona hazır olmaqdır, nəinki, əsil hədəfin zülm və fəsad olması.

Nəticədə, həzrət Mehdinin (ə.c) zühurunun həqiqi intizarında olanlar bütün təlaş və fəaliyyətlərini dünya əhalisinin məlumatlandırılma səviyyəsini yüksəltmək və camaata hazırkı dünyanın ağır vəziyyətini başa salmağa yönəltməli və tez bir zamanda dəyişikliyin zəruriliyi məsələsini onlara eşitdirməlidirlər, nəinki, özləri zülm və fəsad yolunda addım atmalıdırlar. Diqqətolunası məsələ budur ki, əgər zülm və fəsad aləmi bürümədən dünya əhalisinin diqqəti belə bir islahatın zəruriliyinə yönəldilə və əsil hədəf olan hazırlıq görülə bilsə, böyük dünyəvi islahatçının zühur şərti hasil olar və fəsadın yayılmasına ehtiyac duyulmaz.

*Üçüncüsü,* bu həqiqiəti digər şəkildə də bəyan etmək olar. Belə ki, hazırkı dünyada müharibə, qan tökülməsi, istismar, ayrı-seçkilik və fəsad kifayət qədər mövcuddur və çatışmayan məsələ isə belə bir proqramdan xəbərsizlikdir və bu hədəf üçün çalışmaq və təlaş göstərmək lazımdır. Fəsad amili dünyada həddən artıq çoxdur və dünyanı zülmlə doldurmuş və ya dolduracaqdır. Dünyada çatışmayan şey isə camaatı həmin əzəmətli proqram üçün hazırlayan agah və ayıq

insanların olmamasıdır. Şübhəsiz, sarayların bir sütunu dağılsa, onu təmir edirlər, amma bütün sütunları viran olmaq üzrə olsa, sarayın tamamilə yenidən bərpasına başlayırlar. Amma təkcə sarayın viran olması onun sakinlərinin bərpa işlərində iştirakı üçün kifayət deyil, əksinə mühüm olan onların həmin məsələ və onun nəticəsindən xəbərdar olmasıdır. Bizim həmin sarayı tamamilə onların başına uçurmaq vəzifəmiz yoxdur, əksinə mövcud xətərlərdən onları agah etməliyik ki, bərpa işlərinə başlasınlar və ya kimsə onu yenidən bərpa etmək işinə başlasa, ona yardım etməliyik. İmam Mehdinin (ə.c) köməkçiləri barədə hədisdə belə nəql olunur:

أنَّ الرَّجُلَ مِنْهُمْ يُؤتَى قُوَّةَ أرْبَعِينَ رَجُلًا وَ انَّ قَلْبَهُ لَاشُّدُ مِن زُبرِ الحَدِيدِ وَ لَوْ مُرّوا بِجِبَالِ الحَدِيدِ لَقَطَعُوهَا

*"O həzrətin köməkçilərindən hər birinə qırx kişinin (əxlaqi, cismi və ideoloji) qüvvəsi verilər və onların qəlbi dəmir parçası kimidir (möhkəm iradəlidirlər) və əgər dəmirdən olan bir dağın yanından keçsələr, onu parça-parça edərlər."*[1]

Bu hədisdən məlum olur ki, o böyük islahatçının zühuruna hazırlıq yenidənqurma istiqamətində baş verir.

## İntizarın digər fəlsəfəsi:

İntizarın digər bir fəlsəfəsi mühitin fəsadı müqabilində təslim olmamaq və ona qarışmamaqdır.

*Bir qədər izah:* Mühiti fəsad bürüdüyü və əksəriyyətin ona aludə olduğu zaman, islahata ümidsizlik pak

1. *«Biharul-ənvar», c.52, səh. 327.*

insanların da tədricən fəsad və mühitlə uyğunlaşmağa sürüklənməsi ilə nəticələnir. Saleh və pak insanları müqavimət və səbirə dəvət edə biləcək yeganə məsələ islahata ümiddir və fəqət bu şəkildə insan təlaş və fəaliyyətini ozünü qorumaq və ya mühiti islahat etməkdə sərf etməklə səmərəli hiss edə bilər. Əgər İslam təlimlərində Allahın rəhmətindən məyusluğun böyük günahlardan hesab olunduğunu biliriksə, bunun səbəbi ümidsiz günahkarın öz əməllərindən çəkinməkdə heç bir əsas görməməsi, yaxud keçmişdəkiləri təlafi etmək fikrinə düşməməsidir və onun üçün bir və ya yüz dəfə günaha mürtəkib olmağın əhəmiyyəti yoxdur. Amma ümid üçün işıq üzü görünsə, bu, onun həyata tutunması ilə bağlı yardımçı və günahdan yavaş-yavaş çəkinərək paklıq və islah istiqamətində addımlamasına səbəb ola bilər.

Nəticədə, ümid fasid fərdlər müqabilində və ya fasid mühitdəki saleh fərdlərə nisbətdə təsirli tərbiyəvi amildir. Bu minvalla, belə bir zühurun intizarında olmağı "güclü fəsad dalğası müqabilində sığorta" adlandırmaq olar.

Qeyd edilənlərdən belə bir nəticə əldə edilir ki, intizarın süstləşdirici amil olması təkcə onun məfhumu təhrif edildikdə və dəyişdirildikdə mümkündür (necə ki, bir qrup müxalif və müvafiqlərin nəzərində elədir). Bundan başqa hallarda isə o, mühüm tərbiyəvi, fəaliyyət, ümid və özünüislah amilidir.

Maraqı burasındadır ki, islami rəvayətlərdə həmin böyük islahatçının zühur məsələsinə işarə edilən ayə aşağıdakı ayədir:

وَعَدَ اللَّهُ الَّذِينَ آمَنُواْ مِنْكُمْ وَ عَمِلُواْ الصَّالِحاتِ لَيَسْتَخْلِفَنَّهُمْ فِى

الْأَرْضِ كَمَا اسْتَخْلَفَ الَّذِينَ مِنْ قَبْلِهِمْ وَ لَيُمَكِّنَنَّ لَهُمْ دِينَهُمْ الَّذِى ارْتَضَى لَهُمْ وَ لَيُبَدِّلَنَّهُمْ مِنْ بَعْدِ خَوْفِهِمْ أَمْناً يَعْبُدُونَنِى لَايُشْرِكُونَ بِى شَيْئا

*"Allah sizdən (müsəlmanlardan) iman gətirib yaxşı işlər görən kəslərə vəd etmişdir ki, onları mütləq özlərindən qabaq olmuş kəsləri (Nuh, Hud, Saleh və Yunisin qövmlərinin möminlərini) canişin etdiyi kimi, yer üzündə (öz) canişin(i) və hakim edəcək, onlar üçün bəyəndiyi dini (İslam dinini) hökmən, onlar üçün bərqərar edərək möhkəmləndirəcək və onların halını şübhəsiz, qorxu və vahimədən sonra əmin-amanlıq və xatircəmliklə əvəz edəcəkdir. Belə ki, yalnız mənə ibadət etsinlər və heç nəyi mənə şərik qoşmasınlar."*[1]

İslami rəvayətlərdə imam Sadiqin (ə) bu ayə barədə belə buyurduğu qeyd olunmuşdur:

القَائِمُ وَ أَصْحَابُهُ

*"Qaim (ə.c) və onun əshabı."* [2]

Digər bir hədisdə belə nəql edilib:

نُزِلَتْ فِي المَهْدِى

*"Mehdiyə (ə.c) nazil olunmuşdur."*

Ayənin böyük islahatçının qiyamı ilə bağlı təfsir edilməsi zülm və fəsadla həmkarlıq edərək iman və saleh əməldən uzaq olan kəslərin deyil, yalnız iman və saleh əmələ malik olan fərdlərin onun hökumətində özlərinə yeni razılıq bəxş edən həyata malik olması həqiqətini nişan verir. Digər tərəfdən, keçmiş qövmlərə təşbih edilərək "kəma istəxləfə" **(كما اسْتَخْلَفَ)** cümləsindən

*1. "Nur" surəsi, ayə 55.*

*2. «Biharul-ənvar", c.13, səh. 14.*

istifadə olunması da bir daha bu həqiqətə təkid edir ki, keçmiş qövmlər zülm və fəsad deyil, özlərini islah, iman və saleh əməl sayəsində düzgün hökumət qura bildikləri kimi, həzrət Mehdinin (ə.c) zühurunda da yalnız elə şəxslər qalib gələcək. Bunun özü həqiqi intizar çəkənlərin keçmiş ümmətlər, peyğəmbər və onların köməkçilərinin qələbə amillərinə diqqət yetirməsinə səbəb olacaq ki, həmin təcrübələrdən öz həyatlarında kamil şəkildə istifadə etsinlər.

## *10-11. Qənaət və təvəkkül*

Bu iki islami məfhum da dinlərin yaranması ilə ictimai və istismarçı maraqlar arasında rabitə yaratmaq istəyən kəslərin istinad yeri ola bilər ki, guya, "Allaha təvəkkül" məfhumu səbəblər aləminə biganəlik və çətinliklərə qələbə çalmaqda təbii amillərin unudulmasıdır. Eynilə, "qənaət" də insanı həqir həyat tərzi və müxtəlif məhrumiyyətləri qəbul etməyə dəvət edir. Bu iki məsələni qəbul etməklə yol istismarçılar üçün daha da genişlənəcək və məhrum kütlələrin müqaviməti zəifləyərək təsirsiz olacaq, həmçinin, təlaş və fəaliyyət şölələri tədriclə sönəcəkdir.

### *"Qənaət" məfhumunun araşdırılması:*

Bu cür düşünənlərin dini məfhumla bağlı belə təfsirləri haradan əldə etməsi, həmçinin, həmin təfsirlərin hansı kitab və ya mötəbər mənbədə qeyd olunması məlum deyil. Görəsən, ötən bəhslərdə müşahidə etdiyimiz aşkar təhriflərə diqqət yetirməklə, belə qondarma təfsirlərin dini mətnlərdən məlumat və xəbərsiz olmaq səbəbilə deyil (bu cür uzaqlıq və məlumatsızlığın qəbulu inkar

olunmasa da), əksinə həmin təlimlərin dəyişdirilməsi və məhv olunması onların mənafeləri müqabilində bu nahiyədən yarana biləcək maneəni aradan qaldırmaq hədəfilə düzəldilməsi nəzərə çarpmırmı?!

Təəssüf doğurmasına səbəb onların fəlsəfi, tədqiqati və elmi bəhsləri o qədər siyasətlə qarışdırması və onların siyasi xüsusiyyət qazanmasıdır ki, sadəcə həmin xüsusi siyasi aspektdən məsələni araşdırır və bu sahədə hər cür təhrifi məqsədə uyğun hesab edirlər. Aydındır ki, belə fəlsəfə və elm həqiqi fəlsəfə və elm deyil, əksinə elm və fəlsəfə qəlibində olan siyasi məfhumlardır. Nəticədə, İslam Peyğəmbəri (s) və digər din rəhbərlərinin bu zəminədə qeyd olunan sözləri həmin iki məfhumun təfsiri və həqiqi mənasının başa düşülməsi üçün kifayətdir. Peyğəmbərdən (s) nəql edilən hədisdə belə buyurulur:

القَنَاعَةُ مَالٌ لَايَنْفَد

*"Qənaət tükənməz bir sərmayədir."*[1]

"Nəhcül-bəlağə"nin qısa kəlamlarında belə qeyd olunub:

لَا كَنْزَ أَغْنَى مِنَ القَنَاعَةِ

*"Qənaət kimi heç bir bərəkətli sərmayə yoxdur."*[2]

و كَفَا بِالقَنَاعَةِ مِلْكا

*"Qənaət mühüm bir mülkdür."*[3]

Qənaət haqisliyin müqabilində yerləşir və onun

---

*1. «Biharul-ənvar», c.74, səh. 289.*

*2. «Nəhcül-bəlağə", hikmət: 371.*

*3. «Nəhcül-bəlağə", hikmət: 229.*

məfhumunu bu yolla başa düşmək olar. Hərislik ruh və cisim arasında madi ehtiyaclarla bağlı ziddiyyətin olmasıdır. O adama həris deyirlər ki, onun cismi maddi ehtiyaclar baxımından kifayət qədər təmin olunmuş, amma ruhu isə bir o qədər ac və fəqirdir və nəticədə, daha çox sərvət toplamaq, axmaqcasına inhisarçılıq tələbində olmaq və hətta digərlərinin səhmlərini qəsb etmək ardıncadır.

Həris bəzən elə hərislik böhranı keçirərək bu yolda bütün yuxu, istirahət, hətta, əxlaq və imanını da əldən verir ki, hansı yolla olursa-olsun, daha çox maddi gəlir əldə etsin. Sonunda o, ruhi baxımdan hələ də təmin olunmamasına baxmayaraq, hər şeyini əldən vermiş iradə və çarəsiz varlıq şəklinə düşür, çünki ruhi cəhətdən əldə etdikləri ilğımdan başqa, bir şey deyil.

Amma qəni (qənaətcil şəxs) ruhi və cismi baxımdan həmahəngliyi bərpa olan şəxsdir və ehtiyacı olduğu və kifayət qədər bir şey əldə etdikdə, ruh və cismi təmin olunur və yersiz olaraq hərislik və kiminsə haqqına təcavüz etmir. Həqiqətdə, qənaət bir növ ruhi ehtiyacsızlıq və əxlaqi qüdrət və öz nəfinə etimad sərmayəsindən yararlanmaqdır.

### *Qənaətin fəlsəfəsi*

Yuxarıdakı təəfsirə diqqət yetirməklə qənaətin fəlsəfəsi aydınlaşır, çünki:

1. Bu əxlaqi fəzilətin insanda formalaşdırılması hərislik və tamahkarlıq zillətinə maneə olaraq yalançı ruhi teşnəlik atəşinin söndürülməsinə gətirib çıxarır, azadlıq və istiqlaliyyətin əldən verilərək zinətlərə qul olmanın qarşısını alır. "Nəhcül-bəlağə"nin "Qasiə" xütbəsində peyğəmbərlər və onların imtiyazları barədə

belə oxuyuruq:

مَعَ قَناعةٍ تَمْلَأُ القُلُوبُ وَ العُيُونُ غِنى

*"Onlar o qədər özlərinə etimada malik idilər ki, azadlıq və ehtiyacsızlıqları qəlb və gözlərini tutur və onların insanlıq əzəmətini artırırdı."*

2. Hərislik iztirab və nigarançılığın qaynağı və aramlığın olmamasıdır. Amma qənaət insanı özünə etimad etməyə formalaşdıraraq onu həyatın iztirab və vəhşətindən kənar saxlayır və ona tədbir, hövsələ və özünə hakim olmaqla qüvvələrindən səmərəli istifadə etmək icazəsi verir.

3. Qənaət ruhiyyəsi insana ictimai şəxsiyyət verərək onu fərdi mərhələdən uzaqlaşdırır və özündə ehtiyacsızlıq hiss etdiyi üçün onu digərlərinin hüquqlarına ehtiram göstərməyə vadar edir. Amma hərislik müxtəlif təcavüz və həddiaşmaların mənbəyidir. Dünya istismarçıları öz həqiqi ehtiyacları üçün digərlərini istismar etmirlər, əslində hərislik və yalançı ehtiyaclar onları bu cür qeyri-insani və zalımanə əməllər etməyə dəvət edir. Həddən artıq tələbkar ruhiyyə onları müharibə alovu yaradaraq daha çox silah satmağa, dünyada nifaq toxumu səpərək ac ruhlarını bu yolla doyurmağa vadar edir, halbuki, bu metodla heç vaxt təmin olunmurlar.

4. Hərislik əksər günahların mənbəyi olduğu halda, qənaət insanı bir çox günah və səhv işlərdən sığortalayır. Həqiqi ehtiyaclarının ödənməsi üçün möhtəkirlik edən, qara bazar yaradan, rüşvətxorluq edən və riba verən çox az adam tapmaq olar, daha çox belə rəzilə sifətlərə maddi qüdrətdən kifayət qədər yararlanan kəslər mürtəkib olurlar. Dünyanın iqtisadi sərmayələrinin

böyük bir qismini hədər edən gözəlliyə pərəstişlə bağlı ruhi maraqlar barədə düşünsək, onlarda ruhi qənaətin olmadığını aşkarca görərik, çünki onlar özlərinə etimad və ruhi qənaətə malik olmadıqlarından, öz çatışmazlıqlarını gözəlliyə pərəstişlə təlafi etmək və özlərini varlı kimi nişan vermək istəyirlər. Qəribə burasıdır ki, bu sahədə bizə irad tutan kəslər öz rəhbərlərinin imtiyazlarını saydıqda, onların ruhi qənaətdən hekayət edən sadə yaşayışını böyük imtiyaz kimi vurğulayır, amma burada onu süsdləşdirici amil hesab edirlər.

## *"Təvəkkül" məfhumunun araşdırılması:*

"Təvəkkül" və "qənaət" sözlərinin müştərək kökləri vardır və təbiidir ki, bu cəhətdən hər ikisinin fəlsəfəsi müəyyən oxşarlıq, həmçinin, fərqliliyə malikdir. Əvvəlcə, təvəkkül sahəsində bir neçə islami rəvayəti onun əsil məfhumu və kökünün anlaşılması üçün qeyd edirik:

İmam Sadiq (ə) buyurur:

إِنَّ الغِنَا وَ العِزَّ يَجُولَانِ فَإِذَا ظَفَرَا بِمَوْضِعِ التَّوَكُّلِ أَوْطَنَا

*"Ehtiyacsızlıq və izzət hərəkətdədirlər, təvəkkülün mövqeyinə yetişdikdə, oranı vətən seçərlər."*[1]

Bu hədisdə təvəkkül ehtiyacsızlıq və izzətin vətəni kimi tanıtdırılmışdır. İslam Peyğəmbərinin (s) belə buyurduğu nəql olunmuşdur:

العِلْمُ بِأَنَّ المَخْلُوقَ لَايَضُرُّ وَ لَايَنْفَعُ وَ لَايُعْطِى وَ لَايَمْنَعُ وَ اسْتِعْمَالُ

1. *«Üsuli-kafi», c.2, səh. 65, hədis:3.*

اليَأسِ مِنَ الْخَلْقِ فَإذَا كَانَ العَبْدُ كَذَلِكَ لَمْ يَعْمَلْ لِأحَدٍ سِوَى اللّهِ وَ لَمْ يَرْجُ وَ لَمْ يَخَفْ سِوَى اللّهِ وَ لَمْ يَطْمَعْ فِي أحَدٍ سِوَى اللّهِ فَهَذا هُوَ التَّوَكُّلُ[1]

Bir şəxs imam Rzadan (ə) belə soruşur:

مَا حَدُّ التَّوَكُّلِ؟ فَقَالَ: أَلَّا تَخَافَ مَعَ اللّهِ أحَدا

*"Təvəkkülün hüdudu nədir? Həzrət buyurur ki, Allaha etimad etməklə heç kəsdən qorxmamaqdır."[2]*

Quran ayələrində də təvəkkülün fəlsəfi təsirlərinə işarə edilmişdir:

وَ مَا لَنَا أَلَّا نَتَوَكَّلَ عَلَى اللَّهِ وَ قَدْ هَدانا سُبُلَنَا وَ لَنَصْبِرَنَّ عَلَى مَآ آذَيْتُمُونَا وَ عَلَى اللَّهِ فَلْيَتَوَكَّلِ الْمُتَوَكِّلُون

*"Allah bizi öz yollarımıza (dünya və axirət kamilliklərinə) hidayət etdiyi halda, biz nə üçün ona təvəkkül etməməliyik?! Şübhəsiz, bizə verdiyiniz əzab-əziyyətlərə səbir edəcəyik. Təvəkkül edənlər yalnız Allaha təvəkkül etsinlər."[3]*

الَّذِينَ قَالَ لَهُمُ النَّاسُ إِنَّ النَّاسَ قَدْ جَمَعُواْ لَكُمْ فَاخْشَوْهُمْ فَزَادَهُمْ إِيماناً وَ قَالُواْ حَسْبُنَا اللَّهُ وَ نِعْمَ الْوَكِي

*"Həmin o kəslər (üçün) ki, camaat onlara "(Məkkə) camaat(ı) sizin(lə vuruşmaq) üçün toplaşıb, onlardan qorxun!"*

---

1. *«Biharul-ənvar», c.76, səh. 373. (İnsan bilse ki, məxluqun nə zərər vermə, nə mənfəət göstərmə, nə bir şeyi vermək və ya almaq onun əlində deyil və onlardan (məxluqatdan) naümid olmağa dəyməz, bütün bunları dərk etsa insan onda hec vaxt Allahdan qeyrisi ucun iş görməz, ona ümid bəsləməz, ondan qorxmaz və Allahdan başqasıma rəğbət bəsləməz. Bax, təvəkkülun mənası budur!)*

2. *Şeyx Səduq, «Əmali», səh. 311.*

3. *"İbrahim" surəsi, ayə 12.*

*– dediyi zaman, (bu xəbər) onların imanını artırdı və caabında "bizə Allah kifayətdir və o, gözəl vəkildir!" dedilər."*[1]

إِذْ هَمَّتْ طَّائِفَتَانِ مِنْكُمْ أَنْ تَفْشَلَا وَ اللَّهُ وَلِيُّهُمَا وَ عَلَى اللَّهِ فَلْيَتَوَكَّلِ الْمُؤْمِنُونَ

*"O zaman sizdən iki dəstə süstlük və zəiflik göstərmək (və yolun yarısından ayrılaraq qayıtmaq) istədi, halbuki, Allah onların köməkçisi və yardımçısı idi (və elə buna görə də, onları bu fikirdən daşındırdı). Möminlər yalnız Allaha təvəkkül etsinlər."*[2]

فَإِذَا عَزَمْتَ فَتَوَكَّلْ عَلَى اللَّهِ

*"Qəti qərara gəldikdən sonra Allaha təvəkkül et."*[3]

Bütün bu ayələrdə təvəkkül düşmənlə mübarizə aparmaq və onun müqabilində dayanmaq sərmayəsi və mühüm qərarlar almaq üçün istinad yeri kimi tanıtdırılmışdır. "Təvəkkül" əslində "vəkalət" kökündəndir və mənası "vəkil seçmək" deməkdir. Həmçinin, yaxşı vəkilin kifayət qədər agahlıq, əmanətdarlıq, qüdrət və canıyananlıq kimi dörd xüsusiyyətə malik olduğunu bilirik. İnsanı müdafiə etməsi üçün vəkil tutulmasının insanın həmin sahədə qabiliyyətə malik olmadığı hallarda zəruriyyət təşkil etməsini yəqin ki, xatırlatmağa ehtiyac yoxdur. Həmin mövqedə müvəkkil digərinin köməyindən istifadə edir və onun yardımı ilə öz probleminin həllinə çalışır. Beləliklə, təvəkkülün mənası insanın öz hədəfi uğrunda

---

*1. "Ali-İmran" surəsi, ayə, 173.*

*2. "Ali-İmran" surəsi, ayə, 122.*

*3. Həmin surə, ayə 159.*

həyatın çətinlik və hadisələri, müxaliflərin inadkarlıqları və bəzən də qarşıya çıxan labirintlərin aradan qaldırılmasında qüdrəti olmadıqda, Allahı özünə vəkil seçməsi və ona istinad edərək çalışmaq və təlaşından qalmamasından baqşa, bir şey deyil. Həmçinin, həqiqi bir müvəhhid kimi Allahın əsil təsirli olduğunu bilməlidir, çünki bütün qüdrət və qüvvələrin mənbəyi odur.

Təvəkkülün müqabili nöqtəsi Allahdan başqasına etimad etmək və yaşamaq üçün digərinə bağlı olmaq və müstəqilliyə malik olmamaqdır. Əxlaq elminin alimləri deyirlər: “Təvəkkül tövhidi-əfalinin (fellərdə tövhid) birbaşa səmərəsidir, dediyimiz kimi, müvəhhidin nəzərində bu aləmdə baş verən hansısa bir fəaliyyət, hərəkət, çalışmaq və təlaş və yaranan fenomenlər ilkin səbəblə, yəni Allahın zatı ilə rabitəyə malikdir və müvəhhid onu bütün qüdrət və qələbələrin mənbəyi hesab edir.”

## *Təvəkkülün fəlsəfəsi:*

Qeyd olunanlardan belə nəticə alınır:

A) Allaha təvəkkül – yəni, insanın çətin həyat problemləri qarşısında müqavimətini artırmasına səbəb olan fənayauğramaz qüdrət mənbəyinə arxalanmasıdır. Həmin səbəbdən, müsəlmanlar “Ühüd” meydanında şiddətli zərbə aldığında və meydanı tərk edən düşmən son zərbəni endirmək üçün geri qayıtdıqda, həmçinin, bu xəbər müsəlmanların qülağına yetişdikdə, Quran bu barədə belə buyurur:

الَّذِينَ قَالَ لَهُمُ النَّاسُ إِنَّ النَّاسَ قَدْ جَمَعُواْ لَكُمْ فَاخْشَوْهُمْ فَزَادَهُمْ إِيمَاناً وَقَالُواْ حَسْبُنَا اللّهُ وَنِعْمَ الْوَكِيلُ

*"Həmin o kəslər (üçün) ki, camaat onlara "(Məkkə) camaat(ı) sizin(lə vuruşmaq) üçün toplaşıb, onlardan qorxun!" – dediyi zaman, (bu xəbər) onların imanını artırdı və caabında "bizə Allah kifayətdir və o, necə də gözəl vəkildir!" dedilər."*[1]

Bu xətərli anda öz qüvvələrinin fəal hissəsinin ümdə bir qismini əldən vermiş imanlı fərdlər, nəinki, vəhşətə gəldilər, əksinə Allaha təvəkkül edə və imandan yardım alaraq onların müqaviməti artdı və qalib düşmən bu hazırlıqdan xəbər tutduqda, sürətlə geri çəkildi. Təvəkkül sayəsində belə müqavimətin nümunələri çoxlu saydakı ayələrdə nəzərə çarpır, o cümlədən:

*"Allaha təvəkkül etmək döyüşçülərdən iki dəstəsinin cihadda süstlüyünün qarşısını aldı."*[2]

*"Allah bizi öz yollarımıza (dünya və axirət kamilliklərinə) hidayət etdiyi halda, biz nə üçün ona təvəkkül etməməliyik?! Şübhəsiz, bizə verdiyiniz əzab-əziyyətlərə səbir edəcəyik. Təvəkkül edənlər yalnız Allaha təvəkkül etsinlər."*[3]

Həmçinin, mühüm işlərin həyata keçirilməsində əvvəlcə məşvərət, sonra qəti qərara gəlmək və daha sonra isə Allaha təvəkkül etməyə göstəriş verilmişdir.[4]

*"Onun (şeytanın) iman gətirən və öz Rəblərinə təvəkkül edən kəslər üzərində (vəsvəsə etməkdən savayı, başqa) bir hökmranlığı yoxdur."*[5]

Ayələrin məcmusundan belə başa düşülür ki, təvəkküldə məqsəd insanın çətinliklərin əzəməti müqabilində həqarət və zəiflik hiss etməməsi, əksinə

*1. "Ali-İmran" surəsi, ayə, 173.*

*2. "Ali-İmran" surəsi, ayə, 122.*

*3. "İbrahim" surəsi, ayə 12.*

*4. "Ali-İmran" surəsi, ayə, 159.*

*5. «Nəhl» surəsi, ayə, 99.*

Allahın sonsuz qüdrətinə arxalanmaqla qalib olacağını düşünməsidir. Bu minvalla, təvəkkül ümid yaradan, iradə və müqaviməti qüvvətləndirəndir. Əgər təvəkkül bir guşəyə çəkilərək əli-əlin üstünə qoymaq olsaydı, onda mücahidlər barəsində onun icra edilməsi mənasız olardı.

Əgər kimsə səbəblər aləmi və təbii vasitələrə diqqət yetirməyin təvəkküllə uyğun gəlmədiyini güman edirsə, o, həddən artıq səhvdədir, çünki təbii amillərin təsirlərini Allahın iradəsindən ayırmaq bir növ şirk hesab edilir, əks halda təbii amillər onun izni ilə mövcuddur və onun iradəsinə bağlıdır ki, bu, şirk deyil. Bəli, əgər təbii amilləri Allahın iradəsi müqabilində müstəqil hesab etsək, onda, bu, təvəkküllə uyğun gəlməyəcək.

Şəxsən İslam Peyğəmbərinin (s) təvəkkül edənlərin başında durduğu və hədəfinə yetişmək üçün heç bir fürsət, düzgün plan, müsbət taktika və müxtəlif vasitə və səbəblərdən qəflət etmədiyi halda, bu cür təfsir etmək necə mümkündür? Bunların hamısı təvəkkülün mənfi məfhumunun olmadığını sübuta yetirir.

B) Təvəkkül insanı zillət və nökərçiliyin qaynağı olan təhqiramiz asılılıqdan nicat verir və ona özünəetimad və azadlıq bəxş edir.

## *12 və 13. Razılıq və təslim*

Bu iki məsələ də asanlıqla materialist və istismarçı vəsilələri dinə qoşmağa çalışan kəslərin istinad etdikləri məsələ ola bilər. Belə ki, mövcud vəziyyətlə razılaşmaq və hər cür şərait qarşısında təslim olmaq dünyəvi istismarın son arzu və hədəfidir ki, onun yardımıyla qarşılarındakı maneələri ortadan qaldıra bilə, həmçinin,

ondan istismar olunanlar üçün süstləşdirici vasitə düzəldə və onun sayəsində müqavimətlərdən amanda qala və ya onu (müqaviməti) azalda bilərlər.

## *Tədqiq və araşdırma:*

Bəlkə də, bu gümana qüvvət verən şey həmin iki sözün tək və başqa ifadə ilə bağlı olduğu sözlə birlikdə işlədilməsi və ya aydın şəkildə nəyin müqabilində razılıq və nəyə təslim olmaqdan danışılmamasıdır. Həmin sözün bağlı olduğu məsələni qeyd etməmək xoşagəlməz təfsirlərə yol aça bilər. Məsələn, deyilə bilər ki, razılıq – yəni, mövcud vəziyyətlə barışmaq və təslim – yəni, istismarın qarşısında təslim olmaq. Amma əvvəlcə riza və təslimin nəyin müqabilində olması ilə bağlı dini mənbələr araşdırılmalıdır. İslam alimlərinin bu mövzu haqqında dəlil gətirdikləri ayələr həmin iki sözün məfhumunu aydınlaşdırır. O cümlədən, "Biharul-ənvar"da üzərində təkid edilən ayə aşağıdakıdır:

كُتِبَ عَلَيْكُمْ الْقِتَالُ وَ هُوَ كُرْهٌ لَكُمْ وَ عَسَى أَنْ تَكْرَهُواْ شَيْئاً وَ هُوَ خَيْرٌ لَّكُمْ وَ عَسَى أَنْ تُحِبُّواْ شَيْئاً وَ هُوَ شَرٌّ لَّكُمْ وَ اللَّهُ يَعْلَمُ وَ أَنْتُمْ لَاتَعْلَمُون

*1. "Sizin üçün (kafirlərlə) döyüş yazıldı və qərara alındı, halbuki (bu,) sizin xoşunuza gəlmir. Çox vaxt bir şeyi xoşlamırsınız, halbuki, o sizin üçün xeyirlidir və çox vaxt bir şeyi xoşlayırsınız, halbuki, o sizin üçün pisdir. Allah bilir, siz isə bilmirsiniz."*[1]

Burada "təslim" cihad kimi mühüm məsələ ilə əlaqələndirilmişdir ki, onun fəlsəfəsi bəziləri üçün naməlum və gizli idi.

---

*1. «Bəqərə» surəsi, ayə 216.*

وَ مِنْهُمْ مَنْ يَلْمِزُكَ فِى الصَّدَقاتِ فَإِنْ أُعْطُواْ مِنْهَا رَضُواْ وَ إِن لَّمْ يُعْطَواْ مِنْهَآ إِذَا هُمْ يَسْخَطُونَ* وَ لَوْ أَنَّهُمْ رَضُواْ مَآ اتاهُمُ اللَّهُ وَ رَسُولُهُ وَ قَالُواْ حَسْبُنَا اللَّهُ سَيُؤْتِينَا اللَّهُ مِنْ فَضْلِهِ وَ رَسُولُهُ إِنَّآ إِلَى اللَّهِ راغِبُون

*2. “Onların bəzisi sədəqələr(in bölünməsi) barəsində sənə irad tuturlar. Əgər ondan onlara verilsə, razı qalar və əgər verilməsə, (hətta haqları olmasa belə), qəfildən qəzəblənərlər. Əgər onlar Allah və onun peyğəmbərinin (sədəqələrdən) onlara verdikləri ilə razılaşıb “bizə Allah kifayətdir, tezliklə Allah və onun peyğəmbəri bizə öz lütfündən bəxş edəcək, həqiqətən, biz Allaha tərəf meylliyik” desəydilər, (onlar üçün daha yaxşı olardı).”*[1]

Burada “razılıq” müxtəlif ictimai hüquqlar müqabilindədir və bəziləri eqoistlik səbəbilə bütün hüquqları özlərinə şamil etmək istəyir və öz haqlarından razı deyillər.

وَ أُفَوِّضَ أَمْرِى إِلَى اللَّهِ إِنَّ اللَّهَ بَصِيرٌ بِالْعِبَاد فَوَقاهُ اللَّهُ سَيِّئَاتِ مَا مَكَرُوا ...

*3. “...Mən öz işimi Allaha tapşırıram. Çünki Allah bəndələrin halını görəndir. Beləliklə, Allah onu onların hiylələrinin şərindən qorudu və Firon tərəfdarlarına ağır bir əzab gəldi və onları bürüdü.”*[2]

Burada söhbət “Ali-Fironun mömini”ndən gedir və o, özünün xətərdə olduğunu gördükdə, Allahın əmri müqabilində təslim oldu və ona təvəkkül etdi. Eyni zamanda, Allah da onu xilas etdi.

---

*1. «Tövbə» surəsi, ayə 58-59.*

*2. «Ğafir» surəsi, ayə 44-45.*

الَّذِينَ قَالَ لَهُمْ النَّاسُ إِنَّ النَّاسَ قَدْ جَمَعُواْ لَكُمْ فَاخْشَوْهُمْ فَزَادَهُمْ إِيماناً وَ قَالُواْ حَسْبُنَا اللَّهُ وَ نِعْمَ الْوَكِيلُ* فَانْقَلَبُواْ بِنِعْمَةٍ مِّنَ اللَّهِ وَ فَضْل

*4. "Həmin o kəslər (üçün) ki, camaat onlara "(Məkkə) camaat(ı) sizin(lə vuruşmaq) üçün toplaşıb, onlardan qorxun!" – dediyi zaman, (bu xəbər) onların imanını artırdı və caabında "bizə Allah kifayətdir və o, gözəl vəkildir!" dedilər. Beləliklə, Allah tərəfindən olan bir nemət (sağlamlıq və salamatçılıq) və bəxşiş (yollarında olan ticarətdən götürdükləri qazanc) ilə onlara heç bir pislik və ziyan dəymədən qayıtdılar və Allahın razılığına tabe oldular. Allah böyük fəzl (mərhəmət və bəxşiş) sahibidir."*[1]

Burada da söhbət "Ühüd" döyüşündəki müsəlman əsgərlərindən gedir və onlar zəfər əldə edən düşmənin geridə qalmış müsəlmanları məhv etmək üçün Mədinəyə geri qayıtması xəbərini eşitdikdən sonra şücaətli şəkildə düşmənə tərəf hərəkət etmiş, razı və təslim halda müdafiəyə hazır olaraq Allaha arxalanmış və nəticədə, qalib gəlmişlər. "Üsuli-kafi" kitabının "Razılıq" bölməsində belə qeyd olunub:

1. İmam Sadiq (ə) buyurur:

رَأْسُ طَاعَةِ اللّهِ الصَّبْرُ وَ الرِّضَا عَنِ اللّهِ فِيمَا أَحَبَّ العَبْدُ أَوْ كَرِه

*"Allaha itaətin ən üstün forması insanın istək və meyillərinə uyğun olub-olmasa da onun əmrləri müqabilində səbirli və dözümlü, razı və təslim olmaqdır."*[2]

Bundan əvvəl söylədiyimiz "səbir" məfhumuna diqqət yetirdikdə, onun vəzifənin yerinə yetirilməsi yolunda davamiyyət və dözümlülük, həmçinin, fəsadla

1. «Ali-İmran» surəsi, ayə, 173-174.

2. «Üsuli-kafi», c.2, səh. 60.

mübarizə və həyatın xoşagəlməz hadisələri müqabilində müqavimət mənasında və təslim və razı olmaq məfhumları ilə eyni sırada olması anlaşılır.

2. Yenə də imam Sadiqin (ə) belə buyurduğu nəql olunmuşdur:

إنَّ أعْلَمَ النّاسِ بِاللّهِ أرْضَاهُمْ بِقَضَاءِ اللّهِ عَزَّوَجَل

*"Camaatın Allaha nisbətdə daha elmlisi onun qəzavü-qədərinə razı olanıdır."*[1]

Bu hədisdə qəza və qədər müqabilindəki razılığın Allaha elm və mərifətin nəticəsi kimi qiymətləndirilməsinə diqqət yetirməklə, məlum olur ki, təslimdəki məqsəd ilahi göstərişlər (təşrii qəza) və möhkəm və sabit olan səbəb-nəticə qanunu (təkvini qəza) qarşısındakı təslimdir.

3. İmam Baqir (ə) buyurur:

مَنْ رَضِيَ بِالْقَضَاءِ أَتَى عَلَيْهِ القَضَاءُ وَ عَظَمَ اللّهُ أجْرَهُ وَ مَنْ سَخِطَ القَضَاء مَضَى عَلَيْهِ القَضَاءُ وَ أحْبَطَ اللّهُ أجْرَه [2]

Hədisdən insanın həyatda istər-istəməz qarşıya çıxan yaxınlar və dostların ölümü və gözlənilməz təbii hadisələr müqabilində səbirsizlik etməsinin onu məyus edərək həyatdan soyutması, amma təslim və razılıq ruhiyyəsinin insana qüvvət verərək aramlığını qoruması və müqavimətini davam etdirməsinə səbəb olması vurğulanır və onun əcrinin böyük olması ifadə olunur.

### *Razılıq və təslim olmanın fəlsəfəsi:*

Bu göstəriş barəsində ayələr və islami rəvayətlərdən

---

1. *"Üsuli-kafi", c.2, səh. 61.*
2. *"Üsuli-kafi", c.2, səh. 61.*

gətirdiyimiz nümunələrin araşdırılması ilə bu həqiqət sübuta yetir ki, onun məfhumu heç zaman bixəbər fərdlərin düşündüyü kimi, istismar müqabilində təslim olmaq və ya zillət və xarlığa boyun əymək, həmçinin, xoşagəlməz vəziyyətə razı olmaq deyil, əksinə aşağıdakı bir neçə məsələdən birinə dəvət etməkdir:

A) Zahirdə insanın meyil və mənafeyilə müvafiq olmasa da, islami qanun və göstərişlərin icrası. Belə ruhiyyəyə malik olmayan kəslər öz düşüncələrinin dərinliyində həmin qanun və onun təyinedicisinə etiraz edir ki, bu da imanın həqiqəti ilə uyğun deyil. Bu baxımdan, yuxarıdakı hədislərdə belə oxuduq:

*"Allaha nisbətdə elm və mərifət onun göstərişləri müqabilində təslim və razı olmağı gərəkdirir."*

B) Haqq və ədalətin icrası müqabilində təslim olmaq insanın "mizacı" (nəfsi) ilə xoşagəlməzdir. Məlumdur ki, cəmiyyətdə təslim və razılıq ruhiyyəsi meydana gəlməyənə və fərdlər öz haqlarına qane olmayana qədər ictimai ədalət heç zaman bərqərar olmayacaq, əksinə hamı ədalətin icrasına etiraz edəcək və işləri pozacaqdır. Beytül-malın camaatın layiq (haqqı) olduğuna əsasən bölünməsi barədə olan ayə də bu cür təslim olmağa işarə edir.[1]

---

*1. Belə təslimçiliyin digər nümunəsi «Nisa" surəsinin 65-ci ayəsində Peyğəmbərin (s) verdiyi hökmə onların şəxsi mənafeyinə zidd olduğu üçün razı olmayaraq etiraz edən kəslər barəsindədir:*

**فَلَا يُؤْمِنُونَ حَتى يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُمْ ثُم لَايَجِدُوا فِى أَنْفُسِهِمْ حَرَجً مما قَضَيْتَ وَ يُسَلِّمُوا تَسْلِيما –**

*"Amma belə deyildir (onların imanları yoxdur)! Sənin Rəbbinə and olsun ki, onlar aralarındakı ixtilaflarda səni hakim etməyincə, sonra isə sənin verdiyin hökmə görə özlərində heç bir sıxıntı və narahatlıq duymayıb tamamilə təslim olmayınca, iman gətirməzlər." Görəsən, bu cür təslim və*

C) Vəzifənin həyata keçirilməsi yolunda mövcud olan çətinliklər müqabilində dayanmaq. Bəzən bir sıra fərdlər çətinliklə qarşılaşdıqda, özlərini elə itirirlər ki, yolun yarısından geri qayıdırlar. Amma təslim və razılıq ruhiyyəsi insana çətinlikləri özündə həzm edərək yoldan geri dönməmək və son nəticəyə yetişincəyə qədər təlaş göstərmək imkanı verir. "Ühüd" döyüşündə Peyğəmbərin (s) köməkçilərinin vəziyyətini bəyan edən ayə bu növ razılıq və təslimə işarə edir.

D) Hər kəsin həyatda istər-istəməz qarşılaşa biləcəyi xoşagəlməz bəlalar müqabilində müqavimət göstərməsi. Bu məsələlər bəzən insanları o qədər dəyişir ki, onlar tamamilə həyatın nəbzini itirirlər.

Belə hadisələr qarşısında razılıq və təslim insana səbir və davamiyyət, daha yaxşı gələcək qurmaq, həmçinin, ümidsizlik qubarını uzaqlaşdırmaq ruhiyyəsi bağışlayaraq rahatlıq verir.

## *14. Əzadarlıq*

Bu zəminədə də müxtəlif bəhslər mövcuddur:

Görəsən, ağlamağın süstləşdirici təsiri yoxdur və o, hisslərin alovunu söndürmürmü? Həmçinin, burjuaziya və proletarlar arasındakı iqtisadi mübarizədə birinci dəstədən olanların qələbəsi üçün zəminə yaratmırmı? Nəticədə, o, dinin kolonistik maraqların təsiri sayəsində meydana çıxması fərziyyəsinin təsdiqi deyilmi?

Görəsən, ağlamaq zəiflik nişanəsi deyilmi? Qüdrət və qabiliyyəti olan kəs nə üçün ağlamalıdır? Ağlamaq yerinə nə üçün təlaş göstərilməsin? Ağlamaq məğlubiyyət, yoxsa, qələbəyə görədirmi? Əgər əqidəmiz

---

*razılıq ictimai ədalətin bərqərar olunmasında ilkin şərt deyilmi?*

Allah yolunda şəhid olan şəhidlərin, həmçinin, Kərbəla şəhidlərinin müqəddəs hədəfinin Bəni-Üməyyə kimi zalım və qəsbkarın həqiqi simasını açıb göstərməyidirsə, onlar öz hədəflərinə çatdılar və qalib gəldilər. Belə isə, qələbə müqabilində ağlamaq nə üçündür? Bu və buna bənzər suallar, xüsusən, şiə məzhəbində daha çox yer verilən əzadarlıq mərasimilə bağlı mövcud olan müxtəlif məsələlərlə bağlıdır və bu barədə bəyan olunacaq.

## *Bəhs və araşdırma:*

1. Hər şeydən öncə, təəssüflə bu həqiqətə etiraf etmək lazımdır ki, ağlamaq və əzadarlıq zəminəsində daha çox ifrat və təfrit müşahidə olunmaqdadır. Həmçinin, əsil hədəfi unudaraq zahiri məsələlərdən yapışmaq da bu zəminədə heç də az deyil. Eyni zamanda, biz bu məsələnin istənilən formasını müdafiə etməyə meyilli deyilik və buna qüdrətimiz də yoxdur. Bizim bəhsimiz sadəcə məsələnin əsli ilə bağlıdır. Bəziləri əzadarlıq məsələsini o qədər təhrif etdilər ki, sonunda onun əsil hədəfinə zidd olan bir məsələ ilə nəticələndi. Hətta, bir qətrə göz yaşı axıtmağı bütün vəzifə və məsuliyyətlərin canişini kimi qələmə verdilər və bu əməllə hər növ xətakarlıq, zülm və günah müqabilində – o günahlar ki, şəhidlərin qanının tökülməsi onlarla mübarizə aparmaq üçün idi – özləri üçün paklıq müəyyən etdilər. Dediyimiz kimi, həmin məsələdən bu cür yanlış çıxarışlar nə dindəndir, nə də məntiqlə müdafiə olunasıdır.

2. Ağlamaq və gülməyin insanaməxsus iki xüsusiyyət olması ilə işimiz yoxdur və yaradan, təbiət, yaxud adını nə qoyuruqsa-qoyaq, insana bu xüsusiyyəti vermişdirsə, şübhəsiz, onun ehtiyacı varmış və həmin

səbəbdən, gülmək insan ruhunun qidası olduğu kimi, ağlamaq da öz yerində hisslərin ətalət amilidir və bu ruhi xüsusiyyətləri öz yaşayışlarından çıxaran fərdlər həyatda psixoloji narahatlıqlara düçar olmuşlar. Bunlar bizim üçün əhəmiyyətli deyil, çünki bəhsimiz cisim və ruhun sağlamlığı deyil. Bəhsimiz silsiləvi dini məsələlərə sosioloji prizmadan yanaşmadır.

Burada mühüm olan məsələ əzadarlıq mərasiminin haradan meydana çıxması mənşəyi və hansı hədəfləri izləməsini bilməkdir. Tarix qeyd edir ki, Bəni-Üməyyənin bütün islami ölkələrə hakim olmasından sonra, bütün ayıq qəbilələr onların müqabilində mübarizəyə qalxdılar, hətta bəzilərinin əqidəsinə əsasən, yaşlı və guşənişin zahidlər öz nökər və aşpazlarının ipək paltar geyməsinə əhəmiyyət verən Bəni-Üməyyə əleyhinə pambıqdan olan paltarlar geyərək səssiz-sədasız bir mübarizəyə əl atmışlar.[1]

Göz yaşı axıtmaq və ya əzadarlıq həmin hakimiyyətə qarşı ümumxalq hissiyyatını alovlandırmaq amili idi. Həmin əsrdə hissiyyatların alovlandırılması və şiələrin mübarizəsinin təşəkkülü, həmçinin, Bəni-Üməyyənin süqutunda onun təsirləri tarixin həmin dövrü barədə məlumatı olan heç bir kəsə gizli deyil. Bəni-Üməyyə qəsbkarlarından sonra onların yerinə Bəni-Abbas keçdi, başqa sözlə, camaat bir canavardan yaxa qurtarıb digər canavarların càənginə keçdi və beləliklə, həmin hissi və emosional mübarizə davam edirdi. Diqqəti çəkən məsələ əzadarlıq zəminindəki rəvayətlərdə göz yaşı axıtmağın İslam rəhbərlərinin proqramlarını dirçəltməyə bərabər tutulduğunun müşahidəsidir. Məsələn, imam Sadiq (ə)

*1. «Əs-Silətu bəynət-təşəyyo və təsəvvuf» kitabına müraciət edin.*

əzadarlıq barədə bəhs etmək istəyərkən əvvəlcə belə buyurur:

رَحِمَ اللّهُ عَبْداً أحْيَا أمْرَنَا

*"Allah bizim əmrlərimizi dirçəldən bəndələrə rəhm eləsin."*

Bunun ardınca əzadarlıq mərasiminə təşviq edərək onu hədəflərin dirçəldilməsi istiqamətinə yönəldir.

3. Yəqin ki, şəhidlərə əzadarlıq və onların müxaliflərinə nifrətlə bağlı məsələdə yalnız imam Hüseyn (ə) və Yeziddən söhbət getmədiyini xatırlatmağa ehtiyac yoxdur. Əksinə, söhbət ideoloji və əqidəvi olan iki məktəbdən – tövhid, azadlıq, ədalət və insanların himayəsi yolunda olan məktəblə cahiliyyət, ayrı-seçkilik, zülm və napaklıq mirasının varisi olan məktəb – gedir ki, onun bir tərəfində imam Hüseyn (ə) və digər tərəfində Yezid durur və onlar həmin məktəbin simvollarıdır. Burada belə bir sual meydana çıxır ki, Bəni-Üməyyə və Bəni-Abbas hakimiyyətindən sonra imam Hüseyn (ə) və onun tərəfdarlarının nisbətən hədəfləri hasil olduqdan sonra, bu əzadarlığı davam etdirmək yersizdir və onu keçmiş tarixə aid etmək və tarix arxivində dəfn etmək lazımdır? Əgər məsələ bir şəxs və onun düşmənləri ilə bağlı olsaydı, onun tarixinin bitməsilə əzadarlıq mərasimi də bitərdi, amma söhbət tarixdə həmişə cərəyanda olmuş və olacaq bir məktəbdən getdiyi üçün ona aid olan şeylər sona çatası deyil.

4. Bir məktəblə irtibatda olmaq üçün sadəcə məntiq və sübutlara əsaslanan ideologiya ilə bağlı olmaq kifayət deyil, əksinə hissiyyatlardan qaynaqlanan məhəbbət və sevginin olması da zəruridir. Çünki bir məktəbin hansısa hədəfə nail olması üçün əql təklikdə yetərsizdir, əksinə

əql və məhəbbət birlikdə cəmiyyətin çarxlarını hədəf istiqamətində hərəkətə gətirməlidir. Dil həmişə əqlin, göz isə eşqin tərcüməçisi olmuşdur. Hissiyyat, yanğı və ağrı-acıdan göz yaşı axan yerdə eşqin, dilin münəzzəm hərəkəti nəticəsində məntiqli cümlələrin düzəldilməsi olan yerdə isə əqlin iştirakı vardır.

Nəticədə, məntiqi və tutarlı dəlillər danışanın məktəb rəhbərinin hədəfləri ilə nə qədər bağlı olduğunu aşkar etdiyi kimi, bir damla göz yaşı da həmin məktəbin düşmənlərinə qarşı mübarizə hissini elan edə bilər.

## *15. Şəfaət məsələsi*

Süstləşdirici vəsilə kimi istinad edilə biləcək mövzulardan biri də şəfaət məsələsidir. Bu məsələnin əslində yaşayışla bağlı deyil, günahlar müqabilində ilahi cəzadan nicat tapmaq şəklində bir məsələ olmasını söyləyə bilərik, amma insan yaxşı əməl, günahların tərki və vəzifələrin yerinə yetirilməsi, təlaş və fəaliyyət yerinə Peyğəmbər (s) və imamların şəfaətinə adət etdiyi və nicatını özünə deyil, digərlərinə arxalanmaqda olduğunu düşündüyü zaman, bu mövzu qeyri-müstəqil şəkildə onun maddi həyat fəaliyyətlərinə təsir qoyacaq ki, şəxsiyyət azadlığı və özünü islahetməni əldən verərək asılı şəkildə həyat sürsün, çalışqanlıq və təlaşı kənara qoyaraq hədəflərinə çatmaqda digərlərinin fəaliyyətinə söykənsin.

Xülasə, şəfaətə arxalanmaq insanda çalışqanlıq ruhiyyəsini zəiflədir və o, geriləməyə (tənəzzülə) səbəbdir. Bundan əlavə, şəfaətə arxalanmaq fərdi və ictimai məsuliyyətdən yayınmaq və günaha təşviqdir ki, o da öz növbəsində ictimai sistemi pozur. Bundan

əlavə, şəfaət feodalizm və sinifli cəmiyyətə qayıdışdır və xilafkar, həmçinin, pis insanlar qəbilə başçısı və ya xana yaxın olmaq üçün onun yaxınlarından yardım alırdılar ki, özlərini cəzadan xilas edə bilsinlər. Hətta, müvəhhid və Allaha etiqadı olanların nəzərində belə, şəfaət məsələsindən şirk qoxusunun gəlməsi də mümkündür, çünki şəfaətin möhtəvası Allahdan başqası və digərinin iradəsinin təsirliliyinə diqqətdir. Yuxarıda qalaqlanmış iradları – istər materialistlər, istərsə də Allaha pərəstiş edən bir sıra şəxslərin bu barədə bəyan etdikləri iradlar olsun – bir neçə mətləbdə xülasələşdirmək olar:

1. Şəfaətə etiqad çalışmaq və təlaş ruhiyyəsini zəiflədir.
2. Şəfaətə etiqad feodalizm və tənəzzülə uğramış cəmiyyətlərin inikasıdır.
3. Şəfaətə etiqad günaha təşviq və məsuliyyətləri tərk etməkdir.
4. Şəfaətə etiqad bir növ şirk və çoxallahlılığa pərəstişdir.

Bir daha burada böyük səhvlərlə qarşılaşırıq ki, qeyri-düzgün hökm vermək, yanlış təfsir və yanlış ifadə etmək, naqis anlaşılma və ya qərəzli nəticəçıxarmadan qaynaqlanır. Bütün bunların aradan qaldırılması və hökm çıxarmaqda səhvə düçar olmamaq üçün suyu mənbədən götürməkdən başqa, çarəmiz yoxdur. Bu məqsədin reallaşması üçün məsələnin əsas xəttini aşağıdakı tərtiblə araşdırmağa başlayırıq:

1. Şəfaətin həqiqi mənası.
2. Şəfaətlə bağlı sənədlər.
3. Şəfaətin şəraiti.
4. Şəfaətin fəlsəfəsi.

5. Araşdırma və iradlara cavab.

### *1. Şəfaətin həqiqi mənası.*

"Şəfaət" sözü "şəf" kökündəndir və mənası "cüt" deməkdir. Onun müqabilindəki söz isə "vitr" sözüdür ki, mənası "tək"dir. Daha sonra bu söz "güclü və qüvvətli şəxsin zəif şəxsə kömək etməsi" mənasına da şamil edilmişdir. Həmin söz din və ürfdə iki müxtəlif mənada işlənir:

A) Şəfaət avam camaatın dilində şəfaət edən şəxsin öz şəxsiyyət, mövqe və nüfuzundan istifadə edərək qüdrət sahibinin nəzərini cəza veriləcək şəxs barədə əvəz etmək, bəzən də sahib olduğu nüfuzdan istifadə edərək qarşı tərəfin hisslərinə təsir etmək və ya onun günahkar barəsindəki düşüncəsini dəyişmək və s. deməkdir. Xülasə, burada şəfaət günahkar və ya ittiham edilənin düşüncə və ruhiyyəsində heç bir dəyişiklik yaratmır və bütün təsir və dəyikliklər şəfaət ixtiyarında olan şəxslə bağlıdır. Dini bəhslərdə bu cür şəfaətin heç bir mənası yoxdur, çünki nə Allah öz nəzərində səhvə yol vermir ki, onu dəyişəsən, nə insana məxsus hisslərdən söhbət getmir ki, onu (hissləri) oyadasan, nə kiminsə nüfuz və təsirindən çəkinilmir, nə də onun cəza və mükafatı ədalətdən uzaq deyil.

B) Şəfaətin digər məfhumu dini mənbələrdə daxil olmuş və şəfaət olunanın mövqeyinin dəyişilməsi mərkəzində dövr edir, yəni şəfaət olunan bir sıra səbəbləri hazırlayır ki, xoşagəlməz və cəzaya layiq vəziyyətdən xaric olur və şəfaətçinin vasitəsilə daha yaxşı bir vəziyyətə layiq görülərək bağışlanır. Bildiyimiz kimi, belə bir şəfaətə inam həqiqətdə, ali tərbiyə və günahkar insanların islah və ayıqlıq məktəbidir. Görəcəyik ki,

bütün iradlar, həmlələr şəfaətin ikinci, məntiqli və islahatçı mənasına deyil, birinci mənasına aiddir.

Bu, şəfaətin "süstləşdirici" və "islahatçı" şəkildə olmaqla icmali təfsiri idi.

### *Təkvini aləmdə şəfaət*

Şəfaətin məntiqli və doğru təfsiri barədə söylədiklərimiz təşrii aləmdən əlavə, təkvin və yaradılış aləmində də daha çox müşahidə olunur. Güclü qüvvələr zəif qüvvələrə əlavə olunaraq onları islahatçı hədəflər istiqamətində irəlilədirlər. Günəş nur saçır, yağış yağır və torpağın altındakı toxumlar hazırlanır ki, öz daxili istedadlarını işlədərək ilkin həyat nişanələrini büruzə versin, dənənin qabıq zindanını yararaq torpağın zülmətindən baş qaldırsın və səmadan enerji alaraq hədəflərinə çatsın. Bu səhnələr həqiqətdə, həyat və yaşayışdakı yenidən canlanmada bir növ təkvini şəfaətdir. Əgər təşrii səhnədə də bu növdən olan şəfaət nümunəsinin iqtibas edildiyinə inansaq, doğru yolu tutmuşuq və onun izahını tezliklə verəcəyik.

### *2. Şəfaətlə bağlı sənədlər*

Hazırda şəfaət məsələsilə bağlı birinci dərəcəli və əsil sənədlərin araşdırılmasına başlayırıq:

Quranda şəfaət məsələsilə bağlı (həmin ünvanla) haradasa, 30 yerdə bəhs olunmuşdur, əlbəttə, bu ünvanlarsız da həmin məsələ ilə əlaqədar digər işarə və bəhslər edilmişdir. Quranda bu barədə bəhs edən ayələr həqiqətdə, bir neçə qismə bölünür:

**Birinci qisim:** Şəfaəti mütləq şəkildə inkar edən ayələr. Məsələn:

أَنْفِقُواْ مِمَّا رَزَقْناكُمْ مِنْ قَبْلِ أَن يَأْتِيَ يَوْمٌ لَابَيْعٌ فِيهِ وَ لَاخُلَّةٌ وَ لَاشَفَاعَة

*"Ey iman gətirənlər, nə alış-verişin və nə də dostluq və şəfaətin olmayacağı gün gəlməmişdən qabaq sizə ruzi olaraq verdiklərimizdən (Allah yolunda) xərcləyin."*[1]

وَ لَايُقْبَلُ مِنْهَا شَفاعَة

*"Heç kimin şəfaəti qəbul olunmayacaq."*[2]

Bu ayələrdə iman və saleh əməldən başqa, günahkarların istər maddi əvəz ödənməklə olsun, istərsə də qohumluq və dostluq keçmişi, yaxud şəfaət məsələsilə təsəvvür edilən nicat yolları inkar olunmuş və bəzi günahkarlar haqqında belə deyilmişdir:

فَمَا تَنْفَعُهُمْ شَفَاعَةُ الشَّافِعِين

*"Şəfaət edənlərin şəfaəti onlara heç bir fayda verməyəcəkdir."*[3]

**İkinci qisim:** Şəfaətçininin tək və yalnız Allah olduğunu bildirən ayələr:

مَا لَكُمْ مِنْ دُونِهِ مِنْ وَلِيٍّ وَ لَاشَفِيع

*"Sizin üçün ondan başqa, heç bir himayə və şəfaətçi yoxdur."*[4]

قُل لِلَّهِ الشَّفاعَةُ جَمِيعا

*"De ki, bütün şəfaətlər Allaha məxsusdur."*[5]

1. *"Bəqərə" surəsi, ayə 254.*
2. *"Bəqərə" surəsi, ayə 48.*
3. *«Müddəssir» surəsi, ayə 48.*
4. *«Səcdə» surəsi, ayə 4.*
5. *«Zumər» surəsi, ayə 44.*

**Üçüncü qisim:** Şəfaəti Allahın göstəriş və icazəsi ilə şərtləndirən ayələr:

مَنْ ذَا الَّذِى يَشْفَعُ عِنْدَهُ إِلَّا بِإِذْنِه

*"İzni olmadan onun hüzurunda kim vasitəçilik və şəfaət (bu dünyada səbəblərlə nəticələr arasında qeyri-ixtiyari vasitəçilik, o dünyada isə əməllərin cəzasının ləğvi və savabların artırılması üçün olan ixtiyari şəfaət) edə bilər?!"*[1]

وَ لَا تَنْفَعُ الشَّفَاعَةُ عِندَهُ إِلَّا لِمَنْ اذِنَ لَه

*"(Şəfaət etməsinə və ya şəfaət olunmasına) izn verdiyi kimsələr istisna olmaqla şəfaət etmək və şəfaət olunmaq onun yanında (o gün) fayda verməyəcəkdir"*[2]

وَ لَا تَنْفَعُ الشَّفَاعَةُ عِندَهُ إِلَّا لِمَنْ اذِنَ لَه

*"Allahın (əqidəsini) bəyəndiyi kəsdən başqa, heç kəs üçün şəfaət etməzlər."*[3]

وَ لَايَشْفَعُونَ إِلَّا لِمَنِ ارْتَضى

*"(Həmin gün) Rəhman olan Allahın yanından (peyğəmbərlər, övliyalar və mələklər kimi) əhd-peyman almış şəxslərdən başqa, (insanlardan heç kəsin) şəfaət etmək ixtiyarı olmaz."*[4]

---

*1. «Bəqərə" surəsi, ayə 255.*

*2. «Səba" surəsi, ayə 23.*

*3. «Ənbiya" surəsi, ayə 28.*

*4. «Məryəm" surəsi, ayə 87.*
*Bəzi təfsirçilər belə ehtimal etmişlər ki, bu yerdə Quranda şəfaətin şərtlərindən biri bəyan olunmuşdur: Saleh əməl və iman baxımından, Allahla əhd və imana – yəni, möhkəm irtibata malik olan şəxslər şəfaət edə bilərlər. Amma əvvəlki ayələrə diqqət yetirməklə şəfaət edənin deyil, şəfaət*

Bəzən də bəzi günahkarların şəfaət olunmaq səlahiyyəti ləğv olunur. Məsələn, zalımların şəfaətinin ləğv olmasını bildirən aşağıdakı ayə kimi:

مَا لِلظَّالِمِينَ مِنْ حَمِيمٍ وَ لَا شَفِيعٍ يُطَاعُ

*"(Həmin gün) zalımların nə qohumları, nə də sözü qəbul edilən şəfaətçiləri olar."*[1]

Bu minvalla, ilahi əhdi-peymana, yəni imana malik olmaq, Allahın razılığı məqamına yetişmək, onun tərəfindən qəbul olunmaq və zülm kimi günahlardan pərhizkarlıq şəfaətin şərtlərindəndir.

### *3. Şəfaətin şəraiti*

Şəfaət ayələri İslam məntiqi baxımından, şəfaət məsələsinin qeydsiz-şərtsiz bir mövzu olmadığını, əksinə bir tərəfdən, şəfaət olunacaq günah, digər tərəfdən, şəfaət olunan və şəfaət edən kəslə bağlı müəyyən şərtlərə əsaslandığını göstərir ki, bu da şəfaətin əsil sima və fəlsəfəsini aydınlaşdırır. Məsələn, zülm və sitəm kimi günahlar ümumilikdə şəfaət dairəsindən xaric hesab olunmuş və Quranda zalımların şəfaətçilərinin olmadığı bildirilmişdir. Əgər zülmü – bəzi hədislərdə qeyd olunduğu kimi – geniş mənada təfsir etsək, şəfaətin öz əməllərindən peşman olmuş və onları təlafi etmək yolunda olan günahkarlara şamil olduğu və şəfaətlə yardım olunacaqları məlum olur. Əgər bəziləri peşmanlıq və tövbə ilə şəfaətə ehtiyac duyulmadığını

*olunanın şərtlərinin xatırlandığı məlum olur. Əvvəlki ayədə buyururlar:* وَ نَسُوْقُ الْمُجْرِمِيْنَ الى جَهَنَّمَ وِرْدا *"Günahkarları teşnə olanlar kimi cəhənnəmə sürükləyərik." Bu ayəyə diqqət yetirməklə şəfaətə günahkarlar baxımından nəzər yetirildiyi məlum olur.*

*1. "Ğafir" surəsi, ayə 18.*

güman edirsə, bu yanlışlıqdır ki, ona tezliklə cavab verəcəyik. Digər tərəfdən, "Ənbiya" surəsinin 28-ci ayəsində qeyd olunduğu kimi, şəfaət vasitəsilə ilahi razılıq məqamına yetişmiş və "Məryəm" surəsinin 87-ci ayəsində bildirildiyi kimi, ilahi əhdə malik şəxslərə bağışlanacaqdır.

Bu iki məsələ icmali olaraq onların lüğəvi məfhumları və bu ayələrin təfsiri ilə bağlı əlimizə gəlib çatmış olan müfəssəl rəvayətlərdən istifadə olunur və belə nəticə çıxır ki, Allaha iman, haqq-hesab, mükafat və cəzaya, yaxşının yaxşı, pisin pis olmasına etiraf, həqiqətən, Allah tərəfindən nazil olan müqərrəratlardır. İnsanın düşüncə və sonra həyatında əks olunan imanının nişanəsi özünü heç bir müqəddəs qanunu rəsmi olaraq tanımayan zalım və üsyankar şəxslərin cərgəsindən ayırmaq və bu barədə düşüncə dəyişikliyi etməkdir. Quranda şəfaət sayəsində bağışlanılan günahlar barədə buyurulur:

وَلَوْ أَنَّهُمْ إِذ ظَّلَمُواْ أَنْفُسَهُمْ جاؤوكَ فَاسْتَغْفَرُواْ اللَّهَ وَاسْتَغْفَرَ لَهُمْ الرَّسُولُ لَوَجَدُواْ اللَّهَ تَوَّاباً رَحِيما

*"Əgər onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlsə, sonra Allahdan bağışlanmaq istəsə və Allahın Peyğəmbəri də (Allahdan) onlar üçün bağışlanmaq diləsəydi, şübhəsiz, Allahın çox tövbə qəbul edən və mehriban olduğunu görərdilər."*[1]

Bu ayədə günahkarların özünün tövbə və bağışlanmaq diləməsi peyğəmbərlərin şəfaəti üçün müqəddimə hesab olunmuşdur. Həmçinin:

قَالُواْ يَا أَبَانَا اسْتَغْفِرْ لَنَا ذُنُوبَنَا إِنَّا كُنَّا خاطِئِينَ* قَالَ سَوْفَ أَسْتَغْفِرُ

*1. «Nisa» surəsi, ayə 64.*

لَكُمْ رَبِّي إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيم

*“(Yaqubun oğlanları) dedilər: “Ey ata, (Allahdan) bizim günahlarımızın bağışlanmasını istə ki, həqiqətən, biz səhv etmişik.” Dedi: “Tezliklə sizin üçün öz Rəbbimdən bağışlanmaq istəyərəm (qoyun cümə axşamı olsun və ya Yusifə qovuşmaq günü gəlib çatsın). Şübhəsiz, o, çox bağışlayan və mehribandır.”” [1]*

Mələklərin şəfaətinin sadəcə imanlı, Allah yoluna tabe və haqq tərəfdarlarına şamil olduğunu görürük:

وَ يَسْتَغْفِرُونَ لِلَّذِينِ آمَنُواْ رَبَّنَا وَسِعْتَ كُلَّ شَيْءٍ رَّحْمَةً وَ عِلْماً فَاغْفِرْ لِلَّذِينَ تَابُواْ وَ اتَّبَعُوا سَبِيلَكَ وَ قِهِمْ عَذَابَ الْجَحِيم

*“Mələklər (insanlardan) iman gətirmiş kəslər üçün bağışlanma diləyər (və deyər)lər: “Ey Rəbbimiz! Rəhmət və elmin hər şeyi əhatə etmişdir. Odur ki, tövbə edərək (etiqad və əməldə) sənin yolunu gedənləri bağışla və onları cəhənnəm əzabından qoru!””[2]*

Bir daha “tövbə etdiyimiz, Allah yolunda addımladığımız və tabe olduğumuz halda, şəfaətə nə ehtiyac vardır?” kimi sual meydana çıxır. “Şəfaətin həqiqəti” bəhsində onu bəyan edəcəyimizi bildiririk. Quranda şəfaət edənlərin şərti ilə bağlı onların haqqa şəhadət verməsi bildirilir:

إِلَّا مَنْ شَهِدَ بِالْحَق

*“Yalnız haqqa şəhadət verənlərə şəfaət etmək icazəsi verilər.”[3]*

1. *«Yusif» surəsi, ayə 97-98.*
2. *«Ğafir» surəsi, ayə 7.*
3. *«Zuxruf» surəsi, ayə 86.*

Bu minvalla, şəfaət olunan şəfaət edənlə haqqa şəhadət vermək və haqq iş görməklə bağlı rabitəyə malik olmalıdır və bunun özü haqq yolda bütün qüvvələri səfərbər etmək və islahedici amildir.

### *İslami hədislər və şəfaət*

İslami rəvayətlərdə də yuxarıdakı ayələrin məzmununu təkmilləşdirən çoxlu ifadələr işlənmişdir:

1. "Burhan" təfsirində imam Kazım (ə) imam Əlidən (ə) nəql edir: "Peyğəmbərin (s) belə buyurduğunu eşitdim:

شَفَاعَتِی لِأَهْلِ الكَبَائِرِ مِنْ أُمَّتِی ...

*"Mənim şəfaətim ümmətimdən kəbirə (böyük) günahlar edənlər üçündür...""*

Hədisin ravisi olan İbn Əbi Ümeyr deyir ki, mən imam Kazımdan (ə) soruşdum ki, kəbirə günahı etmiş kəslər barəsində şəfaət necə mümkündür, halbuki, Allah Quranda belə buyurur:

وَ لَایَشْفَعُون إِلَّالِمَنِ ارْتَضَی

*"Allahın razı olduqlarından başqa, kimsə şəfaət olunmaz."*

Aydın məsələdir ki, kəbirə günahlara mürtəkib olan kəsdən Allah razı olmaz. İmam buyurdu:

*"Günah edən hər bir fərd təbii olaraq öz günahından peşman olacaq və Peyğəmbər (s) buyurub ki, günahdan peşman olmaq tövbədir...və günahdan peşman olmayan şəxs həqiqi mömin deyil və bu, zülmdür, şəfaət ona şamil olmayacaq. Allah bildirir ki, zalımların dostu və şəfaətçisi yoxdur."*[1]

Hədisin əvvəlinin məzmunu budur ki, şəfaət kəbirə

---

*1. "Biharul-ənvar", c.8, səh. 351.*

günahlara mürtəkib olanlara şamil olacaq. Amma hədisin sonu günahkarın günahdan peşman olması və onun islahına, həmçinin, etdiklərini təlafi etməyə yönələrək qanunları pozmamasına səbəb olan və zülmdən çəkindirən imanın şəfaətlə nəticələnəcəyi bildirilir və bunlarsız şəfaət mümkün deyil.

2. "Üsuli-kafi" kitabında imam Sadiqin (ə) öz səhabələrinə yazdığı məktubda belə buyurduğu nəql olunur:

مَنْ سَرَّهُ أنْ تَنْفَعَهُ شَفَاعَةُ الشَّافِعِينَ عِنْدَ اللّهِ فَلْيَطْلُبْ إلَى اللّهِ أنْ يَرْضِىَ عَنْه

*"Şəfaətin onun halına şamil olmasını istəyən hər kəs Allahın razılığını cəlb etməlidir."*[1]

Bu rəvayətin ifadəsindən belə başa düşülür ki, şəfaətlə bağlı imamın bəzi səhabələri və müsəlmanların bir dəstəsi üçün baş verən səhvliklərin islahında günaha təşviq etdirən şəfaət təkzib olunmuşdur.

3. İmam Sadiqdən (ə) olan digər dərin mənalı hədisdə belə oxuyuruq:

إذَا كَانَ يَوْمَ الْقِيَامَةِ بَعَثَ اللّهُ عَزَّوَجَلَّ العَالِمَ وَ العَابِدَ فَإذَا وَقَفَا بَيْنَ يَدَىِ اللّهِ عَزَّ وَ جَلَّ قِيلَ لِلْعَابَدَ إنْطَلِقْ إلى الجَنَّةِ وَ قِيلَ لِلعَالِمِ قِفَ تَشْفَعْ لِلنَّاسِ بِحُسْنِ تَأدِيبِكَ لَهُم

*"Qiyamət günü Allah alim və abidi dirildərək abidə deyər ki, təkcə cənnətə tərəf get, amma alimə deyər ki, tərbiyə etdiyin insanlara doğru gedərək onlara şəfaət et."*[2]

Bu hədisdə alimin tərbiyə etməsi və onun məktəbini

1. *"Üsuli-kafi", c.8, səh. 11.*
2. *"Biharul-ənvar", c.2, səh. 16.*

dərk edən şagirdlərinə nisbətdə şəfaəti arasında bir münasibətin olduğu müşahidə olunur ki, bu bəhsin bəzi qaranlıq məsələlərini işıqlandıra bilər. Bundan əlavə, şəfaəti alimə məxsus edərək abiddən onun alınması İslam məntiqində onun razılaşma və tərəfbazlıq kimi bir məsələ olmadığını, əksinə tərbiyəvi məktəb olaraq tərbiyəni təcəssüm etdirdiyini nişan verir.

### *Şəfaətin mənəvi təsiri*

Şəfaət barəsindəki rəvayətlərlə bağlı qeyd etdiklərimiz onun çox az bir qismi idi ki, bəhsimizlə mütənasib olduğundan, onları seçmişdik, yoxsa ki, şəfaətlə bağlı rəvayətlər təvatür həddindədir.

Şafei[1] Nəvəvi "Səhih Müslimin şərhi"ndə məşhur əhli-sünnə alimi İyazdan belə nəql edir ki, şəfaətlə bağlı rəvayətlər mütəvatirdir. Hətta, bu barədə xüsusi inadkarlıq və təəssübkeşliyə malik olan İbn Teymiyyə (vəfatı hicri 728-ci il) və Məhəmməd ibn Əbdülvəhhab (vəfatı 1206-cı il) tərəfdarları da bu barədəki rəvayətlərin təvatürlüyünə etiraf etmişlər.

Şeyx Əbdürrəhman ibn Həsənin müəllifi olduğu "Fəthul-məcid" kitabında – ən məşhur vəhhabilik kitabıdır və hazırda Hicazın əksər dini mədrəsələrində də dərs kitabı kimi tədris olunur – İbn Qəyyumdan belə nəql olunur:

"Günahkarların şəfaəti barəsində Peyğəmbərdən (s) olan hədislər mütəvatirdir və onun bütün səhabələri və əhli-sünnənin əksəriyyəti bu mövzuda fikir birliyinə malikdir, həmçinin, onu inkar edənləri bidətçi və yolunu

---

*1. Onun adı Yəhya ibn Şərəf və hicri 7-ci əsr alimlərindəndir. Dəməşq yaxınlığındakı Nəvəvi şəhərində doğulduğu üçün bu adla məşhurlaşmışdır.*

azmış hesab edərək onlara irad tuturlar."[1]

Hazırda şəfaətin ictimai və psixoloji təsirləri barədə bəhsə başlamazdan əvvəl, dördlük təşkil edən iradları şəfaətin fəlsəfəsi sayəsində araşdırmağa başlayırıq ki, bu baxış həmin məsələ ilə bağlı ictimai və psixoloji reaksiyalar zəminəsində gələcək bəhslərin aydınlaşdırıcısı olacaqdır.[2] İslam əqaid alimləri arasında şəfaətin mənəvi təsirlərinin necəliyi barədə mübahisələr mövcuddur. Kəbirə günahların bağışlanmayacağına etiqadlı olan "Vəidiyyə" adilə tanınmış bir qrup şəfaətin günahın təsirlərini aradan aparmaqda təsirli olmadığını, əksnə təkcə mənəvi təkamül və savabların artmasında rol oynadığını bildirir. "Təfziliyyə" – səhabələrin kəbirə günahlara mürtəkib olmadığına etiqad bəsləyənlər – bu əqidədədirlər ki, şəfaət günahkarlarla bağlıdır və təsiri cəzanın aradan qaldırılmasıdır. Amma məşhur tədqiqatçı Xacə Nəsrəddin Tusi "Təcridul-etiqad" kitabında onların hər ikisinin haqq və təsirli olduğunu bildirir. Əllamə Hilli də "Kəşful-murad" kitabında həmin əqidəni inkar etməmiş, əksinə onun üçün şahidlər də gətirmişdir. Şəfaətin lüğəvi kökü və onun təkvini şəfaətlə müqayisəsi baxımından, bundan artıq söylənilənlərə diqqət yetirməklə, mühəqqiq Tusinin əqidəsinin həqiqətə daha yaxın olmasında hansısa şübhənin qaldığını güman etmirik. Bir tərəfdən, imam Sadiqdən (ə) nəql olunan bu hədisdə oxuyuruq:

مَا أَحَدٌ مِنَ الأَوَّلِينَ وَ الآخِرِينَ إِلَّاهُوَ مُحْتَاجٌ إِلَى شَفَاعَةِ مُحَمَّدٍ صلى

1. *"Fəthul-məcid", səh. 211.*

2. *Diqqət yetirin ki, burada əqaid alimlərinin xüsusi məntiqi əsasında bəhs edəcəyik.*

الله عليه و آله يَوْمَ الْقِيَامَة

*"Qiyamət günü əvvəlinci və sonuncu ümmətlərdən elə bir şəxs yoxdur ki, həzrət Məhəmmədin (s) şəfaətinə möhtac olmasın."*[1]

Bu hədisə əsasən, hamı Peyğəmbərin (s) şəfaətinə möhtacdır. Beləliklə, hətta günahdan tövbə edən və günahı bağışlanan kəslər də şəfaətə ehtiyaclıdırlar və bu, şəfaətin təsirinin ikitərəfli və məqamın yüksəlməsinə şamil olduğu zaman mümkündür. Əgər bəzi rəvayətlərdə xeyirxah insanların şəfaətə ehtiyaclı olmadıqlarını oxuyuruqsa, bunda məqsəd günahkarlar barəsindəki şəfaət növünün onlara aid olmamasıdır.

Digər tərəfdən, şəfaətin həqiqəti güclü varlığın zəif varlığa əlavə olunaraq ona yardım etməsidir və həmin yardım güclü nöqtələrin inkişafı və ya zəif nöqtələrin aradan qaldırılması üçün də olması mümkündür. Təkvini şəfaət və təkamül yolunda mövqe tutan məxluqlarda da bu iki xüsusiyyət müşahidə olunmaqdadır. Bəzən aşağı səviyyəli məxluqlar dağıdıcı amilləri aradan qaldırmaq üçün daha qüvvətli amillərə ehtiyac duyurlar. Məsələn, bitkinin maneələri aradan qaldırmaq üçün günəş nuruna olan ehtiyacı kimi. Bəzən də bu ehtiyac güclü cəhətlərin qüvvətlənmə və inkişafı üçündür. Eynilə bitkinin inkişaf və təakmülü üçün günəşə ehtiyacı timsalında və ya çalışqan şagirdin həm öz səhvlərini aradan qaldırmaq, həm də məlumatlarını artırmaq üçün müəllimə olan ehtiyacı kimi. Nəticədə, müxtəlif səbəblərdən şəfaətin ikitərəfli təsiri vardır və təkcə günahın təsirlərini aradan aparmağa məxsus deyil.

---

*1. «Biharul-ənvar», c.8, səh. 38.*

Deyilənlərə diqqət yetirməklə təkcə tövbə və peşman olmanın dini etiqadlarda günahın bağışlanmasına səbəb olmasına baxmayaraq, tövbəkarların da nə üçün şəfaətə ehtiyac duyduğu məlum olur. Bu mövzunun səbəbi həqiqətdə, iki şeydir:

1. Tövbə edənlərin günahlarının tövbə sayəsində günahları bağışlansa da, mənəvi məqam və dərəcələrinin təkamül və artması üçün yenə də onlar şəfaətə ehtiyaclıdırlar.

2. Tövbənin təsiri zəminəsində bir çoxlarının düçar olduğu yanlışlıqlar belə iradların yaranmasına səbəb olur və onlar elə təsəvvür edirlər ki, günahdan tövbə və peşmanlıq onları günahdan əvvəlki hala qaytara bilər. Halbuki, öz növbəsində keçmişdən peşmanlıq və gələcəklə bağlı qərar qəbul etməkdə tövbənin birinci mərhələ olduğunu demişdik. Bu, eynilə xəstəliyi aradan qaldıran dərmana bənzəyir. Aydındır ki, xəstəliyin aradan qaldırılması və kökünün kəsilməsilə xəstə sağalsa da, hələ normal vəziyyətə qayıtmamışdır və müəyyən müddət cismi bünyəsini qüvvətləndirməlidir ki, xəstəlikdən qabaqkı vəziyyəti ala bilsin.

Başqa sözlə, tövbənin mərhələləri vardır və günahdan peşman olmaq və gələcəkdə paklaşmağa qərar vermək təkcə onun ilkin mərhələsidir. Amma onun son mərhələsi bununla nəticələnir ki, tövbəkar hər cəhətdən günahdan əvvəlki mənəvi halına qayıtsın və şəfaət edənlərin şəfaəti və onlarla rabitədə olmaq bu mərhələdə təsirli ola bilər. Bunun canlı şahidi əvvəldə tövbə ilə bağlı işarə etdiyimiz ayədir ki, orada günahkarın tövbəsindən əlavə, Peyğəmbərin (s) bağışlanmaq diləməsi də tövbənin qəbulolunma şərti kimi göstərilmişdir. Həmçinin,

həzrət Yusifin (ə) qardaşlarının tövbəsi və ataları həzrət Yaqubun (ə) onlar üçün bağışlanmaq diləməsi və bundan daha aydın mələklərin xeyirxah, tövbəkar, saleh və islah edən fərdlər barədə bağışlanmaq diləməsini bildirən ayələri – ötən bəhslərdə işarə etdik – müşahidə etmək olar.

### *4. Şəfaətin fəlsəfəsi*

"Şəfaət" məfhumu və onun məfhumunu aydınlaşdıran sənədlər məlum oldu. Ona diqqət yetirməklə şəfaətin ictimai və psixoloji fəlsəfəsinin dərki o qədər də çətin olmayacaq. Ümumilikdə, şəfaətin əsasına diqqət yetirmək etiqadı olanlarda aşağıdakı bir neçə təsiri qoya bilər:

*1. Ümidsizlik ruhiyyəsilə mübarizə*

Agır günahlara mürtəkib olaraq bir tərəfdən, vicdanın narahatçılığı, digər tərəfdən, Allah dərgahında bağışlanmaqdan naümid olmağa düçar olmuş kəslər dönüş yolunu üzlərinə bağlı hesab etdiklərindən, əməldə heç bir fikir dəyişikliyi etməyə hazır deyillər. Onların nəzərində gələcəyin üfüqü zülmət göründüyündən, daha çox itaətsizlik və tüğyan etməyə əl atır və "müqərrəratlara əməl etməyin onlara heç bir faydası yoxdur" bəhanəsi və eynilə, xəstəlikdən sağalmaq ümidini itirərək pəhriz məsələlərinə riayət etməyən və onu təsirsiz hesab edən xəstələr kimi, özlərinə bir növ, əməl azadlığı müəyyən edirlər. Bəzən bu cür günahlardan qaynaqlanan vicdan əzabı psixoloji sarsıntı və ya onların aludə olmasına səbəb olan cəmiyyətdən intiqam almaq hissinin təhrik olunmasına gətirib çıxarır ki, bu minvalla, günahkar cəmiyyət üçün təhlükəli ünsür və narahatçılıq mərkəzinə

çevrilir.

Amma şəfaətə iman onun üzünə aydınlıq və işıq qapısı açır və bağışlanmaq ümidi onun özünü kontrol, fikirində dəyişiklik və hətta keçmişi təlafi etməsi üçün təşviq edir, intiqam almaq hissi onda təhrik olunmur və psixoloji aramlıq onun sağlam və saleh ünsürə çevrilməsinə imkan yaradır. Beləliklə, düzgün mənada şəfaətə diqqət yetirməyin islahatçı, maneə törədən və günahkar bir fərddən saleh bir fərd yaratmaq ünsürü olduğunu desək, boş və əbəs söz deməmişik. Bu cəhətdən, hətta ömürlük canilər üçün də şəfaət və bağışlanmaq üçün dünyanın müxtəlif qanunlarında işıq üzü qoyulmuşdur ki, məbada, ümidsizlik onları zindanın daxilində xətərə çevirər və ya psixoloji sarsıntıya səbəb olar.

*2. Şəfaətin islahatçı şəraiti*

Həqiqi mənada olan şəfaətin bir neçə cəhətdən qeyd və şərtlərə malik olmasına diqqət yetirməklə, bu məsələyə etiqadlı olan kəslər şəfaətin onlara şamil olması üçün onun şərtlərini hazırlamaq, həmçinin, şəfaət ümidini sıfıra endirən zülm kimi günahlardan çəkinmək və öz proqramlarında dərin dəyişiklik etməyə başlamağa məcburdurlar. İlahi razılıq və əhdi-peymanın (söylənilən təfsiri ilə) bərqərar olması üçün onlar öz günahlarından tövbə etməli, yaxud ən azından, tövbə astanasında dayanmalıdırlar. İlahi qanunların səddini aşaraq xilafkarlıq etməyi dayandırmalı və ya onu azaltmalı, Allaha iman və qiyamətdə böyük ədalət məhkəməsinin olacağı ruhiyyəsini özlərində yaşatmalı, onun qanun və müqərrəratlarına ehtiram etməlidirlər. Digər tərəfdən, özü ilə şəfaət edən arasında rabitə qurmaq üçün onun xüsusiyyətlərini iqtibas etməli və zəif də olsa, onunla

öz arasında eyniyyət və uyğunluq yaratmalıdır. Təkvini şəfaətdə təkamül amilləri müqabilində təslim, hazırlıq və uyğunluq onun təkvini təsiretmə şərti olduğu kimi, təşrii şəfaət mərhələsində də belə nəticələr əldə etmək üçün bu cür hazırlıqlar zəruridir. Bu minvalla, həqiqi mənada olan şəfaətin günahkarların halının dəyişməsi və vəziyyətinin islahında təsirli rola malik olması ilə bağlı heç bir şəkk-şübhəyə yer qalmır.

### *5. Araşdırma və iradlara cavab*

Bundan öncə qeyd olunduğu kimi, ümumi kütlənin ürfündəki şəfaətlə İslam məntiqindəki şəfaət arasında həddən artıq fasilə vardır. Fərqlərdən biri şəxsin fikirlərində dəyişiklik etmək əsasında şəfaət olunması, digəri isə şəfaət olunanın özündə müxtəlif dəyişiklik yaratmaqla şəfaət edilməsidir. Aydındır ki, birinci mənadakı şəfaət əvvəlki iradların hamısını özünə cəlb edərək həm çalışmaq və təlaş ruhiyyəsini öldürür, həm günaha təşviqə səbəb olur, həm geridə qalmış cəmiyyətlər və feodalizmin inikası, həm də bir növ şirk və tövhiddən yayınmaqdır.

Əgər biz Allahın elmində dəyişiklik etmək və hansısa bir məchulu onun üçün aydınaşdırmaq və ya aləmdə ondan başqasına arxalana biləcəyimiz və onun Allah qəzəbini söndürə, yaxud onun məhəbbətini cəlb edə biləcəyi digər bir mənbəyin olması etiqadına malik olsaq, yaxud Allahın bəzi bəndələrinin mövqeyinə ehtiyaclı olduğuna və həmin səbəbdən günahkar barəsində onun şəfaətini qəbul edəcəyinə inansaq, yaxud da vasitələrin nüfuzundan çəkinərək onların şəfaətini rədd etməyəcəyinə etiqad bəslək, bunların hamısı bizi Allahın sifətləri ilə əlaqəli tövhidin əslindən uzaqlaşdıraraq şirk

və bütpərəstlik uçurumuna sürükləyər.

Bütün bunlar avam camaatın ürfündə şəfaətin xüsusiyyət və qeyri-düzgün mənasıdır. Amma yuxarıda işarə etdiyimiz düzgün forma, şərait və xüsusiyyətli şəfaət özündə həmin eyib və nöqsanlardan heç birinə yer verməz, günaha da təşviq etməz, əksinə günahın tərk olunması üçün bir vəsilədir. Süstlük və tənbəlliyə dəvət etməz, əksinə ümidvar olmaq ruhiyyəsi icad edərək insanın bütün qüvvələrini keçmişdəki xətaların təlafisinə yönəldər. Həmçinin, onun geridə qalmış cəmiyyətlərlə heç bir əlaqəsi yoxdur və günahkarların islah olunmasında təsirli tərbiyəvi vasitələrdən biridir. Nəinki, şirk deyil, əksinə eynilə tövhid, Allaha diqqət və onun sifətlərindən onun icazə və əmrilə yardım almaqdır.

## Şəfaət və tövhid

Şəfaət məsələsilə bağlı qeyri-düzgün təfsirlər tamamilə zidd olan iki dəstənin bu mövzu ilə müxalifətçiliyinə gətirib çıxarmışdır.

Bir dəstə materialistlərin təfəkkürü kimi şəfaət məsələsini süstləşdirici, çalışmaq və təlaşı aradan aparan amil kimi təsəvvür edir ki, onlara geniş şərhli cavablar verildi.

Digər dəstə ifratçılar və vəhhabi məzhəbli və onların həmfikirləridir ki, şəfaətə etiqadı bir növ şirk və tövhid dinindən uzaqlaşmaq olduğunu güman edirlər. Onların iradları və ona cavabın bəyanı "məzhəblərə maraq" bəhsinin mövzusundan xaric olmasına baxmayaraq, burada bəhsi təkmilləşdirmək üçün ona işarə edirik:

İlk olaraq tövhid zəminəsində tünd əqidəyə malik

və Məhəmməd ibn Əbdülvəhhab ibn Süleymanın rəhbərliyi ilə iki əsr əvvəl yaranan və Hicazı öz təfəkkürlərinin nüfuzu altına salan vəhhabilərin təkcə şiə ilə deyil, əksinə əhli-sünnədən olan əksər müsəlmanlarla da şiddətli şəkildə müxalif olduğuna diqqət yetirmək zəruridir. Öz düşüncələrini İbn Teymiyyədən[1] götürən Məhəmməd ibn Əbdülvəhhab həqiqətdə, İbn Teymiyyənin (vəhhabilik ideoloqu) etiqad və düşüncələrinin icraçısı idi. Hicri 1160-1206-cı illər arasında (vəfat ilidir) Məhəmməd ibn Əbdülvəhhab yerli hakimlərin həmkarlığı ilə Hicazın bədəvi və səhralıqda yaşayan qövmləri arasında "tövhidi müdafiə və şirklə mübarizə" adı ilə təəssübkeşlik yaradaraq öz müxaliflərini geri oturda və siyasi hakimiyyətə birbaşa yolla nüfuz tapa bildi. Bu yolda Hicaz və qeyri-Hicaz müsəlmanlarının çoxlu qanı axıdıldı. Məhəmməd ibn Əbdülvəhhab tərəfdarlarının keçməkeşli hadisələri təkcə Hicaz mühitilə məhdudlaşmırdı, əksinə 1210-cu ildə Məhəmməd ibn Əbdülvəhhabın onun tərəfdarları Hicaz çöllərindən keçərək gözlənilmədən Kərbəlaya tökülüşdülər və camaatın Qədir bayramı münasibətilə tətil etməsi və əksər əhalinin də bu mərasimlə bağlı Nəcəf şəhərinə getməsindən istifadə edərək şəhərin divarlarını uçurub Kərbəlada imam Hüseynin (ə) hərəmi və digər müqəddəs şiə məkanlarını dağıtmağa başlamış, həmçinin, bütün qiymətli qapı, dəyərli hədiyyə, rəsm əsərləri və zinət əşyalarını özlərilə aparmışlar. Əlli nəfərə yaxın şəxsi imamın qəbri kənarında, beş yüz nəfəri hərəmin həyətində və əksəriyyəti də şəhərdə qətlə

*1. Əhməd ibn Əbdülhəlim Dəməşqi 728-ci ildə vəfat etmiş və ondan təqribən, dörd əsr əvvəl yaşamışdır.*

yetirmişlər ki, bəziləri öldürülənlərin sayının təqribən, beş min nəfər olduğunu deyir. Bu hadisələrdə çoxlu evlər qarət olunmuş və hətta yaşlı, uşaq və qadınlar da bu təhlükələrdən amanda qalmamışlar. 1344-cü ildə Mədinə şəhərində hakimiyyət aparatında nüfuza malik fəqihlər Hicazdakı bütün islami şəxsiyyətlərin qəbirlərinin yerlə bir edilməsilə bağlı fətva vermiş və Şəvval ayının səkkizində həmin hökm icra edilərək qəbirlər bir-birinin ardınca dağıdılmış, təkcə Peyğəmbərin (s) qəbrinə toxunulmamışdır ki, buna səbəb bütün müsəlmanların qəzəbinə tuş gəlmək qorxusu olmuşdur. Xülasə, bu məktəbin tərəfdarları Məhəmməd ibn Əbdülvəhhabın özü kimi aqressiv, ipə-sapa yatmaz, sadə camaatın dililə desək, inadkar, təəssübkeş fərdlərdir və daha çox məntiqə istinad etmək yerinə şiddət və zorakılığa əl atır, qəsdən və ya bilməməzlikdən islami məsələləri şəfaət, təvəssül və qəbirlərin ziyarəti kimi məsələlərlə mübarizə aparmaq üçün xülasələşdirərək əməldə camaatı mühüm ictimai məsələlərdən, xüsusilə, ictimai ədalət, istismarçılığın təsirlərini aradan aparmaq, materialist (maddi) məktəblərin qələbə çalmaq ruhiyyəsilə məntiqi mübarizə aparmaqla bağlı məsələlərdən kənar saxlamışlar. Həmin səbəbdən, onların ideoloji mühitində belə məsələlərdən heç bir söz danışılmır və müasir məsələlərə nisbətdə həddən artıq xəbərsiz olduqları halda, həyat sürməkdədirlər.

Beləliklə, onlar şəfaət məsələsi barədə belə deyirlər: "Heç kimin Peyğəmbərdən (s) şəfaət tələb etmək və məsələn, "Ya Məhəmməd (s)! İşfəi li indəllah!" (Ey Məhəmməd (s) mənə Allah yanında şəfaətçi ol) – deməyə haqqı yoxdur, çünki Allah belə buyurmuşdur:

وَ أَنَّ المَساجِدَ لِلَّهِ فَلَا تَدْعُوا مَعَ اللَّهِ أَحَدا

*"Məscidlər Allaha məxsusdur (ibadət niyyəti ilə olan səcdələr, namaz vaxtları, bütün məscidlər və insanın bədəninin səcdə zamanı yerə dəyən yeddi üzvü – hamısı ona məxsusdur). Belə isə, Allahla birgə heç bir kəsi (sitayiş etmək məqsədilə) çağırmayın!""*[1]

Məhəmməd ibn Əbdülvəhhabın "Kəşfuş-şubəhat" risaləsində belə oxuyuruq: "Əgər kimsə "biz bilirik ki, Allah Peyğəmbərə (s) şəfaət məqamı vermişdir və o, Allahın izni və iradəsilə şəfaət edə bilər və bizim Allahın ona verdiyi şeyi istəməyimizin nə mənası var?" – desə, biz ona belə cavab verərik: "Allahın ona şəfaət məqamı verməsi doğrudur, amma bununla belə, ondan şəfaət istəməyimizi qadağan etmiş və demişdir ki, belə isə, Allahla birgə heç bir kəsi (sitayiş etmək məqsədilə) çağırmayın! Bundan əlavə, şəfaət məqamı təkcə Peyğəmbərə (s) məxsus deyil, mələklər və Allah dostlarının da belə məqamı vardır. Görəsən, biz onlardan da şəfaət istəyə bilərikmi? Əgər kimsə belə desə, Allahın saleh bəndələrinə pərəstiş etmişdir."[2]

Adı çəkilən şəxsin "Ərbəu qəvaid" adlı risaləsində müəyyən sözləri var ki, xülasəsi belədir: "Şirkdən amanda qalmaq təkcə dörd qaydanı bilməklə mümkündür:

1. Peyğəmbərin (s) müharibə apardığı kafirlər belə iqrar edirdilər ki, Allah xaliq, raziq və varlıq aləmini idarə edəndir:

قُلْ مَنْ يَرْزُقُكُمْ مِنَ السَّمَآءِ وَ الْأَرْضِ ... وَ مَنْ يُدَبِّرُ الْأَمْرَ فَسَيَقُولُونَ

---

*1. "Cin" surəsi, ayə 18.*

*2. «Kəşfuş-şubəhat» («Bərahinul-cəliyyə» əsəri, səh. 17-dən nəqlən).*

اللَّه

*“De: “Sizə göydən və yerdən kim ruzi verir? Varlıq aləminin bütün işlərini kim idarə edir?” Onlar dərhal “Allah!” deyərlər.”*[1]

Amma bu etiraf və iqrar onları müsəlman zümrəsindən etmədi.

2. Onlar deyirdilər ki, bizim bütlərə diqqət yetirərək onlara ibadət etməyimiz sadəcə Allaha yaxınlıq və şəfaət tələb etməyimiz üçündür:

وَيَقُولُونَ هؤُلَاءِ شُفَعائُنَا عِنْدَ اللَّه

*“Deyirdilər ki, onlar Allah yanında bizə şəfaətçidirlər.”*[2]

3. Peyğəmbər (s) Allahdan başqasına ibadət edən bütün kəsləri – istər mələk, Allahın saleh bəndələri olsun, istərsə də günəş, ay, daş və sair şeylər – pisləyir və onlar arasında hansısa bir fərq qoymurdu.

4. Bizim dövrümüzdəki müşriklər cahiliyyət zamanındakı müşriklərdən daha da pisdirlər, çünki onlar aramlıq halında bütlərə pərəstiş edir və çətinlik zamanı aşağıdakı ayənin tələbinə uyğun olaraq ixlasla Allahı çağırır və ondan başqasını unudurdular:

فَإِذَا رَكِبُواْ فِي الْفُلْكِ دَعَوُاْ اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ ...

*“Gəmiyə minən (və qərq olmaq təhlükəsi ilə üzləşən) zaman dini yalnız Allaha məxsus edib ona dua edərlər. (İbadət etdikləri bütləri unudarlar).”*[3]

Amma bizim zəmanəmizin müşrikləri həm aramlıq,

---

*1. “Yunis” surəsi, ayə 31.*

*2. “Yunis” surəsi, ayə 18.*

*3. «Ənkəbut» surəsi, ayə 65.*

həm də çətinlik zamanı yalnız Allahdan başqasından yardım istəyirlər."[1]

Təəccüblü budur ki, onlar digər müsəlmanları müşrik çıxarmaqda və onların əqidəsilə müxalif olanların – istər sünni, istərsə şiə – qan və malını hala və mübah bilməkdə daha kəskin və cəsarətlidirlər və onların qətlə yetirilməsini – tarixdə bu əməli dəfələrlə nişan verdikləri kimi – qeydsiz-şərtsiz caiz hesab edirlər. Şeyx Süleyman ibn Ləhman "Əl-Hədiyyətus-sunniyyə" kitabında belə yazır: *"Kitab və sünnə mələk və peyğəmbərləri, yaxud İbn Abbas, Əbu Talib və onların timsalındakıları ilahi dərgaha yaxın olmaları səbəbilə özləri və Allah arasında vasitəçi seçərək Allah dərgahında – soltanlar yanında şəfaət etdikləri kimi – onlar üçün şəfaət etməsini istəyən kəslərin kafir və müşrik olmasına şəhadət verir və hətta onlar "əşhədu ənla ilahə illəllah və əşhədu ənnə Muhəmmədən (s) rəsulullah" desələr, namaz qılıb oruc tutsalar da, onların qan və malı halal və mübahdır."*[2]

Bu sözlərdən qəzəb, inadkalıq və tərsiliyin yağması heç kəsə gizli deyil.

## Şəfaət məsələsində vəhhabilərin məntiqinin araşdırılması

Bu məsləkin təsisçisinin (Məhəmməd ibn Əbdülvəhhab) sözlərindən belə bir nəticə çıxarmaq olar ki, onlar şəfaətə tərəfdar olan müsəlmanları müşrik çıxarmaq üçün həqiqətdə, iki mətləbə daha çox istinad edirlər:

---

*1. «Ərbəu qəvaid» risaləsi, səh. 24-27 («Kəşful-irtiyab» əsəri səh. 163-dən nəqlən).*

*2. «Əl-Hədiyyətus-sunniyyə», səh. 65 («Əl-Bərahinul-cəliyyə», səh. 83-ə istinadən).*

1. Peyğəmbər və saleh bəndələrin şəfaətinə tərəfdar olan müsəlmanların cahiliyyət zamanındakı müşriklərlə müqayisəsi.

2. Quranın Allahdan başqasına ibadət və pərəstiş etməni aşkar şəkildə qadağan etməsi:

فَلَا تَدْعُواْ مَعَ اللَّهِ أَحَدا

*“Allahla birgə digər kəsləri çağırmayın!”*[1]

Həmçinin, onlar şəfaətin bir növ ibadət hesab olunmasını düşünürlər.

Birinci məsələ ilə bağlı deməliyik ki, onlar bu müqayisədə böyük bir səhvə düçar olmuşlar, çünki:

*Birincisi,* Quran aşkarcasına peyğəmbər, mələk və xeyirxah insanların bir qrupunun şəfaət məqamına malik olmasını isbat etmişdir. Bu barədə ötən bəhlərdə qeyd etmişik. Amma bu şəfaət Allahın icazəsi ilə şərtlənir. Allahın onlara belə bir məqam verdiyini (Allahın icazəsilə şərtlənsə də), lakin bizim onlardan şəfaət tələb etməyimizə qadağa qoyduğunu demək həddən artıq gülməli və qeyri-mətiqlidir. Halbuki, Allah Quranda Yusifin (ə) qardaşlarının atalarına, həmçinin, Peyğəmbər (s) səhabələrinin Peyğəmbərə müraciəti və ondan onlar üçün bağışlanmaq diləməsini düzgün hesab etmişdir. Görəsən, bu, şəfaətin tələb olunması üçün aydın bir nümunə deyilmi? Peyğəmbərdən (s) “işfə ləna indəllah” cümləsilə şəfaətin istənilməsi eynilə Yusifin (ə) qardaşlarınının belə deməsidir:

قَالُواْ ياأَبَانَا اسْتَغْفِرْ لَنَا ذُنُوبَنَآ إِنَّا كُنَّا خاطِئِين

*“(Yaqubun oğlanları) dedilər: “Ey ata, (Allahdan) bizim*

---

*1. “Cin” surəsi, ayə 18.*

*günahlarımızın bağışlanmasını istə ki, həqiqətən, biz səhv etmişik.””*[1]

Allahın icazə verdiyi şeyi necə şirk hesab edir və ona etiqadlı olanları da müşrik adlandıraraq qan və malını halal sayırlar?! Əgər bu iş şirk idisə, onda, nə üçün həzrət Yaqub (ə) oğlanlarını ondan çəkindirmədi?!

*İkincisi,* Allahın icazəsilə olan şəfaətə etiqad bəsləyən müsəlmanlarla bütpərəstlər arasında heç bir oxşarlıq yoxdur. Çünki onlar bütlər və ya saleh bəndələrə pərəstiş edərək onları şəfaətçi hesab edirdilər, halbuki, şəfaətə etiqadlı müsəlmanlar şəfaətin ibadət olmasını düşünmür, əksinə onlar Allah dərgahında onlar üçün şəfaət edilməsini istəyirlər. Həmçinin, söylədiyimiz kimi, şəfaət tələb etmənin ibadət məsələsilə heç bir əlaqəsi yoxdur. Bütpərəstlər tək olan Allaha ibadət etməkdən qorxur və deyirdilər:

أَجَعَلَ الْآلِهَةَ إِلهاً واحِداً إِنَّ هَذا لَشَيْءٌ عُجَاب

*“O, məbudların hamısını bir məbud edib? Doğrudan da, bu, çox təəccüblü bir şeydir!”*[2]

Bütpərəstlər ibadət baxımından bütlərin Allahla bir sırada olduğunu düşünürdülər:

تَاللَّهِ إِنْ كُنَّا لَفِى ضَلالٍ مُّبِينٍ* إِذْ نُسَوِّيكُم بِرَبِّ الْعالَمِين

*“Allaha and olsun ki, biz açıq-aşkar bir zəlalətdə idik, çünki sizi aləmlərin Rəbbi ilə bir sırada tuturduq.”*[3]

Tarixin də aşkar şəkildə şəhadət verdiyi kimi, bütpərəstlər öz talelərində bütlərin təsirli və onların təsir

1. *“Yusif” surəsi, ayə 97.*

2. *“Sad” surəsi, ayə 5.*

3. *“Şuəra” surəsi, ayə 97-98.*

mənşəyi olmasına etiqad bəsləyirdilər. Halbuki, şəfaətə etiqadlı müsəlmanlar bütün təsirləri Allahdan hesab edir və heç bir varlığın təsiretmədə müstəqilliyə malik olmasına inanmırlar. Nəticədə, bu ikisinin bir-birilə müqayisəsi zalımcasına və məntiqdən uzaqdır.

İkinci məsələ barəsində isə ibadətin nə olmasını bilmək lazımdır. İbadətin istənilən formadakı təvazökarlıq və ehtiram kimi təfsir edilməsindən belə nəticə çıxır ki, heç kəs heç kəsə nisbətdə təvazökarlıq və ehtiram etməməlidir və bu nəticənin kiminsə tərəfindən qəbul olunması inanılmazdır. Həmçinin, ibadətin istənilən şəkildəki tələb və xahiş kimi təfsir edilməsi kimdənsə xahiş və nəyi isə tələb etməyin şirk və bütpərəstlik olması mənasın verir. Bu da əql və dinin tələblərinə ziddir.

İbadəti bir insanın digərinə tabeçilik və itaəti kimi təfsir etmək olmaz, çünki təşkilat və idarələrdə rəisə tabe olmaq həyatın bir hissəsini təşkil edir, eynilə peyğəmbər və ilahi rəhbərlərə itaətin hər bir dindarın vəzifəsi olduğu kimi.

Deməli, ibadətin bunlardan fərqli bir məfhumu vardır və o, abidin (ibadət edənin) qeydsiz-şərtsiz olaraq təslim və bağlılığının məbudu qarşısındakı təvazökarlıq və təziminin ən son həddidir. Bu söz "əbd" ifadəsilə müştərək kökə malikdir və ibadət edənin həqiqətinin öz məbudu müqabilindəki ibadətilə məhz təslim olmaq, taleyinin onun ixtiyarında olduğunu bilmək olduğunu aydınlaşdırır. Bu, ürf və şəriətdə ibadətdən başa düşülən mənadır. Görəsən, şəfaətçilərdən şəfaətin tələb edilməsi nəticəsində ibadət məfhumundan belə təsir və məsələlər anlaşılırmı?

Şübhəsiz, dua və Allahdan başqasını çağırmağın

qadağan olduğunu bildirən ayələrin məfhumu kimisə adı ilə məsələn, ya Hüseyn, ya Məhəmməd kimi çağırmağın şirk və ya qadağan olmasını bildirmir, həmçinin, kiminsə qüdrətindən istifadə etmək və ondan yardımın tələb edilməsinin şirk və günah olmamasında şübhə etmək lazım deyil, çünki yardımlaşma ictimai həyat və yaşamın sütunlarından biridir və bütün peyğəmbər və imamlar da belə etmiş, hətta vəhhabilər də onu qadağan hesab etməmişlər.

İrad tutula biləcək məsələ İbn Teymiyyənin "Qəbirlərin ziyarəti" adlı risaləsində etiraz etdikləridir:

"Bəndələrin istəyini Allahın istəyi kimi yerinə yetirmək olmaz. Onu məxluqdan istəyən kəslər müşrik və mələklər, Məsih (ə) və onun anasına pərəstiş edənlərin sırasındadırlar. Bu, eynilə kiminsə digərinə "məni bağışla", yaxud "düşmən müqabilində mənə yardım et", yaxud da "xəstəmə şəfa ver" deməsinə bənzəyir. Əgər həmin məsələlər məxluqun (insanın) qüdrətində olsa, ondan həmin şeyi tələb etmək bəzən caizdir, bəzən də haram... Peyğəmbər (s) Abbasa buyurdu: "Bir şey istədiyin zaman Allahdan istə və yardım istədiyin zaman da Allahdan yardım tələb et." O həzrət bir qrup səhabəsinə camaatdan bir şey, hətta əllərindən qamçı düşərsə, "qamçımı götürüb mənə ver" deməklə də istəməməsini tövsiyə etmişdi. Bu, qadağan olunmuş növdəndir, amma dua caiz olan tələbdir."[1]

Nəticədə, əgər kimsə Allaha aid olan işi ondan qeyrisidən tələb etsə və onu həmin işi yerinə yetirməkdə müstəqil hesab etsə, müşrikdir. Amma Allahın ona verdiyi və onun özünə aid olan bir işdə şəfaət istəsə,

1. *«Ziyarətul-qubur», səh. 152 («Kəşful-irtiyab», səh. 267-dən nəqlən).*

onda şirkdən heç bir əlamət yoxdur, əksinə eynilə iman və tövhiddir.

فَلَا تَدْعُوا مَعَ اللهِ أَحَدًا – (Allahla birlikdə digər kimsələri çağırma) ayəsindəki مَعَ (birlikdə) sözü də Allahla bir sırada kiminsə müstəqil təsir mənşəyi olmadığına şəhadət verir. Bu bəhsin üzərindəki təkid və israrda məqsədimiz "şəfaət" məfhumunun təhrif olunmasının təkcə dini xırdaçıların əlinə bəhanə verməsini deyil, əksinə iki əzəmətli firqə arasında təfriqəyə səbəb olmasını bildirməkdir.

## *"Məzhəblərə maraq"la bağlı ilkin bəhslərin xülasələşdirilməsi*

Ötən bəhslərin məcmusundan belə nəticə çıxarırıq ki, bəzi sosioloq və dialektik materializm məktəbi tərəfdarlarının düşnülməmiş şəkildə bəyan etdiyi məsələlərin ziddinə olaraq din xurafata aludə olmamaq şərtilə özünün ən son formasında hərəkət və fəaliyyət amilidir və belə bir dinin süstləşdirici olması ilə bağlı irəli sürülən və ya sürüləcək bütün sənəd və materiallar dəyərsizdir və əksinə, əksər hallarda məfhuma malik, işə yarayan və əks formada nişan verilmişdir.

Həmçinin, bilirik ki, sosioloqların bu dəstəsi bir qayda olaraq din barədə ixtisasa malik olmamış və əksər hallarda onların dini məlumatları məhdud şəkildə eşitdikləri ümumi və ya din tərəfdarları arasında müşahidə etdikləri bəzi zahiri məsələlərə əsaslanır. Yəqin ki, bu miqdardakı mütaliələrdən düzgün bir nəticənin çıxmayacağına təəccüblənməkdə heç bir əsasın olmadığını təsdiq edərsiniz.

Biz heç vaxt istismarçı amillərin təsirilə yaranan və

istismarçılığın izləri onlarda aşkar müşahidə edilən dinlərin olmasını inkar etmir və etməyəcəyik. Belə dinlərin süstləşdirici təlimlərə malik olması təbiidir. Amma biz əql və məntiqin himayə etdiyi dinlər barədə danışırıq. Bəhsin sonunda belə dinlərin müsbət və islahatçı təsirlərindən bir qisminə işarə etməyimiz lazım və zəruridir ki, həmin məzhəblərin ictimai fəaliyyətə malik olmasının bir iddia olmadığı bilinsin.

### *1. Din elmi fəaliyyət amilidir*

Dini dünya görüşü öz tərəfdarlarına təlim verir ki, varlıq aləminin hesablı şəkildə elə bir nəzmi vardır ki, əgər ona bir şey azaldılıb artırılsa, onda, nöqsan və çatışmamazlıqlar meydana gələr. Həqiqətdə, ümumi nəzm qanunundan kənar və hesablanmamış təsadüflər kimi bir şey, həmçinin, nızamsız məxluqların kainat sistemində heç bir yeri yoxdur. Belə təlimlərdə deyilir: "Aləmin yaradıcısı sonsuz elm və qüdrətə malikdir və varlıq aləmi ondan qaynaqlanaraq onunla sirab olmuşdur." Belə dünya görüşünə sahib olan bir şəxs hər bir varlıqda həmin qüdrət və elmi müşahidə etmək və kainata diqqət yetirməyi özünə borc bilər, varlığın sirrini öyrənməyə çalışar və bu zəminədə heç bir sərhədd tanımaz. Baxmayaraq ki, bizim dünya məhdud, amma bu sistem naməhdud bir elmin nəticəsidir. Bu minvalla, elm və biliyə olan eşq şöləsini özündə sönsuz mərhələyə qədər dirçəldər. Halbuki, bir materialist aləmdəki hadisələri planlaşdırılmış şəkildə, sirli və nizamlı hesab etməyi özünə vacib bilmir, çünki hər şeyin elm və biliksiz bir mənbədən qaynaqlandığını düşünür. Müasir alimlərin ən məşhurlarından biri olan Enşteyn deyir: "Dünya mütəfəkkirləri arasında dinə imanı

olmayan birisini tapmaq mümkün deyil. Elə bir iman ki, möhkəm olan nizam külli bir əqldən qaynaqlanmışdır. Həmin iman yorulmaq bilməyən elmi təlaşlarda onlara (alimlərə) qüvvət verərək onların dünyandakı fenomenlər arasındakı münəzzəm rabitə və qanunlarını kəşf etmək barədə daim düşündürür."[1]

Bu dünya görüşünün elmi fəaliyyətlərdəki təsiri onun müqabilində duran istismarçı və xurafi dinlərin təsirinin inkar olunmazlığı kimi, inkar edilməzdir.

### *2. Din insan hissiyyatlarının qidalanma amilidir*

Materialist ruhiyyənin qələbəsi və müasir əsrin mədəni insanlarının daş qəlbliliyindən törənən şeylərlə yanaşı cinayətlərin statistkasının artması, öz mənafeyini qorumaq üçün heç bir cinayətdən çəkinməyən insanlar, hətta dünyanın sivil mütəfəkkir və alimlərinin qüdrətli və böyük dünya dövlətlərinin xoşagəlməz fəaliyyətlərində iştirak etməsini müşahidə etməyimiz – bunlar insanlıq hisslərinin aradan qalxması və insan cəmiyyətini bürüməsinin göstəricisidir. Biz dini göstərişlərdə, hətta müharibə məsələlərində elə mətləblərlə qarşılaşırıq ki, onların heç birinə maddi müqavilələr şəklini almış bugünkü dünyada riayət olunmur. Materializmdə insani hisslər, məzlumu himayə, fədakarlıq və bu kimi məsələlərin heç bir mənası yoxdur və fərd və millətlərin maddi mənafeyinə uyğun olmayan şeylər fənaya məhkumdur.

Bu dəyərləri dirçəldən və silsiləvi mənəvi nəticələrə əhəmiyyət verən "din"dir ki, öz tərəfdarlarını belə insani

*1. «Mənim gördüyüm dünya» əsərindən qeyd olunan sözlərin xülasəsi.*

məsələlərin reallaşdırılmasına dəvət edir. Materialist əqidəli bir fərd bomba istehsalı ilə məşğul olduğu zavodun verdiyi külli miqdardakı məbləğdən insani məsələlərə riayət edərək imtina etməyi və az maaşlı dərman istehsal edən karxanada çalışmağı özünə borc bilmir. Amma belə fədakarlıq dinə malik bir fərd üçün mümkündür. Bəzi alimlərin dediyi kimi, əgər Allah bəşər dünyasından götürülsə, fəsad və barbarlıq ona elə bir kölgə salacaq ki, hətta onun təsəvvürü belə dəhşətlidir. Həmin fəsadın əlamət və nişanələrini hazırda da öz gözlərimizlə müşahidə edə bilərik.

### *3. Din çətinliklər müqabilində səbatlı olmaq amilidir*

Bəşər həyatı heç vaxt çətinliklərdən kənar olmamışdır və həqiqətdə, həyat müxtəlif məsələlərlə mübarizə aparmaqdan ibarətdir. Şübhəsiz, belə mübarizədə cismi qüvvələrdən əlavə, mənəvi qüvvələrə də ehtiyac vardır ki, ona istinad etməklə insan bütün qüvvələrini çətinliklərin əleyhinə səfərbər edə bilsin və bir və ya bir neçə məğlubiyyət və nakamlıq müqabilində mübarizə səhnəsindən xaric olmasın.

Din Allahın sonsuz qüdrətinə diqqət yetirmək baxımından, insan üçün həyatın çətinlikləri müqabilində mənəvi və psixoloji dayaq nöqtəsi ola, insana ümid və qüdrət verə, şəkk-şübhə, ümidsizlik və çaşbaşlığı ondan kənar edə bilər.

### *4. Din vəzifəni tanımaq ruhiyyəsinin dirçəldilməsi amilidir*

Maddi dünyanın qanunlarında vəzifənin yerinə yetirilməsi üçün nəzərdə tutulan tənzimləmələr və

qanunların icarasına nəzarət edən araşdırmalar bütün fərdləri hər bir şəraitdə vəzifəyə əməl etmək üçün vadar etməkdə həddən artıq məhduddur.

Bilirik ki, birincisi, hər fərd üçün nəzarətçinin təyin olması intizarında olmaq olmaz. İkincisi, belə bir işin praktiki olaraq mümkünlüyünü fərz etsək, nəzarətçilərin öz vəzifələrindən yayınması, yaxud da xilafkar və sui-istifadə edən fərdlərlə əlbir olması mümkündür. Həmin həmkarlıq nəzərə alınmaqla onlar öz əməllərini rahatlıqla davam etdirə bilərlər. Daimi və ümumi bir kontrol və nəzarətin yaradılması üçün insanların batini etiqadı, vicdan və əxlaqi dəyərlərin dirçəldilməsindən yardım almaqdan və həmin hissləri gücləndirməkdən və onların avtomatik olaraq kontrol edilməsindən başqa, çarə yoxdur. Dini təlimlər Allah tərəfindən daimi nəzarətin və bütün insani məhkəmələrdən üstün bir məhkəmənin olması etiqadının dirçəldilməsi üçün bu zəmində əsaslı rolu oynaya və insanları avtomatik olaraq vəzifələrini yerinə yetirməyə vadar edə bilər. Görəsən, belə müsbət və fəaliyyətəsəbəb təsirlərə diqqət yetirməklə istismarçı olmağı həqiqi və məntiqə əsaslanan bir dinə nisbət vermək olarmı?!

# 2

# “İSTİSMARAZİD” FƏRZİYYƏ



Söhbətimiz bəşərin ən köklü və ümumi ictimai yeniliyi olan dinin yaranmasında materialist sosioloqların materialist fərziyyə irəli sürməyə çalışması ilə bağlı idi. Diqqət ediləsi məsələ budur ki, onlar mənbəni tapmaqla əlaqədar müvafiqliyə malik deyillər. Ötən bəhslərdə "süstləşdirici və istismarçı fərziyyə" adlı ilkin fərziyyə və onun zəif cəhətləri araşdırıldı və müəyyən edildi ki, əsil dinlər nə burjuaziyanın əlində alətə çevrilmiş, nə də hədəfləri istismar olmuşdur, əksinə onlar bu yolun əks istiqamətində hərəkət etmişdir.

Hazırda tamamilə həmin fərziyyənin müqabilində dayanan "dinin istismarazidd fərziyyə olması"nı araşdırırıq:

Doktor Arani kimi bəzi kommunist və marksistlərin yazılarında belə oxuyuruq: "Din mütəşəkkil cəmiyyət və təmərküzləşmə yaratmaq üçün ən yaxşı üsullardan biri olmuş və bu səbəbdən, iqtisadi və ticari məsələlər kiçik tayfa və qəbilələri, hətta ölkələri bir-birilə əlaqələndirən qüdrətli bir mərkəzin yaranmasını və yerli hakimlərin ortadan qaldırılmasını tələb etdikdə, belə dinlər meydana çıxaraq zahir olurdu. Məsihilik və İslamın hər ikisi bu qəbildən olan dinlərdir."[1] Sonra o, məsihiliklə bağlı bildirir ki, məsihilik tabe bir qövmün arasında

*1. «İrfan və maddi üslub" nəşriyyatı.*

meydana gəlmiş və məsihilik allahını – hakimiyyəti mərkəzləşdirmək yolu ilə – qədim mədəni (sivil) dünyanın ümumi allahı edə bildi. Həmçinin, o, islami tövhid dininin Ərəbistanda zühur etməsini mühitin ticari vəziyyətinin mərkəz və vəhdətə ehtiyaclılığı ilə əlaqələndirir.[1]

Beləliklə, dinə süstləşdiriciliyi nisbət verən əksər kommunistlərin müqabilində elə fərdlər tapılır ki, dinin yaranması amilini millətlərin tərəqqi etmək ehtiyacı kimi tanıtdırır.

Amma hər iki fərziyyə iqtisadi formada olan maddi maraqdan başqa, digər bir şeyin dinin yaranmasında təsirli olmadığı məsələsində müştərəkdir.

## *Bəhs və araşdırma:*

Burada iki məsələyə diqqət yetirmək lazımdır:

1. Şübhəsiz, istismarazidd olan həqiqi dinlərdə əqidə formasında qanun, hökm, əxlaq və ənənə vardır. Hər bir peyğəmbərin zalımlar və öz əsrinin fironları müqabilindəki qiyamı kimi. Məsələn:

A) Həzrət Nuhun (ə) cəmiyyətin məhrum təbəqələrinə tərəfdarlıq və öz zəmanəsinin feodallarına qarşı mübarizəsi:

... مَا نَراكَ إِلَّا بَشَراً مِثلَنَا وَ مَا نَراكَ اتَّبَعَكَ إِلَّا الَّذينَ هُمْ أَرَاذِلُنَا

*“Biz səni yalnız özümüz kimi bir bəşər görürük (sən nə mələksən, nə də maddi baxımdan və məqam cəhətdən bir üstünlük sahibi). Sənə bizim nanəciblərimizdən başqa, (onlar da) fikirləşmədən və elə ilk baxışda sənə tabe olan bir kəs*

1. *«İrfan və maddi üslub” nəşriyyatı.*

*görmürük."*[1]

B) Həzrət İbrahimin (ə) eqoist və istismarçı Nəmruda qarşı mübarizəsi:

الَمْ تَرَ إِلَى الَّذِى حَاجَّ إِبْراهِيمَ فِى رَبِّهِ أَنْ آتاهُ اللَّهُ المُلْك

*"Allahın verdiyi hökmdarlıq üzündən öyünərək İbrahimlə Rəbbi barəsində höcətləşən kəsi (Nəmrudu, qəlb gözü ilə) görmədinmi?"*[2]

C) Həzrət Musanın (ə) Firon və onun irqi ayrı-seçkiliyi ilə mübarizəsi:

إِنَّ فِرْعَوْنَ عَلَا فِى الْأَرْضِ وَجَعَلَ أَهْلَهَا شِيَعاً يَسْتَضْعِفُ طَآئِفَةً مِنْهُم

*"Həqiqətən, Firon (Misirin padşahı) o torpaqda baş qaldırdı və hakimiyyət tapdı və oranın camaatını müxtəlif dəstələrə parçaladı (hər dəstəyə öz dövlətinin işlərinin bir hissəsini tapşırdı və hər bir dəstəni o birisi ilə düşmən etdi)."*[3]

وَ تِلْكَ نِعْمَةٌ تَمُنُّهَا عَلَىَّ أَنْ عَبَّدْتَّ بَنِى إِسرائيل

*"Məgər, İsrail övladlarını kölə etməyin bir nemətdirmi ki, onu mənə minnət qoyursan?! (Halbuki, mən də onlardan biri kimi sənin əsarətində idim)."*[4]

D) İslam Peyğəmbərinin (s) Məkkənin və daha sonra Hicazın varlı istismarçıları ilə həmçinin, qeysər və kəsralarla mübarizəsi və məhrum təbəqələrin şiddətli etirazı:

وَ اصْبِرْ نَفْسَكَ مَعَ الَّذِينَ يَدْعُونَ رَبَّهُمْ بِالْغَداةِ وَ العَشِىِّ ...

---

*1. "Hud" surəsi, ayə 27.*

*2. "Bəqərə" surəsi, ayə 258.*

*3. "Qəsəs" surəsi, ayə 4.*

*4. "Şuəra" surəsi, ayə 22.*

*"Həmişə öz Rəbbinin razılığını diləyən halda sübh və axşamçağı onu çağıranlarla birlikdə ol."*[1]

E) Quranın müşriklərin vəsvəsəsi müqabilində təslim olmamaqla bağlı xəbərdarlığı:

وَ لَوْلَا أَنْ ثَبَّتْنَاكَ لَقَدْ كِدْتَّ تَرْكَنُ إِلَيْهِمْ شَيْئاً قَلِيلا

*"Əgər səni (məsumluq məqamı və mələklərin mühafizəsi ilə) möhkəm və sabitqədəm etməsəydik, həqiqətən, az qalmışdı ki, onlara tərəf azacıq meyil edəsən."*[2]

F) Elm və biliyin bütün təbəqələrə aid olması:

طَلَبُ العِلْمِ فَرِيْضَةٌ عَلَى كلِّ مُسْلِم

*"Elm və bilik əldə etmək bütün müsəlmanlara vacibdir."*

أَلَا إِنَّ اللّهَ يُحِبُّ بُغاةَ العِلْم

*"Bilin ki, həqiqətən, Allah elm ardınca olanları sevir."*

G) Cihada dəvət və onu islami göstərişlərdən hesab etmək:

وَ جَاهِدُواْ فِي اللَّهِ حَقَّ جِهَادِه

*"Allah yolunda ona layiq tərzdə cihad edin."*[3]

H) "Qüvvə" sözünün geniş mənasına uyğun olaraq hər cür qüvvə toplamaq:

وَ أَعِدُّواْ لَهُمْ مَّا اسْتَطَعْتُمْ مِنْ قُوَّة

*"Vasitəsiylə Allahın və öz düşməninizi və onlardan qeyri – sizin tanımadığınız və Allahın tanıdığı – digər düşmənləri*

*1. "Kəhf" surəsi, ayə 28.*
*2. "İsra" surəsi, ayə 74.*
*3. "Həcc" surəsi, ayə 78.*

*qorxutmaq üçün onların müqabilində bacardığınız qədər qüvvə (insan qüvvəsi, müasir silahlar və döyüş xərcləri) və bağlanmış və bəslənmiş atlar (münasib minik vasitələri) tədarük görün."*[1]

Bunun kimi məsələlər birlikdə və ya ayrılıqda bu fərziyyə tərəfdarları üçün dəlil ola bilər.

2. Mühüm məsələlərdən biri də təsirlə marağı bir-birindən ayırmaqdır. Həmişə hansısa yeniliyin nişanələri onun mövcudluğuna, xüsusən də, onun hansısa bir hissə və faydası üzərində dayandıqda, sübut ola bilməz. Məsələn, insan daima maraq və araşdırma səbəbilə nəyi isə bilmək (öyrənmək) istəyir və bu maraq onu məlumatlara doğru sövq edir. Həmin məlumatlar onun həyatında bir sıra təsirlər qoysa da, bəzən onların heç biri həmin şəxsə məlum olmamış və ya məlum olsa da, təhrikedici olmamışdır. Yaxud, bəziləri təkcə cinsi ləzzətlər xatirinə evlənir və bu işdə, nəinki, insan nəslinin qorunması məsələsi yoxdur, əksinə onlara nəsib olan övladları da "istənilməyən övladlar" kimi saxlayırlar. Məsələn, Səlib yürüşlərində səlibçilər heç vaxt müsəlmanların elm və mədəniyyətindən istifadə və iqtibas etmək fikrində olmamış, əksinə başqa maraqlar onları bu döyüşlərə çəkib gətirmişdi. Amma sonunda onların əldə etdiyi nəticə və təsir həmin elmi və mədəni iqtibas oldu. Nəticədə, bu fərziyyə tərəfdarlarının iddia edə biləcəyi məsələ həqiqi dinin tövhid və vəhdətə dəvət etmək üçün müxtəlif irq və coğrafi məntəqələrdən ibarət olan qüvvələrin təmərküzləşməsi və feodallarla mübarizədə vahid insan cəmiyyətinin təşkilində mühüm təsirə malik olmasıdır. Amma bu nəticənin dinlərə

*1. "Ənfal" surəsi, ayə 60.*

maraqla bağlı əsil sübut olması kimi əlimizdə heç bir dəlil yoxdur. Əksinə, din və məzhəblərə maraqla əlaqəli fərziyyə və nəzəriyyələrin sonunda qeyd edəcəyimiz kimi, dinin fitri və insanda yerləşdirilən və varlıq aləmi və bu aləmin məxluqatının hissələri və onların struktur keyfiyyətində aydın məntiqli dəlili olan bir kökə malikdir. Bu xüsusi bir sistemdir ki, insanı təbiətdən üstün olan bir külli əqlin qəbulluğuna vadar edir, çünki onu qəbul etmədən mövcud sistemin izahı mümkün deyil. Həmçinin, maddi və materialist sosioloqlar öz məktəblərinin həqiqi prinsiplərini tərk etməyə hazır olmadan bu real marağı tərk etmiş və onu maddi baxımdan izah etməkdə israr edirlər.

Hər halda, əsil dinlərin istismarazidd təsirə malik olması inkarolunmazdır və Əlcəzair, digər ölkələr, Afrika qitəsi və hətta Asiyadakı müasir hərəkat və azadlıq bəxş edən mübarizə tarixi də buna şahiddir. Amma bu, maraq deyil, bir təsirdir və həmin fərziyyə tərəfdarlarının səhvi də bu hissədədir.

# 3

# "ƏXLAQİ VƏ İCTİMAİ EHTİYACLAR" FƏRZİYYƏSİ



Dini əqidələrin yaranmasına maraqla bağlı bəyan olunan üçüncü fərziyyə bəşərin fərdi və ictimai yaşayışda psixoloji, əxlaqi və ictimai ehtiyaclarının olmasıdır ki, əzəmətli, qadir, qüvvətli, mehriban, əzəli və əbədi bir mənbəyə etiqad bəsləmədən həmin ehtiyaclar kamil şəkildə aradan qaldırılmır. Həmin məsələlər insanı belə bir mətləbi qəbul etməyə vadar etmişdir.

Enşteyn "Din və elmlər" adlı bəhsində deyir: "İdeoloji fəaliyyət və onların nəticələrini əldə etmək istəyən kəslər bilməlidirlər ki, bütün bəşər irqlərinin təlaş və təfəkkürü ehtiyacların təmini və həyatın çətinliklərinin aradan qaldırılması üçün olmuşdur. Eşq və arzu bəşər təlaşının iki təəccüblü mühərriki və onun mübarizə və yaranışındakı əsil hədəfdir. Daha da irəli gedərək bəşər həyatı üçün müxtəlif məqsədləri xatırlatmaq olar, lakin onlar bu iki haldan xaric olmayacaqdır. Onda, bəşəri sözün geniş mənasında, din və dini hissiyyatlara doğru yönəldən ehtiyac və hisslər hansılardır? Azacıq diqqət yetirməklə məlum olacaq ki, dinə (onun yaranmasına) səbəb olan həyəcan və hisslər həddən artıq müxtəlif və fərqlidir..." Daha sonra qorxu amili və onun qədim dinlərdən bir neçəsinin yaranmasındakı təsirinə işarə edərək sözlərinə belə davam edir: "Bəşərin ictimai xüsusiyyəti də dinin yaranma səbəblərindən biridir.

İnsan görür ki, ata, ana, yaxın, qohum və rəhbərlər ölür və onun yan-yörəsini boş qoyur. Deməli, hidayət olmaq, sevilmək, dost olmaq, kiməsə ümid etmək arzusu onda Allaha etiqadlı olmağı qəbul etmək zəminəsi yaradır. Həmin Allah bağışlayan və mehribandır. Qoruyur, kainatı olduğu kimi saxlayır, öz məxluqatına mükafat və cəza verir və elə bir Allahdır ki, düşüncəsinin genişliyinə əsasən, ona inananları sevir. Həyat, irq və qəbiləni mühafizə edir, həyata keçməmiş arzularla bağlı təsəlli verən və qane edəndir və elə bir Allahdır ki, vəfat edənlərin ruhunu fəsaddan amanda saxlayır. Bu, Allaha əxlaqi və ya ictimai etiqadın zəminəsidir."[1]

Bu iki amili (qorxu, ictimai və ya əxlaqi ehtiyaclar) xatırlatdıqdan sonra, nəzərini bildirərək deyir ki, ibtidai dinlərin əksəriyyəti birinci amilə istinad etdiyi halda, yəhudi və məsihilik dini, hətta Şərqdəki din də ikinci amilə istinad etmişdir və o, bu mövzunu dinlərin təkamülündə bir addım kimi tanıtdırır.

Bununla belə, Enşteyn həmin maraqları xatırlatdıqdan sonra öz əqidəsini izhar edərək bildirir ki, bu təxəyyüllərdən üstün olan mənada bir Allah vardır ki, onun çox az mənasını dərk etmişlər. Daha sonra o, özü və digər böyük alimlərin etiqadlarını məzhəblə bağlı etiqad kimi nəzərə çarpdıraraq onu bir növ "dini yaradan hissiyyat və ya vücud" adlandırmışdır. Digər yerdə isə onu "kainatın dəqiq və təəccüblü sisteminin heyrətamiz şəkili" adı ilə xatırladaraq onu alimlərin həyatındakı araşdırma yolunun çırağı hesab edir.[2]

Bu minvalla, Allahın adını çəkmədən yaradılış

1. *"Mənim gördüyüm dünya", səh. 53.*

2. *«Mənim gördüyüm dünya», səh. 56.*

sisteminin heyrətamiz və təəccüblü olmasını etiraf edərək ona imanı həqiqi dini iman və araşdırmaların mühərriki hesab etmişdir.[1]

Amma o, belə heyrətamiz və təəccüblü bir sistemin təsadüf nəticəsində yaranıb-yaranmaması, yaxud da özünə onun amilini araşdırmağa icazə verməməsi ilə bağlı mətləbi aydınlaşdırmamışdır. Həmçinin, onu külli bir əqlin nəticə hesab edib-etmədiyini də bildirməmişdir. Onun sözlərindən hər üç ehtimal əldə oluna bilər, amma onun kimi elmli bir şəxsdən üçüncü ehtimal gözlənilir. Hər halda, bizim onun şəxsi əqidəsilə işimiz yoxdur və bizim diqqətimiz təkcə xüsusi bir məsələ üzərindədir ki, o, dinə marağın əxlaq və ictimai amillərin təsiri altında olduğunu vurğulamışdır. Başqa sözlə, bu fərziyyəni belə izah edə bilərik:

1. İnsanın həyatda istər psixoloji və cismani olsun, istərsə də fərdi və ictimai, elə problemləri vardır ki, bəzən adi üsulla həll olunası deyil. Həmin ağrı-acıların sakitləşdirilməsi üçün bir fövqəltəbii qüdrətin olmasına etiqadın təsiri inkaredilməzdir.

2. İnsanın həyatda bir fərdin təklikdə onları həll edə bilmədiyi çətinliklər müqabilində təbiət aləmi və bəşər cəmiyyətində əli çata biləcək istinad yerindən daha qüdrətli bir dayağa ehtiyacı vardır və belə arxa və dayağa inam onun psixoloji ehtiyacından irəli gəlir.

3. İnsan cisim və ruh baxımından təklikdən qaçır, halbuki, həyatın davamı onu tənhalığa sövq edir, qohum və dostları bir-birinin ardınca dünyadan köçür və onların boşluğu insanı şiddətli şəkildə təzyiqə məruz qoyur. Hami və mehriban olan əzəli və əbədi bir mənbəyə iman

---

1. *"Mənim gördüyüm dünya", səh. 61.*

müəyyən həddə onların boşluğunu doldura bilər.

4. Əksər insanların həyatında istər-istəməz müsibət, çətinlik və nakamlıqlar mövcuddur. Təlafi edəcək bir mənbə və bütün insanların toplanma yeri olan ölümdən sonrakı əbədi həyata iman bu hadisələrdən yaranan çətinlik və sıxıntıların ən yaxşı təskinləşdiricisidir.

5. Günah və yanlış əməllərə mürtəkib olduqda yaranan vicdan narahatlığını bağışlayan və mehriban bir mənbəyə imanla sakitləşdirmək olar. Bu narahatçılığın varlığı onun fövqəltəbii bir varlığa inamı vasitəsilə aradan qaldırmağa olan ehtiyacı kimi danılmazdır.

Bu beş xüsusiyyətin məcmusu və onun kimi psixoloji, ictimai və əxlaqi cəhətlər insanda ehtiyaclar yaradır ki, onlardan yaranan problemlərin aradan qaldırılması insanı dini bir inama doğru yönəldir.

## *Tədqiqat və araşdırma:*

Bu fərziyyənin (əxlaqi və ictimai maraqların təsirilə dinlərə meyil fərziyyəsi) müqabilində bir neçə mövzuya diqqət yetirilməlidir:

1. Şübhəsiz, düzgün və həqiqi bir dinin insanların ehtiyaclarına cavab vermək qüdrəti vardır – istər həmin ehtiyaclar ictimai və əxlaqi yönlərə malik olsun, istərsə də fərdi və cismani. Məsələn, bəşərin müalicə etməyə qadir olmadığı ağrı-acılar müqbilində dinin sakitləşdirici təsirini kim inkar edə bilər? Nəticədə, Allahın sonsuz qüdrətinə söykənməklə dini iman ondan məhrum olaraq ümidsizliyə qapılan fərdlərin üzünə ümid qapısı açaraq onlara nicat verir. Bəyəm, din insanlara mütləq iztirab və çarəsizlik zamanı onlara cavab verə və öz mərhəmətilə çətinliklərini həll edə biləcək yeganə kəsin

Allah olduğunu bildirmirmi:

أَمَّن يُجِيبُ الْمُضْطَرَّ إِذَا دَعَاهُ وَ يَكْشِفُ السُّوء

*"(O şəriklərmi yaxşıdır), yoxsa, darda qalan bir kimsə onu çağırdığı (dua etdiyi) zaman ona cavab verən, onun zərər və çətinliyini aradan qaldıran kəs?"*[1]

Yaxud, kim insanlara çətinliklərin əzəməti müqabilindəki tənhalıqdan nicat verməkdə dini etiqadın rolunu inkar edə və onun problemlər qarşısında müqavimət və davamiyyət göstərməyə dəvətini – varlıq aləminin qüdrət mənbəyinə əsaslanmaqla – görməzdən gələ bilər? Bu məsələ kiməsə gizli deyil, çünki dini etiqadda belə bildirilir:

إِنَّ الَّذِينَ قَالُوا رَبُّنَا اللَّهُ ثُمَّ اسْتَقامُواْ تَتَنَزَّلُ عَلَيْهِمُ المَلَئِكَةُ أَلَّا تَخَافُواْ وَ لَاتَحْزَنُوا

*"Şübhəsiz, (səmimi qəlbdən) "bizim Rəbbimiz Allahdır!" deyən, sonra (əməldə) möhkəm duran kəslərə (dünyada qeyb köməyi şəklində, yaxud ölüm zamanı, ya da qəbrdən qaldırılan zaman) mələklər nazil olar (və deyərlər): "Əsla, qorxmayın və qəmgin də olmayın!""*[2]

Həmçinin, Allahla razu-niyaz etmənin insan ruhuna aramlıq bəxş etdiyi və potensial olaraq maddi həyatda yerləşdirilən dəhşətli tənhalığı aradan qaldırdığını da inkar etmirik:

*"De: "Yalvarışla (aşkar şəkildə) və gizlində onu çağırıb "əgər bizə bu həlakətdən nicat versə, mütləq şükr edənlərdən olacağıq" (deyərkən) quru və dənizin qaranlıqlarından sizə*

---

*1. «Nəml" surəsi, ayə 62.*

*2. «Fussilət" surəsi, ayə 30.*

*kim nicat verir?" De: "Allah sizi ondan (düçar olduğunuz həmin həlakətdən) və hər bir qəm-kədərdən qurtarır, siz isə yenə də (ona) şərik qoşursunuz!""*[1]

Həmçinin, bəşər həyatından heç vaxt əskik olmayan və olmayacaq müsibət və nakamlıqlar müqabilində insanın dözümlülük qüdrətini ilahi təlafi və başqa bir dünyaya inam səbəbilə artırır.

Eyni zamanda, dini məlumatlara malik bir fərd insanın günaha mürtəkib olduqdan sonra ona üz gətirən günahkarlıq və biganəlik hissinin Allah dərgahında xətasına etiraf və ondan bağışlanmaq diləməklə aradan qalxdığı, azaldığı və onu keçmişdəkiləri təlafi etməyə vadar etdiyini inkar etmir. Bunların hamısı təhrif edilmək və süstləşdirici şəkilə düşməmək şərtilə qəbulolunasıdır.

Nəticədə, biz söylədiyimiz formadakı ictimai və əxlaqi təsirlərin hamısını etiraf edirik.

2. Bu fərziyyəni təklif edənlər – əvvəlki fərziyyələri irəli sürənlər kimi – hər şeydən öncə, bir prinsipə dəlilsiz olaraq öz vəfadarlıqlarını elan etmiş və dinin yaranmasını onun sayəsində izah etməyə çalışmışlar. Məsələn, Enşteyn əvvəlki ifadələrində hər sözdən öncə belə deyir: "Eşq və arzu insanın bütün fəaliyyətinin iki hərəkətverici qüvvəsidir." O, bu iki məsələyə istinad etməyən hər hansı bir insanı məzəmmət edir. Amma o, bu böyük iddiası üçün heç bir qaneedici dəlil göstərmir. Bu iddia ilə bütün təlaşların mühərrikini xüsusi iqtisadi şərait və istehsal vasitələrinin necəliyi ilə əlaqələndirən kəslərin iddiası arasında hansı fərq vardır?! Yaxud, bildirəcəyimiz kimi, Freyd əsil amil və bütün fərdlərə məxsus olan ictimai və əxlaqi fenomenlər və insanların

---

*1. «Ənam" surəsi, ayə 63-64.*

əməllərinin hamısını cinsi qərizə hesab edir. Həqiqətdə, bu iddiaçılar kimi, o, dəlilsiz olan bir fərziyyəyə əsaslanmışdır.

Mümkündür ki, belə deyilsin: "Bu fərziyyənin xüsusiyyətidir ki, insan nəyinsə yaranmasına ehtimal və güman etsin və daha sonra əsil mətləblə bağlı qəti dəlili olmadan, bir sıra silsiləvi zənn edilən şahidlərlə onu təsdiqləsin. Fərziyyələrdən belə şeyi gözləmək olmaz." Həqiqətdə, "fərziyyə" və müşahidə, təcrübə və ya riyazi düsturlar vasitəsilə sübuta yetirilən "elmi qanunlar" arasındakı fərq də elə bundan ibarətdir.

Biz də bu mətləbi inkar etmirik. Amma məsələ burasındadır ki, əksər fərziyyələrin elmi qanunlara oxşarlığı birini digərinin yerində işlətmək və onun əsasında təməllər qurmağa səbəb olmuşdur ki, bu, elm və alim üçün təhlükədir.

3. Bu fərziyyədə mövcud olan digər bir səhv "təsir"lə "marağ"ın səhv salınmasıdır. Ötən bəhslərdə söylədik ki, hər təsir maraq deyil. Məsələn, biz quyu qazdıqda keçmişdəkilərə mənsub xəzinəni tapa bilərik və işimiz də belə bir təsirə malik ola bilər. Amma quyu qazmağımızın səbəbi belə bir təsirin olması deyildir. Əlbəttə, bir mövzunun təsiri onun yerinə yetirilməsindəki maraq ola bilər, amma hər təsirin marağa çevrilməsində külliyyat (külli qanun) yoxdur.

Doktor Fleminqin fəaliyyətləri də – digər alimlərin təlaşı kimi – varlıq aləmindəki yeni bir sirrin kəşfi ilə nəticələndi və bəzi mikrobların kəşfi və onlar barədəki mütaliələr gözlənilmədən "penisilin" və "antibiotik dərmanlar" qrupunun kəşf edilməsinə gətirib çıxardı ki, bu, bir "maraq" deyil, "təsir" idi.

Həmçinin, dində mövcud olan belə təsirlərin də bəzi insanları dinə cəlb etməsi mümkündür. Amma dini əqidənin yaranma mənşəyini bütün hallarda belə təsirlərlə əlaqələndirmək böyük yanlışlıqdır. Əksinə, bəhsin sonunda bildirəcəyimiz kimi, dini ideologiyanın yaranmasının əsil amili təəccüblü sistem və heyrətamiz varlıq aləmidir. Başqa sözlə, Allaha etiqad xarici bir həqiqətin dərkidir və biz aləmdə həyatımıza faydasını nəzərə almadan etiqad bəslədiyimiz həqiqətlərin olmasını inkar edə bilmərik. Amma hansısa bir həqiqətin mövcud olmaması, əksinə bizim ehtiyaclarımızın beynimizdə belə ideyaları yaratması kimi təfəkkür tərzi bir növ, aşkarcasına idealizmə meyil və həqiqətlərin inkarıdır.

# 4.

# “QORXU” FƏRZİYYƏSİ



Bu fərziyyə bir sıra materialist və qeyri-materialist sosioloqların yazılarında müşahidə edilməkdədir və onlar dinə maraq və meyli ölüm qorxusu və ya təbii amillər hesab edirlər. Vil Drant "Dinin mənbələri" adlı bəhsdə deyir: "Roma filosofu Lukretsinin dediyi kimi "qorxu Allahların birinci anasıdır və qorxunun qisimləri arasında ölümdən qorxmanın xüsusi yeri vardır." İbtidai insanın həyatı minlərlə xətər arasında formalaşmışdır və çox az adam tapılardı ki, təbii ölümlə vəfat etmiş, yaxud qocalıq yaşına çatmış olsun. Bu cəhətdən, ibtidai insan ölümün bir hadisə və təbii nümunə olmasına inana bilmir və həmin səbəbdən, onun üçün fövqəltəbii səbəblər təsəvvür edirdi."[1]

Həmin sözləri Rassel fərqli şəkildə təkrar edərək deyir: "Güman edirəm ki, dinin mənşəyi hər şeydən əvvəl qorxu və vəhşət olmuşdur. İnsan özünü həddən artıq gücsüz hiss etmişdir və onun qorxusunu üç əsas amil təşkil edir:

Birinci amil təbiətin onun başına gətirə biləcəyi bəlalardır. Məsələn, ildırım vasitəsilə onu həlak edə və ya zəlzələ nəticəsində torpağa gömə bilər.

İkinci amil digər insanların ona yetirə biləcəyi

---

*1. Vil Drant, "Sivilizasiya tarixi", c.1, səh. 89.*

xətərlərdir, məsələn, müharibə meydanında onun öldürülməsi.

Üçüncü amil ona xas olan şəhvət hissidir ki, şiddətləndikdə, bəzi əməllərə mürtəkib olur və həmin vəziyyətdən aramlıq tapdıqdan sonra, təəssüf hissi keçirir."[1]

Bu söhbətdə qorxu daha geniş mənada bəyan olunmuş və təbii amillərdən əlavə, ictimai bəşəri və xüsusi psixoloji amillərə də şamil edilmişdir.

Enşteynin "dini zəminələrin yaranması" adlı söhbətində belə oxuyuruq: "İbtidai insan üçün ölüm, aclıq, vəhşi heyvan və xəstəliklər qorxusu dini zəminələrin yaranmasına səbəbdir."[2] Bu söhbətdə belə maraq ilkin olaraq ibtidai din dairəsində məhdudlaşdırılmış və sonra qorxu təbii amillərə məxsus edilmədən "dini zəminələrin yaranma amili" kimi tanıtdırılmışdır.

Marksistlər də öz yazılarında bu amilə istinad etmiş və onu öz məqsədləri istiqamətində olduğunu gördüklərindən, onu daha çox araşdırmadan qəbul etmişlər. Bununla yanaşı, məşhur sosioloq Samuel King öz kitabının "dini təsisatlar" başlığında deyir: "Böyük alim Robert Sin Smit dinin gözəgörünməz bir qüvvədən qorxmaq və ya qorxunun övladı olmadığına, əksinə cəmiyyətin bütün fərdlərinin onun xeyrini istəyən və əxlaqi müqərrəratın qoruyucusu olan bir qüdrətlə rabitədən ibarət olmasına etiqadlıdır."[3]

---

*1. "Mənim tanıdığım dünya", səh. 28.*

*2. "Mənim gördüyüm dünya", səh. 54.*

*3. "Sosioloq King", səh. 196.*

## Bəhs və araşdırma:

Bu fərziyyə barəsində də müxtəlif mülahizələr mövcuddur ki, onları nəzərdən qaçırmaq olmaz:

1. Biz bu fərziyyə və onu irəli sürənlərə qarşı nə qədər nikbin olsaq da, onların "qəti və isbat olunmuş mövzu" adı ilə təlqin olunmasına cürətləri olmadığını inkar etməyə bilmərik. Əksinə, maddi araşdırma və təhlil zamanı sonunda Samuel Kingin bildirdiyi nəticələrə yetişəcəklər:

1. Dinin mənbəyi isrardan daha üstündür. Bu sahədə alimlərin saysız fərziyyəsi arasında bəziləri digərlərindən daha məntiqli nəzərə çarpmasına baxmayaraq, onların ən yaxşısı belə, elmi səbat baxımından irad tutulasıdır. Onlar məntiqi təsəvvürdən xaric deyillər və həmin cəhətdən, dinin mənbəyi barəsində sosioloqların şiddətli fikir ayrılığı vardır.[1]

Belə fərziyyələrin təsdiq olunmuş təsdiqlər deyil, bir sıra silsiəvi təsəvvürlər kimi tanıtdırılmasına diqqət yetirin. Bundan əlavə, bildirəcəyimiz kimi, həmin fərziyyələrin əksəriyyəti – son nəticədə – o qədər də məntiqli olmur.

2. Bu və buna oxşar fərziyyə tərəfdarları sanki "dinlə bağlı fövqəltəbii bir əsasın olmaması" barədə əlbir olaraq dini "bəşər düşüncəsinin icadı" hesab etməkdə müttəfiq olmuşlar. Halbuki, əllərində dinin fövqəltəbii bir təmələ malik olmasının inkarı ilə əlaqədar dəlillər yoxdur. Beləliklə, ən azından öz fərziyyələrini şübhəli bir məsələ üzərində qurmuşlar.

Ola bilsin ki, bəzi dinlərdəki elməzidd və xurafi məsələlərin mövcudluğu onları bu işdə cürətləndirmişdir,

---

*1. "Sosioloq King", səh. 99.*

amma xurafat və qeyri-məntiqli etiqadların nüfuzu təkcə dini məsələlərə şamil deyil, əksinə əksər elmlər onlardan təmizlənməmişdən qabaq həmin məsələlərlə qarışmış idi. Kimya elminə dair əfsanələri, hətta onun adının "kimya" sözündən götürülməsini kim eşitməmişdir? Əgər biz kimya elmini digər tədqiqatçıların bəzisi kimi xurafat adlandırsaq, ümumiyyətlə, əlimizdə bu hökmün kimyanın bütün məsələlərinə şamil olduğunu sübut edən bir dəlil yoxdur. Daha təəccüblüsü budur ki, sosioloqların əksriyyəti dinin prinsiplərini öyrənmək üçün öz işlərini vəhşi və yarımvəhşi qövmlər barədə mütaliə etməklə başlamış və onları həqiqi və əsil din üçün nümunə hesab etmişlər (Kingin Dourkimdən nəql etdiyi kimi). Yəni, bütün həqiqətləri cəhalət və xurafatla qarışdırırlar ki, bu necə də böyük səhv və yanlışlıqdır! Bu, eynilə tibb elmi barədə öyrənmək istəyən və dərmanların necəliyini xurafatla qarışdıraraq yarımvəhşi qövmlər arasında mütaliə edən kəsə bənzəyir.

3. İstər təbii amillər olsun, istərsə də həmnöv və ya günahın aqibəti qorxusundan olan qorxu müqabilində dinin aramlıq bəxş edən təsiri inkaredilməzdir. Çünki din hər şeydən öncə, geniş qüdrət mənbəyinə diqqət yetirməklə qorxu amilinə müqavimət göstərməyə icazə vermir və ona istinad etməklə qorxan insanı məhvedici amillər müqabilində onu aramlığa dəvət edir ki, qorxusuna qalib gələrək təskinlik tapsın. Aşağıdakı ayə hətta müşriklərin belə əzəmətli tufan müqabilində öz acizliklərindən qorxu dalğasında batdıqlarında, Allaha iman və bütləri unutmaqla aramlıq əldə etməsi həqiqətini aydınlaşdırır:

فَإِذَا رَكِبُواْ فِي الْفُلْكِ دَعَوُاْ اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ فَلَمَّا نَجَّاهُمْ إِلَى الْبَرِّ

إِذَا هُمْ يُشْرِكُون

*"Gəmiyə minən (və qərq olmaq təhlükəsi ilə üzləşən) zaman dini yalnız Allaha məxsus edib ona dua edərlər. (İbadət etdikləri bütləri unudarlar.) Allah onları quruya çıxarıb, xilas edən kimi dərhal ona şərik qoşarlar."*[1]

O ki, qaldı aşağıdakı ayələrin şamil olduğu möminlərə:

أَلَآ إِنَّ أَوْلِيَاءَ اللَّهِ لَاخَوْفٌ عَلَيْهِمْ وَ لَاهُمْ يَحْزَنُون

*"Bilin ki, həqiqətən, Allah dostları üçün (axirət aləmində) nə bir qorxu vardır, nə də (onlar) qəmgin olmazlar."*[2]

الَّذِينَ آمَنُوا وَ لَمْ يَلْبِسُوا إِيمَانَهُمْ بِظُلْمٍ أُوْلئِكَ لَهُمُ الْأَمْن

*"İman gətirib imanlarını zülmə qarışdırmayanlar (yaradılışın başlanğıcına olan etiqadı dualizm və ya üç uqnuma əqidəsi, yaxud çoxallahlılıqla, yaxud da qəlbi etiqadları əməli itaətsizliklə qarışdırmayanlar) üçün əmin-amanlıq vardır."*[3]

Möminlər Allahın sonsuz qüdrətinə arxalanırlar və ondan başqasından qormağın onlar üçün heç bir mənası yoxdur. Ölümdən sonrakı və əbədi həyata iman gətirməklə qorxu amilləri arasında ən dəhşətlisi olan ölüm məhv olmaq və fəna nöqtəsindən ən ali və üstün bir həyat üçün qapı roluna çevrilir, xüsusən də, müqəddəs hədəf olan şəhadət şəklində olarsa, bu zaman daha sevimli və fəxr ediləsi olar. Dini əqidənin bəşər tarixində necə qəhrəmanlar yetişdirdiyini eşitməyən bir kəs yoxdur.

Başqa sözlə, dini əqidə insanı həyatın təhdid etdiyi

*1. «Ənkəbut» surəsi, ayə 65.*

*2. "Yunis" surəsi, ayə 62.*

*3. "Ənam" surəsi, ayə 82.*

amillər müqabilində məğlubedilməz varlığa çevirə və şüarı belə ola bilər:

قُلْ هَلْ تَرَبَّصُونَ بِنَا إِلَّا إِحْدَى الْحُسْنَيَيْنِ

*"De: "Yoxsa bizim üçün iki gözəl xislətdən (döyüşdə qələbə çalmaq, yaxud haqq yolunda şəhid olmaqdan) başqa, bir şey gözləyirsiniz?""*[1]

Bəli, bunları inkar etmək olmaz. Amma yenə də belə bir məsələ yaranır ki, onlar təsirdir, yoxsa, maraq? Dinin bərəkətidir, yoxsa, onun yaranması səbəbi? Nəticələrdən və ya hədəflərdəndirmi?

Bu fərziyyənin əsasını qoyanların həqiqətdə, ikinci ehtimalın sübutu ilə bağlı heç bir dəlili yoxdur və onların sözləri – qeyd etdiyimiz kimi – iddia dairəsindən xaric olmur. Sadəcə dinin belə təsirə malik olduğunu söyləyir, amma hansı səbəbə görə yaranma amili olduğunu bildirmirlər. Məsələn, yuxunun yaranması ilə bağlı fərziyyədə onun beyində qan dövranının azalması və ya qanın oyaqlıq və davamlı iş nəticəsində zəhərlənməsi kimi izah edilməsi fizioloq alimlər tərəfindən rədd edilmişdir, çünki vücuda uyğun olaraq insanda yuxu əlamətləri yaranır, amma bunlar yuxunun yaranmasındakı maraq və hədəf ola bilməz.[2]

4. Əsas rolu xurafatın oynadığı qeyri-həqiqi və qondarma dinlər arasında təxəyyüli qorxular dini məsələlərlə qarışmışdır. Məsələn, "Yeni Britaniya adası sakinləri" əfsanəsində ölümün allahların səhvinin nəticəsi olduğunu – belə ki, xeyir allahı Kambi Nana öz

---

*1. "Tövbə" surəsi, ayə 52.*

*2. «Pavlovun nəzərində yuxu», «yuxu barədəki müxtəlif fərziyyələrin tənqidi» fəsili, səh. 21-dən sonra.*

nadan qardaşı Kuruvuaya "yerə en və camaata de ki, öz dərilərindən çıxaraq ölümdən nicat tapsınlar" deməsini, amma onun səhv edərək əbədilik sirrini ilanlara söyləməsi və ölümü insanların sorağına göndərməsini[1] (bəlkə də, bu səbəbdən ilanlar qabıqdan çıxır və uzunömürlüdürlər) oxuduğumuzda, çox da təəccüb etməməliyik.

Əgər cin və pərilər (onlar barədə düzəldilən xəyali məfhumlardan), qədim İrandakı xeyir və şər və qədim Yunan allahlarından qorxunun bu xurafi din tərəfdarlarının düşüncələrinə hakim olduğunu görürüksə, onlardan bütün dinlərin yaranması üçün külli bir qanunun formalaşmasını təsəvvür etməməliyik.

5. Bizim İslam kimi mütərəqqi bir dinimizdə "Allah qorusu" adlı bir məsələmiz var ki, imanlı fərdlərin ən üstün imtiyazı hesab olunur və "xaifin" (qorxanlar) məqamı dini rəhbər və ləyaqətli şəxslərin məqamı sırasındadır və onların həyatındakı qorxu barədə tarixdə həddən artıq bəyan olunmuşdur. Ayələrdəki "ittəqullah" cümləsi və onun bənzərindən istifadə olunan Allahdan qorxmaq məsələsi islami mənbələrdə dəfələrlə təkrar edilmişdir ki, məsələnin digər simasını təşkil edir. Amma icmali mütaliə sayəsində Quranda 114 dəfə Rəhman və Rəhim olaraq xatırlanan Allahın qorxulacaq bir Allah olmadığı sübuta yetir. Buradakı qorxunun mənası məsuliyyət və öhdəliklərdən yaranan qorxu mənasındadır.

Əslində, qorxunun mənbəyi əməlin keyfiyyət və necəliyidir və təbiidir ki, belə qorxu günah və zülm müqabilində müdafiə vasiəsi olmaqdan əlavə, vicdanın

---

*1. Vil Drant, "Sivilizasiyalar tarixi", c.1, səh. 89.*

oyaqlığı və məsuliyyət hissinin nişanəsidir.

Quran ayələrində oxuyuruq:

وَ أَمَّا مَنْ خَافَ مَقَامَ رَبِّهِ وَ نَهَى النَّفْسَ عَنِ الْهَوَى

*"Amma kim öz Rəbbinin məqamından, onun hüzurunda durmaqdan qorxub nəfsini həvay –həvəsdən saxlamışsa, (şübhəsiz, onun yeri cənnətdir)."*[1]

Burada Allah məqamından, yəni onun itaətsizlik müqabilindəki cəzanın nəticəsi olan ədalət məqamından qorxmaq nəfsi istəklərlə mübarizəyə müqəddimə və vəsilə hesab olunmuşdur. Həqiqətdə, qorxu ondan deyil, əksinə ədalətin icrasındandır. Digər yerdə belə oxuyuruq:

ذَلِكَ لِمَنْ خَافَ مَقَامِى وَ خَافَ وَعِيد

*"Şübhəsiz, onlardan sonra həmin vilayətdə sizi yerləşdirəcəyik. Bu (vəd), mənim məqamımdan (mənim cəlal, əzəmət və ədalətimdən, yaxud qiyamət günü mənim hüzurumda durmaqdan) qorxan və mənim hədələrimdən çəkinən kəs üçündür."*[2]

Həzrət Adəmin dünyadakı sərgüzəşti barədə isə oxuyuruq:

فَمَنْ تَبِعَ هُدَاىَ فَلَا خَوْفٌ عَلَيْهِمْ وَ لَاهُمْ يَحْزَنُون

*"Mənim hidayətimə tabe olanlara heç bir qorxu yoxdur və onlar qəmgin də olmazlar."*[3]

Yuxarıdakı və söhbətin uzadılmasından çəkindiyimiz üçün qeyd etmədiyimiz digər sənədlərə diqqət yetirdikdə,

*1. "Naziat" surəsi, ayə 40.*

*2. "İbrahim" surəsi, ayə 14.*

*3. "Bəqərə" surəsi, ayə 38.*

aydın olur ki, bir müsəlmanın nəzərində təkcə qorxu amili “günah və vəzifənin yerinə yetirilməməsi”dir. “Nəhcül-bəlağə”də Əmirəl-möminin Əlidən (ə) belə nəql olunur:

وَ لَايَخَافَنَّ إِلَّاذَنْب

*“Günahdan başqa, digər bir şeydən qorxmaq lazım deyil.”*[1]

Allahdan qorxmaq və bu kimi digər ifadələr həmin mənadadır.

---

*1. “Nəhcül-bəlağə”, qısa kəlamlar, 82.*

# 5.

# “CƏHALƏT” FƏRZİYYƏSİ



“...Təsadüf nəticəsində meydana gələn hadisələrdən təəccüblənmək hissi və ya insanın dərk etmədiyi səbəblər dini etiqadların yaranma amillərindən olmuşdur.”[1]

“Elm və incəsənət sirli amilləri əql qüvvəsi üçün işıqlandırsa da, bununla yanaşı, həmin amillərin əksəriyyəti elmin əhatəsindən qaça və sirr olaraq qala bilmişdir. Nəticədə, bu amillərə inam və onları tətbiq etməyin lüzumu dinin yaranmasına səbəb olmuşdur.”[2]

“Bəşər tarixi baxımdan, hadisələrə nəzər saldıqda, elm və dini iki aydın və bir-birinə yovuşmaz kimi təsəvvür edir. Beləliklə, dünyanın fırlanmasına səbəblər qanunu əsasında etiqad bəsləyən bir kəsin ağlına kiminsə səbəblər qanununu ciddi şəkildə nəzərə almadığı üçün ona maneə və sədd yaratması belə gəlmir.”[3]

Bunlar dinin yaranma mənbəyini bəşərin təbiət aləmilə bağlı elmi məlumatının məhdudluğu ilə əlaqələndirmək istəyən kəslərin müxtəlif söhbətlərindən nümunələr idi. Daha aydın bir ifadə ilə desək, insan hansısa bir yeniliyi müşahidə etdiyi zaman, onda həmin yeniliyin səbəbini araşdırma hissinin yaranmasına etiqadlıdırlar. Əgər

---

*1. Vil Dürant, “Sivilizasiyalar tarixi”, c.1, səh. 89.*

*2. “Kingin sosiologiyası”, səh. 207.*

*3. “Mənim gördüyüm dünya”, səh. 58.*

onun təbii səbəbini – məlumatının məhdudluğundan – öyrənə bilməsə, fövqəltəbii amillərə əl atır və öz zehnində belə məfhumlar yaradır və yaranma amili ona qaranlıq qalan fenomenləri onlara nisbət verir. Məsələn, atların dırnaqlarından saçan qığılcımların amillərini bilmədikdə, onların "pərilərin əlindəki çıraq" olmasına etiqad bəsləyirdilər və yaxud daşıyıcısı bataqlıqda yaşayan və Anufli ağcaqanadının toxum qoyması nəticəsində yaranan malyariya xəstəliyindən xəbərsiz olmaqla həmin xəstəliyi cinlərə nisbət verir və deyirdilər ki, kim bataqlıq yaxınlığında yatsa, cinlər onun üstünə tökülüşüb onu xəstələndirirlər.

Həmin səbəbdən, bu hadisələrin təbii izahı məlum olduqda, onların dini bəyanı tamamilə aradan qalxdı və bu minvalla, hadisə və fenomenlərin tədricən səbəbi aydınlaşdıqca din öz varlığını hadisələrin sayəsində qorumaq üçün geri lədi. Elm və dinin və ya səbəblər qanununa inamla dini inamın zidd olması şüarı həmin məsələdən qaynaqlanır. Bir daha kommunist və marksistlərin yazılarında oxuyuruq ki, dini idealogiyanı sıradan çıxarmaq üçün elmi nəzəriyyələrin öyrənilməsi üsulundan istifadə etmək lazımdır. O cümlədən, "SSRİ-də din" adllı kitabda belə oxuyuruq:

"Bolşevik partiyası materialist (maddi) nəzəriyyənin tərəfdarıdır. Materializm elmi bir nəzəriyyə kimi dinin "təbii fenomenlər"[1] və ictimai həqiqətlərlə bağlı bəyanını rədd edir. Stalin deyir: "Hər bir din qeyri-elmidir. Bununla belə, dini qeyri-elmi nəzəriyyə hesab etməklə yanaşı, prinsip baxımından dinə qarşı mübarizə aparmağın idarəçilik üsulu olması ilə aşkarcasına düşməndir."

*1. İnsanın hissi və əqli ilə dərk olunan şeylər.*

Partiya dini məcburiyyət və qadağalar vasitəsilə aradan aparmağın mümkün olmaması etiqadına malikdir. Partiyanın nəzərincə, dinə qalib gəlmək çətin məsələdir və buna hər şeydən öncə, cəmiyyətin iqtisadi və siyasi vəziyyətini dəyişmək və kütlələrə elmi nəzəriyyələri öyrətməklə nail olmaq olar...”

## *Tədqiqat və araşdırma:*

Bu fərziyyə barəsində bir məsələyə diqqət yetirmək lazımdır ki, onun nə qədər əsassız və düşünülməmiş olması məlum olsun:

Bu fərziyyənin ən mühüm qüsuru allahşünaslıq və tövhidə ən əsas sübut və inkarolunmaz “nəzm dəlili” ilə zidd olmasıdır. Belə ki, qədim dövrdən günümüzə qədər dini fəlsəfə öz məqsədini isbat etmək üçün kainat və varlıq aləməndəki nizama istinad edir və bu nizamın varlığını alim və qüdrətli bir mənbəyin mövcudluğuna canlı şahid və nişanə və onu yaradılış aləmi və onun başlanğıcında təsirli hesab edirdilər. Nəticədə, Allahı nizamsızlıq, istisnalar və qaranlıq məsələlər arasında axtarmır, əksinə onu varlıq aləminin bilinən nizam-intizam və aydın hissələrində soraqlayırdılar.

Həqiqətdə, sosioloq Kingin sözləri qeyri-məşhur və anlaşılmayan bir kitab kimi böyük və alim olan bir yazıçının mövcudluğuna sübut ola bilməz, əksinə oxunaqlı və anlaşıqlı sətirlər bu həqiqətin sənədi hesab edilə bilər. Həmin səbəbdən, məşhur ekoloq Albert Vinçester deyir: “Elm dünyasında gerçəkləşən hər bir yeni kəşf yüzlərlə dəfə mənim imanımı möhkəmləndirir və etiqadlarımızın batinində az-çox mövcud olan şirk və vəsvəsələrin təsirlərini aradan aparır və onun yerinə ali

allahşünaslıq və tövhid fikirləri bəxş edir."[1]

Maraqlı burasındadır ki, müsəlmanların səmavi kitabı olan Quran digər kitablardan öncə Allahı tanımaqla bağlı dəlillərdən söhbət açır və haradasa, onların əksəriyyəti nəzm ətrafında bəhs olunur və istisna və naməlum hadisələrə burada istinad edilmir. Bəzən də yer və yerin şah əsərinin, yəni insanın yaradılışına istinad edilərək Quranda buyurulur:

وَ فِي الْأَرْضِ آيَاتٌ لِلْمُوقِنِينَ* وَ فِي أَنْفُسِكُمْ أَفَلَا تُبْصِرُون

*"Yer üzündə (onun böyüklüyü, həcmi, hərəkəti, səthinin vəziyyəti, mədənləri və dağlarında) yəqini olanlar üçün (Allahın tovhid, qüdrət, hikmət və mərhəmətinə dəlalət edən) nişanələr vardır. Həmçinin, sizin öz vücudunuzda da. Bəyəm, görmürsünüzmü?!"*[2]

Bəzən də gecə-gündüz, qaranlıq və işıq, həyat və ölüm, bahar və xəzan, bərəkətli küləklərin əsməsi, yağışın yağması və susuz torpaqların sirab edilməsi, bitki, güllər və meyvələrin yaranması arasındakı nəzmə istinad edilir və bəzən də yerlə göy və bu aləmdəki bütün zərrələr onun (Allahın) nişanələri hesab olunur:

وَ مِنْ آيَاتِهِ خَلْقُ السَّمَاوَاتِ وَ الْأرْض

*"Göylərin və yerin yaradılışı onun nişanələrindəndir."*[3]

Bütün bunlar Allahı tanımaq üçün dəlillərdir və bizim bilik və məlumatlarımız bu aləmə məxsusdur.

---

*1. Məkarim Şirazi, "Afərideqare cahan", səh. 11.*

*2. "Zariyat" surəsi, ayə 20-21.*

*3. "Rum" surəsi, ayə 22.*

## *Yaradılışdakı bütün varlıqların təsbih deməsi (Allahı zikr etməsi)*

Burada Quranın bütün məxluqların təsbih deməsi zəminəsində etdiyi bəyanın bir qismini allahşünaslığın elm, yoxsa, cəhalət olmasının aydın olması üçün diqqətə çatdırmağımız daha münasibdir. Varlıq aləminin bütün zərrələrinin təsbih və həmd-səna deməsindən söz açan ayələr Allahın varlığı və kainatdakı nizamın sübutu üçün digər bir dəlildir. Quranda buyurulur:

يُسَبِّحُ للَّهِ ما فِی السَّموَاتِ وَ مَا فِی الأرْض

*"Yerdə və göydə olanlar Allaha təsbih deyirlər."*[1]

و إنْ مِنْ شَیءٍ إلّایُسَبِّحُ بِحَمْدِهِ وَ لکِنْ لَاتَفْقَهُونَ تَسْبیْحَهُم

*"Elə bir şey yoxdur ki, Allaha tərif deyib ona şükür etməsin, lakin siz onların (dillərini bilmədiyiniz üçün) təqdisini anlamazsınız."*[2]

Bundan başqa, ayələrdə quşlar, ağaclar, ildırım və sairənin də təsbih deməsi bəyan edilir.

Təsbihin həqiqətinin eyib və nöqsandan pak hesab etmək, həmd-sənanın həqiqətinin isə qüvvə və üstünlüklərinə görə sitayiş etmək olduğunu bilirik. Başqa sözlə, təsbih cəlal (səlbi) sifəti və həmd camal (sübuti) sifəti müqabilindədir. Yəni, təsbih eyiblərin olmaması və həmd kamalların olması müqabilindədir.

Həmçinin, bu aləmin bütün zərrələrinin – dağlar, ağaclar, quşlar, yağış damlaları, çınqıllar, atom və molekulların cümlə düzəldərək Allaha təsbih deməsi

---

*1. "Cümə" surəsi, ayə 1.*

*2. "İsra" surəsi, ayə 44.*

üçün dil və idrakının olmaması da məlumdur, əksinə onların dedikləri şeylər zəban-hal və təkvini dillədir. Onlar dəqiq və heyrətamiz nizam, ölçülüb-biçilmiş quruluş və onlarda istifadə olunan diqqət və zəriflik – qısacası, bütün varlıqları ilə – yaradanın varlığı və onun sonsuz qüdrət və elminin nişanəsidir. Təəccüb doğuran qədim tikili, gözəl və mənalı bir qəsidə və yaxud qəzəl, tərbiyyəvi xüsusiyyətli və fövqəladə mətləbli bir kitab öz memarı, şair və müəllifini zəban-halı ilə öydüyü (təriflədiyi) kimi, bu əsərlər onu yaradanların zövq, səliqə, əl işləri və zərifliklərini hekayət edir və onları səliqəsizlik, zövqsüzlük və gerilikdən qoruyur. Bu, həmin əsər müəllifləri müqabilində təsbih və həmd-sənadır. Əlbəttə, müəyyən həddə və məhdud bir təsbihdir, çünki burada insan adlı məhdud bir varlıqdan söhbət gedir.

Həmçinin, maddi aləmin bütün atomları və insan bədəninin molekulları, agacların yarpaqları, geniş kəhkəşan və qalaktikalar varlıq aləminin yaradıcısının naməhdud, zəiflik və cəhalətdən uzaq olmasından söhbət açır. Əgər məqsəd budursa, onda, "nə üçün yuxarıdakı ayədə "siz onların təsbihini anlamırsınız" deyilir?" ifadəsinin söylənilməsi mümkündür. Bu sualın cavabı o qədər də çətin deyil, çünki bizim kainatın sirləri barədə çoxlu şeylər bilməyimiz və alimlər tərəfindən milyonlarla kitab yazılmasına baxmayaraq,[1] bildiklərimizin hamısı bilmədiklərimiz müqabilində okeana nisbətdə bir damla qədərdir. Beləliklə, "siz onların təsbihini anlamırsınız" deyilməsi tamamilə doğrudur, yəni sizin bildikləriniz o qədər azdır ki, o, nəzərə çarpmır.

---

*1. "Amerika konqresi" kitabxanasının müxtəlif mövzu və fərqli dillərdə yetmiş milyondan artıq kitabı vardır.*

**Sözümüzün xülasəsi:**

1. Heç bir allahpərəst filosof alim asimani kitab və dini mətnlərin yazısında Allahı bu dünyanın zülmət və qaranlıq yönündə axtarmır, əksinə hər yerdə aydınlıqdır ki, bizim qəlbimizə də iman aydınlığı saçır. Beləliklə, "cəhalət" fərziyyəsi tərəfdarlarının öz fərziyyələrini hansı təməl üzərində qurduğu məlum deyil.

2. Dini məsələlərin doğru dərk edilməməsinin inkarolunmaz təsiri, pis öyrədilmə və bu zəminədəki yanlış ifadə – xüsusən də, bəhs edilən məsələdə – əksər hallarda savadsız, az savadlı və ümumiyyətlə, təhsilsiz fərdlər arasında müşahidə olunmaqdadır və onlar fövqəltəbii qüvvəyə inam gətirmək üçün hələ də səbəbi naməlum və tanınmayan fenomenlərin ardınca olmağı güman edir və onu gözübağlı fövqəltəbii amilin ixtiyarında qoyurlar. Diqqət edilməlidir ki, belə fərdlər heç də həmişə fövqəltəbii qüvvələrin sorağınca getmir, əksinə bir çox hallarda həmin hadisələrin törədicisini bir sıra silsiləvi xəyali təbii amillər hesab edirlər. Zəlzələ, ildırım, göy qurşağı, üfüqün rəngi və sairə haqqında əfsanələr quraşdırmışlar ki, onlar nə dini, nə də fövqəltəbii xüsusiyyətə malik deyillər, əksinə təbii və xurafidirlər.

3. Burada hətta, materialist alimlər üçün də səhv salınan mühüm məsələ onların bizim iki yol ayrıcında dayanmağımızı güman etmələridir. Biz ya təbii səbəblər, ya da Allahı qəbul etməliyik və bunların hər ikisinin qəbulu düzgün deyil. Başqa ifadə ilə desək, Allahın varlığına etiqadı, yəni birbaşa və heç bir vasitə olmadan onun fenomenləri yaratmasını və nəticədə, hansısa təbii səbəbin kəşfinin Allahın onda dəxalətinin inkarına gətirib

çıxarmasını təsəvvür edirlər. Daha aydın desək, təbii səbəblərindən agah olduğumuz bu geniş aləm Allahın hakimiyyət dairəsindən xaricdir və yalnız onun (aləmin) hadisə və istiqamətində maneələr yaranan və onun səbəblər qanununu pozan zaman Allah özünü nişan verir. Təəccüb doğuran məsələ burasındadır ki, Enşteyn kimi bir şəxs də belə inanılmaz və heyrətamiz səhvə yol vermişdir. Bizim etiqadımıza əsasən, belə fərdlər hər şeydən öncə, öz düşüncə və fikirlərini istənilən dini təsəvvürlərdən təmizləməli və din haqqında yenidən təlim almalıdırlar, çünki bu güman həqiqətdən o qədər uzaqdır ki, əsla düzəlməsi mümkün deyil. İlahiyyatçı bir filosof aləmi ölçülüb-biçilmiş səbəb və vasitələrin məcmusu və Allahı səbəblərin səbəbi, onları qoruyan, hifz edən və ayaqda saxlayan hesab edir və Allah heç vaxt səbəbsiz bir iş görmür. Aşağıdakı bu ayə də həmin məktəbin təfəkkür tərzinin bəyanedicisidir:

أَبَى اللّهُ أَنْ يَجْرِىَ الأُمُورَ إِلَّابأَسْبَابِهَا

*“Allah səbəbsiz bir şeyin yaranmasını istəmir.”*

İlahiyyatçı bir filosof heç vaxt Allah və onun varlıq aləmindəki təsirlərini təbii səbəblərlə bir sırada hesab etmir, əksinə onlardan üstün sayır. Belə ki, onların sahib olduqları şeylər Allah tərəfindəndir, həmçinin, hazırda onları mühafizə və təsirli edən də Allahdır. Onların hamısı Allahın proqramı və onun əmrinə uyğun əməl edərək vəzifələrini yerinə yetirirlər. Nəticədə, onun nəzərində təbiət elmlərinin alimi – məşhur təbiətşünas Herşelin dediyi kimi – bir-birilə əl-ələ vermişlər ki, elm sarayını, yəni Allahın əzəmət sarayını inşa etsinlər.

İlahiyyatçı bir filosof səbəbin əsalətinin qəbulu və

onun hər şeyə istisnasız hakimiyyətini etiraf etməklə yanaşı, bütün səbəb və nəticələrin Allahın zatı ilə bağlı olduğunu düşünür. Hətta, bəzilərinin gümanının əksinə olaraq möcüzələri səbəb qanununda istisna hesab etmir, əksinə onlar barədə qeyri-adi səbəblərin olmasına etiqad bəsləyir.

# 6

# "CİNSİ" FƏRZİYYƏ



“Dinlərə maraq”la bağlı söylənilən ən təəccüblü nəzəriyyə “Freyd nəzəriyyəsi”dir. Bu fərziyyəni başa düşmək üçün ilk öncə bir neçə mövzuya diqqət yetirmək lazımdır:

1. Freyd XIX əsrin ikinci yarısında Frayberg adlı kiçik şəhərdə, köklü və fəqir yəhudi ailəsində dünyaya gəlməsinə baxmayaraq, ömrünün çox hissəsini Vyanada keçirdiyindən, onu Avstriya alimi kimi tanıyırlar.[1] O, bəşərin ictimai, psixoloji və əxlaqi fenomenlərinin yaranması barədə çoxlu səs-küyə səbəb olan bir fərziyyə irəli sürmüşdür. Freyd bütün bu fenomenlərin yaranmasında əsas səbəbin müxtəlif simaya düşərək onu əsil kökündən uzaqlaşdıran və psixoloji, ictimai və əxlaqi reaksiyalar şəklində zühur edən insanın cinsi istəyi olması etiqadına malik idi.

Beləliklə, əgər Marks bütün ictimai fenomenləri özünün “iqtisadi fərziyyə”si ilə izah edirdisə, Freyd onu “cinsi meyil”lə təfsir edirdi. Diqqət yetirmək lazımdır ki, Freyd cinsi qərizə üçün zehnə daha çox gələn məfhumdan daha geniş bir məfhumu nəzərdə tutmuşdu. Feylsin Şalenin dediyi kimi, “zehni təsəvvür” qidalanmağa ehtiyaclı olan bir aclıq halına bənzəyir ki, onu “libido” adlandırırlar. Freyd “libido” terminini

---

*1. “Freyd və freydizm”, səh. 7-dən iqtibas edilib.*

geniş mənada nəzərdə tutur və göstəricisi fədakarlıq və yaxınlıq istəyi olan həssasiyyət və qəlbin riqqətilə bağlı əksər meyillərin öz bioloji hədəfindən yayınan cinsi meyildən qaynaqlandığına etiqad bəsləyir.[1]

2. Freyd bütün hallarda öz fərziyyəsinin təməlini vəhşi və yarıvəhşi qəbilələr üzərində quraraq onları bugünkü cəmiyyətin sələflərinə nümunə hesab edir. Onlar barədəki mütaliələrdən əldə etdiklərini hazırkı cəmiyyətlə tətbiq etməyin mümkünlüyünü güman edir. Həmin səbəbdən, bir çox psixoloji məsələlər baradə məlumat əldə etmək istədikdə, onların sorağınca gedir.[2]

3. Freyd bundan da irəli gedərək öz məlumatlarını bir ata və qadınların, oğul və qızların say çoxluğundan təşkil olunan xəyali ailə üzərində qurur. Ata, yaxud qəbilə başçısı qadınlar üzərində cinsi mülkiyyəti özü üçün saxlayır, yəni o, qadın və qızlardan istifadə edərək onunla cinsi və qüdrət rəqibi olan oğlanları ilə pis və xoşagəlməzcəsinə rəftar edirdi. Bu məsələ ata öz cismani qüvvəsini itirənə və ya oğlu, yaxud oğlanlarının zərbələri altında ölənə qədər davam edirdi. Amma oğlanlarından heç biri öz meyillərini həyata keçirə və atalarının yerini tuta bilmirdi. Nəticədə, atalarının taleyilə üzləşirdilər. Birinci qəbilədə atanın öldürülməsi və onun nəticəsindən hasil olan psixoloji əksül-əməl sonralar "sən heç vaxt öldürməyəcəksən" şəklində bir göstəriş kimi meydana çıxdı.[3]

Daha sonra Freyd silsilə təşkil edən bir sıra qarışıq və xəyali bəhslərlə atanın qətlə yetirilməsi və onun qorxuya

*1. "Freyd və freydizm", səh. 29-dan iqtibas edilib.*

*2. Həmin yerdə, səh. 139.*

*3. "Freydin düşüncələri", səh. 79-82.*

qarışmış ehtiramı və qəbilə qadınları ilə evlənməyin qadağasından doğan peşmanlığı ilkin insanlıq, əxlaqi və psixoloji qanunların yaranma mənbəyi kimi göstərməyə çalışır. Onun etiqadına görə, bütün insani qanun, atifə (hissiyyat) və meyillər ibtidai və ilkin qəbilə və ya ailə xüsusiyyətlərinin bir simasıdır. Hazırda onun fərziyyəsini bəyan etməklə din zəminəsinə qayıdırıq:

Freyd indiyə kimi diqqət yetirilməyən vəhşilərin psixoloji həyat və mədəniyyətinin daha çox dəyərə malik olması düşüncəsindədir və onların ictimai və dini təşkilatlarının əsasını aydınlaşdırmağa çalışır. Avstraliyanın mərkəzində yaşayan və tanıdığımız ibtidai insan qruplarının sorağınca gedir və onların dini forması totemizm olduğundan, ona istinad edərək deyir:

"Bu qəbilələr arasında totem onların nemət sahibi və mühafizi sayılan ata, böyük oğul və ya tayfanın sələf üzvü kimidir. Əlbəttə, totem bir şəxs deyil, əksinə bir növ mütləqiyyət (ümumilik)dir. Bu fərdlər özlərini totemə oxşatmalı olduqlarını düşünür. Bəzən totemin heyvan və bitkilərdə təcəlli etdiyini güman edir və beləliklə, onları müqəddəs hesab edirlər. Bu əqidənin kənarında məhrumiyyət və qadağalar mənasında olan tabu əqidəsi də vardır. Onlar bu termini qadağan olunmuş əşya və ya əməl üçün bir sifət ünvanında istifadə edirlər. Bu qəbilənin tabuları (qadağaları) arasında daha əhəmiyyətli olan iki tabu vardır. Onlardan biri totemik heyvanın öldürülməsi və ya yeyilməsi, yaxud da ona baxmaq və ya əl vurmaq, ya da totemik bitkinin yeyilməsidir. Digəri isə öz tayfasının qadınları ilə cinsi münasibət, başqa sözlə, onların nəzərində geniş məfhuma malik olan məhrəmlərlə cinsi münasibət qurmaqdır." Diqqət yetirmək lazımdır ki,

onlar cəm şəkildə xüsusi mərasim və rituallar həyata keçirərək totemik heyvanı qurban kəsir və onun ətindən yeyir və onlarla totem arasında hansısa bir oxşarlığın olması və bu rabitəni gücləndirməsinə etiqad bəsləyirlər. Nəticədə, həmin heyvanın öldürülməsinə qoyulan qadağanın fərdi xüsusiyyəti var və toplu şəkildə və xas hədəf üçün öldürülməsi isə müqəddəs və icazəli sayılır. Freyd bu mövzunu öz fərziyyəsinin xəyali qəbiləsi ilə əlaqələndirmək və ondan inikas etdiyini bildirməyə çalışır. Belə ki, oğullar öz atalarını öldürmək və onun ətini yeməklə özlərini ona oxşatdılar və öz qəbiləsinin qadınları ilə rabitənin qadağan olması və totemi öldürməkdən doğan peşmançılıq səbəbilə öz əməllərini qəbahət sayaraq inkar etdilər.

Daha sonra o, mövcud dinlər arasından kilsə məsihiliyini ona tətbiq etmək istəyir. Məsihilərin bəşərin günahkar olması və həmin günahdan ata Allaha bənzər və onun canişini olan Allahın oğlunun qurban verilməsi vasitəsilə pak olması etiqadını, həmçinin, Məsihin ət və qanının xüsusi çörək və şərabdan istifadə edilməsilə onlara nüfuz etməsi əqidəsini də totemizmin bir siması hesab edir.[1]

Freyd digər yerdə dinin əsasını psixoanaliz vasitəsilə belə fərz edərək bizim kainatla bağlı dini çıxarışlarımızın uşaqlıq vəziyyətilə əlaqədar olduğunu bildirir. Uşaq özünü kainatın əzəməti müqabilində onu müxtəlif xətərlərdən qoruyanın ilkin olaraq ana və atası olduğunu düşünür. Onun təhlükələrlə bağlı qorxusu həddi-büluğ dövrünə qədər davam edir və o, uşaq kimi hamiyə ehtiyaclı olduğunu düşünür və həmin hami

*1. "Freyd və freydizm"dən iqtibas edilib.*

ilahi himayəçi kimi cilvələnsə də həmişə ata və ya daha yüksək dərəcədə nəzərə çarpır ki, həqiqətdə, totemizmin bir növü olan ibtidai qəbilə formasıdır.[1]

Freydin cinsi nəzəriyyəsi bir çox cəhətdən – həm təməl və prinsip, həm mənbə və maddələr, həm də nəticənin əldə olunması və onun necəliyi baxımından – irad tutulasıdır və biz onları bir neçə mövzuda xülasələşdiririk:

## *Freydin səhvləri*

### *1. Birprizmalı və məhdud baxış üfüqü*

Günümüzdə psixologiya və psixoloji tədqiqat alimləri arasında – materialist olsalar belə - Freydin cinsi fərziyyəsini ictimai və psixoloji məsələlərdə bütövlükdə qəbul edən birini tapmaq olmaz, çünki sözügedən fərziyyə cinsi meyildən başqa, bütün insani qərizə və istəklərin, bütün iqtisadi və ictimai şəraitin əsalətinin inkarı üzərində qurulmuşdur. Yəni, insan mənəviyyatının sadəcə bir yönü ilə, o da başqa yönlərə deyil, cinsi yönə malik olması etiqadında olmaq, insana çox məhdud şəkildə yanaşmaq heç bir tədqiqatçının, hətta Freyd məktəbi davamçılarının qəbul etmədiyi bir mövzudur. Həqiqətdə, insan barədə bu cür düşünmək qeyri-məntiqi nəzərə çarpır, çünki cinsi ehtiyaclar insanın əsil ehtiyaclarındandırsa, onda, qida, yaşayış və onlarla əlaqədar iqtisadi məsələlər də əsil ehtiyaclardan sayılır. Birini əsil və digərini isə qeyri-həqiqi hesab etmək necə mümkündür? Həmçinin, sağlam yaşayış, gözəllikləri, elm və biliyi sevməklə bağlı qeyri-maddi ehtiyaclar

---

*1. "Freyd və freydizm"dən iqtibas edilib.*

da insan ruhunun əsaslı məsələlərindəndir. Belə isə, onları cinsi istəklərlə necə məhdudlaşdırmaq olar? Əgər insanın cinsi istəyi olmasaydı, onun qidalanma və digər həqiqi ehtiyacları da aradan qalxardımı?!

### *2. Yetərli dəlillərin olmaması*

Həqiqətdə, Freyd öz fərziyyəsi üçün qənaətbəxş dəlillər gətirməmişdir və yarıvəhşi qəbilələr üzərindəki araşdırmalar digər qəbilələr arasında naqis təmsil olmaqdan əlavə, yetərsiz, bəlkə də, qeyri-düzgündür. Hətta yarıvəhşi qövmlər arasında belə cinsi meyil bütün ictimai, əxlaqi və psixoloji fenomenlərin yaranma amili deyil və digər qərizə və istəklərin onların ictimai və psixoloji fenomenləri üzərindəki təsirini inkar etmək olmaz.

### *3. Xəyali qəbilənin çatışmazlıqları*

Daha təəccüblüsü ibtidai və ilkin qəbilə əfsanəsi, atanın qətlə yetirilməsi və övladların peşmançılığı və bunların “qanun”, “xeyir və şərin anlaşılması”, “əxlaqi vicdan” və digər meyillərlə rabitəsi, istək və ictimai və psixoloji fenomenlərin meydana çıxmasını bildirməkdir.

Freydin söylədikləri fantastik dastan və ya pərişan yuxu, yaxud da qədim əfsanə və əsatirlərə bənzəyir və bütün hallarda tənqidə layiqdir. Məsələn, onun əfsanəsində inhisarçılıq tələbi və atanın kam almaq amili və övladların şiddətli reaksiyasına səbəb olan həsəd cinsi istək və ona bənzər meyillərdən öncə qeyd olunmuşdur. Əks təqdirdə, xəyali olan atanın bütün qəbilə qadınlarını özünə həsr etməsi və həm onun, həm də digərlərinin qadınlardan istifadə etməsinə nə ehtiyac vardı? Görəsən, o, bütün gecə və gündüzdə qəbilə qadınlarına cinsi

baxımdan ehtiyac duyurdumu?

Bu zaman övladların atanı öldürməkdən peşman olması və özlərini bütün qəbilə qadınlarından məhrum etmələrinə nə ehtiyac vardı? Əgər günümüzdəki bəzi cəmiyyətlər kimi vəhşilik dövrünə qayıdaraq onlardan müştərək istifadə etsəydilər, nə olardı? Onun nəticə əldə etməsində də iradlar vardır. Bütün ictimai qanun, əxlaqi üsul və psixoloji fenomenləri onun "atanın qətlə yetirilməsi" əfsanəsilə əlaqələndirmək üçün bir dünya yapışqana ehtiyac var.

### *4. Əxlaqi vicdan və qanunların kökü*

Freydin fərziyyəsindəki ibtidai ailədə göstərilən atanın qətlə yetirilməsi kimi xeyir və şərin ziddiyyət məsələsi və onun təyini özü-özlüyündə məlumdur, çünki atanın ortadan götürülməsi onun zülmkar və maneə olmasından qaynaqlanır və maneəni aradan qaldırmaq lazımdır. Atanın qətlə yetirilməsindən öncə mövcud olan bu düşüncə ictimai qanun və əxlaqi vicdanın əsli köklərindən (təməllərindən) biridir, yəni insan öz istək və arzularına, həmçinin, cəmiyyətə müvafiq hesab etdiyi məsələləri "xeyir", ona maneə və müxalif hesab etdiklərini də "şər" olaraq başa düşür. Zülm, təcavüz, zorakılıq, oğurluq, aldatmaq, rüşvətxorluq və sairə şərdirsə, bunun səbəbi onların maddi və ya mənəvi cəhətdən fərdi və ictimai həyata maneə olması və uyğunsuzluğudur. Ədalət, əmanətdarlıq və qədirbilənlik və sairənin xeyir (yaxşı) olması onların fərdi və ictimai həyatla uyğunluğu ilə bağlıdır. Hətta xəyali qəbilədəki övladların peşmançılğına səbəb onların əvəzində bir şey əldə etmədən öz hamilərini əldən verməsi olmuşdur.

Nəticədə, Freydin düşüncəsinin əksinə olaraq əgər

ibtidai qəbilədə atanın öldürülməsi baş verməsəydi, insan xeyir və şəri (yaxşı və pisi) anlamaz və atanın qətlindən əvvəl icmali olaraq onun həyatı ilə uyğun olanları yaxşı, olmayanları da pis hesab edərdi.

Əlbəttə, insanın yaxşı və pisin, nəyinsə uyğun olub-olmamasının təyinində xətaya yol verməsi, hətta onları tərsinə başa düşməsi mümkündür. Amma bu mövzunun bizim sözümüz və yaxşı və pisin atanın öldürülməsindən sonra müəyyən olunması ilə heç bir əlaqəsi yoxdur.

### *5. Dərrakə qisminin unudulması*

Freydin insan ruhunun yönləri, ictimai və psixoloji fenomenlərin meydana çıxması ilə bağlı təsvirindəki bağışlanılmaz səhvi onun insanın əql və dərrakəsinin payını unutmasıdır. Belə ki, insan təkcə instinkt və meyillərdən ibarət deyil, əksinə dərrakə və instinktlərdən təşkil olunan bir məcmuədir. İbtidai insanın nəzərində sadəcə kainat vardı. O, öz gildən olan evini düzəltmək və mağara divarlarına heyvan şəklini çəkməkdə əql və dərrakəsini işlətdiyi halda, bu genişlikdəki heyrətamiz və aşkar olan yer, müxtəlif bitki və heyvanların yaradana ehtiyaclı olmadığını necə düşünə bilərdi? Bizi bütün ictimai və psixoloji fenomenlərin yaranma mənşəyini insan qərizəsi hesab etmək və onun əql və dərrakəsini nəzərə almamağa nə vadar edir?

Bu, həqiqətdə, bir növ biganəlik, insan vücudunu düzgün şəkildə tanımamaqdır. Təkcə insanın instinktlərini nəzərə alan kəslər sadəcə onun vücudunun yarısını öyrənmiş və yanlışlıqla onun digər yarısından qaynaqlanan fenomenləri də öyrəndikləri hissəyə nisbət vermişlər. Əgər insanın əql və idrakı ilə daxili aləmini bir-birinə qarışdırsaq, onların tənzim və mühasibəsi də

pozulacaq.

### *6. Dinlərin təhlilində Freydin yol verdiyi səhvlər*

Freydin dini məsələlərin təhlili və terminoloji bir deyimlə "dini psixoanaliz"i onun fərziyyəsindəki əsas səhvlərlə yanaşı, yeni səhvlərə də yol açdı. Çünki:

a) Əgər o vəhşi qəbiləlri araşdırırdısa, onda, nə üçün onların arasından totemə etiqad bəsləyənlər üzərində tədqiqat apardı?

Cavabında deməliyik ki, bu, onun fərziyyəsi ilə uyğun gəlirdi. Əslində, nə bütün qəbilələr totemə etiqadlı idilər, nə də onların etiqadı bugünkü insanların sələflərinin edtiqadına bir dəlildir.

Bundan əlavə, o, orta əsrlərdə Allahı "ata" adlandıran məsihiliyi araşdırmaq üçün daha çox çalışmışdır. Hətta o, öz qövmünün dini olan yəhudiliyi də bütövlükdə unutmuşdur, çünki yəhudi ayinində xəyali qəbilə və ya totemizmlə bağlı tətbiq edə biləcəyi bir şey tapmamışdır. Bundan əlavə, onlar Allahı "ata" adlandırmırdılar və beləliklə, Freydin düşüncələri təmin olunmurdu. Bu, bizim nəzəriyyəmizə müvafiq və uyğun olan fərd və şahidlər ardınca olmağımız və digərlərini görməməkdən gəlməyimiz mənasındadır. Əslində, bu üsul tədqiqatçı üsulu deyil, çünki hər bir tədqiqatçı gözlərini açaraq ətrafdakıları yaxşı görməli və hamını tədqiqat obyektinə çevirməlidir. Məsihilikdən sonra gələn İslamın və ya məsihilikdən öncə olan yəhudiliyin harasında Allah "ata", "övladın qurban edilməsi" və buna oxşar şəkildə qeyd olunmuşdur? Nə üçün Freyd dinin mizanı kimi təkcə məsihiliyi seçir və digər dinləri görməzdən gəlir?

b) O, məsihiliyin izahında da bir növ, təhrifə yol

vermişdir. Çünki kilsə məsihiliyi ata allahı deyil, oğul allahı aşkarcasına dara çəkərək qurban edir. O isə, əksinə deyir ki, ata allah oğlu allahı (Məsihi) fəda olmaq üçün göndərmişdir. Bir tərəfdən, ibtidai qəbilə əfsanəsində ata və oğulun bir-biri müqabilində durduğunu bildiyimiz halda, məsihilikdə onlar bir-birinin kənarındadır.

Digər tərəfdən, onların gümanına əsasən, oğul allah günahkarların nicat tapması üçün, yəni xəyali qəbilə dastanında bildirildiyi kimi, onların qarşısını almaq və mane olmaq üçün deyil, onların xeyrinə qurban edilir.

Eyni zamanda, "rəbbani gecə" mərasimi – tərəfdarlarının gümanına görə – Məsihin (ə) ömrünün son gecəsini (dost və şagirdlərinə yemək paylaması) xatirələrdə yaşatmaq üçündür, nəinki, onu öldürənləri – Freydin əfsanəvi qəbiləsində olan adamyeyən oğlanları – xatırlatmaq üçün.

c) Dinə meyil və marağın psixoloji cəhətdən təkamül və uşaqlıq zamanı övladın ataya arxalanması kimi təfsir edildiyi bəhsin son hissəsində Freyd keçmiş səhvlərini təkrarlamışdır, çünki bütün dinlər arasından yalnız Allahı "müqəddəs ata" deyə xitab edən "təhrif edilmiş məsihiliyi" dinə ülgü seçmişdir. Bundan əlavə, dinin aramlıq, ruhiyyə və qüdrət yaradan təsirini "yaranma hədəfi" ilə səhv salmışdır. Onun bu zəminədəki fərziyyəsi müəyyən cəhətdən "qorxu fərziyyəsi"nə oxşardır ki, onun iradlarını araşdırmışıq.

### *7. Freydin nəzərində dəyişiklik etməsi*

Maraqlı burasındadır ki, Freydin bəzi söhbətlərindən onun işin sonunda daxili məhkəmə və vicdanının məhkumu ilə etiraflar etməsini Fleysin Şale "Freyd və freydizm" kitabında belə nəql edir:

"Freyd sonuncu əsərlərinin birində psixoanalizm konfransları ilə bağlı belə yazır: "Biz insanın nəfsani həyatında irad və etirazlardan ibarət rola malik olan xüsusi məhkəmənin olmasını qəbul etməyə məcbur olduq."" Aydın məsələdir ki, onun (icbardakı) məqsədi ictimai məcburiyyət deyil, elmi və məntiqi bir məcburiyyətdir, çünki o, öz etiqadını – mühitin ideologiyasının ziddinə olsa belə – büruzə verməkdə ən cəsur və qorxmaz fərdlərin xüsusiyyətindən hesab olunur. Bəlkə də, Freydin insan psixologiyasındakı məhkəmənin olmasını qəbul etməsinə səbəb, hər bir ağıl sahibinin azacıq düşünməkdən başqa, bir şeyə ehtiyac duymadan etiraf edə biləcəyi günahsızların qanının tökülməsi, pənahsızlara zülm etmək, fitnə və fəsad törətmək, müharibə alovunu qızışdırmaq kimi aydın çirkinliklər və ya əksinə, ədalətin yaxşı olması, sülh, əmniyyət və bunlar kimi "əqli məfhumlar" adlanan terminləri cinsi meyil və ya "ibtidai qəbilə" əfsanəsi ilə məntiqi əlaqələndirə bilməməsi olmuşdur. Xüsusilə də, o, yaşadığı dövrdə iki dünya müharibəsi və onların acı nəticələrinin canlı şahidi olmuş və həyatının sonlarında onun yaşadığı yerdə tufan qalxmış və onu kənara tullamışdır, yəni 1938-ci ildə Avstriya yəhudilərin əleyhinə olan Almaniyaya birləşdirilmiş və təkcə bu mütəfəkkir yəhudinin Vyananı tərk edərək Parisə üz tutmasına icazə verilmişdir.

### *8. Freydin qisas alması*

Bəzi alimlər Freydin dinin yaranması ilə bağlı fərziyyəsilə həqiqətdə, daim hamilərinin onu təhqir etdiyi məsihilikdən intiqam almaq istədiyini ehtimal etmişlər. Əgər biz Freydi bu mövzuda ittiham etməsək

belə, ən azı bir qismi onun tərəfindən irəli sürülən psixologiya baxımından, təhsil aldığı vaxtdan ömrünün sonuna qədər həmin təhqirlərə yəhudi olduğu üçün səbir etdiyinə və bunun onda heç bir təsir qoymadığına inana bilmərik. Bu cəhətdən, onun daha çox tənqid üçün dini ülgü olaraq məsihiliyi seçdiyini görürük. Yəni, özü də bilmədən məsihiliklə mübarizəyə qalxmışdır.

### *9. Freydin yaşadığı mühitin xüsusi təsiri*

Freydin yaşadığı və Avropada şiddətli şəkildə hər yer və hər şeydə önə çəkilərək yayılmış olan cinsi məsələlərlə dolu XIX və XX əsrin xüsusi atmosferinin onun təfəkkürünün formalaşmasında təsirli olmasını da inkar edə bilmərik. Eynilə həmin dövrün iqtisadi vəziyyəti bircəhətli və kəskin olan Marks ideologiyasının yaranmasında təsirli idi. Sonuncu əsrlərdə həyatın maşınlı olması, ağır və yüngül sənayenin inkişafı və zavodların artması səbəbi ilə qadınlar bütün ictimai mərkəzlərə ayaq açaraq hər yerdə kişilərlə qaynayıb-qarışdılar. Bu mövzu çap və mətbuat sənətinin əlavə olunması və cinsi məslələri qabartmaqda təsirli rola malik film və bəzi ictimai vasitələrin yardımı ilə həmin qərizə və instinkti həddən artıq alovlandırdı, başqa sözlə, "seks" hər yerə hakim kəsildi. Təkcə qeyri-sağlam və ümumi mərkəzlərdə deyil, ticarət məsələləri və təbliğat sahəsində də ondan müxtəlif hədəflərin əldə olunmasında təsirli vasitə kimi istifadə olundu, hətta siyasi məsələlər belə ondan amanda qalmadılar və bəzi Qərb siyasətçiləri öz rəqiblərini üstələmək və daha çox səs toplamaq üçün bu məsələyə ciddi şəkildə istinad etdilər.

Cinsi məsələlərlə əlaqədar kitablar Amerika və

Avropanı tutaraq ən çox satışa malik oldu. Jurnallar sekslə bağlı məsələ, canlı şəkil və mövzularla nəşr olunaraq normal mətbuat səviyyəsini geridə qoydu. Kinoteatrlarda seks filmlərindən "həmişəki məcun" (qarışım) kimi geniş şəkildə istifadə olundu ki, digər filmləri kölgədə qoydu. Cinsi məsələlər üzrə mütəxəssislər, lütlər klubu, seks şoplar hər yeri öz əhatəsinə aldı.

Bunların ardınca gündəlik gördüyümüz məsələlər – bəzi Avropa ölkələrində çox təəssüf ki, hətta "həmcinsbazlığ"ın qanuni mövzu ünvanında parlamentdə səsə qoyulması və iftixarla qanuni şəkil alması – özünə yer tutdu.

Belə bir şəraitdə Freyd təfəkkürü kimi təfəkkür və Freydizm adlı məktəbin formalaşması və bütün ictimai və psixoloji fenomenlərin yaranma amili kimi cinsi meylin tanıtdırılması heç də təəccüb doğurmur. Freydin cinsi qərizəni ürfi mənada başa düşüləndən daha geniş mənaya şamil etməsini bilməyimizə baxmayaraq, onun əsasını məşhur (bilinən) cinsi meyil təşkil edir ki, bəzi ictimai və psixoloji fenomenlərə bəhanə gətirmək üçün Freyd məcburən onların məfhumlarını genişləndirmişdir.

Siyasi, iqtisadi və psixoloji məktəblərin əksəriyyətinin qədim qövmlərdə kökləri vardır, amma Freyd kimi bu şəkildə məktəb təqdim edən birini tapmaq olmaz, çünki Freydin yaşadığı əsrdəki kimi yayılan cinsi meyillər heç bir əsrdə, hətta vəhşi qövmlərdə belə olmamışdır.

Vəhşi qəbilələrin cinsi məsələlərdə sərhəd gözləmədiyini inkar etmirik, amma bununla yanaşı, onların arasında həmin mövzunu şiddətləndirən amil də olmamış və bunun üçün onların vasitələri yox idi. Lakin sonuncu əsrdə Avropa və Amerika bir çox əxlaqi

və ictimai cinsi normaları kənara qoyaraq onu artırmaq üçün hər şeydən yardım alırlar.

Səhv salmayın, biz Freydizmin son əsrlərdə Avropanın xüsusi icbari mühitindən yarandığını demək istəmirik. Ötən bəhslərdə işarə etdiyimiz kimi, cəbr məntiqi süst və yetərsizdir, əksinə biz Freydizm məktəbinin yaranmasında təsirli olduğunu söylədiyimiz kimi, mühit şəraitinin belə bir ideologiyanın yaranma və inkişafına zəminə yarada bildiyini deyirik.

### *10. Nurdan qorxmaq*

Keçmiş bəhsdə qısa şəkildə işarə etdiyimiz kimi, bəzilərinin gümanından fərqli olaraq, Freydin şöhrəti onun cinsi fərziyyəsinə görə deyil, əksinə ayıq vicdana malik olması və bu böyük dünyanın – vicdanın – aşkar olması üçün irəli sürdüyü üslub onun şöhrət qazanmasında böyük rol oynamışdır.

O, “psixoloji xəstəliklərin təbibi” kimi bu sirli dünyada addım atmağa çalışmış və daha sonra onun tədqiqatı “dərin psixologiya” və başqa sözlə, “psixoloji tədqiqat”a çevrilmişdir. Nəticədə, ruhun müalicə metodu olaraq axtardığı şeyi ümumi psixoloji məktəb halına gətirmişdir.

Əlbəttə, Freyd həmin sirli məsələni (vicdanı) kəşf etməmişdi, amma onun üslubu bu sahədə yeni sayılırdı. Baxmayaraq ki, Freydin nəzərləri bu zəminədə iradlardan amanda qalmamış deyildi. Beləliklə, daha çox irad tutulmasına səbəb, onun həddən artıq cinsi meyilin təsirinə israr etməsi olmuşdu ki, bu sahədə bir yox, çoxlu şahid və dəlilləri onun inkarı olaraq gətirmək olar.

İsveçrə psixoloqu Koloraydın Freyd və onun

şagirdləri barədə maraqlı bir ifadəsi vardır. O, Freydin şagirdlərini qaranlıqda yaşayan yarasalara bənzədir. Onlar insanın vicdanında öz araşdırma instinktləri ilə həqiqətləri kəşf etsələr də, qaranlığa adət etdiklərindən, nurdan (işıqdan) qorxur və istedad və təyin etməni əldən verərək qəribə fərziyyə ilə düzgün nəticə əldə etmək arasında fərq qoya bilmirlər.[1]

Freydin fərziyyəsi barədə diqqət yetirilməli olan müxtəlif iradlar belə idi. Əlbəttə, bu zəminələrin hər biri barədə bəhs etmək üçün ayrıca kitabların yazılmasına ehtiyac duyulmasına baxmayaraq, söylədiklərimiz əksər mətləbləri aydınlaşdırır.

1. *“Freyd və freydizm”dən iqtibas edilib, səh. 192.*

# 7

# "RUHÇULAR" FƏRZİYYƏSİ



Materialist sosioloqlar dini etiqadların yaranması ilə bağlı bəzən "Ruhçular fərziyyəsi" adlanan digər bir fərziyyəni irəli sürmüşlər. Amerika sosioloqu və Bruklin universitetinin müəllimi Samuel King öz kitabında bu zəminədə belə yazır:

"Sosioloqlar ümumilikdə vücudun qeyri-adi qüvvə və ya ruhla təsəvvür olunmasının bütün bəşər dinlərinin əsasını təşkil etməsi etiqadına malikdirlər. Martez "qeyri-adi qüvvələr"in "ruhun varlığı" ideyasından daha qədim olması etiqadındadır. Amma o, özünə elə də tərəfdar toplamamışdır. Sosioloqlar bu iki fərziyyənin heç birinin digərindən yaranmasını düşünmürlər."[1]

Burada mühüm olan məsələ Kingin ruhla dini bir-birilə necə əlaqələndirərək aydınlaşdırmasıdır. Amma müasir tarixçi Vil Drant öz kitabının 1-ci cildi və "Dinlərin mənşəyi" bəhsində bu fərziyyə üçün bəhanə sayıla bilən sözlər qeyd etmişdir. O yazır: "İnsan yuxuda öldüyünə əmin olduğu şəxslərin təcəlli etdiyini gördükdə, təəccüblənərək düşüncəyə qərq olur və qorxurdu. O, ölənlərini öz əllərilə torpağa dəfn etmiş və yanlarına da yeməklər qoymuşdu ki, onların geri dönməsinə ehtiyac qalmasın və həyatdakılar onların şərindən amanda qalsınlar. İbtidai insanın buna bənzər

---

*1. "Kingin sosiologiyası", səh. 200.*

hadisələrlə qarşılaşdıqda, hər bir insanın xəstələndikdə və ya öldükdə, ondan xaric olan qeyri-adi qüvvə və ya ruha malik olmasını fikirləşirdi. Təkcə insan ruha sahib deyildir, əksinə hər bir şeyin xüsusi ruhu vardır və xarici aləm ölü (cansız) və əsassız deyil. Həmçinin, o, həyat sevincinin cərəyan etdiyi bir varlıqdır... Hər şey üçün ruh təsəvvür edildiyindən, başqa sözlə, onda Allah yerləşdirildiyindən, pərəstiş olunmalı əşyaların sayı da naməhdudlaşır."[1]

Nəticədə, aydın olur ki, bu fərziyyəyə uyğun olaraq:

Birincisi, ibtidai insanlar ölümlə həyat, oyaqlıq və yuxunun müxtəlif halətlərini müqayisə etməklə hər şeyə qadir olan ruhun varlığına iman gətirmiş, daha sonra onu genişləndirərək hər bir şeydə ruh olmasını düşünmüş və sonra hər şeyin pərəstişə layiq olduğunu güman etmişlər ki, beləliklə, bütpərəstlik meydana çıxmışdır.

## *Tədqiq və araşdırma:*

### *1. Məntiqi dəlilin olmaması*

Bu fərziyyə əvvəlki fərziyyələrlə məntiqi dəlilinin olmamasında müştərəkdir və işarə etdiyimiz kimi, fərziyyələrdə də əsas məsələ hansısa bir fenomenlə qarşılaşdıqda, təxmini və ehtimali zehni hərəkət sayəsində hansısa mövzunun (yanlışlıqla) əsas amil kimi fərz olunmasına səbəb olması, daha sonra həmin mövzu ilə fenomen arasında rabitənin yaradılması və yersiz olaraq onların əlaqələndirilməsidir. Bu yerə qədər sadəcə təxmin və ehtimallardır. Daha sonra əgər digər fenomenləri də bu yolla izah edə və onların rabitəlsini

*1. "Tarixe təməddön" (Sivilizasiyalar tarixi), c.1, səh. 89-92*

aydınlaşdıra və məntiqi dəllillərlə əsil mövzunu bəyan edə bilsək, bu zaman o, sübut və qətilik mərhələsinə yetişəcək.

Amma bu mərhələyə yetişməzdən əvvəl fərziyyələr fəlsəfi baxımdan dəyərsizdir, yəni onların vasitəsilə nəyisə isbat və ya rədd etmək olmaz. Bəhs etdiyimiz fərziyyə də iradlarını nəzərə almasaq belə, həmin xüsusiyyətə malikdir.

### *2. Bəhs dairəsinin məhdudiyyəti*

Bütpərəstlik dinlərinin bu yolla izah edilməsi mümkün olduğu halda, hər cür büt və bütpərəstliyin inkar edilməsində israr edən, həmçinin, təbiət aləmindəki varlıqlara təbiət alimlər kimi nəzər salan və onların heç bir xüsususi ruha malik olmamasına etiqadlı olan heyrətamiz nəzm və sistem onları elmi dəlillərlə aləmin yaradıcısına yönəltdiyinə baxmayaraq, nə üçün onu heç vaxt bu üsulla izah etmirlər? Başqa sözlə, biz heç zaman müxtəlif, hətta xurafi və bütpərəst dinlər barəsində ümumi söhbət etmək istəməyərək onların bu fərziyyələrlə rabitəsini inkar edirik. Əksinə, bizim sözümüz təkcə asimani və əsil din kimi tanıdığımız din barəsindədir. Materialist sosioloqlar da onların fərziyyələrinin əsil dinlərlə deyil, təkcə bəzi dünya dinləri, xüsusən, ibtidai qövmlərin xurafi dini ilə izah edilə bilməsini aşkarcasına etiraf etməlidirlər. Bəlkə də, bu səbəbdən bir sıra sosioloqlar aşağıdakı həqiqətləri qeyd etməyə məcbur olmuşlar:

“Əsas məsələ ümumi şəkildə ilkin və ya bütövlükdə, bütün dinlərin hamısının necəliyinin təkcə ruha nisbət verilməsi ilə izah edilə bilməməsindədir və yaxşı olar ki, bu ideya öz yerini “mana”ya və yaxud “qeyri-cismani

qüdrətə" versin."[1]

Bu aşkar etiraf əksər dinləri ruh məsələsi ilə əlaqələndirə bilməmək və çarəsizlikdən onu tamamilə rədd etmək həqiqətindən xəbər verir.

"Mana" və ya "qeyri-cismani qüdrət"ə gəldikdə isə onun əzəli, əbədi və təbii qüvvələrin fövqündə olan qüdrətə malik Allah olduğunu deyə bilərik. Bu dinin onunla rabitəsi inkar olunmayan və varlığını gələcəkdə fəlsəfi və elmi dəlillərlə isbat edəcəyimiz bir mətləbdir.

### *3. İslam və ruh məsələsi*

Biz əgər insan ruhunun müstəqilliyi, yəni üstün əsəb sistemi və beyin molekullarının fiziki və kimyəvi xüsusiyyətlərinin mövcudluğuna etiqad bəsləyiriksə, bunu oyaqlıq və yuxu, həyat və ölüm hallarının müqayisəsi ilə deyil, maddi beyin xüsusiyyətləri və əsəb molekullarının vasitəsilə izahı qeyri-mümkün olan müxtəlif psixoloji fenomenlər sayəsində isbat edirik. Mühüm olan isə İslam dini və islami etiqadların əsasının heç zaman ruh məsələsinə söykənməməsidir. Məsələn, Quranda Allah, peyğəmbərlər, qiyamət və nübuvvətin isbatı üçün ümumiyyətlə ruh məsələsinə istinad olunmamışdır. Belə ki, kiminsə qeyri-adi və maddiyyatdan ayrı olan ruhun varlığına inanmadığını fərz etsək, onun islami etiqadına heç bir xələl gəlməz. İslamın əsası və təməli olan Quranda təkcə bir neçə məhdud halda ruha (ruh və ya başqa ünvanla) əsas bəhs mətni kimi deyil, haşiyə şəklində işarə edilmişdir. Nəticədə, belə dini ruhçular fərziyyəsi ilə necə tətbiq etmək olar? Görəsən, qeyd edilən fərziyyənin İslamla

*1. "Kingin sosiologiyası", səh. 200.*

heç bir rabitəsi olmaya bilərmi?[1]

*1. Əlavə məlumat üçün "Məad və ölümdən sonrakı aləm" kitabına müraciət edin.*

# 8

# “TƏQDİR VƏ BƏXT” FƏRZİYYƏSİ



Sminer və Kler adlı iki sosioloq tərəfindən irəli sürülən və israrla müdafiə olunan fərziyyə dinə meyilin "təqdir və bəxt" məsələsinə etiqadla bağlı olmasıdır. Onlar öz kitablarında belə yazırlar: "Təqdir amili, xüsusən, onun mənfi cəhəti sayılan "pis təqdir və bəxt" insan nəslinin uşaqlıq dövrünü qorxu və vəhşətlə doldurmuş və gözləri müqabilində qorxunc qaraltı kimi təcəssüm etmişdir."[1]

Onlar keçmişdə ibtidai insanların qara bəxt və pis tale məsələsindən çox nigaran olması və bu sahədə müəyyən tədbirlər görməsi etiqadına malikdirlər. Daha sonra bu iki şəxs sözlərinə əlavə edərək bildirir ki, ibtidai insan aşkar şəkildə xoşbəxtlik və bədbəxtlik amillərini təhlil və araşdırmağa çalışmış və ağlı bir şey kəsmədiyindən, onu fövqəltəbii qüvvə ilə əlaqələndirmişdir. Onlar dinin müəyyən bir ehtiyac müqabilində yaranması etiqadındadırlar və elə düşünürlər ki, həmin ehtiyac fövqəltəbii qüvvə ilə uyğunluqdan ibarətdir. Günümüzdə elmin inkişafı qaranlıq qalmış əksər amilləri təfəkkür və düşüncə sayəsində aydınlaşdırmasına baxmayaraq, hələ də bir çox belə amillər onun əhatəsindən kənar və sirr olaraq qalmışlar. Nəticədə, həmin amilləri aydınlaşdırmaq və tətbiq etmək dinə meyilin

*1. "Sosiologiya", səh. 206-207.*

yaranmasına səbəb olmuşdur.[1]

## Tədqiqat və araşdırma:

### 1. "Bəxt və şans" əqidəsinin yaranma mənşəyi

Məlumatımız səviyyəsində bəxt və iqbal, xoşbəxtlik və bədbəxtlik, şans və tale adlı şeylərin əksər insan fərdləri arasında olduğunu və hazırda da avam və bəzən də təhsilli kütlələr arasında onun qatı tərəfdarlarının olmasını inkar etmək olmaz.

Eyni zamanda, şans və taleyə etiqad mənşəyinin hadisə və təbii, ictimai və psixoloji fenomenlərə nisbətdəki cəhalətlə bağlı oduğunu da inkar etmirik. Yəni, bu fenomenlərin izahında aciz qaldıqlarından, onu bəxt və tale amillərilə əlaqələndirmişlər.

Şübhəsiz ki, bu, bəxt və şans əqidəsinin yeganə amillərindən biridir. Məsuliyyətlərdən qaçmaq, öz zəifliyinə don geyindirmək və ya vicdan müqabilində günahkarlıq və xəcalət hissindən bəraət qazanmaq kimi məsələlərdə digər mühüm amilləri də şans və bəxt etiqadının yaranması amili hesab edirlər.

İnsan heç zaman özünü zəlil və təhqir olunmuş görməyi və ya digərlərinin onu bu cür təsəvvür etməsini xoşlamır, əksinə bütün istedadlara malik olmasını, amma qara bəxt və tale kimi sirli və mənfi amilin ona mane olduğunu bildirir. Həmçinin, günah və ağır cinayətlərə mürtəkib olduğunda, bəraət qazanması üçün amillər axtarışındadır və bunun üçün öz günahını təqdir və şans adlı yırtıcı şirin boynuna atmaqdan daha yaxşı nə

1. *Həmin yerdə.*

ola bilər?!

Bəzən tənbəllik və rahatçılıq ruhiyyəsi onu zəhmətə səbəb olan məsuliyyətlərdən qaçmaq və qınanmamaq üçün bəxt və tale qalxanını sipər etməyə vadar edir.

### *2. Bəxt və şansın dəyişilməz ünsürü*

Daha mühüm məsələ xurafat olan bəxt, şans və tale tərəfdarlarının həmin məsələlərin insanın xəmirilə birlikdə yoğurulması və dəyişilməzliyinə etiqadıdır. Onların şairi belə deyir:

"Kiminsə bəxtini qara yazsalar, onu kövsər və zəmzəm suyu ilə ağartmaq olmaz." Bu zəminədə qədim insanların düşüncəsinin davamı olan şeirdəki belə ifadələr onların "şans və bəxti" "tale" ilə eyni hesab etmələri həqiqətini aydınlaşdırır. Onların nəzərində tale və alındakı xətlər ana bətnində olarkən yazılır və dəyişilməzdir. Xurafat mənasındakı qəza və qədər də bu məfhumlardan kənar deyil və insan fövqəltəbii qüvvənin ətəyindən yapışmayana qədər onların dəyişilməsi mümkün deyil.

İslami mənbələrdən başa düşüldüyü və əvvəldə də qeyd etdiyimiz kimi, qəza və qədərin düzgün manası iki şeydir:

Birincisi, hər şeyə nisbətdə səbəb qanununun ümumiliyi və hər hadisənin səbəbinin olması, həmçinin, hər fenomenin təqdir və ölçüsünün (miqdarının) onun səbəbilə əlaqəli olmasıdır ki, onu "təkvini qəza və qədər" adlandırırlar.

İkincisi, bizim bütün əməl və işlərimiz, həm də onların kəmiyyət və keyfiyyəti planlı şəkildə olmalıdır ki, onu "təşrii qəza və qədər" adlandırırlar. Nəzərinizə çatdırırıq ki, qəza və qədərə bu iki mənada iman qurucu, stimul yaradan və məntiqlidir. İslam müəyyən miqdarda

hər bir insanın çalışqanlıq və təlaşının onun taleyinin həllində təsirli olmasına təkid etmiş və bildirmişdir ki, əslində insan əməllərinin girovundadır.

كُلُّ نَفْسٍ بِمَا كَسَبَتْ رَهِينَة

*"Hər kəs öz əməllərinin girovundadır."*[1]

وَ كُلُّ امرءٍ بِمَا كَسَبَ رَهِين

*"Hər kəs öz əməllərinin girovundadır."*[2]

İslam dini insan iradəsinin azadlıq və əsalətinə o qədər əhəmiyyət verir ki, onları Allahla ticarət və müamilə edən kimi tanıtdırır:

إِنَّ اللَّهَ اشْتَرَى مِنَ الْمُؤْمِنِينَ أَنفُسَهُمْ وَ أَموالَهُمْ بِأَنَّ لَهُمُ الْجَنَّةَ ..

*"Həqiqətən, Allah möminlərin can və mallarını onlardan cənnətin onların olması bahasına almışdır."*[3]

Həmçinin, Allah "onlardan borc alır" – deyə buyurur, yəni Allah yolunda infaq etmək Allaha borc vermək kimidir. Bu, insan azadlığının təsəvvürü üçün ən üstün ifadələrdir.

Əgər insanın xoşbəxtliyi fövqəltəbii qüvvə tərəfindən müəyyən olunan tale və bəxtdən asılıdırsa, onda, bir tərəfində Allah, digər tərəfində insan dayanan ticarət və borc alınmasının mənası nədir?!

### *3. Bu fərziyyənin məhdud olması*

Bütün dinlər, hətta batil dinləri belə bu fərziyyə ilə izah etmək nəinki, yanlış deyil, əksinə müxtəlif dini

*1. "Muddəssir" surəsi, ayə 38.*

*2. "Tur" surəsi, ayə 21.*

*3. "Tövbə" surəsi, ayə 111.*

mətnlərin mütaliəsi (öyrənilməsi) onlarda bəxt və tale məsələsinə istinad olunmadığını nişan verir. Məsələn, İslam dini və Quranda bəxt və iqbal məsələsindən söhbət açılmamışdır və bəzilərinin İslamın yaranma səbəbinin bəxt və tale məsələsilə bağlı olmasını söyləməsi gülməlidir və hətta, onun fərdi məsələlərində belə buna toxunulmamışdır. Təhrifə uğramış məsihilikdə də dinin əsası Məsihin (ə) insanlara günahın aqibətindən nicat verməsi məsələsilə əlaqələndirilmişdir. Yəhudi dininin əsası da sonradan təhrif olunaraq irqçiliyə üstünlük versə də, məzlum bir qövmün zalım və zülmkar qövm müqabilində azadlıq mübarizəsi və Allaha iman sayəsində qurulmuşdur. Həmçinin, Zərdüşt və digər dinlərin öyrənilməsi onlardan heç birinin bəxt və şansla bağlı etiqaddan yaranmadığını sübuta yetirir.

Nəticədə, bu fərziyyə bəyan mərhələsinə malik olmamaqla yanaşı, əksər dinlərin izahında belə acizdir. Əgər ibtidai insanlar arasında bu etiqada malik olan din və ya dinlərin mövcudluğunu bilsək belə, onu digər məzhəblərə şamil etmək olmaz. Həqiqətdə, bu fərziyyə dinlərin mənşəyi barədə təqdim edilən ən zəif fərziyyədir.

# 9 - 10

# “HİSSİ VƏ ƏQLİ İDRAK” FƏRZİYYƏSİ



## *Müqəddimə*

Bura qədər materialist sosioloqların nəzərində dinlərə meyillə bağlı ən məşhur sayılan səkkiz fərziyyəni təhlil edərək araşdırdıq. bəzisi psixoloji, bəzisi ictimai, bəzisi əxlaqi və bəzisi ideoloji cəhətə malik olan bu müxtəlif növlü fərziyyələrin məcmusundan onlardan heç birinin dinlərin mənşəyini izah edə bilən ümumi bir qanunu təmsil etmədiyi nəticəsini əldə etmək olar. Bizim etiqadımıza əsasən, bunun ümdə səbəbi onların inadkar materialist məktəbinə vəfalı olmaqda israr edərək dinləri həmin üsulla izah etməyə çalışmaları və bundan ötəyə getməmələridir. Əgər onlar müstəqil şəkildə düşünsəydilər, əsas məsələnin əldə edilməsi o qədər də çətin olmazdı.

Gələn bəhslərdə dinlərə meyilin köklü səbəblərini dəqiq şəkildə araşdıracağıq. Fikrimizcə, hər bir nəzəriyyəni yoxlamaq üçün ən yaxşı mizan (məhək) ən zəruri məsələ olduğu halda, materialist sosioloqların ən az yerinə yetirdikləri şey dini mətnlərin mütaliəsidir.

Bildiyimiz kimi, materializm doqmatizm və əqlin geriliyinə düçar olduğundan, dinlərin mənşəyi barədə əhatəli və məntiqli izah verə bilməmişdir. Əgər müstəqil şəkildə düşünsək, bu izah bizim zehinimizdə qaranlıq

qalmaz. Bəlkə də, zehinə ən yaxın yol məsələni hissi və əqli idrakla izləməkdir. İlkin olaraq belə bir sual hazırlayırıq:

"Görəsən, dinin insan fitrətində xüsusi kökü (əsası) varmı, yoxsa, insan hissiyyatlarının daxilində dini hissiyyatlar yerləşdirilmişdirmi? Görəsən, bu mövzu ilə bağlı nişanələr psixoloji fenomenlər, ictimai həyat və bəşər tarixində nəzərə çarpmışdırmı?"

Bundan başqa, insan əqlinin dərinliklərində insan növünü – müxtəlif səviyyələrdə malik olduğu bütün fərqlərlə yanaşı – dini məsələlərə doğru yönəldən və ehtiyac deyil, onun bir həqiqət olduğundan insanı onun müqabilində təvazökarlıq etməyə vadar edən bir şey yoxdurmu?

Başqa ifadə ilə desək, ehtiyacları – xüsusən də, maddi ehtiyacları – nəzərə almadan hissi və əqli idrak vasitəsilə əldə edə biləcəyimiz "din" adlı bir həqiqət vardırmı? Bu, materialistlərin onun barəsində düşünmədikləri məsələdir, yəni onlar dini xarici (zehndən xaric) bir həqiqət kimi, qənaətbəxş dəlillər olmadan inkar edərək təkcə zehində mövcudluğuna etiqad bəsləmiş və daha sonra həmin zehni varlığın yaranma amilləri və nə üçün insanın özünü Allahın məxluqu kimi düşünməsi səbəblərini araşdırmağa çalışmışlar.

Bu bəhsdə bizim bütün təlaşımız yersiz qəzavətlərə yol vermədən ilkin olaraq həmin mövzunu araşdırmaq və xarici həqiqət baxımından, din üzərində düşünməkdir. Əgər doğrudan da, cavab mənfi olsa, onun zehindəki varlığı barədə təfəkkür edərik. İnsan iki qisim – əqli və hissi – idraka malik olduğundan, bu iki idrakın vasitəsilə məsələni araşdırmalıyıq.

## A) Din və hissi idrak

Məsələyə bir prizmadan yanaşan Freyd kimi psixoloq və sosioloqlar, kommunist və onların bənzərlərinin əksinə olaraq, bir sıra yeni psixoloq və tədqiqatçılar insan cisminin dörd cəhətə malik olduğu kimi, onun ruhunun da ən azı dörd yönə sahib olması və dördüncü cəhətin kəşf edilməsinə o qədər də çox zamanın qalmaması etiqadına malikdirlər. İnsan ruhunun dördlük təşkil edən cəhətləri belədir:

### *1. Həqiqət axtarışı*

Bu hiss insanın varlıq aləmi və onun müxtəlif fenomenlərinin öyrənilməsi baxımından, bir sıra elm və biliklərin yaranma mənbəyidir. Bu hissin iqtisadiyyat və ona bənzər ehtiyaclarla rabitəsi məsələn, birinci dünya müharibəsinin Avstriya şahzadəsi Frensis Ferdinandın qətlə yetirilməsi ilə başladılmasını düşünməyimiz kimi, həqiqqətdən uzaq və naşıdır. Belə ki, biz ətraf dünyada baş verən hadisələri öyrənməyə həris olduğumuz kimi, bizdən milyon işıq ili uzaqda olan planetlərdə gedən prosesləri bilməyə maraqlıyıq. Bu mənada ki, görəsən, orada həyat varmı və onların sivilizasiyası bizimkindən üstündürmü? Yaxud, milyard illər əvvəl günəşin yer kürəsindən ayrılması şəraiti və ya bizim həyatda olmayacağımız 3000-ci ildə insanların yaşam tərzi necə olacaq? Bəşər həyatının başlanğıcından onun fitrətində olan və ömrünün sonunadək olacaq bu (elm) yanğısı hüdudsuz, əbədi və qalarğıdır və bunun özü həmin məsələnin insanın daxilində yerləşdirilməsinə bir nişanədir.

### *2. Estetik hiss*

İnsanların daxildə həqiqi incəsənət və gözəlliyə duyduğu maraq və ruhən onlara tərəf cazibə hiss etməsi, şübhəsiz, iqtisadi amillər səbəbilə deyil. İnsanın maraqlı bir şeir, zərif sənət əsəri, bədii rəsm və memarlıqdan duyduğu ləzzəti iqtisadi ehtiyaclarla əlaqələndirmək olmaz, əksinə iqtisadi ehtiyacların bir qismi ruhi ehtiyaclardan yaranır və bunun özü həmin hissin əsaləti, həmçinin, ictimai və incəsəntlə bağlı fenomenlərin əksər hissəsinin yaranmasında təsirli olmasının göstəricisidir. Normal bir insan hər bir şəraitdə – azacıq fərqlərlə – bu marağı özündə hiss edə bilər.

### *3. Xeyirxahlıq hissi*

Öz daxili və vicdanının dərinliyində zəif belə olsa, “ədalət”, “şücaət”, “fədakarlıq”, “mərdlik” kimi məfhumlara maraq duymayan – hətta, min illər sonra yer kürəsi və ya digər planetlərdə yaşayacaq və bizim həyatımızdakı kimi iqtisadi və ictimai məsələlərin təsirinə məruz qalmayan insanları da nəzərdə tutsaq – kimsə varmı? Həmçinin, bizim keçmiş və gələcək zamanlardakı əxlaq qəhrəmanlarına olan məhəbbətimiz, şübhəsiz, iqtisadi və digər ehtiyaclar səbəbilə deyil, əksinə estetik gözəlliklər, daha çox elmə yiyələnmək hissləri kimi bu hiss də həqiqi hisslərdəndir və bizim vücudumuzda yerləşdirilmişdir. Eynilə cismimiz kimi, xüsusi ictimai amilə ehtiyaclı deyil.

### *4. Dini hiss*

Ali bir yaradıcının olmasına iman və ona pərəstiş yuxarıda qeyd edilən hisslər səbəbilədir.

Onun əsası iqtisadi, ictimai və cinsi amillərin təsirilə

insanın daxilinə sirayət etməklə deyil, insan ruhunun dərinliklərində yerləşdirilərək daxildən zahirə büruzə etmişdir. Bu, insan ruhunun dördlük təşkil edən və əsalətə malik cəhətlərindən biridir.

Nəzərinizə çatdıracağımız kimi, onu həyatın maddi məsələləri formalaşdırmamışdır, əksinə maddi həyat əksər halda özünü həqiqət axtarışı və estetik hisslərə fəda etdiyi kimi, ona qurban verir. Bu, müasir zamanın tədqiqatçılarının belə nəticəyə gəldikləri məsələlərdir.

Kvontaym özünün bu sahədəki icmali söhbətlərinin birində deyir: “Freyd sayəsində araşdırılması başlanan və Adler və Yunqun yardımı ilə davam etdirilən bəşərin şüuraltı psixologiyası insan ruhunun dərinliklərində yeni səhifə açaraq sirli bir qüvvənin olmasını kəşf etmişdir ki, dini hisslərin müəmmasının həllinə gətirib çıxara bilər.”

Bu barədə fikir birliyinə malik olmasaq da, hazırda müxtəlif məktəb nümayəndələrinin bir yerə toplaşaraq onun sonunun nə ilə nəticələnəcəyini bilmək istəyən bir cərəyan meydana gəlmişdir.

Dini hiss insan ruhunun ilkin sabit və təbii ünsürlərindən biridir. Onun həqiqi və mahiyyətini təşkil edən hissə digər hadisə və fenomenlərlə heç zaman tətbiq edilə bilməz, əksinə fitri idrak və əql sayəsində onun çeşmələrindən biri qeyri-iradi şəkildə fəvvarə vurur. “Dini məfhum” və ya daha dəqiq desək, “müqəddəs məfhum” (əsil incəsənətlə bağlı) estetik hiss, (əxlaqla bağlı) xeyirxahlıq hissi və (elmlə əlaqəli) həqiqət axtarışı məfhumlarına nisbətdə “dördüncü əql”dir (fəlsəfi) ki, əvvəlki üç anlayışın malik olduğu əsalət və həqiqiliyə sahibdir. Dini hissin bəşərin həyati ehtiyac və ideoloji tələbləri, həmçinin, digər üç hissədən qaynaqlanan bir

şey olmadığını, əksinə mütləq istiqlaliyyət və əsalətdən faydalanmaqla üçlük təşkil edən hissləri kölgədə qoyan və onların yaranmasının əsil mənşəyi olduğunu deyə bilərik. İndiyə qədər həmin üç hiss (həqiqət axtarışı, estetik və xeyirxahlıq) və onların fərdi və ictimai həyatdakı inikası barədə kifayət qədər məlumata sahib olmağımıza baxmayaraq, bəşər tarixi və psixoloji fenomenlər barədəki dəqiq tədqiqatlar qarşımızda qədimdən indiyə kimi dördüncü hissin, yəni dini hissin əsalətinin öyrənilməsində geniş üfüqlər açmışdır.

## *Dini hisslərin əsaləti barədə şahidlər*

Ötən bəhslərdə dini hissin həqiqət axtarışı, estetik və xeyrixahlıq hissi müqabilindəki əsaləti barədə bir sıra psixoloqların təsdiqlədiyi məsələləri öyrəndik. Əlimizdə onun əsalətini sübuta yetirən digər dəlillər də vardır ki, onları sizə təqdim edirik:

1. Keçmiş zamanlardan indiyə qədər bəşər tarixi "müqəddəs" və ya "pərəstiş və dua" məfhumunun insanların həyatında yer tutduğunu və dünyada həmin məsələnin müxtəlif şəkildə və ya nadir halda belə olsa, inikas etmədiyi bir cəmiyyətin tapılmadığını nişan verir. Müasir və tanınmış tarixçilərdən biri öz kitabının "Şərq mədəniyyətinbeşiyidir" adlıdördüncüfəslindəbeləyazır: "Əgər dini təbiətdən üstün olan qüvvələrə pərəstiş kimi mənalandırsaq, bəhsin əvvəlində bəzi ibtidai millətlərin zahirdə belə heç bir dinə malik olmadığını nəzərdən qaçırmamalıyıq. Afrikanın bəzi qəbilələrində heç bir dini ayin və ibadət növü yoxdur və onların arasında totem, büt və allahlar müşahidə olunmur və onlar ölənləri

ayinlər icra etmədən dəfn edirlər. Kamerun qəbiləsi sadəcə şər allahlarının varlığına etiqadlıdırlar və onları müəyyən ayinlərlə razı salamağa da cəhd göstərmirlər. Seylon adasında yaşayan Veda qəbiləsi isə Allah və ruhun əbədiliyinə inansa da, onun üçün nə hansısa bir ayin icra edir, nə də qurban kəsir." O, bir neçə nümunə göstərdikdən sonra sözlərinə belə davam edir: "Bununla belə, xatırlatdığımız məsələlər nadir hallardandır və dinin ümumilikdə bütün bəşərə şamil olmasını bildirən qədim etiqad həqiqətə uyğundur. Bu məsələ filosofların nəzərində əsil tarixi və psixoloji həqiqət hesab edilir və o, dinin batil və əbəs yerə yaranmasını söyləyənlərlə razılaşmır. Əksinə, dinin qədim zamanlardan tarixlə yanaşı olmasını qəbul edir."

Bəhsin sonunda öz sözlərini mənalı bir cümlə ilə bitirərək belə yazır: "Görəsən, heç zaman insanın qəlbindən silinməyən bu təqvanın mənbəyi harada yerləşir?"[1]

Gördüyünüz kimi, xatırladılan şəxs (Vil Drant) bəzi cəmiyyətlərdə din və ya dinin olmaması barədə tarixçilərin sözlərini şahid gətirərək bu halların nadir olmasına işarə edir və sonra bunun dinlərin olmaması ilə bağlı külli bir qanun hesab edilmədiyini vurğulayır. Amma həmişə insanın daxilində dini hissin mövcudluğunun mənşəyinin nə olması barədəki suala cavab vermir. Fikrimizcə, bu sual o qədər də çətin bir sual deyil və dini hisslər həqiqət axtarışı, estetik və xeyirxahlıq hissi kimi əsalətə malikdir və digər bir şeydən yaranmamışdır. Vil Drant eradan əvvəl mövcud olan dinlər barədəki digər yazılarında belə qeyd edir:

*1. Vil Dürant, "Tarixe təməddön" (Sivilizasiyalar tarixi), c.1, səh. 87-89.*

"Əgər biz dinin əsasının eradan əvvəlki zamanlarda var olmasına etiqadlı olmasaq, onda, onu tarixi dövrlərdə olduğu kimi tanıya (öyrənə) bilmərik."[1]

Keçmiş cəmiyyətlərdə də bəşər tarixinin başlanğıcından din cəmiyyətin yaratdığı bir məsələ olmamışdır, əksinə müxtəlif şahidlər eradan əvvəlki insanların da dinlərə malik olduğunu nişan verir. Beləliklə, tədqiqatların nəticəsində onlar arasında formalaşan dinin müxtəlif şəkillərdə olması məlum olur. Məşhur sosioloq Samuel King bəzi ifadələrində belə deyir: "Bugünkü insanın sələfləri və nişanələri mağaralardan əldə olunan neandertalların dinə malik olması və ölülərini xüsusi qaydada və iş alətlərini də onlarla birlikdə dəfn etməsi və bu üsulla digər dünyaya etiqadlı olması məlum olaraq sübuta yetir."[2]

Nəticədə, on min illər əvvəl yaşamış neandertalların həyatında bəşər tarixi başlamazdan və yazının ixtirasından qabaq din və etiqadın yer tutması aydınlaşır.

Dünya millətləri arasındakı böyük tarixçilərin[3] də şahidliyinə əsasən, Misir tarixi ən qədim tarixə malikdir. Onlar beş min il əvvəlki tarixə malik hadisələri diqqətə çarpdırırlar. Həmin tarix misirlilərin dünyanın dinə sahib xalqlarından olmasını və dinin onların həyatında mühüm rola malik olduğunu bildirir. Amma hal-hazırda materializm zahirdə bəşər cəmiyyətinin müəyyən bir qisminə kölgə salması və həmin cəmiyyətlərin dinini öz həyatlarından hökumətlərin təzyiqi, mütəmadi və dayanmaq bilməyən təbliğatların

*1. Vil Dürant, "Tarixe təməddön" (Sivilizasiyalar tarixi), c.1, səh. 156.*

*2. "Sosiologiya", səh. 192.*

*3. "Albermale tarixi, Şərq xalqlarının tarixi", c.1, səh. 51.*

sayəsində aradan qaldırmasına baxmayaraq, onların arasında din materializm qəlibində olsa belə, özünü büruzə verməkdədir. Məsələn, kommunistlərin dini zahirdə tamamailə inkar etməsi və onu keçmiş tarixlə əlaqələndirməsinə, həmçinin, kommunist cəmiyyətdə ona yer verməmələrinə baxmayaraq, onların marksist məktəbdən əldə etdikləri nəticə heç də dini nəticələrdən fərqli deyil və onu bir növ insanapərəstiş şəklində olan bütpərəstlik hesab etmək mümkündür.

Onlar kommunist üslubunun qüsursuz və dəqiq olduğunu düşünür və (Lenin və Marks kimi) öz rəhbərləri ilə elə rəftar edirlər ki, sanki onlar səhv və xətalardan amanda olan məsum şəxsiyyətlərdir. Bu səbəbdən, onların məktəblərinin metodunda nəzər dəyişikliyi etmək bağışlanılmaz bir iş və həmin məktəbdən şəxsin qovulması kimi hesab olunur. Kommunist cəmiyyətində hamı onu doqmatizm kimi qəbul etmək və bu barədə münaqişə etməməyə, həmçinin, asimani bir dinin tərəfdarları kimi, onu müqəddəs və əbədi hesab edərək etiqadlı olmağa vəzifəli idi. Onların arasında ağılı Lenin və Marksın əqlindən daha yaxşı çalışan və bu düşüncələrin yanlış olduğunu aydınlaşdıra bilən şəxslərin olmasına baxmayaraq, bu cür sözlər söyləmək onlar üçün təəccüblü və qəbul edilməzdir.

Görəsən, bu cür düşüncə materializmin batininə nüfuz edən digər bir dini formanı büruzə vermirmi? Qeyri-kommunist cəmiyyətlərdə dinə qarşı aparılan bütün mübarizələrə – onun kökləri orta əsrlərə və kilsənin dəlilsiz və rəhimsizcəsinə alim və elm adamları ilə mübarizəsinə gedib çıxır – və ictimai həyatdakı maşınlı dəyişikliklərin yaranmasına baxmayaraq, yenə də din

özünü qoruyub saxlaya bilmişdir. Əbədi və ümumi şəkildə olan belə bir daimi nişanəni tarixlər boyu, hətta eradan əvvəl adət və ənənələrin və ya maddi ehtiyacların nəticəsi kimi dəyərləndirmək olmaz, əksinə onun digər üç həqiqi hiss kimi mövcud olmasına və heç bir sərhəd tanımamasına inanmalı olduğumuz şəkildə insan ruhunun dərinliklərində köklərinin mövcudluğuna etiqadlı olsaq, bu daha məntiqəuyğun nəzərə çarpar.

Bütün insan cəmiyyətində malik olduğu xüsusiyyət və fərqlilikləri ilə yanaşı tarixdə kök saldığı və ən azı, bəşər tarixinin qəlbində müxtəlif tufanlar qopardığı və hər şeyi dəyişdiyi, özünə əbədi bir xüsusiyyət qazandığı, bəzi cəmiyyətlər onu qapıdan qovduqlarında bacadan girdiyi və özünü onlara yad deyil, tanış bir formada nişan verdiyi halda, dini hisslərin həqiqi olmadığını və insan ruhunun müəyyən bir cəhətini təşkil etmədiyini söyləmək mümkündürmü?!

Renesans dövrü şüarları " Təbiət elmləri" inqilabı dövrünün başlaması ilə dinə heç bir yer qalmadığını hekayət etsə də, hazırkı Avropa və Amerikadakı dini təsisatlar və dinə nisbətdə müşahidə olunan irfani, yaxud digər formadakı yeni təmayüllər və Şərq dinlərinin Avropa və Amerika qitəsindəki yeni məntəqələri öz təsiri altına alması həmin şüarların hansı həddə düşünülməmiş olduğunu göstərir.

Həqiqətdə, bəşər tarixinin " Əfsanələr", " Din", " Fəlsəfə" və " Elm" dövrlərinə bölünməsi həqiqətlər müqbilində öz tarixi dəyərini itirən xəyali bölgü deyil! Onların gümanının əksinə olaraq, din öz hakimiyyət və nüfuzunu bu dövrlərdə qorumuş və günümüzdə də bütün cəmiyyətlərdə fərqliliklə mövcuddur. Nəticədə,

var olan gerçəklik bütövlükdə dinin ümumiliyindən və dinin ümumiliyi isə dini hisslərin həqiqiliyindən söz açır. Əlbəttə, uzaqdan hökm verən və zahirə diqqət yetirərək dini qruplar şəklində müşahidə edən kəslər üçün günümüzdə "dünyanın sürətlə dindən uzaqlaşması" kimi bir yanlış anlaşılmanın qarşıya çıxması mümkündür. Əgər məsələyə yaxından diqqət yetirərək dini fəaliyyətlərin genişlənməsi, müxtəlif məbəd və yeni-yeni tikililərin artmasına, hətta onların dünya universitetlərindəki nüfuzuna nəzər salsaq, dini düşüncələrin yayılmaqda olmasına hökm edəcəyik.

2. Dini fenomenlər dini hislərin əsaləti barədə digər bir sübutdur.

Əvvəlki bəhslərdə bəşər tarixi boyunca dinin ümumi və əbədi olmasınının keyfiyyətinin dini hisslərin əsaləti üçün necə sübut olmasını vurğuladıq. Hazırkı bəhsimizdə həmin məsələni digər yolla – fenomenlər vasitəsi ilə – araşdıracağıq.

**Məsələnin bəyanı:**

Bəşər tarixində baş verən bir sıra hadisələr nəzər çarpır ki, onlar insanın həyatda dinə daha çox yer verməsi, hətta iqtisadi, maddi imkan və arzularını ona (dinə) fəda etməsini göstərir. Əgər din qeyri-həqiqi bir göstərici olsaydı, onun maddi maraqlar çərçivəsində xülasələnməsi və onların maraqlarını təmin etdiyi müddətə qədər mövcud olması lazım gələrdi. Halbuki, əksər tarixi hadisələrdə dinin bütün məsələlərə hakim kəsildiyini müşahidə edirik. Həmin hadisələrin bir qismi ilə bağlı istər maddi olsun, istər iqtisadi, bir sıra xüsusiyyətlərin olmasını söyləmək mümkün olsa da, onların hamısı ilə bağlı qəti şəkildə bu cür fikir yürüdə

bilmərik. Bu məsələdə təkcə insan fərdlərinin bütün mal və sərvətlərini, hətta canlarını belə dini hislər yolunda təəccüb doğuracaq şəkildə fəda etməsini deyil, əksinə bir sıra cəmiyyətlərin də eyni şəkildə fədakarlığını tarix boyu müşahidə etmək mümkündür. Dinin tarixi bu cür nümunələrlə doludur. Görəsən, onların hamısını maddiyyatla izah etmək mümkündürmü?

Görəsən, dini döyüş meydanlarında ilahi hədəflərinə nail olmaq üçün şəhidlik şərbətini məhəbbətlə içən kəslər, hətta dinini qorumaq üçün özünə od vuran, atəş şölələri arasında öz aramlıq və soyuqqanlığını qoruyan, şam kimi yanaraq kül olan buddist və bütpərəstlərin maddi maraqlar güdməsi mümkündürmü?

Bütün gözlər yuxuda olduğu halda, gecə oyaq qalan, öz Allahı ilə xəlvətdə münacat edən və mənəvi ehtiyaclarını Rəbbinə bildirən bir şəxsin maddi hədəflərə malik olduğunu söyləmək olarmı? Bütün bunlar dini hisslərin insan fitrətində əsalətini aydınlaşdıran məsələlərdəndir. Əlbəttə, xurafatlardan uzaq və həqiqi bir dinin irqçilik, geostrateji və digər məsələlərdən yaranan pərakəndəlik ixtilaf, parçalanma və ayrılıqlar müqabilində hansısa bir cəmiyyətin vəhdətinə səbəb ola biləcək amil, həmçinin, bəşərin istər-istəməz onunla üzbəüz olduğu sıxıntı və bəlalar qarşısında aramlıq və təsəlli mənbəyi olmasını və bu qəbildən olan digər ehtiyacları təmin etməsini də inkar etmək olmaz. Bununla yanaşı, dinə nisbətdə elə bir cazibə var ki, gərəkdiyində insanın bütün maraqlarını ona fəda etməsinə səbəb ola bilir. Misal olaraq onsuz maddi həyatın mümkün olmadığı və insanı elmə tərəf dəvət etməsinə səbəb olan “ doğru danışmaq” hissini və ya əxlaqi məsələlərin mənbəyi olan “ xeyirxahlıq” hissini

göstərmək olar. Bu hisslər ictimai əxlaq sahəsində mövqe tutaraq cəmiyyət, müxtəlif fərdi və ictimai mənfəətlərin var ola bilməsi istiqamətində fəaliyyət göstərir. Eyni zamanda, "estetik hiss"in elmi nailiyyətlərə səbəb olaraq maddi mənfəətlər gətirməsi də mümkündür. Bununla belə, həmin hisslərin əhatə dairəsinin – əvvəldə də işarə etdiyimiz kimi – ictimai və fərdi mənfəətlərin təmininə həsr olunduğunu söyləmək mümkün deyil, əksinə həmin hisslər bəzən mənfəətlərə nisbətdə onlara əhəmiyyət vermir və hətta onları özünə qurban verir. Dini hisslərlə bağlı tarixi və sosioloji araşdırmalar apardıqdan sonra, onun hakimiyyət dairəsinin maddi mənfəətlərdən daha üstün olması və bəzən də maddi mənfəətlərin ona qurban verilməsi həqiqətini əldə edirik.

## *Dini hisslərin digər həqiqi hisslərlə əlaqəsi*

Müxtəlif araşdırmaların dördlük təşkil edən bu hisslərin əsalətini sübuta yetirməsinə baxmayaraq, onlar arasında qarşılıqlı təsir və rabitənin olmasını da müşahidə etmək mümkündür. Misal olaraq " dini hisslər"lə " xeyirxahlıq hissi" arasında yaxın rabitənin olmasını və "dini hiss"in ona nisbətdə dəstək rolunu oynadığını və onun nüfuz dairəsini genişləndirdiyini söyləmək olar.

Vil Drantın dedyi kimi, cəmiyyətlər nadir hallarda öz əxlaqi dəyərlərini aydın şəkildə iqtisadi və siyasi mənafelər fonunda möhkəmləndirməyə çalışmışlar, çünki hansısa bir şəxs təbiətinə əsasən, öz iqtisadi mənafeyini cəmiyyətin mənafeyinə tabe olaraq qurban verməyə, yaxud onlara tabe olmayacağı təqdirdə,

zahirdə hansısa bir cəzalandırmanı nəzərdə tutmayan quru və yorucu qanunlara boyun əyməyə hazır deyil. Bu cəhətdən, cəmiyyətə gözəgörünməz bir nəzarətçi təyin etmək və ictimai təmayüllər müqabilində fərdi hissləri təşviq və ümid hissiyyatını təhrik etmək üçün dindən istifadə edilmişdir. Guya, din müqəddəs əxlaqi normalar yaradır.[1]

Həmçinin, elmlərin yaranmasına səbəb olan "həqiqət hissi"nin də aləmin sirlərinin kəşfində "dini hisslər"ə yardımçı olması mümkündür. Eyni zamanda, "dini hisslər" də elmin başlanğıcı və bu dünyanın bütün zərrələrini hikmət və hesab-kitab əsasında yaradan bir qüdrətə iman bəsləməklə təbiət elmlərilə məşğul olan alimləri aləmdəki fenomenlərin yaradıcısı ilə bağlı daha dəqiq düşüncəyə malik olmaqda yardım edə bilər. Nəticədə, deməliyik ki, bu hisslər bir-biri ilə qarşılıqlı rabitəyə malikdirlər.

Görəsən, dini xüsusiyyətlər insan ruhunun digər cəhətlərinin yaranma mənbəyidirmi?

İnsan ruhunun müxtəlif cəhətlərə malik olması və onlardan birinin dini hisslər olduğunu bildikdən, başqa ifadə ilə desək, psixoloqların son zamanlarda insanda onun özündən xəbərsiz şəkildə mövcud olan və əsalətəmalik dörd hissdən biri olmasına etiraf etməsindən sonra, həmin üç hissin – yəni, "həqiqət", "xeyirxahlıq" və "gözəllik" hissinin sözün əsil mənasında, "dini hissdən" qaynaqlanan hislər olduğunu söyləməyə imkan vermirmi?

Tədqiqatlara əsaslanan "Tanegi" adlı məqalədən edilən tərcümə və iqtibaslarda belə qeyd olunmuşdur:

---

*1. Vil Dürant, "Şərq mədəniyyətin beşiyidir", səh. 86-87.*

“Təbiət aləmində kəşf edilən və müasir əsrin xüsusiyyətlərindən bir hesab olunan, “zaman” və ya “məkan” adlı dördüncü cəhətin (xüsusiyyət) müəyyən olunmuş üç fəzadan ibarət olması və eyni zamanda, həmin üç fəzanı özündə birləşdirməsi öyrənildiyi kimi, hazırkı dövrdə “gözəllik (estetika)”, “xeyirxahlıq” və “həqiqət” adlı məfhumların kənarında insan ruhunun bir cəhəti olan “müqəddəslik” və “ilahilik” məsələsi bir daha yenidən kəşf olunmuşdur. Bu üç məfhumun hissəsini təşkil edən və insan ruhunun dördüncü xüsusiyyəti sayılan bu xüsusiyyətin digər üç cəhətin yaranma mənşəyi hesab olunması da mümkündür.”[1]

Albert Enşteynin sözlərində də buna bənzər ifadələrlə rastlaşırıq. O, belə deyir: “Bizdə meydana gələ biləcək ən gözəl və dərin hissin irfani hisslər ola bilməsi mümkündür və həmin hisslər bütün elmlərin toxumunu insan qəlbində cücərdə bilir. Bu hisslərdən uzaq olan, təəccüb və heyrətlənə bilməyən kəslər sanki ölmüş kimidirlər.”[2]

“Muhacerəte əfkar” (Düşüncələrin hicrəti) adlı kitabın müəllifi olan Gelbert “din və incəsənət” başlığı altında belə yazır: “Din incəsənətlə bağlı hisslərin yaranmasında ən mühüm mənbələrdən biri hesab edilir. Eyni zamanda, incəsənət də dini təfəkkürlərin keyfiyyətinin aşkar olunmasında ən yaxşı vəsilə sayılır və dünyanın hər bir yerində – Çin məbədlərindən tutmuş Meksikadakı mücəssəmə və abidələrə qədər – incəsənət xadimləri allahların yad edilməsi ilə əlaqədar ən ali incəsənət əsər

*1. Mühəndis Bəyaninin tərcümə və iqtibası, “Dini hisslər”, ikinci çap, səh. 39.*

*2. Mühəndis Bəyaninin tərcümə və iqtibası, “Dini hisslər”, ikinci çap, səh. 80.*

və nümunələri yaratmışlar."[1]

## Nəzmə (sistemliliyə) məhəbbət

Yuxarıda qeyd olunan və dördlük təşkil edərək insan ruhunun əsil maraq və hədəfindən ibarət olan hisslər barədəki son tədqiqat və təhlillər onlar arasında müştərək xüsusiyyətin olmasını nişan verir. Biz həmin xüsusiyyəti "nəzm və sistemliliyə məhəbbət" adlandırırıq.

Həqiqi hisslərdən qaynaqlanan elm və biliklər reallıqda yaradılış sistemi və onun ümumi qaydalarının dərki və ya bu qədər genişliyə malik aləmin xüsusiyyət və incəliklərinin öyrənilməsinə qayıdır. Həqiqətdə, elmə məhəbbət elə varlıq aləmindəki sistem və nəzmin dərkinə məhəbbətdən ibarətdir. Xeyirxahlıq hissinin təcəlli və təzahürlərindən ibarət olan əxlaqi vərdişlər, psixoloji halət və keyfiyyətlər, əslində bir növ əxlaqi sistemlilik və nəzmə məhəbbətdir.

Nəticədə, əxlaqi fəsad və inhirafların ifrat və təfritlər, istək və meyillərə nəzarət edilməməsi və onların hərc-mərcliyindən yarandığı və qaynaqlandığı məlum olur. Estetik hisslərin hədəfini təşkil edən gözəlliklər görməli və eşitməli məsələlərdən yaranan sistemlilikdən başqa, digər bir şey deyil. Cazibədar və gözəl səslənən bir nəğmə, üzvləri yerli-yerində olan yaraşıqlı bir bədən, maraqlı bir bədii əsər – bunların hamısı sistemliliyə malikdir və insanı qeyri-adi şəkildə öz təsiri altına sala bilir.

Beləliklə, din "bu varlıq aləmindəki sistemin

*1. "Muhacerəte əfkar" (düşüncələrin hicrəti) adlı kitabın ("Hicrətul-əfkar" adı altında) ərəbcəyə tərcüməsindən nəql edilmişdir. Tərcümənin müəllifi Şəfiq Əsəd Fəriq, səh. 39-69.*

yaradıcısına məhəbbət"dən başqa, bir şey deyildir. Başqa bir ifadə ilə desək, "elm" yaradılış sitemi ilə həmahəng olan düşüncə sistemliliyinə, "əxlaq" instinkt və istəklərə, "estetika və gözəllik" eşidiləsi və görüləsi keyfiyyətlərdəki sistemliliyə, "din" isə bu sistemliliyin yaradıcısına qayıdır. Yuxarıda qeyd olunanlara diqqət yeritməklə, dini hisslərin nə üçün dördlük təşkil edən digər hisslərin mənşəyi hesab olunduğunu asanlıqla anlamaq olar. Belə ki, digər hisslər bu sistemlilik və nizama məhəbbət bəsləməkdən ibarət olduğu halda, din həmin sistemin yaradıcısına məhəbbət göstərməkdən ibarətdir. Bu minvalla, əgər dini hissləri geniş mənada nəzərdə tutaraq onun əsasının varlıq aləmi və bu sistemliliyin yaradıcısına imandan təşkil olunması kimi təfsir etsək, onda, dini hisslərin digər üç hissin yaranma mənşəyi hesab olunmasının səbəbi məlum olacaq.

Onun mənşə hesab olunması digər hislərin əsalətindən hansısa bir şeyin azalması demək deyil, əksinə burada məqsəd dini hisslərin digər üç hissin əsaslandığı yaradılış aləminə istinad etməsinin nəzərdə tutulmasıdır. Daha aydın şəkildə desək, dini hisslər səbəbə (Allaha), digər üç hiss isə həmin səbəbin nişanə və əsərlərinə (nəticələrə) əsaslanır. Bununla yanaşı, əgər dini hisslərin əsaləti barədə şəkk-şübhəyə düşsək və onun bu xüsusiyyətini görməzdən gəlsək, yenə də dini hissə heç bir xələl gəlməz.

## *B) Din və əqli idrak*

Bilirik ki, insan "iradi" və "qeyri-iradi" şüura malikdir. "Qeyri-iradi" şüuru "batini şüur" və ya "gizli şüur" da adlandırırlar.

Freydin söylədiklərinin əksinə olaraq, bu şüur cinsi hisslər məcmusundan ibarət deyil ki, həmin istəklərin təmin olunmaması nəticəsində bu şüur ruhun zülmət dərinliyinə yönəlmiş və yuxuda röya şəklində, oyaqlıq zamanı isə müxtəlif formalarda özünü büruzə vermiş olsun. Əksinə, Freydin məşhur və inadkar şagirdi və öz ustadının cinsi fərziyyə məktəbinin təməlini laxladaraq "qüdrətə meyil" kimi hisslərin də onda təsirli olduğunu söyləyən Adler həmin məsələni diqqət mərkəzində saxlamışdır. Bundan əlavə, hətta həmin meyillərdən öncə də, hər bir insanda qeyri-iradi şüur mövcud olmuş və Freydin digər sözəbaxmaz şagirdi Yunq Adlerin tədqiqatlarını davam etdirərək Freydin cinsi nəzəriyyəsini batil etmək zəminəsində yeni həqiqətlər kəşf etmiş və qeyri-iradi şüurun bütün insanlarda müştərək olan fitri ünsürlərindən təşkil olunduğunu söyləmişdir. Başqa bir ifadə ilə desək, hər bir insanın qeyri-iradi şüurunda elə hisslər var ki, həmin hisslər insan dünyaya gəldiyi zamandan onunla birlikdə yaranır və onların hansısa bir yerdən gələrək qeyri-iradi şüura pənah aparmış olduğunu söyləmək olmaz. Yunq bu həqiqəti sübuta yetirmək üçün ustadı Freydin istifadə etdiyi metodlardan istifadə edir. Yəni, insanların yuxuları üzərində təhlil və araşdırmalar aparmaqla (hipnotizmlə) cinsi və qüdrətlə bağlı meyillərdən heç biri ilə izah oluna bilməyən bu əsil ünsürlərin varlığını tədqiq edir və onların bir qismi bizə dinlərdə müşahidə olunan məfhumları xatırladır.[1]

Həmin səbəbdən, dini düşüncələrin meydana çıxmasındakı maraq və meylləri insan psixologiyasının

*1. "Dini hisslər", səh. 36 ("Konton" məqaləsindən)*

bu qismində araşdırmaq lazımdır.

Bu mərhələni geridə qoyaraq "iradi süur" mərhələsinə yetişdikdə, qeyri-mədəni insanlarda əksinin nəzərə çarpmasına baxmayaraq, mədəni insanlarda daha geniş şəkildə müşahidə olunan və əvvəlki mərhələyə – qeyri-iradi şüur mərhələsinə – nisbətdə daha çox fəaliyyət göstərən "dini düşüncələr"in digər bir mənşəyi ilə qarşılaşırıq. Bu məsələnin daha yaxşı izah olunması üçün bir neçə mətləbə diqqət yetirilməlidir:

### *1. İbtidai insanlardakı sistemlilik (nəzm) və hədəf*

Tarixçilər belə yazırlar: "İnsanın hələ daşdan ibarət olan silahlardan istifadə edə bilməsi uzun illər ötdükdən sonra mümkün olmuşdu. Bəzi tarixçilərin nəzərinə əsasən, bu məsələ yüz min il ərzində baş vermişdi və həmin dövr "Qədim daş dövrü" adı ilə tanınır. Onlara məxsus olan sadə alət və əşyalar o qədər də əlimizə gəlib çatmamış, əsr və qərinələrin qoynunda gizli olaraq qalmaqdadır. Bundan sonra onlar daşları yonaraq onu cilalamağı öyrənmişlər ki, həmin dövr "Yeni daş dövrü" adlanır. Bu dövr İsa Məsihin (ə) dünyaya gəlməsindən öncə başlamışdır."[1]

Qədim daş dövrü insanlarından bizə yadigar qalan nişanələr ustalıq və qeyri-adi məharətlə mağara divarlarına həkk edilmiş mamont, kərkədan, gamış, ayı, at və maral rəsmlərindən ibarətdir. Maraqlı burasındadır ki, onlar heyvanların şəkillərini onların hərəkət etdiyi halda divarlara həkk eləmiş və heç bir xüsusiyyəti nəzərdən qaçırmamışlar. Bununla yanaşı, onlar insan

---

*1. "Albermale tarixi", c.1, səh. 4-8.*

rəsmlərinin çəkilməsində heç bir zəhmətə qatlaşmamış və incəliklərə diqqət yetirməmişlər.[1] Həmin məsələ qədim insanların heyvanlara xüsusi əhəmiyyət verərək onlara pərəstiş etdiyini və ya digər xüsusiyyətləri nəzərə çarpdırır. Yeni daş dövründənqalma saxsı qabların tapılması qədim dövrdə saxsı qablar düzəltmək sənətinin geniş şəkildə yayılmasından xəbər verir. Heç kim onların filizi necə kəşf edərək əritməsi və ondan müxtəlif alətləri necə düzəltməsini bilmir. Bəlkə də, hansısa bir yanğın sayəsində bu sirr kəşf olunmuşdur. Amma əlimizə gəlib çatan əşyalar qədim insanın əvvəlcə misi kəşf etdiyini və ondan əşyalar hazırladığını sübuta yetirir. Misdən düzəldilən əşyalar nazik və davamlı olmadığından, onlar bir müddət sonra misdən daha möhkəm olan tuncu kəşf edirlər. Həqiqətdə, filiz əsri dəmirin kəşf olunmasından sonra başlamışdır. Bu maddə təbiətin qoynunda mövcud olmuş və insanın ixtiyarında qoyulmuşdur. Həmin əsri "mis", "tunc" və "dəmir" dövrü olmaqla üç dövrə bölürlər. Bu dövrlərlə yanaşı, bəzi qəbilələr arasında hətta mis dövründə belə, yazının ixtira olunmasını və miladdan öncəki tarixi sona yetirməsini də nəzərdən qaçırmaq olmaz.

Şübhəsiz ki, insan həddən artıq üzunmüddətli olan bu dövrlərdə "hədəf" və "nəzm" məsələsi ilə tanışlığa malik olmuşdur. Məsələn, qədim insan hanısa bir mağaraya daxil olduqda, digərləri tərəfindən bir sıra qeyri-münəzzəm xətlərlə çəkilən heyvan şəkillərini fərqləndirməyi bacarmış və hansısa bir çayın üzərində qurulan və bir-birinə taxta çubuqlar və ağac liflərindən hazırlanmış kəndirlə bağlanan körpünü, təbii şəkildə

*1. "Albermale tarixi", c.1, səh. 4-8.*

ağacların budağından düzələn körpüdən ayırd edə bilmişdir. Daşları nizamlı şəkildə bir-birinin üzərinə qoymaqla kvadratşəkilli divar düzəltməsi və onun tavanını ağacların böyük budaqları ilə örtərək özünə ev tikməsindən – bizə o qədər də zinətli və cəlbedici görsənməsə də – qədim və ağıllı insanın sığınacaq düzəltdiyini anlamaq olar.

Biz də on minlərlə il ötüb keçən bu dövr barəsində onların daşları yonması, saxsı qablar düzəltməsi, mağara divarları üzərində rəsmlər çəkməsindən başqa, heç bir şey bilmirik. Biz heç zaman onları görmədiyimiz halda, sadəcə sayca az olan müəyyən bir qəbilələr və onların həyat tərzi barəsində bir qədər məlumata sahibik və onları tarixi əsərlərdə qeyd etmişik. Eyni zamanda, bizimlə onlar arasında rabitə yaradan şeylər əlimizə gəlib çatmış olan əşyalardır. Bu səbəbdən, biz milladdan öncəki zamana məxsus olan belə əşyaların, onlar ibtidai və bəsit şəkildə olsalar belə, müəyyən nəzm və hədəfə xidmət etdiyini və əql, idrak, iradə mənbəyinin varlğına bir dəlil olduğunu düşünürük.

### *2. Sistemlilik və elmin rabitəsi*

Müəyyən hədəf və məqsədlərə xidmət edən hansısa bir əsərin yaradılması üçün istənilən kəmiyyət və keyfiyyətə malik olan bütün şeylərdən istifadə etmək olmaz. Əksinə, aləmdə mövcud olan müxtəlif maddələr arasından bizə lazım olan xüsusi kəmiyyət və keyfiyyətli maddəni müəyyən miqdarda seçməli və ondan istifadə etməliyik. Misal üçün, nə damarlardan axıb çölə çıxmayacaq qədər incə, kiçik damarların divarını tutmayacaq qədər yağlı, nə hərəkət edə bilməyəcək qədər qəliz, nə şəkərin miqdarı çox olaraq bədənin cəzb etməsinə mane və əksinə,

həddən artıq az miqdarda olmaqla qidalanmaqda yetərli olmayan, nə homoqlabinin rənginin qırmızılığı həddən artıq olaraq xərçəng xəstəliyinin yaranmasına səbəb, nə də leykositlərin miqdarı az olaraq qan azlığı törədən – bir sözlə bütün normal xüsusiyyətləri yerli yerində olan qan kimi bir şeyin yaradılması və sadalanan xüsusiyyətlərlə bağlı hədəfin təmini üçün, aləmi təşkil edən bu qədər ünsürlərin arasından yalnız bəsit filiz (dəmir) və onun oxşarlarını seçmək lazımdır. Şübhəsiz ki, bu maddələri kor-koranə şəkildə seçmək olmaz, əksinə onları elm və agahlıqla yerdə qalan digər ünsürlərin arasından seçib ayırmaq lazımdır. Daha sonra onlardan həddən artıq əhəmiyyətə malik və zəruri olan kəmiyyət məsələsi meydana çıxacaq və onun təyinində milliqram və bəzən də mikroqramlardan istifadə olunacaq. Aydın məsələdir ki, kəmiyyətin təyin olunması da təsadüfi bir sistemlilikdən yaranıb meydana gələ bilməz.

Daha sonra keyfiyyət məsələsi qarşıya çıxır. Həmin maddələrin yüzlərlə, hətta minlərlə formalarının yarana bilməsi və onların hamısının nəzərdə tutulan hədəfi təmin etməkdə yetərli olmaması, hətta bəzən xətərli olması belə mümkündür. Bu mərhələ də kamil bir diqqət və ayıqlıqla həyata keçirilməlidir. Zəruri maddə, kəmiyyət və keyfiyyət kimi üç mərhələni keçmək təkcə sağlam və canlı bir qanın (qan hüceyələrinin) yaradılması üçün deyil, əksinə hansısa bir kimyəvi, fiziki, mexaniki maddə və vasitələrin yaradılmasında, həmçinin, daş dövründə yaşayanların sadə və primitiv bir ev tikməsində belə zəruri olmuşdur. Bu formadakı nəzm və sistemlilik istər-istəməz insanı heç zaman görmədiyi bir əql və elm sahibinin olmasından agah edir.

### *3. İbtidai insanların nəzərində dünya sistemi*

Qədim və yeni daş dövrü, mis, tunc və dəmir dövründə yaşayan qədim və ibtidai insanlar aləmdəki təbii hadisələr barədə bir o qədər də məlumat və elmə sahib olmasalar da, baxdıqda insanın diqqətini özünə cəlb edən nəzm və sistemliliyi qeyri-ixtiyari şəkildə belə olsa, görür və müşahidə edirdilər.

Onlar qanın həyat bəxş edən tərkibi barədə xəbərsiz olsalar da, hər il cansız torpaqdan müxtəlif rəngli, göz oxşayan bitkilərin dəqiq və zərif şəkildə cücərərək bitdiyini görür və seyr edirdilər. Həmin zamanlarda bütövlükdə hamısı qara torpaq və adi sudan qidalanaraq təbii şəkildə bitən və müxtəlif dadlara malik olan bir sıra meyvələr vardı. Onlar günəş və ayın çıxması, ulduzların doğması, gün və illərin dəyişməsi, fəsillərin yaranmasını – bir sözlə, nizamlı şəkildə təbiətdəki dəyişiklikləri – müşahidə edir və görürdülər. Bundan əlavə, insan öz bədən üzvlərinə, göz, qulaq, əl və ayağına nəzər saldıqda, xüsusən də, onu yarımçıq dünyaya gələrək düşən uşaqlarla müqayisə etdikdə, hələ onun kiçik bir hissəsini dərk etdiyi aləmdəki nəzm və sistemliliyə baxdıqda, düşüncəyə dalır və başa düşürdü ki, onun düzəltdiyi sadə alətlər öz-özünə yaranmadığı kimi, bu sistem və nəzmi də yaradan əql və qüdrət sahibi bir kəs var. Beləliklə, onun aləm barəsindəki təsəvvürlərin məcmusu ibtidai dini hisslər hesab olunurdu.

Əlbəttə, biz ibtidai insanın xaliqi necə təsəvvür etdiyini, onu hansısa bir heyvan, səma cismi qəlibində düşündüyünü və onları fövqəladə bir ruha sahib olması, yaxud fövqəltəbii bir formada təsəvvür edib-etmədiyini deyə bilmərik. Nəticədə, söylədiyimiz mətləblərin əqli

idrak və yaradılış sistemi sayəsində dinə maraq məsələsi ilə heç bir ziddiyyətə malik olmadığını deyə bilərik.

İbtidai insan tikdiyi primitiv daxmalar və düzəltdiyi əmək alətlərinin öz-özünə və təsadüfi şəkildə yaranmasını düşünmür, əksinə onları həftələr və aylarla zəhmət çəkmək müqabilində əldə edirdi. Belə olduğu halda, onun belə bir sistem və varlıq aləminin təsadüfi və gözlənilməz şəkildə yaranmasını təsəvvür etdiyini söyləmək mümkündürmü?!

Həqiqətdə, görəsən, nə üçün materialist alimlər belə aydın və aşkar bir məsələni kənara qoyaraq dinlərə meyil və maraqla bağlı digər dəlillərin ardınca düşmüşlər? Onların dini maddi məsələlərlə təfsir etməkdə bir-biri ilə vədələşdiyini söyləməkdən başqa, heç bir çarə yoxdur.

Bununla belə, dinlərə meyilin yaranmasını həm keçmişdə və həm də indi insanın əqli dərrakəsi sayəsində təfsir etmək bu mövzu ilə bağlı ən məntiqli və təbii bir üsuldur.

## *Bizim əsrimizdə dinə maraq*

İnsanın elmini bir nöqteyi-nəzərdən iki qismə bölmək olar: Təcrübi və nəzəri elmlər.

Təcrübi elmlərin bizim ən aydın biliklərimizi əhatə etməsində heç bir şəkk-şübhə yoxdur və biz onunla bağlı həqiqətlərin hissin astanasında olduğunu görürük. Amma hiss və təcrübənin təklikdə və nəzəri elmlərin yardımı olmadan həqiqətləri bizə olduğu kimi çatdırmasını təsəvvür etmək səhv və yanlışlıqdır, çünki hiss bəzilərinin düşüncəsinin əksinə olaraq, həqiqəti dərk etməkdə qəti və yeganə vasitə deyil. Misal üçün, bizim ən dəqiq və müsbət görmə qabiliyyətimizi ifadə edən

göz belə bir sıra xətalara yol verir və hal-hazırda görmə ilə bağlı xətalar “görmə xətaları” adı ilə məşhurdur.

Hisslərin xətaya yol veməsini anlamaq bizi bu zəminədə əqldən yardım almağa sövq edir. Bundan əlavə, hisslərin fəaliyyəti məkan, zaman və dünyada mövcud olan əşyaların zahiri baxımından da məhduddur. Həmin səbəbdən, bütün məsələləri laboratoriyalarda araşdırmaq olmaz. Xüsusən də, keçmiş zaman (uzaq keçmiş), dünyadakı səbəb və nəticələr, eyni zamanda, bu qəbildən olan digər məsələləri əqlin yardımı sayəsində araşdıraraq öyrənmək lazımdır.

Nəzəri elmlər arasında da xalis şəkildə nəzəri olmayan elmlər vardır və onlar təcrübi elmlərlə qarışıq haldadır. Yəni, onların təməlini təcrübə və müşahidələrə əsaslanaraq öyrənir, sonra isə əqlin yardımı ilə üzərində binalar ucaldırlar. Hazırda da bunların cərgəsində olan elmlər mövcuddur. Həmin elmlərə bəşər tarixi, təbiət, nücum elmi, psixologiya, psixiatriya, etnoqrafiya və s. kimi elmləri misal göstərmək mümkündür. Məsələn:

1. Bəzən üzərində mixi yazılar olan hər hansı bir daş və ya dəri tapıdıqda, ona nəzər salmaq və müşahidə etməklə qədimdə yaşayan və bizimlə heç bir rabitəsi olmayan xalqların tarixini öyrənmək olar. Yəni, bu şəkildə onların mədəniyyət və sivilizasiyası barədə məlumat əldə edə bilərik və kiçik bir daş parçası böyük bir mədəniyyətdən xəbər verə bilər.

2. Hansısa bir mağarada aparılan araşdırma və ya qazıntılar zamanı torpağın qatlarından qəbir, saxsı qab, zinət əşyaları və digər şeylər bizə min illər öncə yaşayan insanların tarixi barədə məlumat ötürə bilər. Qahirə yaxınlığındakı Cizə adlı şəhəri müşahidə edərkən

oradakı üç ehram, xüsusən də, Xufo ehramı diqqətimizi özünə cəlb edir. O, zaman adlı tufan müqabilində əzəmətli bir yırtıcı kimi sinə gərərək dayanmışdır. Daha sonra arxeoloji araşdırmalar nəticəsində əldə edilən əsərlərdən Misir fironlarının belə abidələri öz qəbirləri üçün düzəltdiyini və iyirmi illər ərzində minlərlə işçi qüvvəsindən istifadə edərək belə axmaqlıqlara düçar olduğunu başa düşürük. Həmin qədim əsərlər onlardan min illik bir fasilədə olmağımıza baxmayaraq, bizə mədəniyyət və sivilizasiyalarının hansı dərəcədə olması və inkişaf etməsindən xəbər verir.

3. Hansısa bir dağın qülləsində bir neçə dəniz heyvanları və balıq sümüklərinin tapılması insan nəslinin yaranmasından milyon illər keçməsinə baxmayaraq, həmin yerdə sualtı mağaranın olmasını bizə xəbər verməkdə və yer qatının hərəkətli olması və dəyişikliyə uğraması – hazırda geologiya və geofizikada öyənilən məsələlər – barədə bizi məlumatlandırmaqda kifayətdir.

4. Pilotsuz şəkildə Mars planetinə kosmik gəminin göndərilməsi və onun səthində həmin kosmik gəminin robotları ilə araşdırmalar aparılaraq yer kürəsinə məlumatlar ötürməsi bizə milyonlarla il öncə yaranan Mars planeti barədə hansısa bir fikir yürütməkdə yardım edir.

5. Günümüzdə psixologiya və psixiatriya sahəsində görülən sadə bir yuxu və ya psixi xəstənin ağzından çıxan hansısa bir qeyri-ixtiyari yanlış cümlə sayəsində psixoloq insan ruhu mütləq zülmətə enərək əlçatmaz və xarici təcrübələrlə müşahidə olunmaz olsa belə, onun ruhunun dərinliklərindəki sirlərdən agah olur və xəstəliyin səbəblərini müəyyən edə bilir.

Uzun sözün qısası, hazırda biz bir çox elmi məsələlərdə əsil mövzu ilə bağlı təcrübə və müşahidə üslubundan istifadə edərək həqiqətləri qəbul etmirik, əksinə araşdırmaları daha çox əlamət və nəticələr üzərində aparırıq ki, onların vasitəsi ilə görünməz səbəb və qaynaqlarla tanış ola bilək. Bu məsələ fəlsəfədə "nəticə sayəsində səbəbin öyrənilməsi" ünvanında tanınır. Yəni, əqlin sayəsində müşahidə və təhlillər aparmaqla səbəblərə yol tapmaqdan ibarətdir.

İndi belə bir sual meydana çıxır ki, əgər biz hansısa bir atomun sirlərinin, ondakı heyrətamiz və hesablanmış sistemin öyrənilməsi üçün minlərlə mütəfəkkir beyninin işlədilməsini gördüyümüz halda, atomdakı bu sitem və nizamın elm və qüdrətli bir əql mənşəyinə ehtiyacsız olmasını söyləyə bilərikmi?

Bir neçə gündən artıq fəaliyyət göstərməyərək dayanan süni bir qəlbin düzəldilməsi üçün yüzlərlə alimin toplaşıb həddən artıq xərclərlə başa gələn bir işə başlamasını və ya bir ürəyin yerinə digər bir tibbi qəlbin köçürülməsi zamanı təcrübəli həkim heyəti və cərrahların iştirakının zəruri olduğunu gördüyümüz zaman və on illərlə dayanmadan işləyən bir qəlbidəki nəzmi maşahidə etdikdə, məsələyə əhəmiyyətsiz yanaşa və yaxud, ən azı onu yaradan qüdrət barəsində düşünməyə bilərikmi?!

Bu səhnələrin oxşarı günümüzdəki bir çox elmi sahələrdə mövcuddur. Sizin nəzərinizcə, dini düşüncələr və üstün əql və fövqəltəbii bir qüdrətə malik varlığa imanın yaranması üçün bundan da təbii bir maraq meydana çıxa bilərmi?

## *Elmin inkişafı ilə materializmin inkişafı*

Burada sadəcə mühüm bir sual qalmış olur və həmin sual belədir: "Əgər əqli dərk əsil dini mənbələrdəndirsə və "varlıq aləmindəki nizam barədə agahlıqla mütləq bir əql sahibinin olmasına iman" arasında yaxın və qırılmaz rabitə varsa, onda, nə üçün biz təbiət elmlərinin inkişaf məhsulunu dini düşüncələrin inkişaf məhsulu hesab etmirik, əksinə təbiət elmlərinin alimləri – yəni, təbiət və varlıq aləmindəki sirr və rəmzləri kəşf edənlər – arasında materialist düşüncələrin daha geniş yayıldığını görürük?"

Bu sual əhəmiyyət daşıyan və əksər halda belə bəhslərdə meydana çıxan suallardandır. Bir tərəfdən, Avropada təbiət elmlərindəki dəyişiklik, elmi inqilablar və onların qarşısındakı maneələr tarixini mütaliə etdikdə, digər tərəfdən, bu inqilabların beşiyində mövcud olan dinin necəliyi və təbiət elmi alimlərinin dini necə başa düşməsini, eyni zamanda, həmin alimlərin nəyi inkar edib, nəyi sübuta yetirməsinə diqqət yetirməyi və siyasi, iqtisadi və dini məsələlərin bir-birinə qarışmasını araşdırmağı nəzərə aldıqda, əvvəlki sualın cavabını aydınlaşdırmaq olar.

**Məsələnin izahı:**

Şərqdə elm ulduzu (təbiətin öyrənilməsindən bəhs edən elmlər) tənəzzül etdikdən və ortada müəyyən müddət boşluq dövrü yarandıqdan sonra, həmin ulduzun yenidən Avropada parlamağa başladığını və Renesans dövrünün yaranması ilə elmdə yeni bir tarixin meydana çıxdığını bilirik. Hər gün müxtəlif sahələrdə yeni-yeni kəşflər edilir və bəzən də o qədər səs-səda

yaranırdı ki, onun nəticəsində düşüncə və nəzəriyyələr lərzəyə gəlirdi. Amma bu kəşflərin qarşısında kilsə, onların kafir adlandırması, təhdidləri və kilsə başçılarının əməldə şiddətli rəftarı ən böyük maneələrdən sayılırdı. Düşüncələrdəki oyanışın meydana çıxmasını ilk öncə kilsənin xürafatçı təlimlərinin aradan qaldırılması istiqamətində müqavimət və özlərinin əzəmətli hakimiyyət dayaqlarının sarsılaraq dağıdılması kimi dəyərləndirən keşişlər təbiət elmlərini öyrənən alimlər müqabilində qüdrətli bir səf çəkərək dayanmış və meydana daxil olmuşdular. Həmin zamanlarda kilsənin qüdrətə malik olmasına baxmayaraq, varlıq aləmindəki nizam və sistemdən, həmçinin, təkamül və dialektika qanunlarından qaynaqlanan elmlər daha çox idi və bu sahədə həddən artıq alimlər qurban verilsə də, sonunda kilsə belə əzəmətli bir dalğanın qarşısında təslim oldu.

Aydın məsələdir ki, təbiət elmləri alimlərinin ümumi şəkildə dindən əldə etdiyi anlayış, həmin zamanda kilsə təlimlərindən öyrəndikləri məsələlərdən ibarət idi. Yəni, onlar dini aşağıdakı xüsusiyyətlərə malik olaraq təsəvvür edirdilər:

1. Din təfəkkür və düşüncənin geriləməsi amili və bəşərin varlıq aləmi, elm və biliklər bağlı məlumat almasına maneədir.

2. Din zülm və sitəm etmək, günahsız fərdləri qətlə yetirməkdə çox təsirli olan bir vasitədir.

3. Din siyasi və ictimai sahələrdəki islahatlarla bağlı insanın azadlıq istəyinə qarşıdır.

4. Din rahibliyə doğru insanları dəvət etməklə maddi və iqtisadi baxımdan sağlam yaşayış və həyat tərzinə nisbətdə maneədir.

5. Din xürafat və qeyri-elmi məsələlərin pənah və sığınacaq yeridir.

Həmin zamanlardakı kilsə təlimlərinə diqqət yetirdikdə, dinə verilən belə nisbətlərin o qədər də qeyri-münasib olmaması məlum olur. Allahı göylərdə yaşayan insan mücəssəməsi kimi tanıtdıran kilsə, bəzi vaxtlarda onu cənnət xiyabanlarında insan axtarışına göndərir,[1] bəzən də onu Blutestan Momri adlı yerdə Yaqub (ə) peyğəmbərlə güləşdirirdi.[2] Bir zamanlar Babil əhalisinin sivilizasiyası təhlükəyə düşür[3] və sonunda, Flamiryonun dediyi kimi, onlar Allahı sağ gözündən sol gözünə qədər altı min fərsəng (uzunluq vahidi) məsafə olan bir insan şəkilində tanıtdırmağa başlayırlar.[4]

Volter Skarlendberqin söylədiyi kimi, məsihi ailələrindəki əksər uşaqlar həyatlarının ilkin çağlarında insanabənzər bir tanrının varlığına iman gətirirlər və sanki bəşər Allah şəklində yaradılmışdır. Belə fərdlər elm mühitinə daxil olduqları və elmi öyrənərək məsələlərin həllinə çalışdıqları zaman, Allah barəsində "insanabənzər və zəif" məfhumunun əqli dəlillər və məntiqi baxımdan uyğun gəlmədiyini başa düşürlər. Nəticədə, Allahla uyğunluq təşkil etməyən bütün məfhumlar aradan qaldırıldıqdan sonra, "Allah" məfhumu da zehin və düşüncələrdən bütövlükdə silinir və səhnədən xaric edilir.[5]

Belə bir dinin həmin alimlər tərəfindən qəbul edilə

1. *"Əhdi-qədim", təkvini səfər, ikinci və üçüncü bölmə.*

2. *"Əhdi-qədim", on səkkizinci bölmə.*

3. *"Əhdi-qədim", on birinci bölmə.*

4. *Flamiryon, "Xuda dər təbiət" (Təbiətdə Allah) kitabı.*

5. *"İsbate vucude xuda", səh. 51.*

bilməməsi aydın olan bir məsələdir. Eyni zamanda, belə bir mühitdə dinəzidd meyillərin yaranması da təbii qarşılanmalıdır. Əgər onlar düşüncə və təfəkkürə dəvət və varlıq aləmi barədə araşdırma aparmağı ən böyük ibadət hesab edən, Allahı məxluqatının əzəməti ilə uyğun şəkildə tanıtdıran, təlimlərində ictimai həyata biganə olmağa deyil, əksinə fəaliyyət və araşdırmağa sövq etdirən İslam kimi bir dinlə qarşılaşmış olsaydılar, sözsüz ki, onların dinlə bağlı çıxardıqları nəticə də fərqli şəkildə olmuş olardı.

Materialistlər və dinəzidd meyilli alimlərin söhbətlərini araşdırdığımız zaman, mübahisə zamanı onların dini inkar etmələrinə baxmayaraq, əməllərində varlıq aləmində mövcud olan və hesablanmış, həmçinin, planlı şəkildə bu sistemi tənzimləyənin olmasını etiraf etdiklərini aydın şəkildə anlamaq mümkündür. Yəni, aləmin yaradıcısı və varlıq aləmində qüdrətli birinin olmasını inkar edənlər öz fəlsəfi bəhslərində bu cür söyləsələr də, əməldəki elmi mübahisələrində belə deyillər. Hazırda söylədiklərimizə əsasən aşağıdakı məsələlərə diqqət yetirin:

## *Yaradılış sistemindəki hədəfin mövcudluğunu qəbul etmək əql sahibinin varlığına dəlildir*

Qeyd olunanlardan belə bir nəticə çıxarmaq olar ki, materialistlərin əksəriyyəti həqiqətdə, "məna"nın üzərində deyil, "söz"ün üzərində həssasiyyətə malikdirlər. Beləliklə, hər yerdə əməllə bağlı hədəfin arxasınca düşürlər və onlar insan bədənindəki hansısa bir üzvün və yaxud hansısa bir bitkinin quruluşundakı

xüsusiyyətin ikinci dərəcəli və əlavə bir şey olmasını düşünmək belə istəmirlər, hətta keçmişdə ikinci dərəcəli bir məsələ kimi güman etdikləri şeyin sonradan araşdırma və mütaliələr aparmaqla təsir və nişanələrə malik olmasını etiraf edirlər. Həmin səbəbdən, insanın bədənində və ya hansısa bir bitkidə ikinci dərəcəli bir üzvün olmasını müəyyən etdikləri zaman, hökmən onun insan və ya bitkinin həyatındakı rolu və bioloji təsirləri barədə onların araşdırma və mütaliələri uzun illər davam etsə belə, düşünməyə başlayırlar. Onlar əsla həmin üzvün ikinci dərəcəli və əlavə bir şey olması, eyni zamanda, boş yerə yaradılması ilə heç zaman qane olmurlar. Yəni, əməldə onlar yaradılış aləmində hədəfin olmasını qəbul etmiş və hər yerdə onun arxasıncadırlar.

Onlar hər zaman bu aləmin yeni qanun və sistemini kəşf etmək fikrindədirlər, yəni əməldə "qanun və nizamın (sistemliliyin)" varlığını etiraf edirlər. Hətta onlar "hədəf" sözünü istifadə etməkdən belə çəkinmirlər. Misal olaraq deyirlər ki, əgər təbiət insana onun bütün ehtiyaclarını təklikdə təmin edə biləcək bir böyrək yerinə iki böyrək vermişdirsə, bunun səbəbi ekstermal vəziyyətlərdə ikinci böyrəyin "ehtiyat" funksiyasını daşıması və biri öz fəaliyyətini itirdikdə və ya cərrahi əməliyyatla çıxarıldıqda, digərinin öz funksiyasını yerinə yetirə bilməsi üçündür.

Eyni zamanda, onlar həmin mövzunun insanın əksər bədən üzvləri və ya bitkilərdə belə varlığını və ekstermal şəraitlər üçün ehtiyat olaraq nəzərdə tutulduğundan, onların zərfiyyət və tutumunun ehtiyacdan artıq olduğunu da deyirlər. Həmin mövzu mədə və qidanı molekullara ötürən funksiyası və buna bənzər məsələlər

haqqında da keçərlidir.

Bu alimlər tərəfindən "hədəf" və ya onun oxşarı olan ifadələrin istifadə edilməsi aqil və varlıq aləmini tənzimləyən bir kəsin mövcudluğunu qəbul etməkdə ən yaxşı sübutdur.

Bu yerdə bir daha Enşteynin "Dünyayi ke mən mi binəm" (Mənim gördüyüm dünya) adlı kitabında belə dediyini xatırlayıram:

"Dünyanın mütəfəkkir şəxsləri arasında özünəməxsus dini hissi olmayan hansısa bir kəsi çox çətinliklə tapmaq olar. Bu din adi bir fərdin sahib olduğu dinlə fərqlərə malikdir, çünki mütəfəkkirin dini kainatın dəqiq və nizamlı şəkildə insanı heyrət və təəccübə gətirən sima və formasından ibarətdir."

Nəticədə, deməliyik ki, materialistlərin inkar etdikləri şey Allah deyil, əksinə kilsənin tanıtdırmış olduğu allahdır və yaxud da təkcə "Allah" sözüdür, nəinki, Allahın özü.

## *Dindən uzaqlaşmaqda ictimai məsələlərin rolu*

Təbiət alimlərinin dindən kənarlaşmasında ictimai məsələlərin ümumi və Allahı tanımaq məsələlərinin də xüsusi şəkildəki rolunu diqqətdən qaçırmaq olmaz.

Şübhəsiz ki, aşağıdakı bir neçə mövzu onların dindən kənarlaşmasına yardımçı olur:

### *1. Xürafat*

Xürafat və onun dini məsələlərlə qarışması bəzi dinlərin simasını elə bir şəkildə elmə zidd olaraq nişan vermişdir ki, təbiət elmləri ilə məşğul olan bir sıra alimlər

həmin dinlərin tərəfdarları sırasında olmaqdansa, dinsiz olmağı daha üstün tutmuşlar, çünki onlar belə dini bir növ köhnəliyə pərəstiş, geriləmə və insanlıq məqamından tənəzzül etmək kimi başa düşürlər. Məsələn, "Allahın şamı" mərasiminin keçirildiyini və keşişin kilsədə müəyyən formada hazırlanan çörəklər və şərab payladığını və həmin çörəkdən yeməklə İsa Məsihin (ə) ətinin onların bədənindəki ətə çevrilməsi və şərabdan içməklə də onun qanının bu şəxslərin damarlarında axması etiqadında olanları görən hansı ağıllı bir şəxs belə bir dinə iman gətirər?

Yaxud da, təbiət alimi belə dindarların cərgəsinə bəşər fitrətinin aludə olması və "birinci ata və anadan" günahları irsi olaraq almasını qəbul edərək daxil olduqda, günahın elm və bilik ağacından (xeyir və şərlə bağlı mərifətdən) bəhrələnməklə eyni və bərabər hesab edildiyini, nicat yolunun fərd və cəmiyyətin təlim və tərbiyə olunması yerinə, Allahın oğlunun şəfaətində görüldüyünü və "Bizim bütün günahlarımızın və hətta bütün dünyada olanların günahlarının kəffarəsi odur. İsa Məsihin (ə) qanı bizi hər bir günahdan pak edəcək."[1] – deyildiyini müşahidə etdikdə dindar bir şəxsə çevrilə bilərmi?!

### *2. Doqmatizm və quru düşüncə*

Doqmatizm və quru düşüncə yeni və təzə bir məsələ ilə – faydalı və islahedici olmasına baxmayaraq – mübarizəyə qalxan və dindar olmağı əməldə hər cür yeniliklə müxalif kimi tanıtdırmağa çalışan məlumatsız və hansısa bir qrupu təşkil edən dindarların xüsusiyyət və göstəricilərindən, eyni zamanda, bu dəstədən olan

*1. Yuhənna, "Birinci risalə".*

alimlərin dini məsələlərdən qaçaraq uzaqlaşmasının ən təsirli amillərindəndir. Əslində isə həqiqi bir din onsuz insanın fəaliyyət və təlaşı heç bir səmərə və fayda verməyən maddi və mənəvi istiqamətdəki iki yöndə addımlama amilidir.

### *3. Yalançı azadlığa meyil*

Bir sıra silsiləvi əxlaqi təlimlərdən ibarət olan və insanın ifrat meyillərinin qarşısını alan din bəzi şəxslərin dinəzidd maraqlarının yaranmasında da təsirsiz olmamamış deyil. Din təsirsiz qalmamaqla yanaşı, bu sahədə bəlkə də, bir sıra fərdlərdə ən təsirli amildir. Bizim əsrimizdə əxlaqi məsələlər müqabilində və bütün ədəb-ərkan və adət-ənənələri sıradan çıxarmaq istiqamətində, eyni zamanda, bütün cinsi vasitələrdən daha çox faydalanmaq, müxtəlif ləzzət növlərindən daha artıq bəhrələnməklə bağlı meydana çıxan xüsusi tüğyançılıq ruhiyyəsi və bir dəstənin günah etmək qorxusu və məsuliyyət hissi duymadan, vicdanın səsinə qulaq asaraq öz psixoloji aramlığını pozmaq istəmədən bütün sahələrdə mənfəət əldə etmək arzusu da dinəzidd meyil və maraqların yaranmasına səbəb olan digər amillərdən biri hesab olunur.

Uzun sözün qısası, bizim indiki zəmanəmizdə mövcud olan bu və bir sıra silsilə təşkil edən ictimai amillər hansısa bir fərdə məxsus olmasa da, bir qrup insanı dini məsələlərdən kənar və uzaq saxlamaqda təsirli amillərdən sayılır.

## *Dinəzidd meyillərin yaranmasında siyasi və iqtisadi amillər*

Günümüzdə müxtəlif səbəblərdən dünyada bəzi siyasi və iqtisadi qruplarla dindar qruplar arasında aşkar şəkildə ziddiyyətlər nəzərə çarpmaqdadır. Buna səbəb bir sıra siyasi-iqtisadi məktəblərin öz təməl prinsiplərini materializm əsasında qurması və öz hədəflərinə nail olmaq üçün dini mənbələri zəiflətməyi öz siyasətlərinin əsas xətti hesab etməsidir. Belə məktəblərdə olan siyasi və iqtisadi rəhbərlərin yaradılış sistemini əqli araşdırma və idrak nəticəsində, mütləq əql sahibi və aləmin yaradıcının olmasına iman gətirməsinə baxmayaraq, tutduğu mövqeyin həmin məsələni büruzə verməyə icazə verməməsi təbii məsələdir. Onlar həmin məsələni büruzə verməməklə yanaşı, zehinlərində yaranan bu təfəkkür tərzini müəyyən dəlil-sübutlar vasitəsi ilə aradan qaldırmağa və xatircəm şəkildə öz işlərinə davam etməyə çalışırlar.

Hazırda belə rejimlə idarə olunan ölkələrdə materializmin xeyri və hər hansı bir dini etiqadın inkar edilməsi istiqamətində güclü bir təbliğat sistemi fəaliyyət göstərməkdədir. Belə bir mühitdə meydana çıxan hansısa təbiət alimi bundan başqa, digər bir düşüncəyə sahib ola bilmir və bu cür şəraitdə hətta dini mənbələrin təsəvvür edilməsi belə onun üçün mümkün deyil.

Qəfəsdə dünyaya gələn və böyüyən şəxsiyyətlər üçün “azadlıq” adlı bir məfhumun təsəvvürü maraqlı olmadığı kimi, əksinə təhlükəli və qorxunc sayılır. Onlar qəfəsi aram, etibarlı və qorunmuş bir mühit olaraq təsəvvür

edir və elə düşünürlər ki, onlar cənnətdə yerləşirlər və zehinlərində heç bir qəm-qüssəyə yer yoxdur. Əgər onlara qəfəsdən xaric olmaq imkanı verilsə, qanadlanıb uçmaq yerinə, uçmağı özləri üçün təhlükə və mənasız bir məsələ hesab edər, bəlkə də, dərhal qəfəsə qayıdarlar.

Nəticədə, əgər belə ölkələrdə yetişərək meydana çıxan alimlərin "azadlıq" kimi dini məfhumlardan sayılan məfhumlara nisbətdə biganə və etinasız olmasını müşahidə etsəniz, bu zaman heç də təəccüb etməməliyik. Həmin ölkələrə səfər edən bəzi şəxslərin dediyi kimi, əgər belə alimlərlə "azadlıq" məfhumu barədə söhbətlər aparılsa, onların min bir zəhmətlə onu dərk etdiyini, yaxud da, ümumiyyətlə, başa düşmədiyini anlamaq olar, qalmışdı ki, belə alimlərin azadlıq barəsində hansısa bir hökm verməsi.

Düzgün və məntiqli şəkildə hökm vermək o zaman insan üçün mümkündür ki, o, azad və hansısa bir yönə istiqamətləndirmədən kənar olmuş olsun və məktəbləri tətbiqi şəkildə bir-biri ilə tutuşdursun, eyni zamanda, onları müqayisə etməklə həqiqətlərə yaxın olmuş olsun.

Əksinə, siyasət və iqtisadiyyatın qorunmasını tələb edən bir mühitdə rəhbərlərin mətbuat və kütləvi informasiya vasitələrinə şiddətli senzura qoyması və dünyaya gələn uşaqları doğulandan ömürlərinin sonuna qədər nəzarət altında saxlaması və onların zehninə materializmdən başqa, hansısa bir düşüncənin nüfuz etməsinə mane olması və hansısa bir şəxsin təfəkküründə başqa bir düşüncənin yaranması ilə onu "mürtəce", "mürtəd", "nəzəriyyənin dəyişilməsini tələb edən" kimi adlarla əzməyə çalışması ilə yaradılış sisteminin araşdırılaraq bu nəzmin yaradıcısının olmasına inamın

yaranması intizarında olmaq mümkündürmü?... Bu, məsələnin bir cəhətini təşkil edir.

Digər tərəfdən, kommunist və sosialist respublikalarda yaşayan kəslərin də materialist təbliğat dalğasının təsirindən kənar qalmaması mümkündür. Xüsusən, onların bu böyük siyasi qumarda əllərində olan uduşlu kağız dünyanın müxtəlif məntəqələrindəki inqilab səngərlərini özünəməxsus etməsi və istismarazidd olmaq simasını alması, həmçinin, qəhrəmanlar libasında zahir olmasından ibarətdir. Şübhəsiz ki, bu da onların təbliğatının genişlənməsinə yardımçı olaraq onu sürətləndirir.

Onların istismarçı siması o qədər gizli və qorxuludur ki, su və rənglərlə ona yardım edilməsi də onların mübarizəsini müsbət mənada formalaşdıraraq şəkilləndirir. Bunlar, xüsusən, cavan nəslin diqqətini cəlb edən məsələlərdəndir.

İstismarazidd inqilablar, insan kütlələrini qul olmaq əsarətindən xilas etmək barədəki söhbətlər, zülm, bütün sahələrdə ictimai ədalətin ümumi şəkildə bərpasından dəm vurmaq, təbəqələrarası fasiləni və mülkiyyəti ortadan qaldırmaq, həmçinin, hər növ istismarla davamlı və amansızcasına mübarizə aparmaq haqda danışıqlar və bunun bənzəri kimilər yaşıl bağlarda verilən və düşüncə və hisləri özünə tərəf cəlb edən çox cazibəli şüarlardır. Onların qəbul edilməsi, həmin məsələlərin vasitə və alətlərinin də qəbulluğuna və ya fərdlərlə uyğun gəlməsə də, ən azı, onların müqabilində sükutu seçməyə səbəb olur.

Materializmin bu məktəblərin əsas təməli və inqilabçı məfhumla birlikdə qarışması – özü də ayrılmaq

bilməyən şəkildə –yaradılış sistemində mütləq bir əql və elm sahibinin olmasından danışan əql adlı bir rəhbərin səsinin topun gurultusu qarşısında səsi eşidilməyən müəllimin səsinə bənzəməsinə (eşidilməməsinə) səbəb olur.

Əlbəttə, yolun sonunda əgər göz və qulaqlarını yaxşı şəkildə açmış olsalar, görəcəklər ki, məcralar dəyişilib və onlar kiçik bir ağanın çəngindən çıxıb daha böyük bir ağanın əlinə və tələsinə düşmüşlər. İstismar və zülmdən xilas olaraq başqa bir istismarçının çətiri altına keçmişlər. Öz əl və ayaqlarından bir zülmkarın zəncirlərini açdıqları halda, digər bir zalımın zəncirlərini onun yerinə bağlamışlar. Yeni rəhbərlər qüdrət əldə edincəyə qədər özlərini göydən enən bir mələk və zəhmətkeş kütlələrin hami və sığınacaq yeri kimi göstərmiş və sadalanan bütün şüarları münəzzəm şəkildə söyləmişlər. Amma iş və hakimiyyətdən uzaqlaşdırıldıqları zaman, onların gözəl və qəlb oxşayan simaları rəqibləri müqabilində mürtəce, xətərli və insanlığa zidd olan bir çöhrə ilə əvəz olunmuşdur. Bununla yanaşı, hər iki qrupdan olanlar bir məsələdə müştərək xüsusiyyətə malikdirlər və həmin xüsusiyyət iş başında və hakimiyyətdə olduqları müddətdə və ixtiyarlarında böyük təbliğat vasitələri mövcud olduqda, onların zəhmətkeş kütlələrin mənafeyini mütləq şəkildə müdafiə etmək və tamhüquqlu vəkillərinə çevrilməkdən ibarətdir.

Bütün bunlar təbiət elmləri ilə məşğul olan alimlər və onların tərəfdarlarının dini məsələlərdən uzaqlaşmasına səbəb olan ideoloji, ictimai, siyasi və əxlaqi düşüncələrin bir qismindən ibarət idi.

## *Mündəricat*


**Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5**

**Bəhsin başlanğıc nöqtəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 7**

**1. İQTİSADİ AMİLLƏR FƏRZİYYƏSİ**

**Birinci fərziyyənin araşdırılması . . . . . . . . . . . . . . . . . . . . . . . 14**

**1. Qəza, qədər və tale . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 15**

***Qəza və qədərin ilkin (birinci) mənası . . . . . . . . . . . . . . . . . . . . . 16***

***Qəza və qədərin ikinci mənası . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 19***

**Hədisdəki mətləblərin araşdırılması . . . . . . . . . . . . . . . . . . . 22**

**Aşkar sənədlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 27**

**Maddi cəbr və yeni materialistlər. . . . . . . . . . . . . . . . . . . . . . . 31**

**Mühüm mətləblər: . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 32**

**Nəticə. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 36**

**Zəminə və son amillər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 37**

**2. Zöhd (zahidlik) və dünyaya etinasızlıq . . . . . . . . . . . . . . . 40**

*Zöhdün əsli və kökü . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 40*

*Zöhdün fəlsəfəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 43*

**3, 4. Mal və sərvətin məzəmmət olunması və fəqirliyin mədhi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 46**

**Təfsir və izah:. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 48**

**5. Rahiblik və tərki-dünyalıq . . . . . . . . . . . . . . . . . . . . . 51**

**Təfsir və izah:. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 52**

*1. Rahiblik nədir? Nə zaman və harada meydana gəlmişdir?. . . 52*

*2. Psixoloji və ictimai rahibliyə maraq nə olmuşdur? . . . . . . . . . 53*

*3. Rahibliyin təhlükəsi nələrdir? . . . . . . . . . . . . . . . . . . . . . . . . 54*

*4. İslam rahibliklə necə mübarizə apardı?. . . . . . . . . . . . . . . . . 55*

**6. Səbir və dözümlülük . . . . . . . . . . . . . . . . . . . . . . . . . 56**

**İzah və araşdırma . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 57**

**Səbirin mənbə və təsirləri . . . . . . . . . . . . . . . . . . . . . . . 65**

*1. Səbir qüdrət yaradır . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 65*

*2. Səbir şəxsiyyət nişanəsidir . . . . . . . . . . . . . . . . . . . . . . . . . 65*

*3. Səbir müqavimət qüvvəsini artırır . . . . . . . . . . . . . . . . . . . . 66*

*4. Səbir insanı haqqa tərəfdarlığa dəvət edir . . . . . . . . . . . . . . . . 66*

*5.Heç bir iş səbirsiz həyata keçmir . . . . . . . . . . . . . . . . . . . . . 66*

*6. Səbir azadlıq və müstəqillik nişanəsidir . . . . . . . . . . . . . . . . 67*

*7. Səbir düşmənə qalib gəlmək vəsiləsidir . . . . . . . . . . . . . . . . 67*

**7. Təqiyyə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 67**

**Tədqiq və araşdırma . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 68**

*1. Təqiyyə nədir?* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *69*

*2. Dini mənbələrdə (Quran və sünnədə) təqiyyə* . . . . . . . . . . . . . *70*

*3. Təqiyyənin fəlsəfəsi.* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *76*

*4. Müxtəlif ictimai və siyasi məktəblərdə təqiyyə.* . . . . . . . . . . . . *80*

*5. Təqiyyənin formaları.* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *83*

*6. Təqiyyənin hökmləri (vacib təqiyyə, haram təqiyyə və ...)* . . . . *83*

**Fərdlər və onların tutumunun (zərfiyyətinin) müxtəlifliyi. 88**

**8. Dua məsələsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 90**

*A) İctimai irad:* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *91*

*B) Fəlsəfi irad:.* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *91*

*C) Əqidəvi irad:.* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *91*

*İctimai sualın araşdırılması və ona cavab:* . . . . . . . . . . . . . . . . *92*

**Duanın məfhumu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 95**

**Duanın qəbul olunma şəraiti. . . . . . . . . . . . . . . . . . . . . . . . 97**

**Duanın fəlsəfəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 101**

*1. Ümid ruhiyyəsinin dirçəldilməsi.* . . . . . . . . . . . . . . . . . . . . . . . *101*

*2. Paklıq, yaxşılıq və pərhizkarlığa dəvət* . . . . . . . . . . . . . . . . . . *102*

*3. Həqiqi mənada olan dua tərbiyə amilidir.* . . . . . . . . . . . . . . . . *102*

*4. Duanın möhtəvasının dərin təsiri.* . . . . . . . . . . . . . . . . . . . . . . *103*

*5. Duanın daxili iztirablarla mübarizəsi* . . . . . . . . . . . . . . . . . . . *106*

**Fəlsəfi iradların araşdırılması və ona cavab: . . . . . . . . . . . 109**

**Əqidəvi iradlara cavab:. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 111**

**9. İntizar məsələsi. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 113**

**İzah və araşdırma:. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 114**

*1. Rəvayətlərdə intizarın əhəmiyyəti* . . . . . . . . . . . . . . . . . . . . . . *114*

*2. "İntizar" məfhumu* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *116*

*3. "İntizar" sözü "kamil şəkildə hazır olmaq" mənasındadır* . . . *118*

*A) Fərdi islahatlar:* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *119*

*B) İctimai yardımlar:* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *121*

*C) Zəminələri hazırlamaq:* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *121*

**Zəminələrin hazırlanma yolları . . . . . . . . . . . . . . . . . . . . 122**

**Yanlış bir düşüncəyə cavab: . . . . . . . . . . . . . . . . . . . . . . 125**

**İntizarın digər fəlsəfəsi: . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 128**

**10-11. Qənaət və təvəkkül . . . . . . . . . . . . . . . . . . . . . . . . 131**

*"Qənaət" məfhumunun araşdırılması:* . . . . . . . . . . . . . . . . . . . *131*

*Qənaətin fəlsəfəsi* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *133*

**"Təvəkkül" məfhumunun araşdırılması: . . . . . . . . . . . . . . 135**

**Təvəkkülün fəlsəfəsi: . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 138**

**12 və 13. Razılıq və təslim . . . . . . . . . . . . . . . . . . . . . . . . 140**

**Tədqiq və araşdırma: . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 141**

*Razılıq və təslim olmanın fəlsəfəsi:* . . . . . . . . . . . . . . . . . . . . . *144*

**14. Əzadarlıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 146**

**Bəhs və araşdırma: . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 147**

**15. Şəfaət məsələsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 150**

*1. Şəfaətin həqiqi mənası..* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *152*

*Təkvini aləmdə şəfaət* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *153*

*2. Şəfaətlə bağlı sənədlər* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *153*

*3. Şəfaətin şəraiti* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *156*

*İslami hədislər və şəfaət* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *159*

*Şəfaətin mənəvi təsiri* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *161*

*4. Şəfaətin fəlsəfəsi.* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *165*

*1. Ümidsizlik ruhiyyəsilə mübarizə* . . . . . . . . . . . . . . . . . . . . . *165*

*2. Şəfaətin islahatçı şəraiti* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *166*

*5. Araşdırma və iradlara cavab*. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *167*

**Şəfaət və tövhid** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **168**

**Şəfaət məsələsində vəhhabilərin məntiqinin araşdırılması 173**

**“Məzhəblərə maraq”la bağlı ilkin bəhslərin xülasələşdirilməsi** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **178**

*1. Din elmi fəaliyyət amilidir.* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *179*

*2. Din insan hissiyyatlarının qidalanma amilidir* . . . . . . . . . . . . *180*

*3. Din çətinliklər müqabilində səbatlı olmaq amilidir*. . . . . . . . . *181*

*4. Din vəzifəni tanımaq ruhiyyəsinin dirçəldilməsi amilidir* . . . . *181*

## 2. “İSTİSMARAZİD” FƏRZİYYƏ

**Bəhs və araşdırma:** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **185**

## 3. “ƏXLAQİ VƏ İCTİMAİ EHTİYACLAR” FƏRZİYYƏSİ

**Tədqiqat və araşdırma:**. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **195**

## 4. “QORXU” FƏRZİYYƏSİ

**Bəhs və araşdırma:** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **204**

## 5. “CƏHALƏT” FƏRZİYYƏSİ

**Tədqiqat və araşdırma:**. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **214**

**Yaradılışdakı bütün varlıqların təsbih deməsi (Allahı zikr etməsi)** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **216**

## 6. “CİNSİ” FƏRZİYYƏ

**Freydin səhvləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 226**

*1. Birprizmalı və məhdud baxış üfüqü . . . . . . . . . . . . . . . . . . . . . . 226*

*2. Yetərli dəlillərin olmaması . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 227*

*3. Xəyali qəbilənin çatışmazlıqları . . . . . . . . . . . . . . . . . . . . . . . . . 227*

*4. Əxlaqi vicdan və qanunların kökü . . . . . . . . . . . . . . . . . . . . . . . 228*

*5. Dərrakə qisminin unudulması . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 229*

*6. Dinlərin təhlilində Freydin yol verdiyi səhvlər . . . . . . . . . . . . . 230*

*7. Freydin nəzərində dəyişiklik etməsi . . . . . . . . . . . . . . . . . . . . . 231*

*8. Freydin qisas alması . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 232*

*9. Freydin yaşadığı mühitin xüsusi təsiri . . . . . . . . . . . . . . . . . . . 233*

*10. Nurdan qorxmaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 235*

## 7. “RUHÇULAR” FƏRZİYYƏSİ

**Tədqiq və araşdırma: . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 239**

*1. Məntiqi dəlilin olmaması . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 239*

*2. Bəhs dairəsinin məhdudiyyəti. . . . . . . . . . . . . . . . . . . . . . . . . . 240*

*3. İslam və ruh məsələsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 241*

## 8. “TƏQDİR VƏ BƏXT” FƏRZİYYƏSİ

**Tədqiqat və araşdırma:. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 245**

*1. “Bəxt və şans” əqidəsinin yaranma mənşəyi . . . . . . . . . . . . . . 245*

*2. Bəxt və şansın dəyişilməz ünsürü. . . . . . . . . . . . . . . . . . . . . . . 246*

*3. Bu fərziyyənin məhdud olması . . . . . . . . . . . . . . . . . . . . . . . . . 247*

## 9-10. “HİSSİ VƏ ƏQLİ İDRAK” FƏRZİYYƏSİ

**Müqəddimə. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 250**

**A) Din və hissi idrak . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 252**

*1. Həqiqət axtarışı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 252*

*2. Estetik hiss . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 253*

*3. Xeyirxahlıq hissi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 253*

*4. Dini hiss . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 253*

**Dini hisslərin əsaləti barədə şahidlər . . . . . . . . . . . . . . . . . . 255**

**Dini hisslərin digər həqiqi hisslərlə əlaqəsi . . . . . . . . . . . . . 262**

**Nəzmə (sistemliliyə) məhəbbət . . . . . . . . . . . . . . . . . . . . . . . 265**

**B) Din və əqli idrak . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 266**

*1. İbtidai insanlardakı sistemlilik (nəzm) və hədəf . . . . . . . . . . . 268*

*2. Sistemlilik və elmin rabitəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . 270*

*3. İbtidai insanların nəzərində dünya sistemi . . . . . . . . . . . . . . . 272*

**Bizim əsrimizdə dinə maraq . . . . . . . . . . . . . . . . . . . . . . . . . 273**

**Elmin inkişafı ilə materializmin inkişafı . . . . . . . . . . . . . . . . 277**

**Yaradılış sistemindəki hədəfin mövcudluğunu qəbul etmək əql sahibinin varlığına dəlildir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 280**

**Dindən uzaqlaşmaqda ictimai məsələlərin rolu . . . . . . . . . 282**

*1. Xürafat . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 282*

*2. Doqmatizm və quru düşüncə . . . . . . . . . . . . . . . . . . . . . . . . . 283*

*3. Yalançı azadlığa meyil . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 284*

**Dinəzidd meyillərin yaranmasında siyasi və iqtisadi amillər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 285**

**Mündəricat . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 289**

# DİNLƏRİN
## YARANMA MƏNŞƏYİ

*Məhəmmədrza Həmidi*

*Tərcümə: Mərdan Zalov*


Təhsil Texnologiyaları Mərkəzi

MƏTBƏƏSİ

*Hazırlığa verilmişdir: 13.08.2013*
*Çapa imzalanmışdır: 10.09.2013*
*Nəşrin ölçüsü: 86x60. 1/8*
*Fiziki çap vərəqi: 37*
*Sayı: 500*